İlkin Sabiroğlu

# KAPİTALİZM KAPİTALİZMƏ BƏNZƏMƏZ

Bakı-2006

"QLOBALLAŞAN AZƏRBAYCAN"
Sivil İnkişaf Mərkəzinin kitabxanası

# KAPİTALİZM KAPİTALİZMƏ BƏNZƏMƏZ

**İlkin Sabiroğlu**

**BAKI - 2006**

**“QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzi**

**Biz kimik?**

QASİM 2005-ci ildə yaradılıb. Təşkilatın məqsədi Azərbaycanı çağdaş dünya standartlarına uyğunlaşdırmaq istiqamətində layihələr, proqramlar hazırlamaq, araşdırmalar aparmaq, Azərbaycanı dünyaya təkcə təbii sərvətləri ilə deyil, həm də fikir istehsal edən beyinləri və beyin mərkəzləri ilə tanıtmaqdır.
QASİM-də Azərbaycan, Türkiyə, Fransa, Almaniya, İngiltərə, eləcə də ABŞ və Kanadada təhsil almış 50-dən çox mütəxəssis çalışır.
Təşkilatın 15 nəfərdən ibarət İdarə Heyəti, 3 nəfərdən ibarət İcra Aparatı və 9 departamenti fəaliyyət göstərir.

**Bizim kitabxana**

QASİM “Qlobal kitabxana” adlı yeni bir layihəni sizə təqdim edir. Bu layihə çərçivəsində hər il müxtəlif sahələri, mövzu və problemləri əhatə edən kitabları nəşr etməyi nəzərdə tuturuq. Məqsədimiz mütəxəssislərin ən yeni araşdırmalarını, Azərbaycanın problemlərinə müxtəlif və yeni baxış tərzlərini ictimaiyyətə təqdim etmək, çağdaş dünyada mövcud olan ən yeni və yayğın elmi, kulturoloji yanaşmaları Azərbaycana gətirmək, ciddi elmi-konseptual müzakirələrə nail olmaqdır.
Bu seriyadan ilk bir neçə kitabı sizə təqdim edirik. Kitablar haqqında fikir və rəylərinizi bizə yaza bilərsiniz: info@qasim-az.com

****

**REDAKTOR**
Dr. Şahin ƏHMƏDOĞLU

**KORREKTOR**
Günel XALIQVERDİYEVA

**KOMPÜTER TƏRTİBATI**
Talıb ATAKİŞİYEV

**KOMPÜTER OPERATORU**
Maya CAMALOVA
****
**“QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzi (QASİM)**
Bakı, Azərbaycan, 2006
Ünvan: Azərbaycan, Bakı şəhəri, Qarabağ küçəsi, ev 59.
Telefon: +99412 496-19-65
www.qasim-az.com

S 0605010407-29 / On-047-06 qrifli nəşr

ISBN 5-8133-1054-2

© “QLOBALLAŞAN AZƏRBAYCAN” Sivil İnkişaf Mərkəzinin Kitabxanası

*Bu kitab elm dəryasında*
*mənə yol göstərən dəniz fənərlərimə -*
*müəllimlərimə ithaf olunur*

***İlkin Sabiroğlu***

# İçindəkilər


İnsan necə kəşf edildi? ........................................................ 5
Dünya niyə kiçilir? ................................................................ 9
İqtisadi paradiqmalar niyə dəyişir? .................................... 13
Yeni iqtisadiyyat nədir? ....................................................... 17
Hazırlığa haradan başlamalı? .............................................. 21
Dünyanın ən yaxşı universitetləri hansılardır? .................. 25
Kapitalizm kapitalizmə bənzəməz! ..................................... 29
Bölgüyə fokuslanmış toplumlar .......................................... 39
Keçid dövrü bitdimi? ............................................................ 43
Midiya yağı: Yüz il əvvəl yüz il sonra ................................ 51
Yanlış olanlar nədir? .............................................................. 57
Biz harada ləngidik? .............................................................. 65
Qaytarılmayan əmanətlər ...................................................... 71
Bankların süqutu .................................................................... 77
Özəlləşdirmə sonrası kapitalizm .......................................... 81
Qərb niyə təkamül istəyir? .................................................... 87
Bilgi kapitalının nə fərqi var? ................................................ 97
Yeni yanaşma zərurəti ........................................................... 103
Neft gəlirləri gələcək nəsillərə qalsın? ................................. 111
“Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!” ..................... 119
Neft böhranları və Holland sindromu ................................. 123
Kiçik sahibkarlıq olmazsa olmaz ......................................... 129
Makroiqtisadi vasitələrdən səmərəli istifadə problemi .... 153
Əhalinin artımı tənzimlənməli, amma necə? ...................... 179
Azərbaycan uzunömürlülər diyarıdırmı? ........................... 183
“İqtisadi sərbəstliklər” mücərrəd anlayış deyil ................. 189
İpoteka sistemi evsizliyə çarə olacaqmı? ............................. 201
İnhisar anlayışına yeni yanaşma .......................................... 209
Korrupsiyanın mənbəyi və həlli yolları ............................... 215
**İstifadə olunan ədəbiyyat** .................................................. 221

# İnsan necə kəşf edildi?

Əvvəllər insanın heç bir dəyəri yox idi. Onu tutanda ya öldürürdülər, ya da yeyirdilər. "Əvvəllər" deyəndə, eramızdan əvvəl II minilliyə qədərki dövrü nəzərdə tuturam – ibtidai icma quruluşunu. Axı ovçuluq və yığıcılıqla məşğul olan bir icma əsir aldığı insanı yeməyəcəkdisə, saxlayıb özünə niyə yük eləməliydi? Onlara görə, ən yaxşısı yenə elə öldürməkdi.

10-12 min il bundan əvvəl, orta daş dövründə insan insanlığa doğru çox mühüm bir addım atdı – mənimsəmə təsərrüfatından istehsal təsərrüfatına keçidin əsasını qoydu. Yeni daş dövründə isə aqrar inqilab baş verdi.[1] İstehsal və mülkiyyət münasibətlərinin sonrakı inkişafı, mis, tunc və erkən dəmir dövrü derkən quldarlıq quruluşunun ortaya çıxması ilə nəticələndi. Əgər insanın heyvan enerjisinə – fiziki gücünə hakim olması aqrar inqilabın ortaya çıxmasında və inkişafında həlledici rol oynamışdısa,[2] insanın insan gücünə – fiziki enerjisinə sahibliyi də quldarlıq quruluşunun meydana gəlməsi ilə nəticələndi. Və insan ilk dəfə quldarlıq quruluşunda dəyər kəsb eləməyə başladı.

Amma insan hələ insan kimi deyil, sadəcə olaraq fiziki dəyər kəsb eləməyə başlamışdı. Artıq onu tutanda nə öldürür, nə də yeyirdilər. Ondan qul kimi istifadə daha məntiqli görünürdü. İnsan qul kimi alınıb satılırdı. Onun fiziki gücündən istifadə eləmək üçün çoxları pul ödəməyə və ya onu başqa bir əşya ilə dəyişdirməyə hazır idi. Beləcə, qul öz sahibinin mülkiyyətinə daxil olur və onun üçün istehsal edirdi.

---

[1] Tevfik Güran, *İktisat Tarihi*, Acar Matbaacılık, İstanbul, 1993, səh.4.

[2] Alvin Toffler, *Üçüncü Dalga*, Türkcəyə tərcümə: A. Seden, Altın Yayınları, İstanbul, 1996, səh. 32.

İstehsal və mülkiyyət münasibətləri daha da inkişaf elədi. Torpaq sahibləri torpaqlarında qul əməyindən – məcburi əməkdən istifadənin səmərəsiz olduğunu dərk etdilər. Bir tərəfdən yeni qul mənbələri azaldığı üçün qulların qiyməti yüksəlməkdə, digər tərəfdən isə qul sahibinin iş mövsümü xaricində də qulu bəsləmək məcburiyyətində olması əlavə çətinliklər yaradırdı. Ayrıca, belə işçilərin əməyə marağı olmadığından əmək məhsuldarlığı da aşağı idi.[3] Beləliklə, qul əməyini tədricən təhkimli və ya "azad kəndli" əməyi tutmağa başladı.

Və nəhayət, heyvan enerjisi, insan enerjisi deyərkən buxar enerjisi kəşf edildi. Ardından sənaye inqilabı və şəhərləşmə gəldi. Feodalların, zadəganların yerini burjuaziya almağa başladı. Burjuaziyanın isə fabrik və zavodlarında işlədə bilməsi üçün torpağa bağlı olmayan, sərbəst insanlara ehtiyacı vardı. Xüsusi olaraq vurğulamaq istəyirəm – "azad insana" deyil, "sərbəst insan"a ehtiyacı vardı.

Sözün həqiqi mənasında insan azadlığı istehsal münasibətlərinin sonrakı inkişafı nəticəsində – yeni iqtisadiyyatın, yəni biliklərə əsaslanan elm tutumlu iqtisadiyyatın (intellektual və ya rəqəmli iqtisadiyyatın) ortaya çıxması ilə birlikdə insanın insan zəkasının enerjisini kəşf etməsindən sonra anlam qazanmağa başladı. Dolayısı ilə insan insanı kəşf elədi.

Biz insanı, insan zəkasının enerjisini kəşf eləməmiş toplumlardanıq. Biz enerjidən bəhs edəndə nefti, qazı nəzərdə tuturuq. Amma daş bitdiyi üçün daş dövrü başa çatmamışdı. Eləcə də mis dövrü, tunc dövrü və dəmir dövrü uyğun metallar tükəndiyi üçün başa çatmadığı kimi neft əsri də neft qurtardığı üçün bitməyəcək. Biz insanı kəşf elədiyimiz zaman neft əsri bizim üçün də bitəcək.[4]

---

[3] Mehmet Ali Ağaoğulları və Lenet Köker, *İmparatorluktan Tanrı Devletine*, İmge Kitabevi, Ankara, 2001, səh.71.

[4] İlkin Sabiroğlu, "İnsanın kəşfi", *"Gündəlik Azərbaycan" qəzeti*, 7 dekabr 2005.

Qərb insanı daha erkən kəşf elədi. Biz də Qərbin standartlarını mənimsəməklə insanı kəşf edə bilərik. Amma Qərb standartları deyəndə Qərbin istehlak standartları – evimizi qərbli kimi təmir elətdirmək, qərbli kimi geyinmək başa düşülməməlidir, Qərbin istehsal və təhsil standartları mənimsənilməlidir: avropalı kimi istehsal etmək, vergi ödəmək, təhsil almaq və s.

Bu yaxınlarda bir holland mütəxəssis yerli qəzetlərdən birinə müsahibəsində təhsildə "Avropa standartları" deyilən bir anlayışın olmadığını demişdi. O, əslində təhsillə bağlı daha çox texniki məsələləri nəzərdə tuturdu.[5] Artıq təhsildə də "Avropa standartları" var və bu standartlar "Boloniya prosesi" (Bologna process) çərçivəsində formalaşır.

"Boloniya prosesi" ilə Avropa Ali Təhsil Zonası (EHEA) yaranır. 1999-cu ildə 29 Avropa ölkəsinin təhsil nazirləri 2010-cu ilə qədər konsensus və əməkdaşlıq içərisində Avropa Ali Təhsil Zonasını yaratmaq məqsədilə Boloniya Deklarasiyasını imzaladılar. "Boloniya prosesi" 2001-ci ildə imzalanan Praqa Deklarasiyası, 2003-cü ildəki Berlin Deklarasiyası və 2005-ci il Bergen Deklarasiyası ilə daha da inkişaf etdirilmişdir.[6]

Azərbaycan da artıq "Boloniya prosesi"nə qoşulub. Bunun Azərbaycan gənclərinə və təhsil sistemimizə gətirəcəyi faydalar çox-çox böyükdür. Təhsil sistemimizin və universitetlərimizin buna uyğunlaşması və hazırlanması prosesinin sürətləndirilməsinə ehtiyac var. Yeri gəlmişkən, "Təhsil haqqında" qanun layihəsi də yenidən işlənir. Qanunun prinsip və strategiyasında dəyişikliklər edilməsə də, bəzi məsələlər tamamilə yenidən işlənəcək. Bu yeniliyin əsas qayəsi Boloniya sistemi ilə bağlıdır. Əgər biz təhsil sistemimizi Avropa təhsil standart-

---

[5] "Təhsildə "Avropa standartları" deyilən anlayış yoxdur", *"Ayna" qəzeti*, 11 noyabr 2005.

[6] Bologna Process, http://www.bologna-bergen2005.no (01.03.2006).

larına uyğunlaşdırmaq istəyiriksə, bu məsələ qanunlarımızda, xüsusilə təhsil qanununda öz əksini tapmalıdır.[7]

P.S. Bir lətifəyə görə, II Dünya müharibəsinin başa çatdığı ərəfədə bir yamyam (cannibal) digərinə deyir: "Xəbərin var? Ağlar on milyonlarla adam öldürüblər." Digəri cavab verir: "Onları da başa düşmək olmur, yeməyəcəkdilərsə, bu qədər adamı niyə zay eləyirdilər?"

[7] "Təhsil haqqında" qanun yenidən işlənir, *AzərTAc*, 26 yanvar 2006.

# Dünya niyə kiçilir?

Təqribən 10 min il bundan əvvəl dünyada aqrar inqilab baş verdi. Tarixçilər buna "neolit inqilabı" da deyirlər. Bu inqilab bizdən elə də uzaqda yox - Anadolu, Şimali Mesopotamiya, Fələstin torpaqlarında baş vermişdi. Amma inqilabın bizim torpaqlara gəlib çatması düz min il çəkdi.[8] Çünki 10 min il bundan əvvəl dünya indikindən çox "böyük" idi. Hələ at da əhliləşdirilməmişdi...

18-ci əsrin axırlarında sənaye inqilabı baş verdi. Aqrar inqilabdan sonra çox şey dəyişmişdi. Rabitə və nəqliyyat imkanları müqayisə olunmaz dərəcədə genişlənmişdi. Dünya artıq əvvəlki qədər "böyük" deyildi. Ona görə də bu inqilab daha sürətlə dünyaya yayılmağa başladı. Lakin nə qədər sürətli yayılırsa-yayılsın bizim torpaqlara təqribən yüz il sonra gəlib çatdı. Yenə də aqrar inqilabın min ilə gəlib çatdığını nəzərə alsaq, sənaye inqilabı 10 qat daha sürətlə yayılmışdı. Azərbaycan XIX əsrin axırlarında sənaye inqilabının meyvələrini görməyə başladı. Nəticədə çox keçmədən hər tərəfi imperiyalarla əhatə olunan bu kiçik torpaqda Şərqdə ilk Milli Dövlətin əsası qoyuldu. Amma bu da uzun çəkmədi və bizə "sosialist inqilabı" adlanan saxta inqilab sırıdılar. Dünyanın və təbiətin öz inkişaf qanunauyğunluqlarına zidd olaraq biz saxta bir formasiyanı yaşadıq...[9]

Zaman keçdi, bu formasiya da dağıldı və dağılar-dağılmaz dünyada üçüncü böyük inqilabın – informasiya, bilik inqilabının yaşanmaqda olduğunu gördük. Əgər aqrar inqilabın bizim

---

[8] H. F. Cəfərov, "Azərbaycanda ibtidai icma quruluşu", *Azərbaycan Tarixi*, Redaktə: Z. M. Bünyadov və Y. B. Yusifov, Azərnəşr, Bakı, 1994, səh. 25.

[9] İlkin Sabiroğlu, "İnqilablar dünyanı kiçildir", *"Gündəlik Azərbaycan" qəzeti*, 3 dekabr 2005.

torpaqlara gəlib çatması üçün min il, sənaye inqilabı üçün yüz il lazım gəlmişdisə, informasiya inqilabına on il kifayət elədi. Çünki qloballaşan dünya daha da "kiçilmişdi". Artıq biz də elektron hökumətdən, informasiya və kommunikasiya texnologiyaları üzrə universitetdən bəhs etməyə başladıq. Əgər fikir verirsinizsə, hər inqilab bir öncəkindən on qat daha artıq sürətlə yayılaraq bu torpaqlara gəlib çatıb. Bu isə deməyə əsas verir ki, əgər dünyada nə vaxtsa dördüncü inqilab baş versə bu eyni anda bizim torpaqlarda da baş verəcək. Ya da ola bilər ki, dördüncü inqilab dünyada yazda baş versin bizə isə qışda gəlib çatsın. Yəni artıq çox gözləmək lazım gəlməyəcək...

Edwin Hubble kainatın genişləndiyini sübut etdiyi halda,[10] dünyanı "kiçildən" nədir? Qloballaşmamı? Xeyir, qloballaşma nəticədir! Dünyanı inqilablar "kiçildir"! Dünya aqrar inqilabdan bu tərəfə "kiçilə-kiçilə" gəlir.

Və yeni bir xəbər: ABŞ-ın WMAP kosmik zondundan alınmış son məlumatlar dünya elmi dairələrində əsil təşviş yaradıb. Qalaktikanın müxtəlif hissələrinin radiasiya şüalanması temperaturunun ölçülməsi üçün nəzərdə tutulan zond kosmik fəzalarda qəribə bir xətt aşkarlayıb. Bu xətt kainatın bir tərəfindən girib o biri tərəfindən çıxır və onun məkan modelini formalaşdırır. Alimlər bu xətti "şər oxu" adlandırıblar. Həmin oxun aşkarlanması kainatın yaranması və inkişafı haqqında bütün müasir təsəvvürləri, o cümlədən Albert Einsteinin nisbilik nəzəriyyəsini şübhə altına alır. Məhz buna görə də ona belə ad verilib.[11]

Xatırladaq ki, nisbilik nəzəriyyəsinə görə, ilk "böyük partlayış"dan sonra məkan və zamanın inkişafı xaotik surətdə baş vermiş, kainatın özü isə ümumən yekcinsdir və bütün sərhədləri boyunca genişlənməyə meyllidir. Lakin Amerika zondu-

---

[10] David Filkin, *Stephen Hawking'in Evreni*, BBC Books, Aksoy Yayıncılık, Dekabr 1998, səh. 90.

[11] "The Universe: The new Axis of Evil", *The Independent*, 1 fevral 2006.

nun məlumatları bu postulatları təkzib edir: relikt radiasiyanın temperatur göstəriciləri kainatın müxtəlif zonalarının bölgüsündə xaosa deyil, müəyyən səmt və ya hətta plan olduğuna sübutdur. Eyni zamanda, xüsusi bir nəhəng xətt mövcuddur ki, kainatın bütün strukturunun səmtlənməsi də onun ətrafında baş verir...

Qısacası, hal-hazırda kainatın da genişləndiyini qəti şəkildə söyləmək mümkün deyil...

# İqtisadi paradiqmalar niyə dəyişir?

Isaac Newtonun 1687-ci ildə Principia adlı kitabının nəşr olunması fizika aləminə dair düşüncədə sözün həqiqi mənasında bir inqilabın gerçəkləşməsi ilə nəticələnmiş, bunun ardından Jhon Lockeun fərdiyyətçiliyi, Adam Smithin mənfəətçi iqtisadiyyatı, Karl Marxın determinist tarix qanunu, kor bir təkamülçü mübarizəyə dayanan Charles Darwinin reduksionist biologiyası və Sigmund Freudin qaranlıq ruhunun fırtınalı qüvvətləri, bunların hamısı, bir ölçüdə Newtonçu fizika nəzəriyyəsindən təsirlənmişdi...

Newtonçu fizika klassik və neoklassik iqtisadın inkişafında çox təsirli olmuş[12] və alternativ olaraq Keynesçi iqtisad ortaya çıxmışdır. Nəticədə iqtisad tarixi dövlətin iqtisadi həyata müdaxiləsini lüzumlu və yararlı sayanlarla, lüzumsuz və zərərli sayanlar arasındakı mübarizənin tarixinə çevrilmişdir.

İqtisad tarixinin ən önəmli mövzularından biri də "Ortodoks İqtisad" və "Heterodoks İqtisad" bölgüsüdür.[13] Heterodoks İqtisad, iqtisad elminin sərhədlərini genişləndirməyə, ona sosiologiya, antropologiya, psixologiya, politologiya və tarix elmindən transferlər etməyə, cəmiyyətdə və iqtisadiyyatda dəyişikliklər yaradan amillərin incələnməsinə yönəldiyi halda, Ortodoks İqtisad nəzəriyyəsi, paylaşdırma, bölgü, stabillik və artım mövzuları ilə özünü məhdudlaşdırmışdır. Bu səbəbdən iqtisad tarixi, bu iki qrup arasındakı konsensusdan uzaq ziddiyyətlərin nümunələri ilə zəngindir. Ortodoks iqtisadçılar nəyi "verilmiş kəmiyyət" olaraq ələ alıblarsa heterodoks iqtisad-

---

[12] Y. Sezai Tezel, *İktisadi Büyüme*, Ankara Yayıncılık, Ankara, 1997, səh.63.

[13] Vural Fuat Savaş, *İktisadın Tarihi*, Liberal Düşünce Topluluğu, İstanbul, 1997, səh.12.

çılar onları açıqlamağa yönəlmiş, heterodoks yazarların "verilmiş kəmiyyət" kimi qəbul etdiklərini də ortodokslar tədqiqat mövzusuna çevirmişlərdir.

Ortodoks iqtisadçılar hər hansı bir hadisəni təhlil edərkən öncə o hadisə ilə əlaqədar bəzi ünsürlərin dəyişmədiyini fərz edərlər. Bu ünsürlərdəki dəyişmələrin təsirini isə daha sonra və tək-tək incələməyə yönəlirlər. "Digər şərtlər sabit olduğu halda" (ceteris paribus) şərti kimi bilinən bu fərz etmə, heterodoks iqtisadçılara görə sadəcə təbiət elmlərinə tətbiq oluna bilər. Ortodoks iqtisadçıların bu fərz etmələri iqtisad elminin paradiqmalarının doğmasına səbəb olmuşdur.

Thomas Kuhna görə, paradiqma bir elm sahəsinə mənsub elm adamlarının normal elmi dairə çərçivəsində aparacaqları tədqiqatlarda istifadə etdikləri əsas prinsipləri göstərir.[14] Arasıra ortaya çıxan paradiqma xarici anormallıqlar, həmin elm sahəsinə mənsub elm adamlarının, paradiqmada edəcəkləri önəmsiz dəyişikliklər və ya düzəltmələrlə açıqlana bilər. Lakin mövcud paradiqmada bu şəkildə ediləcək kiçik dəyişiklik və ya düzəltmə ilə həll edilə bilməyən problemlər də ortaya çıxa bilər. Belə olan halda mövcud paradiqma bir böhranla qarşı-qarşıya qalır. Həmin paradiqmanın tərk edilib, onun yerinə yeni bir paradiqma formalaşdırılması qaçılmaz hala gəlir. Elm adamları bu yeni paradiqmanın həm formalaşdırılmasına və həm də müdafiəsinə səy göstərirlər...

Bu gün fizika elmində yaşanan yeni inqilab yenə fizika ilə məhdudlaşmamaqda, kvant fizikası bütün sosial elmlərdə də kvant düşünmə tərzini zəruri qılmaqdadır. Bundan iqtisad elmi də nəsibini almaqdadır.[15] Nəzərə alsaq ki, günümüzə qədər iqtisadiyyatın bir elm olub-olmadığı müzakirələri də para-

---

[14] Thomas S. Kuhn, *Asal Gerilim*, Türkcəyə tərcümə: Yakup Şahan, Kabalcı Yayınevi, İstanbul, 1994, səh.353.

[15] Mehmet Altan, "Newton'dan, Quantum'a İktisatta Yeni Açılımlar", www.istanbulrotary.org. (01.03.2006).

lel olaraq davam etmişdir, daha bu müzakirələrə nöqtə qoya bilmədiyimiz halda informasiya texnologiyalarındakı inkişafla birlikdə iqtisadiyyatda paradiqmaların dəyişməsinin zəruriliyi mövzusu əhəmiyyət qazanmağa başlamışdır.[16]

İnformasiya texnologiyalarının iqtisadiyyata olan təsirlərinə tamamən skeptik prizmadan yanaşan elm adamları olduğu kimi, daha ehtiyatlı bir görüşü mənimsəyənlərlə yeni bir "Rönesans" çağının başladığı və iqtisadda başlıca qanunları da ehtiva edən önəmli bir transformasiyanın yaşandığını irəli sürənlər də mövcuddur. Shapiro və Varian isə texnologiyanın dəyişdiyini amma iqtisadi qanunların eyni qaldığını vurğulayırlar.[17] Əslində, yeni iqtisadiyyatı tərif edərkən "new economics" deyil də, "new economy" ifadəsindən istifadə edilməsinin səbəbi; əsas iqtisadi qanunların dəyişmədiyini, amma bunun əvəzində, metodların, prinsiplərin, biznes strategiyalarının və qurumların dəyişdiyinin önə sürülməsidir. Bu mövzuda müzakirələrin daha uzun zamana yayılacağını söyləmək mümkündür. Belə görünür ki, bu müzakirələr davam etdiyi və yeni paradiqmalar formalaşdıra bilmədiyimiz müddətcə iqtisadı da "köhnə" və "yeni" iqtisad olaraq sinifləşdirmək məcburiyyətində qalacağıq...

---

[16] İlkin Sabiroğlu, "İqtisadi paradiqmalar dəyişir?!", *IqtisadNet*, 25 mart 2004, http://www.iqtisad.net/is010.htm, (01.03.2006).

[17] Carl Shapiro and Hal R. Varian, *Information Rules*, Harvard Business School Press, Cambridge, 1999, səh.2.

# Yeni iqtisadiyyat nədir?

Artıq Bakıda da informasiya və kommunikasiya texnologiyaları üzrə universitet açılacaq. İsveçin Göteburg Universiteti Azərbaycanda bununla bağlı təkliflərin hazırlanması üçün qrant da ayırıb. Rabitə və informasiya texnologiyaları naziri deyib ki, hazırlanacaq təkliflər hökumət tərəfindən qəbul olunarsa, 2008-ci ildən belə bir universitet artıq Azərbaycanda da fəaliyyət göstərə bilər.[18]

Azərbaycanda bir çox əhəmiyyətli məsələlər kimi informasiya və kommunikasiya texnologiyaları (İKT) üzrə universitet layihəsinin də sadəcə bir qrant layihəsi olaraq qalacağından narahatlıq keçirməyə bilmirsən. Bütün dünyada iqtisadi paradiqmaların dəyişdiyinə və yeni iqtisadiyyatın ortaya çıxmaqda olduğuna dair müzakirələr gedir. Məhz yeni iqtisadiyyat İKT üzrə universiteti zəruri edən başlıca səbəblərdəndir.

Bəs nədir bu yeni iqtisadiyyat? Ümumiləşdirilmiş formada rəqəmsəl iqtisadiyyat ya da tekonomi olaraq da adlandırılan[19] yeni iqtisadiyyatın dörd əsas xüsusiyyətindən bəhs etmək mümkündür: rəqəmsəlləşmə (internet iqtisadiyyatını, başda da e-ticarəti bu çərçivədə dəyərləndirmək mümkündür), innovasiya fəaliyyətlərinin artması, qloballaşma və insan ehtiyatları profilində yaşanan radikal dəyişmə (qurumların insan ehtiyatlarını əsas alaraq yenidən qurulması).[20]

---

[18] "Azərbaycanda İnformasiya Texnologiyaları Universitetinin yaradılması ilə bağlı müzakirələr aparılıb", *APA*, 1 dekabr 2005.

[19] Doug Aldrich və Patrick Mc Hugh, "Content Crisis" Information Strategy, Sentyabr 1997, səh.18.

[20] İlkin Sabiroğlu, "Yeni iqtisadiyyat ilə "köhnə iqtisadiyyat"ın fərqi", *IqtisadNet*, 4 aprel 2004, http://www.iqtisad.net/is011.htm, (01.03.2006).

William D. Nordhaus isə yeni iqtisadiyyatı, informasiyanı hazırlayan hardware (avadanlıq), informasiyanı əldə edən və paylaşdırılmasını həyata keçirən kommunikasiya sistemləri və insan yardımı ilə bütün sistemi idarə edən software (proqram təminatı) olmaqla üç başlıca komponent şəklində ələ almaqdadır.[21]

Digər tanınmış iqtisadçı Don Tapscott, yeni iqtisadiyyatı aşağıdakı 12 maddə şəklində xarakterizə edir:[22]

- Yeni iqtisadiyyat informasiya iqtisadiyyatıdır: İnformasiya texnologiyaları bir iqtisadiyyatın informasiya əsaslı olmasına imkan yaratmaqdadır. İnformasiya iqtisadiyyatında informasiyanın yaradılması həm informasiya işçilərinə həm də informasiya istehlakçılarına, yəni insanlara aiddir. Əmtəə və xidmətlərin tərkibi müştəri düşüncələri əsasında müəyyənləşərkən, informasiya texnologiyası əmtəə və xidmətlərin bir hissəsi halına gələcəkdir.

- Yeni iqtisadiyyat rəqəmsəl iqtisadiyyatdır: Yeni iqtisadiyyatda informasiyalar tamamən 1 və 0-dan təşkil olunan məlumatlar şəklində göndərilməkdədir. Günümüzdə hər növ informasiya, səs, yazı, görüntü, hərəkətli təsvir və s. kompüter şəbəkələri tərəfindən göndərilməkdədir.

- Yeni iqtisadiyyatda virtuallaşma önəmli rol oynamaqdadır: İnformasiyanın analoqdan rəqəmsələ çevrilməsi, fiziki varlıqların virtual hala gəlməsinə imkan verməkdədir. Bəhs edilən virtuallaşma iqtisadiyyatın strukturunu, qurumların növlərini və aralarındakı əlaqələri, dolayısilə iqtisadi fəaliyyətin birbaşa özünü dəyişdirməkdədir.

- Yeni iqtisadiyyat molekulyar bir iqtisadiyyatdır: Əvvəlki böyük şirkət quruluşları seyrəlməkdə və dinamik fərd və qu-

---

[21] William D. Nordhaus, "Policy Rules in the New Economy", http://www.econ.yale.edu/~nordhaus/homepage/sbc%20cbo%20060500.PDF, (01.03.2006)

[22] Don Tapscott, *The Digital Economy*, Mc Graw Hill, New York, 1996, səh.44.

rumların formalaşdırdığı iqtisadi fəaliyyət əsaslı qruplar halında yenidən ortaya çıxmaqdadır. Burada şirkətlərin ortadan qalxması, yəni yox olması deyil dönüşməsi nəzərdə tutulur.

- Yeni iqtisadiyyat bir şəbəkə iqtisadiyyatıdır: Kommunikasiya şəbəkələri ilə bütünləşən bir iqtisadiyyatdır. Analoq xətlər yerinə rəqəmsəl kommunikasiya şəbəkələrinin yaranması və klassik əsas kompüter sistemindən veb əsaslı sistemə doğru gerçəkləşən yerdəyişmə biznes dünyasında önəmli transformasiyalara səbəb olmaqdadır. Yeni texnologiya və kommunikasiya şəbəkələri kiçik səviyyəli şirkətlərə böyük səviyyəli şirkətlərin sahib olduğu miqyas iqtisadiyyatları və ehtiyatları əldə etmə kimi başlıca üstünlüklərə malik olma imkanı yaratmaqdadır.

- Yeni iqtisadiyyatda vasitəçilər əsasən aradan qalxacaqdır: Özəl və dövlət sektorunda bir çox qurum istehlakçıları ilə şəbəkələr vasitəsilə birbaşa təmas quracaqlar və vasitəçilərini demək olar ki, sıradan çıxaracaqlar.

- Yeni iqtisadiyyatın hakim sektoru üçlü bir formasiyadır: Sənaye iqtisadiyyatında maşınqayırma sektoru açar mövqeyində ikən, yeni iqtisadiyyatda hakim iqtisadi sektor digər bütün sektorların rifah yaratmasına gedən yolu təşkil edən kompüter, kommunikasiya və əyləncə sənayelərinin bütünləşməsi ilə formalaşan yeni media sektorudur.

- Yeni iqtisadiyyat yenilik əsaslı bir iqtisadiyyatdır: Yeni iqtisadiyyatın prinsipi "öz məhsulunun modasını özün yekunlaşdır" olacaqdır. Əgər yeni və uğurlu bir məhsul yaradılmış və bazara çıxarılmışsa, hədəf bu məhsulun daha da inkişaf etdirilmişinin yaradılması və ilk məhsulun modasının yekunlaşdırılması olmalıdır.

- Yeni iqtisadiyyatda istehsalçı və istehlakçı fərqi azalmaqdadır: Kütləvi istehsalın yerini çoxsaylı müştəri tələbatlarına uyğunlaşan istehsalın alması ilə birlikdə, istehsalçılar fərdi istehlakçıların zövq və tələbatlarına uyğun özəl əmtəə və xid-

mətlər təklif etmə zərurəti ilə üzləşmişlərdir. Yeni iqtisadiyyatda istehlakçılar faktiki olaraq istehsal prosesinə qatıla bilməkdədirlər.

- Yeni iqtisadiyyat bir sürət iqtisadiyyatıdır: Rəqəmsəl məlumatlar üzərinə qurulmuş bir iqtisadiyyatda, şirkətlərin müvəffəqiyyəti və iqtisadi fəaliyyətlər baxımından sürət başlıca dəyişkəndir.

- Yeni iqtisadiyyat qlobal bir iqtisadiyyatdır: İki qütblü dünyanın dağılmasından sonra, iqtisadi divarların əhəmiyyətli səviyyədə ortadan qalxdığı, dinamik, yeni və dəyişkən qlobal bir mühit ortaya çıxmışdır.

- Yeni iqtisadiyyat bəzi sosial problemləri özü ilə birlikdə gətirmişdir: Yeni bir iqtisadiyyatın astanasında, güc, mühafizə, bərabərlik, keyfiyyət, biznes həyatının keyfiyyəti və demokratik prosesin gələcəyi kimi bir sıra problemləri özü ilə birlikdə gətirən yeni bir siyasi iqtisadiyyatın başladığı da müşahidə edilməkdədir.

Ən əsası isə odur ki, yeni iqtisadiyyat, insana qoyulan investisiyanın gəlirinin fiziki sərmayə investisiyalarından daha yüksək olduğu bir mərhələyə daxil olduğumuzu da göstərməkdədir. Fərdlərin, bazarda sahib olduqları informasiyanın dəyəri, zamanla daha da əhəmiyyətli hala gəlməkdədir.[23]

İnformasiya çağı yeni iqtisadiyyata sahib ölkələrin çağıdır. İnsanına deyil, təbii ehtiyatlarına arxalanan "köhnə iqtisadiyyat"a sahib ölkələr çağın gerisində qalan ölkələrdir. Beynəlxalq hesabatlarda Azərbaycanın mütəxəssis sarıdan kasad bir ölkə olduğu xüsusi vurğulanır. Ölkəni yeni iqtisadiyyata daşımaq üçünsə İKT sahəsində çoxsaylı mütəxəssislərə ehtiyac var.

---

[23] İlkin Sabiroğlu, "İKT üzrə universiteti zəruri edən nədir?", *"Gündəlik Azərbaycan" qəzeti*, 13 dekabr 2005.

# Hazırlığa haradan başlamalı?

Əvvəlki iqtisadi nəzəriyyələrə görə, istehsal amillərinin gəlirləri bütün bölgələrdə tarazlanana qədər, əmək ehtiyatları əmək haqlarının daha aşağı olduğu bölgələrdən daha yüksək olduğu bölgələrə doğru, kapital ehtiyatları da bunun tərsi yöndə hərəkət edərdi. Yəni, Azərbaycan kimi ölkələrdə əmək haqları aşağı olduğundan, məsələn, ABŞ şirkətləri öz vətənlərində deyil, gəlib Azərbaycanda istehsalla məşğul olmalı idilər. Beləcə ölkələrarası kəskin rifah fərqləri də azalmış olacaqdı.

Lakin yeni nəzəriyyələr bu fikirləri alt-üst etdi. Məlum oldu ki, həm kapital və investisiyalar, həm də əmək ehtiyatları əsasən yoxsul iqtisadiyyata sahib ölkələrdən zəngin iqtisadiyyata sahib ölkələrə doğru yönəlir. Çünki, bilgi (informasiya) çağını yaşayan zəngin iqtisadiyyata sahib ölkələrdə təhsilin və ən yeni texnologiyaların istehsal prosesinə tətbiqi sayəsində çox yüksək məhsuldarlıq həddi əldə edilməkdədir. Bunu belə başa düşmək olar: ABŞ-da 3000 dollar əmək haqqı alan bir işçi, Azərbaycanda 100 dollar əmək haqqı alan 30 işçidən daha artıq əlavə dəyər yaradır. Ona görə də bu gün dünyanın maliyyə bazarlarında dolaşan və həcmi trilyon dollarlarla ölçülən kapitaldan Azərbaycan kimi keyfiyyətli əmək ehtiyatları və mütəxəssis sarıdan sıxıntı çəkən ölkələr, təbii ehtiyatlar sektoru istisna olmaqla yetəri qədər pay ala bilmir.

Macarıstan təcrübəsi isə göstərdi ki, ölkə zəruri hazırlıqları görmədən xarici sərmayə cəlb eləsə belə bu ölkədaxili rifah səviyyəsini arzu olunan səviyyədə yüksəltməyə də bilər. Əgər həm ölkəyə xarici sərmayə cəlb etmək, həm də bunun rifah üzərində pozitiv effektini görmək istəyiriksə bu işə İrlandiya kimi ciddi hazırlaşmalı və xarici sərmayə mövzusunda seçici davranmalıyıq. Məsələn, kənd təsərrüfatına cəlb edilən xarici

sərmayənin rifah üzərində təsiri çox məhdud olduğu halda, informasiya və telekommunikasiya texnologiyaları sektoruna cəlb edilən xarici sərmayə rifah üzərində qat-qat yüksək pozitiv effekt yaratmaqdadır. İrlandiya hazırlığa məhz təhsil sahəsində ciddi islahatlarla başlamışdı. Bu islahatlar çərçivəsində İrlandiya universitetləri hər il İKT üzrə mütəxəssis olan çoxsaylı mühəndislər hazırlayır. Azərbaycan da məhz günümüzün tələblərinə cavab verən mütəxəssis sarıdan sıxıntı çəkməkdədir.

Azərbaycan təhsildə islahatlara çağdaş standartları mənimsəməklə başlamalıdır. Əvvəlki bölmədə də qeyd etdiyimiz kimi təhsildə də "Avropa standartları" var və bu standartlar "Boloniya prosesi" çərçivəsində formalaşır.

"Boloniya prosesi" ilə Avropa Ali Təhsil Zonası yaranır. 1999-cu ildə 29 Avropa ölkəsinin təhsil nazirləri 2010-cu ilə qədər konsensus və əməkdaşlıq içərisində Avropa Ali Təhsil Zonasını yaratmaq məqsədilə Boloniya Deklarasiyasını imzaladılar. Azərbaycan da artıq "Boloniya prosesi"nə qoşulub.[24] Boloniya Deklarasiyanın əsas məqsədləri - asanlıqla başa düşülən və müqayisə edilə bilən dərəcələr sisteminin adaptasiya edilməsi, iki əsas pillə üzərinə qurulan bir sistemin adaptasiya edilməsi (bakalavr/magistratura), kredit sisteminin qurulması, çətinlikləri aşaraq sərbəst hərəkət imkanlarının tətbiqi üçün dinamizmin dəstəklənməsi, keyfiyyət təminatı kimi Avropa əməkdaşlığının təqdimi, ali təhsil proqramlarında Avropa aspektlərinin dəstəklənməsi şəklindədir.[25]

2001-ci ildə Boloniya Deklarasiyasına Praqa Deklarasiyası çərçivəsində ömür boyu təhsil, ali təhsil qurumlarını və tələbələri aktiv olaraq "Boloniya prosesi"nə qoşmaq, Avropa Ali Təhsil Zonasının cazibəsini artırmaq hədəfləri əlavə edildi.

---

[24] "Azərbaycan Boloniya prosesinə qoşulub", *APA*, 24 may 2005.

[25] The Bologna Process, "Towards the European Higher Education Area", http://www.bologna-bergen2005.no/EN/BASIC/Pros-descr.HTM, (01.03.2006).

"Boloniya prosesi" 2003-cü ildə imzalanan Berlin Deklarasiyası və 2005-ci il Bergen Deklarasiyası ilə daha da inkişaf etdirildi. "Boloniya prosesi"ndən gözlənilən əsas faydalar universitetlərin öz potensiallarını ölçə bilmələri, universitetlərin akademik dünya tərəfindən daha yaxşı tanınması, universitetlərin Avropada və dünyada rəqabət qabiliyyətinin artması, Avropa Birliyinin çalışmalarını əldə edə bilmə, şəbəkələrə daxil olma və müvəffəqiyyətli çalışmalardan nümunə götürə bilmə imkanının təmini və bu çalışmalar üçün Avropa Birliyindən maliyyə dəstəyinin təminindən ibarətdir.

Nəhayət bu il Azərbaycanda qəbul edilməsi gözlənilən yeni "Təhsil haqqında" qanun layihəsinin "Boloniya prinsipləri"ni özündə əks etdirəcəyi söylənilir. Buradakı çətinliklərdən birisi də orta məktəbləri 12 illik sistemə keçirməkdir.[26] Hər bir illik əlavə təhsilin iqtisadi məhsuldarlıq üzərində öz müsbət effekti var. Məsələn, Kaliforniya universitetindən iqtisadçı James Rauch elmi çalışmaları ilə sübut edir ki, bir illik əlavə təhsil məhsuldarlığı 2,8 faiz artırır. Ayrıca, təhsillə Milli Gəlir, iqtisadi yığım meyli kimi dəyişkənlər arasında düz mütənasiblik əlaqəsi var.[27]

Lakin Azərbaycanda mövcud maddi-texniki baza, maliyyə, həmçinin kadr potensialı bu məsələdə ciddi çətinlik yaradır. İndiki sistemlə belə məktəb problemini çözə bilmiş deyilik. Bir tərəfdən məktəbləri kompüterləşdirməyə çalışırıq, digər tərəfdən isə, ölkədə həddindən artıq ağır şəraitdə olan çoxlu sayda məktəb binasının olduğu məlumdur. Doğrudur, dövlət proqramı əsasında yeni məktəblərin inşası prosesi gedir. Heydər Əliyev fondu da bu istiqamətdə fəaliyyət göstərir. Həmçinin, İslam İnkişaf Bankının ayırdığı kreditlərdən istifadə olunur.

---

[26] "Orta məktəblərdə təhsil müddəti 12 ilə qədər artırılacaq", *"Şərq" qəzeti*, http://www.sherg.az/view.php?d=910, (01.03.2006).

[27] Thomas A. Stewart, *Entellektüel Sermaye*, Türkcəyə tərcümə: Nurettin Elhüseyni, Kontent Kitap, İstanbul, 1997, səh.88.

Amma bütün bunlar çatışmazlığı aradan qaldırmağa kifayət eləmir. Halbuki neft gəlirlərindən də ölkənin ən əhəmiyyətli problemlərindən birinin həlli kimi bu istiqamətdə istifadə edilə bilər.

Yeri gəlmişkən, Azərbaycanda Yaponiyanın ayırmış olduğu qrantlar sayəsində də orta məktəb binaları tikilərək istifadəyə verilir.[28] Niyə digərlərinin deyil, məhz yaponların orta təhsil üçün məktəb binası çatışmazlığı probleminə əhəmiyyət verməsi məni təəccübləndirmədi. Hələ 1872-ci ildə 8 illik məcburi təhsil sistemini tətbiq edən bir millətdən təhsilin əhəmiyyətini daha yaxşı kim anlaya bilər ki?

---

[28] "Yaponiya yardımların həcmini artıracaq", *"Ayna" qəzeti*, 23 dekabr 2005.

# Dünyanın ən yaxşı universitetləri hansılardır?

Bir vaxtlar müxtəlif ölkələrin iqtisadi potensiallarını müqayisə edərkən əmək tutumlu, yoxsa kapital tutumlu olmalarına baxardıq. Yeni iqtisadiyyatla birlikdə artıq elm tutumlu iqtisadiyyatlardan bəhs etməyə başladıq. Bu isə o deməkdir ki, indi olduğu kimi, gələcəkdə də yalnız elmi potensialın inkişafına və təhsilə əhəmiyyət verən ölkələr güclü iqtisadi mövqeyə sahib ola biləcəklər.[29]

Çinin tanınmış Şanxay Jiao Tong Universiteti tərəfindən 2003-cü ildən etibarən hazırlanan və bütün dünyada çox ciddi qəbul edilən "Dünyanın ən yaxşı 500 universiteti" siyahısında 2005-ci il üçün keçmiş SSRİ məkanından cəmi iki universitet – Moskva Dövlət Universiteti və Sankt-Peterburq Dövlət Universiteti yer ala bildi. Bu da keçmiş super gücdən qalan miras. Amma ilk 500-lərin siyahısında ABŞ-dan 168, İngiltərə və Almaniyanın hərəsindən 40, Yaponiyadan isə 34 universitet yer alıb. Siyahıda Türkiyədən də iki universitet (İstanbul Universiteti və Hacettepe Universiteti) var.[30]

Siyahıya görə dünyanın ən yaxşı 10 universitetindən 8-i ABŞ-a, 2-si isə İngiltərəyə məxsusdur. Dünyanın ən yaxşı 500 universiteti siyahısındakı ilk 10 universitet bu ardıcıllıqla sıralanıb: Harvard Universiteti (ABŞ), Cambridge Universiteti (İngiltərə), Stanford Universiteti (ABŞ), California-Berkeley Universiteti (ABŞ), Massachusetts Texnologiya İnstitutu (ABŞ), California Texnologiya İnstitutu (ABŞ), Columbia Universiteti

[29] İlkin Sabiroğlu, "Dünyanın ən yaxşı 500 universiteti", *"Gündəlik Azərbaycan" qəzeti*, 28 oktyabr 2005.
[30] Top 500 World Universities, Academic Ranking of World Universities 2005, http://ed.sjtu.edu.cn/rank/2005/ARWU2005FullList2.pdf, (01.03.2006).

(ABŞ), Princeton Universiteti (ABŞ), Chikago Universiteti (ABŞ) və Oxford Universiteti (İngiltərə).

Siyahıda diqqət çəkən bir məqam da ondan ibarətdir ki, bu ən yaxşı 500 universitet, sadəcə, 36 ölkəyə məxsusdur. Ən yaxşı performansa sahib 10 ölkənin ardıcıllığı isə belədir: ABŞ, İngiltərə, Yaponiya, Almaniya, Kanada, Fransa, İsveç, İsveçrə, Niderland və Avstraliya. Siyahını hazırlayanlar Amerika universitetlərinin dünya üzrə ən çox dövlət dəstəyi alan ali təhsil qurumları olduqlarını da xatırladıblar.

Bəs Azərbaycan kimi kiçik ölkələrin haçansa belə siyahılarda təmsil olunması mümkündürmü? Həm İrlandiyanın, həm də Hindistanın siyahıda 3 universitetlə təmsil olunması da göstərir ki, əhalinin azlığı və ya çoxluğu burada əhəmiyyət kəsb etmir. Siyahı hazırlanarkən tamam başqa kriteriyalara diqqət yetirilir. Bu kriteriyalar aşağıdakılardır:[31]

- Təhsilin keyfiyyəti. Burada universitet məzunlarından neçə nəfərin Nobel mükafatı və Fields medalı aldıqları nəzərə alınır. Bu amil ümumi dəyərləndirmədə 10 faiz paya sahibdir.

- Fakültələrin keyfiyyəti. Burada isə hər biri dəyərləndirmədə 20 faiz paya sahib olan iki amilə diqqət yetirilir: Universitetin elmi heyətindən neçə nəfərin Nobel mükafatı və Fields medalı alması, 21 geniş mövzu kateqoriyasında (tibb, ictimai elmlər, mühəndislik və s. sahələr üzrə) yüksək səviyyədə istinad edilən tədqiqatçılar.

- Tədqiqatlar. Burada "Science" və "Nature" kimi beynəlxalq jurnallarda yayımlanan məqalələr (20 faiz) və bu məqalələrə istinadların çəkisi (20 faiz) – Elmi İstinad İndeksi (SCI), İctimai Elmlər İstinad İndeksi (SSCI), Sənət və Bəşəri Elmlər İstinad İndeksi (AHCI) nəzərə alınır.

[31] Ranking Methodology, Academic Ranking of World Universities 2005, http://ed.sjtu.edu.cn/rank/2005/ARWU2005Methodology.htm (01.03.2006).

- İnstitutun tutumu. İnstitutun tutumuna görə akademik performansı (10 faiz).

Göründüyü kimi, siyahı tamamilə obyektiv kriteriyalar çərçivəsində hazırlanır. Azərbaycanın belə siyahılarda təmsil olunmasına gəlincə isə ilk növbədə bəzi sualları cavablandırmağımız lazımdır: Universitetlərimiz tərəfindən beynəlxalq standartlara cavab verən neçə elmi jurnal nəşr edilir? Hər il neçə elm adamımızın beynəlxalq nüfuzlu jurnallarda elmi məqaləsi dərc edilir? Universitetlərimiz idarəetmədə nə qədər müstəqildirlər?...

# Kapitalizm kapitalizmə bənzəməz!

Avropa Birliyi (AB) ölkələrində konstitusiya həyəcanı yaşanmaqdadır. Fransa konstitusiyaya "yox" dedi. Ardından da Hollandiya. Digər AB ölkələrində də konstitusiyaya yox deyənlərin sırası genişlənməkdədir. Ümumi götürəndə Fransada "yox" deyənlərin başlıca arqumentləri bunlardır:[32]

- Onlara görə, konstitusiya market maraqlarının sosial maraqları kölgədə qoyduğu "ultra liberal bir sistem"i nəzərdə tutur. İşçilər lazımi səviyyədə qorunmur.

- Konstitusiya, müdafiə sahəsində Birliyi NATO-dan, dolayısilə də ABŞ-dan asılı duruma gətirir.

- Konstitusiya, Brüsselə daha çox səlahiyyət verdiyi üçün Fransanın təsirini azaldır.

- Konstitusiyanın başa düşülməsi çətindir. Sosial hüquqlar daha çox nəzərə alınaraq, daha yaxşı bir konstitusiya üçün müzakirə aparılmalıdır.

- Konstitusiya Türkiyənin AB-nə üzv olmasına şərait yaradır.

Bütün bunlarla yanaşı konstitusiyanı daha az liberal, federativ quruluşa daha az uyğun gördüyü üçün "yox" deyənlərin də mövcudluğu diqqətdən qaçırılmamalıdır.

"Hə" deyənlərin əsas arqumentləri:

- Avropa Birliyi Konstitusiyası ilə AB-nin qərar alma prosedurası daha da sadələşəcək.

- Avropa Birliyi Konstitusiyası, ümumi müdafiə sisteminin və xarici siyasətin güclənməsinə imkan yaradacaq. Birliyin beynəlxalq arenadakı nüfuzunu artıracaq.

---

[32] "AB, Fransa'daki referanduma kilitlendi", http://www.ntvmsnbc.com/news/325639.asp, 28 may 2005, (01.03.2006)

- Avropa Birliyi Konstitusiyası ilə birlikdə AB-nə ümumi bir xarici işlər naziri təyin olunacaq.

- Avropa Birliyi Konstitusiyası ilə birlikdə qadın-kişi bərabərliyi və işsizliklə mübarizə kimi sosial siyasət məsələləri daha əhəmiyyətli hala gələcək.

- Uzun sürən müzakirələrdən sonra hazır hala gələn konstitusiya, 25 ölkə arasında mümkün ola biləcək ən yaxşı konsensusdur.

- Avropa Birliyi Konstitusiyası, Fransanın Birlik daxilindəki səs potensialını 9 faizdən 13 faizə çıxaracaq.

"IqtisadNet"in Forumunda Fransadan bir dostumuzun yazdığına görə, referendumdakı "yox" nəticəsinin əsas səbəblərindən birisi də fransızların özlərinin sosial iqtisadi problemlərini Avropa İttifaqı ilə bağlamalarıdır. Yalnız yeni birliyin uğur və uğursuzluqlarından ehtiyatlanmaq deyil, mövcud problemləri də onun üzərinə yazırlar. "Bir şeyi də vurğulamaq lazımdır ki, bu səsvermədən siyasi məqsədlər üçün də istifadə olundu. Yəni hökuməti, başda prezidenti istefaya göndərmək üçün. Fransada hal-hazırda işsizlik 10 faiz səviyyəsindədir. Alıcılıq qabiliyyəti aşağı düşmüşdür. Sadə fransızların əksəriyyəti bu konstitusiyanı oxumadılar belə. Sadəcə hökumətin bütün siyasi texnologiyalardan istifadə etməklə "Oui" (hə) üzərində davamlı təbliğatı "hökumətdən küskün təbəqələr"in əlində ona qarşı "kozır"a çevrildi... Başqa bir bölgünü belə gördüm. Nisbətən imkansızlar "yox", imkanlılar; uzağı görənlər isə "hə" dedilər..."[33]

Əslində AB-dəki bu müzakirələr və ziddiyyətlər daha liberal, yoxsa daha sosial bir kapitalizm istəyini də ortaya qoyur. Bilindiyi kimi, AB ölkələrində iki fərqli kapitalizm nümunəsi hakimdir: Bunlardan birincisi İngiltərədə hakim olan Anqlo-

---

[33] "Avropa Birliyi Konstitusiyası", http://www.iqtisad.net/forum/viewtopic.php?t=4, 29 may 2005, (22.01.2006).

Sakson kapitalizmi (ABŞ-da inkişaf edən və tətbiq olunan), ikincisi isə, Almaniyada (və Yaponiyada) inkişaf edən və hakim olan toplumçu kapitalizm.

Ren çayı sahilində yerləşən ölkələrdə "Toplumçu Kapitalizm" ön plana çıxdığı kimi, Atlantik Okeanının şərq sahilindəki İngiltərədə də okeanın qərb sahilindəki ABŞ-da olduğu kimi "Anqlo-Sakson Kapitalizmi" tətbiq olunmaqdadır. Ona görə də birinciyə "Ren Kapitalizmi" də deyilməkdədir. İstanbul Universitetində yeni müdafiə edilmiş doktorluq dissertasiyası əsasında nəşr edilən "Avropa Birliyi və Kapitalizm" kitabında yuxarıdakı iki kapitalizm nümunəsinin əsas fərqləndirici xüsusiyyətləri aşağıdakı şəkildə göstərilib.[34]

Ümumiləşdirilmiş halda Ren kapitalizmini Anqlo-Sakson kapitalizmdən fərqləndirən beş əsas xüsusiyyət:

1- Aktiv Planlayıcı Dövlət: Buna görə dövlətin vəzifəsi toplumun tələbatlarını müəyyənləşdirmək və bu tələbatların qarşılanmasını təmin etməkdir. Qaçılmaz olaraq dövlət, koordinasiya, prioritetlərin müəyyənləşməsi və planlama kimi əhəmiyyətli funksiyaları öz əlində cəmləşdirir.

2- Toplumçuluq: Bərabərlik və konsensusa, məcbur edərək ya da nisbətən könüllü şəkildə nail olmaq nəzərdə tutulur. Toplumçuluq, fərdlərin toplamından daha artıq bir şeydir, orqanikdir, atomistik deyildir. Bir bütün olaraq toplumun tələbatları, fərdlərdən təşkil olunan öz üzvlərinin tələbatlarını aşmış özəl tələbatlardır.

3- Vətəndaşların Hüquqları və Vəzifələri: Toplumu təşkil edən fərdlər üçün gəlir, təqaüd, səhiyyə və digər sosial haqlar ön planda tutulmaqdadır. Bu haqlar bir toplum olmanın, həm də yaxşı bir toplum olmanın nəticəsi kimi qəbul edilir. Vəzifələr də hüquqlar kimi toplumçu kapitalizmin ayrılmaz bir par-

[34] Kenan Dağcı, *Avrupa Birliği ve Kapitalizm*, TASAM Yayınları, İstanbul, 2005, səh.28-29.

çasıdır. Toplumçu kapitalizmdə hüquqlara və vəzifələrə eyni yanaşma keçərlidir.

4- Sosial Tələbat: Təmiz hava və su, mühafizə, enerji, iş və s. sosial tələbatlar, fərdi tələbatlarla müqayisədə daha artıq əhəmiyyət kəsb etməkdədir. Bu yanaşma, sosial maraqların təbii olaraq istehlakçıların tələbatlarını ödəməyə çalışan mənfəət qruplarının, fərdiyyətçi şirkətlərin (kiçik şirkətlərin daha çox tərcih edildiyi) mübarizələri nəticəsində sərbəst rəqabət vasitəsilə ortaya çıxdığını irəli sürən "fərdiyyətçi" düşüncədən köklü sürətdə fərqlənir.

5- Qarşılıqlı Əməkdaşlıq və Qrup Məsuliyyəti: Toplumçu kapitalizm anlayışında əməkdaşlıq, konsensus və qrup məsuliyyəti vardır.

Michel Albert "Kapitalizmə Qarşı Kapitalizm" əsərində Ren çayı sahilindəki İsveç, Almaniya, Belçika və Hollandiya kimi ölkələri "Ren Kapitalizmi" qrupuna daxil edir. Həmçinin Albert, köhnə kommunist sistemin nisbi sosial təminatı ilə Amerikan kapitalizminin xəyal edilən rifah və effektivliyinin sintezindən ideal bir modelin ortaya çıxa biləcəyindən bəhs etməkdə və buna ən yaxşı nümunə kimi Almaniyanı göstərməkdədir.[35] David Lane də Rusiya nümunəsində Qərbdən gələn məsləhətçilərin ölkədə sürətli özəlləşdirmə və liberallaşdırmanın həyata keçirilməsi ilə birlikdə Anqlo-Sakson modelin mənimsənilməsinin əhəmiyyətini önə çəkdiklərini vurğulayır.[36] Əslində Azərbaycana da müstəqilliyinin ilk illərindən etibarən tövsiyə edilən model bu idi...

Həmçinin, Anqlo-Sakson kapitalizmini Ren kapitalizmdən fərqləndirən beş əsas xüsusiyyət isə belədir:[37]

---

[35] Michel Albert, *Kapitalizme Karşı Kapitalizm*, Türkcəyə tərcümə: Cemil Oktay-Hüsnü Dilli, Afa Yayınevi, İstanbul, 1992, səh.143.

[36] David Lane, "What kind of capitalism for Russia? A comparative analysis", *Communist and Post-Communist Studies*, №33, 2000, səh.485.

[37] Dağcı, op. cit., səh.35-37.

1- Məhdud Dövlət: Buna görə ən kiçik dövlət ən yaxşı dövlətdir. Xüsusilə dövlətin iqtisadiyyatdakı roluna daha çox diqqət cəlb edilməkdədir. Dövlətin daha geniş mərkəzi bir səlahiyyətə sahib olması istənməyən bir haldır. Məsələn, ABŞ-da dövlətin hər bir hissəsi bir-birindən ayrı tutulmaqda, nəzarət edilməkdə və balanslaşdırılmaqdadır. Bu xətt 1980-ci illərdə ABŞ-da Ronald Reaganın, İngiltərədə isə Margaret Thatcherin hakimiyyətə gəlməsi ilə birlikdə daha da sistemləşdirilmiş oldu. Artıq dövlət tənzimləyici və qoruyucu deyil, tənbəl və tormozlayıcı bir qüvvə kimi qəbul edilməyə başlandı. Əvvəllər cəmiyyətin inkişaf göstəricisi olan sosial müdafiə sistemi tənbəlliyi təşviq etdiyi üçün tənqid hədəfinə çevrildi. Ona görə də yarım əsr əvvəl Avropada qurulan sosial müdafiə sistemi heç bir zaman ABŞ-da qurulmamışdır. Verginin ən dinamik və cəsarətli olanların cəsarətini qırdığı irəli sürüldü. Anqlo-Sakson kapitalizmdə dövlətin vəzifəsi vətəndaşlarının malını və canını qorumaqdan ibarətdir.

2- Fərd-Toplum Münasibətləri: Anqlo-Sakson kapitalizmi fərdiyyətçidir, buna görə toplum fərdlərin toplamından başqa bir şey deyildir. Fərd yalnız tək başına qaldıqda yaşamaq üçün ən üstün bacarıqlarını ortaya qoyur. Fərdiyyətçiliyə görə bərabərlik fürsət bərabərliyidir, istədiyi sözləşməni qəbul etməkdə bərabərlikdir.

3- Mülkiyyət Hüquqları: Anqlo-Sakson kapitalizminə görə, fərdi hüquqların ən böyük qarantı mülkiyyət hüquqlarının aliliyidir.

4- İstehlakçı Tələbatını Ödəmək Üçün Rəqabət: Bu düşüncəyə görə, yaxşı toplum olmaq üçün mühüm olan bazarda rəqabət etməkdir. Daha çox rəqabət daha yaxşı toplum ortaya çıxaracaq.

5- Qrup Məsuliyyəti Yerinə Fərdi Məsuliyyət: Bu yanaşma Newtonçu Mexaniki Paradiqmanın "hissəciklərə bir mexanizmin hissəsi olaraq baxarsaq, bütünün özünə baxmış olarıq"

məntiqinə dayanır. Nəticə olaraq fərd gördüyü işə görə fərdi məsuliyyət daşımaqda və fərdi müvəffəqiyyət və müvəffəqiyyətsizlikdən bəhs edilməkdədir.

Michel Albertə görə, AB-nin əsasında iqtisadi birlik dayansa da Avropada homogen bir iqtisadi model yoxdur. Böyük Britaniyada ABŞ-dakına bənzər bir sistem hökm sürdüyü halda, İtaliya Çin xaricində yaşayan çinlilərin modelini xatırladır. Fransa və İspaniyanın sistemləri əvvəllər bir-birilərinə çox bənzəsə də daha sonradan İspaniya Anqlo-Sakson, Fransa isə Almaniyadakı kimi Ren Kapitalizminə yönəlmişdir.[38]

Yeri gəlmişkən, Lucian Cernata görə, daha sonradan AB-nə üzv olan ölkələrdən Estoniya, Çex Cümhuriyyəti və Macarıstan Anqlo-Sakson Kapitalizminə, Litva və Latviya isə Ren Kapitalizminə yönəlməkdədir. Polşa və Slovakiya isə Uzaq Şərqi Asiya "möcüzəsi"ndən təsirlənmişə bənzəyir.[39]

AB-nin inteqrasiya prosesində ciddi bir dönüş nöqtəsi olan Maastricht Anlaşması ilə əlaqədar çalışmalarda Delors AB proyektinə "sosial şərt"in də əlavə edilməsini gündəmə gətirmiş, lakin İngiltərənin baş naziri Margaret Thatcher bunu "marksist" bir yanaşma olması səbəbindən rədd etmişdir. İngiltərə hökuməti üçün "sosial şərt"in ehtiva etdiyi hökmlərdən xüsusilə işçilərin şirkət idarəetməsində iştirakı ciddi bir problem idi.[40] Lakin 1997 seçimlərində iqtidara gələn Tony Blair rəhbərliyindəki İşçi Partiyası Avropa toplumçu anlayışı yönündə mövqe ortaya qoymuş və 1997-ci ildə imzalanan Amsterdam Anlaşmasının sosial siyasət, təhsil ilə əlaqədar hökmlərini qəbul etmişdir. Hətta Tony Balir, Alman Sosial Demokrat Parti-

---

[38] Albert, op. cit., səh.27.

[39] Lucian Cernat, "Institutions and Economic Growth: Which Model of Capitalism for Central and Eastern Europe?", http://www.sigov.si/zmar/apublic/jiidt/jiidt02/4cernat.pdf. (01.03.2006).

[40] Stephen George və Ian Bache, *Politics in the European Union*, Oxford University Press, New York, 2001, səh.123.

yasının lideri Gerhard Schröder ilə yeni əsrin sosial demokratiya anlayışını ortaya qoyan ortaq bir mətin də hazırlamışdır.[41]

Thatcherin 1992-ci ildə qəbul etmədiyi "sosial şərt", 1997-ci ildə Amsterdam Anlaşmasına daxil edilmiş və İngiltərə tərəfindən də qəbul edilmişdir. Ancaq İşçi Partiyasının "sosial" politikaları Thatcherin başlatmış olduğu Anqlo-Sakson fərdiyyətçiliyi əsas alan transformasiya prosesinin önünü kəsə bilməmişdir. Çünki istehsal və mülkiyyət münasibətlərinin transformasiyası üst qurumları da dönüşdürmüşdür. Kompüter inqilabı ilə birlikdə Fordist istehsal modelinin tıxanması, onun yerini elastik istehsal paradiqmasına dayanan Post-Fordist istehsal modelinin alması, sosial elmlərdə olduğu kimi biznes dünyasında da Kvant Düşüncə Paradiqmasının hakim hala gəlməsi istehsal tərzindəki sosial transformasiyanı da bərabərində gətirmişdir.[42]

Bütün bunlara baxmayaraq Almaniyanın siyasi təzyiqlərdən uzaq muxtar bir quruluşa sahib mərkəzi bank sistemi AB üçün model təşkil etmiş və 1999-cu ildə Bundesbank modeli əsasında Avropa Mərkəzi Bankı qurulmuşdur. 1992-ci ildə Maastrichtdə İngiltərənin yalnız buraxılması, AB üzvü olan ölkələrin böyük qisminin Alman modelini əsas alan inteqrasiya yolunu izləmədə həmfikir olmalarına səbəb olmuşdur.[43]

Ardından 20 iyun 2003 tarixində Selanikdəki Avropa Şurası toplantısında Avropa Konvensiyası tərəfindən təqdim olunan "Avropa Konstitusiyasını Quran Anlaşma Mətni"ndə aşağıdakı maddə yer almışdır:[44]

"Birlik tarazlı iqtisadi artım, bir sosial bazar iqtisadiyyatı, çox yaxşı rəqabətə dayanan və tam məşğulluq səviyyəsini və sosial inkişafı hədəfləyən və ətraf mühitin yüksək səviyyədə

---

[41] Dağcı, op. cit., səh.24.

[42] Ibid.

[43] Ibid., səh.25.

[44] Ibid., səh.25-26.

qorunması və inkişaf etdirilməsi əsasında davam etdirilə bilən inkişafın bir Avropası üçün çalışır".

Artıq Kvant Elmi Paradiqması 1+1>2 yanaşmasını ortaya qoyur. Bu Ren Kapitalizminə (Sosial Kapitalizmə) önəmli dəstəkdir. Amma buradakı toplumçuluq sosialist toplumçuluqdan fərqlidir. Bir növ Anqlo-Sakson fərdiyyətçiliklə Sosial Kapitalizmin toplumçuluğunun sintezidir. Heç bir kənar təzyiq olmadan tamamən müstəqil fərdlərin könüllü əməkdaşlığı mənasına gələn bir toplumçuluqdur.

Eyni zamanda Kvant Elmi Paradiqması, Heisenberg Qeyri-Müəyyənlik Prinsipi, Bilgi Çağı ilə birlikdə Post-Fordist İstehsal Paradiqması Anqlo-Sakson Kapitalizmin keyfiyyətlərini ortaya qoymaqdadır. Bu qədər iqtisadi problemlərə baxmayaraq ABŞ-da işsizlik səviyyəsinin AB-dən, İngiltərədə işsizlik səviyyəsinin isə Almaniya və Fransadan aşağı olması da Anqlo-Sakson Kapitalizmin elastik iş hüququnda (əmək məcəlləsində), sosial müdafiə sisteminə yanaşmada axtarılmalıdır. Yenə ABŞ-ın AB-dən daha yüksək iqtisadi artım trendini sürdürə bilməsi bir başqa faktdır.[45]

Son beş ildə təqribən 30 min işçisini işdən çıxaran General Motors (GM), ABŞ-dakı fabriklərindən növbəti üç il ərzində daha 25 min işçini də çıxaracağını bəyan etdi. Ancaq 2004-cü ilin oktyabr ayında GM şirkətinin Avropadakı yan şirkətlərindən 12 min işçini işdən çıxarma planını protest etmək məqsədilə İsveçdə, Portuqaliyada, İspaniyada, Polşada və s. çox ciddi etiraz aksiyaları düzənlənmişdi. Ən böyük etiraz aksiyası isə, GM şirkətinin yan şirkəti olan Opelin məskunlaşdığı Almaniyada yaşandı. Yenə, 2004-cü ilin avqust ayında Daimler-Chrysler şirkəti ilə işçiləri arasındakı ziddiyyətlər sırasında bir işçinin söylədikləri diqqətimi çəkmişdi: "Onlara qalsa sosial

[45] İlkin Sabiroğlu, "Kapitalizm kapitalizmə bənzəməz", *"Sənət" qəzeti*, 17 iyun 2005.

hüquqları olan insanları deyil, sadəcə robotları işlə təmin edəcəklər. Gələcək beş ildə iş təminatımızın olacağı mövzusunda bədbinəm; dünya iqtisadiyyatı getdikcə daha pis hala gəlir və hər yerdə işdən çıxarma müşahidə edilir."[46]

Dünya iqtisadiyyatı yeni bir transformasiya prosesini yaşayır: sənaye çağı ömrünü başa vurduğu kimi sənaye işçiləri də ciddi sıxıntılar yaşayır. Artıq işçi sinfinin də keyfiyyət dəyişikliyi göstərməsi zəruri hal alıb. Bu keyfiyyət dəyişikliyini yaşaya bilməyən ölkələrdə sosial müdafiə sistemi də çarəsiz hala gəlir. "Ömür boyu təhsil"in əsas məqsədi də bu çarəsizliyə bir çarə axtarmaqdır.

Fransa da eyni aqibəti yaşayır. Amma Anqlo-Sakson Kapitalizmin hakim olduğu ölkələrdə daha aşağı işsizlik səviyyəsi müşahidə edilməkdədir. Çünki Anqlo-Sakson Kapitalizmi "hire and fire" məntiqinə dayanır.[47] Bu prinsipə görə işçi bir istehsal amili kimi kiralanır və daha sonra da sərbəst bazar iqtisadiyyatının məntiqinə uyğun olaraq işdən çıxarılır. Belə bir elastik sistem ilk baxışdan qəribə görünsə də əslində işsizliyin azalmasında əhəmiyyətli rol oynayır.

Anqlo-Sakson Kapitalizmdə işçilərin daha yüksək maaşlı bir iş tapdıqlarında əvvəlki işdən ayrılmaları və ya sahibkar tərəfindən işdən çıxarılmaları normal qarşılanır. Ona görə də Ren Kapitalizmində olduğu kimi Anqlo-Sakson Kapitalizmdə işçilərin şirkət daxili təhsilinə ciddi əhəmiyyət verilmir, çünki daha yaxşı bir fürsət qarşısına çıxan kimi işçinin işdən ayrılacağı nəzərə alınır. Bundansa daha yüksək keyfiyyətlərə sahib işçini daha yüksək maaşla işə almaq məqsədəuyğun sayılır. Təbii olaraq hər bir şəxs də özünün bəşəri sərmayəsini artırmağa çalışır ki, potensialını daha yüksək qiymətdən sata bil-

---

[46] Ludwig Niethammer, "*Germany: workers respond angrily to deal at DaimlerChrysler*", WSWS, 12 avqust 2004, http://www.wsws.org/articles/2004/aug2004/ germ-a12.shtml, (01.03.2006).

[47] Ibid., səh.38.

sin. Hər bir şəxs rəqabət mühitində işsiz qalmamaq üçün özünü mütəmadi yeniləmək məcburiyyətindədir.

Obyektivizmin qurucusu Ayn Rand özünün "Kapitalizm: Bilinməyən İdeal" əsərində (Capitalism: The Unknown Ideal) mülkiyyət hüququnun mülk qazanma hüququ olduğunu, kimsənin haqqı çatmadığı halda başqalarının qazanclarından alınan vergilər hesabına dövlətdən əvəzi ödənilmədən ev ala biləcəyi anlamında qəbul edilməməsi gərəkliliyini qeyd etmişdir.[48] Lakin hər kəsin mənzil hüququ olduğunda israr edən Sovetlər Birliyi vətəndaşlarının mənzil problemini həll edə bilməməklə yanaşı, insanları quş damlarına bənzər qutularda yaşamağa məhkum etməkdəydi. Digər tərəfdən, işi bazarın öz qanunauyğunluqlarına buraxan ABŞ-da amerikalıların 56 faizi (sadəcə, Fannie Mae şirkəti kanalı ilə 1968-ci ildən bu yana 63 milyon nəfər) Mortgage sistemi (ipotekalı mənzil maliyyələşdirmə sistemi) ilə ev sahibi olmuşdur. Qısası, sərbəst bazar iqtisadiyyatının gücünə etimad edilə bilər.

Fransadakı konstitusiya referendumunda Paris sakinlərinin 66 faizi referenduma "hə" dedikləri halda, əyalətdəkilərin böyük qismi "sosial" olmadığı üçün "yox" dedi. Kənd təsərrüfatından sənayeyə keçiddə liderlik edən Fransa, sənayedən Bilgi Çağına keçiddə artıq axsamağa başlayıb. Keçmişdəki liderliyini göstərə bilməyəcəyini anladığından transformasiyaya qarşı dirənir. Fabriklər dünyasında parlayan ulduz kompüterlər dünyasında sönük görünməkdədir.[49]

---

[48] Ayn Rand, *Kapitalizm: Bilinmeyen İdeal*, Türkcəyə tərcümə: Nejdet Kandemir, Plato Film Yayınları, İstanbul, 2004.

[49] "Fransa kendini azletti...", Mehmet Altan, *"Sabah"* qəzeti, 4 iyun 2005.

# Bölgüyə fokuslanmış toplumlar

İqtisadi ədəbiyyatda iqtisadi sistemlərdən bəhs edərkən sərbəst bazar iqtisadiyyatı, inzibati amirlik sistemi və qarışıq sistemlərin adı çəkilir. Bu sistemlərin hansı prinsiplər əsasında qurulmasından və bir-birindən hansı xüsusiyyətləri ilə fərqlənməsindən tez-tez bəhs edilsə də adətən, məsələnin (sistemlərin) mahiyyətindən çox təsvirinə daha geniş yer verilir. Və bu zaman sistemlərin birinin digərindən üstün və çatışmayan cəhətləri elə bir üslubda ələ alınır ki, insan məlumat sahibi ola bilsə də fikir sahibi ola bilmir. Yazımızda bu sistemlər arasında mövcud olan, lakin dərs kitablarında yer almayan fundamental bir xüsusiyyət üzərində dayanacağıq.

İstənilən iqtisadi sistemin əsasını istehsal və bölgü münasibətləri təşkil edir. Yəni istehsal və bölgünün hansı formada həyata keçiriləcəyi eyni zamanda sistemlər arasındakı fərqi də ortaya qoyur. Bilindiyi kimi, sərbəst bazar iqtisadiyyatında adından da göründüyü kimi fəaliyyət və rəqabət sərbəstliyi, fərdiyyətçilik, şəxsi mülkiyyət və sərbəst işləyən qiymət mexanizmi hökm sürür. Ən əsası isə odur ki, istehsalda fərdi təşəbbüs əsas alındığı kimi, bölgüdə də bu prinsip qorunur. Dolayısilə fərdi təşəbbüskarlıq sayəsində istehsal nəticəsində yaradılan əlavə dəyərin bölgüsü də bazar mexanizmi vasitəsilə həyata keçirilir. Hər kəs əlavə dəyərin yaradılmasında sahib olduğu paya uyğun olaraq həmin əlavə dəyərin bölgüsündən də təqribən eyni nisbətdə pay almış olur.[50]

İnzibati amirlik sistemində isə, həm istehsal həm də bölgü münasibətləri dövlət nəzarətindədir. Sərbəst bazar iqtisadiyyatında başlıca aparıcı qüvvə olan fərdin, inzibati amirlik siste-

---

[50] İlkin Sabiroğlu, "Bölgüyə fokuslanmış toplumlar", *IqtisadNet*, 9 fevral 2005, http://www.iqtisad.net/is021.htm, (01.03.2006).

mində özəl mülkiyyətə sahib olmaq haqqı və mülkiyyət hüquqları yoxdur. Əlavə dəyəri yaradan və onun bölgüsünü həyata keçirən dövlət olduğundan, hər kəs kollektiv istehsal prosesində yer almaq yerinə əlavə dəyərin bölgüsündə daha yaxından iştirak etmək istəyir. Çünki iqtisadi münasibətlər sistemində istehsal öz-özlüyündə məqsəd deyil. Məqsəd yaradılan əlavə dəyərin bölgüsündən daha çox pay ala bilməkdir. Bu isə dövlətin bürokratik iyerarxiyasında daha üst mövqelərdə yer ala bilmək üçün amansız bir rəqabətin mövcudluğunu şərtləndirir. Bir növ sərbəst bazar iqtisadiyyatındakı sağlam rəqabəti qəbul etməyən inzibati amirlik sistemi gizli bir rəqabəti öz bətnində bəsləyir.

Qarışıq və keçid iqtisadiyyatı kimi sistemlərdə isə, ortodoks iqtisad ənənəsinin təmsilçilərindən, "Ümumi Tarazlıq Analizi"nin banisi Leon Walrasın arzuladığı kimi istehsalda fərdiyyətçilik hakim olsa da, bölgüdə deyure və ya defakto (bəzən də hər ikisi) ictimailik əsas alınır.[51] Yəni yaradılan əlavə dəyər bazar mexanizmi ilə deyil, dövlət və siyasət üzərindən paylaşdırılır. Əlavə dəyərin belə bölgüsü fərdlərin istehsal prosesinə marağını azaldır, fərdi təşəbbüskarlıq ruhunu aşağı salır. Nəticədə inzibati amirlik sistemində olduğu kimi rəqabət istehsal və bazar müstəvisindən bölgü və siyasət müstəvisinə keçir. Sanki "vəhşi kapitalizm" üçün simvollaşdırılan "insan insanın qurdudur" məntiqi ictimai və fərdi yaşamda davranış normalarını müəyyənləşdirməyə başlayır.

İqtisadi münasibətlər maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində insanlar arasında münasibətləri əks etdirir. Lakin burada əsas olan bölgüdür. İnsanlar istehsal prosesinə qoşulurlar ki, bölgüdən daha çox pay ala bil-

---

[51] Ercan Eren, "Leon Walras ve "Bilimsel" Sosyalizm Anlayışı", *Maliye Yazıları,* Mart-İyun 1989, səh.40-44., http://www.ikt.yildiz.edu.tr/eren/walras.pdf. (01.03.2006)

sinlər və nəticədə istehlak və mübadilə prosesində daha əlverişli şərtlərdə iştirak edə bilsinlər.

İstehsalda olduğu kimi bölgüdə də fərdi təşəbbüs əsas alındığı zaman cəmiyyətin təşəbbüskar qüvvələri istehsala fokuslanmış olur. Bu fokuslanma zamanla istehsal münasibətlərinin və istehsal tərzinin inkişafına yol açır.

Nobel Mükafatı Laureatı iqtisadçılardan Milton Friedmanın qeyd etdiyi kimi, "Sərbəst bazarın mövcudluğu dövlətə olan ehtiyacı aradan qaldırmaz. Dövlət "oyunun qaydaları"nı müəyyənləşdirmək üçün və bu qaydaları tətbiq etmək üçün zəruridir. Bazar mexanizminin vəzifəsi, siyasi vasitələrdən istifadə edərək alınan qərar və tətbiq sahələrini və dövlətin birbaşa oyuna qoşulmaq istədiyi sahələri daraltmaq və məhdudlaşdırmaqdır."[52] Doğrudan da dövlətin və siyasi hakimiyyətin hər hansı formada istehsal və bölgü üzərindəki hökmranlığı istehsal prosesinə qoşulmaq həvəsini və fərdi təşəbbüskarlıq ruhunu zəiflədir, sadəcə bölgüyə fokuslanmış bir toplumun doğmasına səbəb olur. Belə bir toplum əlavə dəyər yarada bilmədiyindən "yoxsulluğun qısır ilgəyi"ndən azad ola bilmir.

---

[52] Hikmət A.Hacızadə, "Demokratiya: Gediləsi Uzun bir Yol", Demokratiya və Antidemokratiya Antologiyası, FAR CENTRE, Bakı, 2001. səh.352.

# Keçid dövrü bitdimi?

Yuxarıda istənilən iqtisadi sistemin əsasını istehsal və bölgü münasibətlərinin təşkil etdiyini vurğuladıq. Yəni istehsal və bölgünün hansı formada həyata keçiriləcəyi eyni zamanda, sistemlər arasındakı fərqi də ortaya qoyur. Keçən əsrin son rübünə qədər dünyanı şəkilləndirən iqtisadi sistemlər bir ucda sərbəst bazar iqtisadiyyatına dayanan kapitalist sistem, digər ucda mərkəzi planlamaya dayanan sosialist sistem və xüsusilə Birinci Dünya Müharibəsinin ardından bu iki sistemin bir çox xüsusiyyətlərini özündə cəmləşdirən qarışıq sistemlər olmuşdur.

Lakin, 1970-ci illərdə ortaya çıxan staqflyasiya, 1980-ci illərin sonlarında sosializmin çözülməsi və bu ölkələrin sərbəst bazar iqtisadiyyatına yönəlməsi prosesi, iqtisadiyyata müdaxilə edilməsi və sərbəst bazar iqtisadiyyatını dəyişdirmə istiqamətindəki fikirləri azaltmış, hətta marjinal hala gətirmişdir.[53] Azərbaycan da müstəqillik sonrası iqtisadi kursunu sərbəst bazar iqtisadiyyatını mənimsəmə istiqamətində müəyyənləşdirmiş və bununla da ölkədə "keçid dövrü" başlamışdır.

Keçid iqtisadiyyatı bir sistemdən digər sistemə keçiddə ara sistem olaraq qəbul edilir. Yəni, keçid iqtisadiyyatına keçmək hər hansı bir cəmiyyətin məqsədi ola bilməz. Necə ki, Pribaltika respublikaları artıq kapitalist münasibətlər sistemini mənimsədilər.

Lakin keçid iqtisadiyyatı iqtisadi münasibətlərin bütün parametrləri baxımından eyni zamanda, qarışıq sistemdir. Hansı cəmiyyətlər ki, bu mərhələdə ləngiyirlər əslində qarışıq sistemi

---

[53] Ercan Eren, "İktisatta Liberalizm Üzerine Notlar", *Yeni Türkiye*, Yanvar-Fevral 1999, səh.373-379., http://www.ikt.yildiz.edu.tr/eren/liberal.pdf. (01.03.2006).

mənimsəmiş sayılırlar. Bu zaman keçid iqtisadiyyatını ara sistem kimi deyil, qarışıq sistem kimi dəyərləndirmək daha doğru yanaşmadır.[54]

Azərbaycan da Sovetlər Birliyinin süqutu ilə birlikdə sərbəst bazar iqtisadiyyatına keçməyi qarşısına məqsəd olaraq qoymuş olsa da, sözün həqiqi mənasında bu ölkədə kapitalist münasibətlərinin formalaşmasının hələ çox zaman alacağını proqnozlaşdırmaq elə də çətin deyil. Elə isə Azərbaycanda qarışıq sistemin formalaşmaqda olduğunu söyləmək daha doğru olar.

Hər bir ölkənin məşğulluq səviyyəsinin yüksəldilməsi, qiymət stabilliyinin təşkili və qorunması, stabil iqtisadi inkişafa nail olmaq, tədiyyə balansının təşkili kimi standart iqtisadi məqsədləri vardır.[55] Eyni zamanda bir ölkənin iqtisadi vəziyyətini təhlil edərkən də ümumi daxili məhsulun, o cümlədən adambaşına düşən ümumi daxili məhsulun həcmi və artım tempi, real əmək haqqı səviyyələri və sair göstəricilər gözdən keçirilir. Bu göstəricilərə və bu göstəricilərin inkişaf tempinə baxaraq, lazımi finansman hesablamalarından istifadə etməklə Azərbaycanda keçid dövrünün müddəti haqqında müəyyən qənaətə gəlmək mümkündür. Keçid dövrünün kritik mərhələsinin nə qədər davam edəcəyi ilə bağlı iqtisadi göstəricilərin 1998-ci ilə qədər göstərdiyi hərəkət trendinə əsasən 1998-ci ilin sonrası üçün hesablamalar aparmışdıq. Aşağıda olduğu kimi verilən hesablamaların nəticələri Azərbaycan Milli Demokratiya Fondunun aylıq bülletenində[56] dərc edilmişdi:

---

[54] İlkin Sabiroğlu, "Keçid Dövrü bitdimi?", *"Gündəlik Azərbaycan" qəzeti*, 2 avqust 2005.

[55] Derek Lobley, *Ekonomi*, M.E.B, Özgün Matbaacılık, Ankara, 1995, səh.204.

[56] Ilkin Sabiroglu, "How long will the critical stage of transition period continue in Azerbaijan?", Azerbaijan Bulletin No:09 (263), 1 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200103/0000.html, (01.03.2006).

"Belə ki, Azərbaycanda 1996-cı ildən həyata keçirilən iqtisadi sabitlik proqramı nəticə vermiş və iqtisadiyyatda sabitlik təşkil olunmuşdur. 1990-1995-ci illərdə ardıcıl olaraq 11,7%, 0.7%, 22.6%, 23.1%, 19.7% və 11.8% daralmaqda olan iqtisadiyyat 1996-cı ildə 1.3%, 1997-ci ildə 5.8% və 1998-ci ildə 10% böyümüşdür. Ancaq, Ümumi Daxili Məhsul (ÜDM) həcmindəki artıma baxmayaraq bu rəqəm 1998-ci ildə real olaraq 1991-ci ildəki ÜDM-un ancaq 50 faizi səviyyəsinə çata bilmişdir.[57] 1999-cu ildə ÜDM-dakı artım 7.4%, 2000-ci ildə 11.4%, 2001-də isə 9.9% olmuşdur.[58] Əgər artım hər il ortalama olaraq 1998-ci ildə reallaşdığı kimi 10% olarsa, "gələcək dəyər amili" adlanan finansman hesablama metodu vasitəsilə deyə bilərik ki, bu sürətlə gedildiyi təqdirdə, 1991-ci il səviyyəsinə çatmaq üçün Azərbaycana ən azı 7 il vaxt lazım gələcək:

$$a^{1998} \text{ x } (1 + i)^n = b^{1991} \Rightarrow 50\% \text{ x } (1 + 0.10)^n = 100\% \Rightarrow n = 7 \text{ il}$$

Digər tərəfdən, orta aylıq əmək haqqı ilə bağlı inkişaf tempinə nəzər saldığımız zaman görürük ki, 1990-cı ildə orta aylıq əmək haqqı 32.5 ABŞ dollarına bərabər olmuşdursa, müəyyən düşüş və yüksəlişlərdən sonra bu rəqəm 1997-ci ildə 35.5 ABŞ dollarına, 1998-ci ildə isə 43.5 ABŞ dollarına çatmışdır. Lakin, real əmək haqqı hesablanarkən 1 ABŞ dollarının real satın alma gücünün ələ alındığını nəzərə alsaq və müqayisəni bu formada aparsaq tamam başqa mənzərə ilə qarşılaşarıq. Belə ki, 1998-ci ildə 19.9 faizlik real artım əldə olunsa da, bununla keçmiş illərdəki itkilərin təsirini aradan qaldırmaq mümkün olmamışdır. Beləliklə, 1990-cı ili 100 olaraq qəbul etdikdə 1998-ci ildə real əmək haqqı indeksi 30 səviyyəsinə çatmışdır, yəni 1990-cı ilin sadəcə 30 faizi səviyyəsinə yüksələ bilmişdir.[59] Əgər artım hər il ortalama olaraq 1998-ci ildə reallaşdığı kimi

---

[57] Avropa Ekspertiza Xidməti (TACIC), *Azərbaycanın İqtisadi İcmalı 2000*, Bakı.

[58] Azərbaycan Milli Bankı (AMB), *İllik Hesabat 2001*, Bakı, 2002, səh.110.

[59] TACIC, loc. cit.

təqribən 20% olarsa, finansman hesablama metoduna dayanaraq deyə bilərik ki, bu sürətlə gedildiyi təqdirdə, 1990-cı il səviyyəsinə çatmaq üçün Azərbaycana bu sahədə də yenə ən azı 7 il vaxt lazım gələcək.

$$a^{1998} \text{ x } (1 + i)^n = b^{1990} \Rightarrow 30\% \text{ x } (1 + 0.20)^n = 100\% \Rightarrow n = 7 \text{ il}$$

Hesablamalar iqtisadi göstəricilərin 1998-ci ilə qədər göstərdiyi hərəkət trendinə əsasən 1998-ci ilin sonrası üçün aparılmışdır. Əgər artım səviyyələrində ciddi irəliləyiş olmazsa (qeyd edək ki, 1999 və 2000-ci illərdə də bu sürət davam etmişdir), yuxarıdakı hesablamalara dayanaraq deyə bilərik ki, Azərbaycan əsas iqtisadi göstəricilər baxımından təqribən 2005-ci ildə 1990-1991-ci il səviyyələrinə yaxınlaşacaq. Bu baxımdan 1990-1991-ci illəri keçid dövrünün start illəri kimi qəbul etsək, yuxarıdakı hesablamalar daxilində keçid dövrünün kritik mərhələsinin indiki templə davam edərsə ən yaxşı halda 15 il olacağını söyləmək mümkündür: 1990-2005.

Bu hesablamalar bizə bir çox məsələlərdə aydınlıq gətirir. Məsələn, yuxarıdakı hesablamalara əsasən deyə bilərik ki, iqtisadiyyatın tələb etdiyi ciddi reform tədbirlərinin həyata keçirilməsindəki gecikmələr Milli Bankı iqtisadi cəhətdən səmərəsiz metodlarla valyuta münasibətlərini və valyuta bazarını tənzimləməsi siyasətini ən azı keçid dövrünün kritik mərhələsini də əhatə edəcək şəkildə davam etdirmək məcburiyyətində qoyur."

Artıq 2006-cı ildəyik və yuxarıdakı hesablamalarımızın özünü doğrultduğunu söyləyə bilərik. Azərbaycan keçid dövrünün 15 il davam edən ən ağır - kritik mərhələsini tamamlamaqdadır. Keçən il ÜDM-nin həcmi 1989-cu ildəki səviyyənin 97.8 faizini aşdı.

**Real ÜDM/XMM[60] (1990-2005)**
**(Göstəricilər, 1989=100%)**

| | | |
|---|---|---|
| **1990** | -11.7 | 88.3 |
| **1991** | -0.7 | 87.7 |
| **1992** | -22.6 | 67.9 |
| **1993** | -23.1 | 52.2 |
| **1994** | -19.7 | 41.9 |
| **1995** | -11.8 | 37.0 |
| **1996** | 1.3 | 37.4 |
| **1997** | 5.8 | 39.6 |
| **1998** | 10.0 | 43.6 |
| **1999** | 7.4 | 46.8 |
| **2000** | 11.1 | 52.0 |
| **2001** | 9.9 | 57.1 |
| **2002** | 10.6 | 63.2 |
| **2003** | 11.2 | 70.2 |
| **2004** | 10.2 | 77.4 |
| **2005[61]** | 26.4 | 97.8 |

Mənbə: Economic Survey of Europe (2002 No.2 və 2005 No.1).

Təəssüf ki, hamımız bu dövrün çox qısa olmasını arzulasaq da bir sıra obyektiv və subyektiv, iqtisadi və qeyri-iqtisadi amillər buna imkan vermədi. Bir sıra nöqsanları ilə birlikdə artıq struktur islahatları geridə qaldı, özəlləşdirmə nəticəsində dövlət sektorunun iqtisadiyyatdakı payı 30 faizin altına düşdü. Hətta keçid dövrünün start ili kimi 1989-cu ili götürsək belə,

---

[60] XMM – Xalis Maddi Məhsul (NMP - Net Material Product). Bu indiki hesablarla təxminən Ümumi Daxili Məhsula bərabərdir. Sovet İttifaqında, verilən müddət ərzindəki (adətən bir il ərzindəki) mal və xidmət istehsalının rəsmi ölçüsü.

[61] "ÜDM-nin həcmi 2005-ci ildə 26,4% artıb", *APA*, http://apa.az/news.php?id=1527, (01.03.2006).

ölkə artıq 2006-cı ilin sonuna adambaşına düşən Ümumi Daxili Məhsul miqdarı baxımından start ilindəki göstəricini aşmış olacaq. Real əmək haqqı səviyyələri baxımından da eyni şeyi söyləmək mümkündür. Ölkəyə neft gəlirlərinin axını başlayır. Dolayısilə 2006-cı ildən etibarən bu kimi makro-iqtisadi göstəricilərlə Azərbaycan "Sovet Azərbaycanı"nı xatırladacaq. Sıravi vətəndaş manatın denominasiyasından sonra sovet dövrünün "75 manat" və ya "100 manat" əməkhaqqı nostalgiyasını yaşamaqdadır. Artıq Dövlət Sosial Müdafiə Fondu da pensiyaları 70 yeni Azərbaycan manatına çatdırmaq niyyətindədir. BMT-nin müəyyən etdiyi parametrə görə, insanın iş gününə düşən qazancı 2 dollardan artıqdırsa, artıq o kasıb sayılmır. Bu prinsip əsas götürülərək nəzərdə tutulur ki, 2007-ci ilə qədər minimum pensiya 70 dollara çatdırılsın və beləliklə, ölkədə yoxsulluğun səviyyəsinin azalmasına nail olunsun.[62] Biz azad bir cəmiyyət qurmaq istəyirik. Elə isə John F. Kennedynin qeyd etdiyi kimi unutmamalıyıq ki, azad bir cəmiyyət çox saylı yoxsullarına yardım edə bilməzsə, az saylı zənginlərini qoruya bilməz.[63]

Həyata keçirilən sosial-iqtisadi islahatlar, reallaşdırılan dövlət proqramları son nəticədə 2005-ci ilin nəticələrinə müsbət təsir göstərmişdir. Belə ki, 1996-cı illə müqayisədə bütün maliyyə mənbələri hesabına iqtisadiyyata investisiya qoyuluşu 7,4 dəfə, orta aylıq əməkhaqqı 10,4 dəfə, dövlət büdcəsinin gəlirləri 8,5 dəfə artmış, adambaşına düşən büdcə xərcləri 473 ABŞ dollarına yüksəlmişdir. Dövlət Neft Fondunun və Milli Bankın valyuta ehtiyatlarının həcmi 2,2 milyard ABŞ dollarını ötmüşdür ki, bu da xarici dövlət borcundan 700 milyon ABŞ dolları çoxdur. Minimum əmək haqqı oktyabr ayının 1-dən

---

[62] "Pensiyalar 70 manata çatdırılacaq", *"Xeber.Net"*, 28 yanvar 2006, http://www.xeber.net/view.php?d=52741, (01.03.2006).

[63] Mahfi Eğilmez və Ercan Kumcu, *Ekonomi Politikası*, Om Yayınevi, İstanbul, 2002, səh.63.

150 min manata çatdırılmışdır ki, bu büdcə təşkilatlarında çalışan 630 min nəfərdən çox vətəndaşa şamil edilmişdir. Son 3 ildə minimum əməkhaqqı 27 dəfə artmışdır.[64]

2004-cü ildə Azərbaycanın dövlət büdcəsi 1,25 milyard dollar, 2005-ci ildə 2,3 milyard dollar olmuş, 2006-cı ildə isə 3,8-4 milyard dollar təşkil edəcəkdir. 2005-ci illə müqayisədə, büdcənin gəlirləri 67,7 faiz artaraq 3,8 milyard ABŞ dollarını, xərcləri 64,1 faiz artaraq 4 milyard ABŞ dollarını keçəcəkdir...[65]

Bəs növbəti on il üçün nə gözlənilir? Böyük neft və qaz layihələrinin həyata keçirilməsi sayəsində Azərbaycanda ÜDM-in bir neçə ilə ikiqat artacağı proqnozlaşdırılır. Qısası biz keçid dövrünün ən ağır mərhələsini artıq arxada buraxmaq üzrəyik. Növbəti on il Azərbaycanın "Sovet Azərbaycanı"nı iqtisadi standartlar baxımından geridə qoyacağı on illik olacaq. Yəni yaxşı mənada yadda qalacaq.

Amma ondan sonrakı on ilin necə olacağı isə mübahisəlidir. Çünki neft-qaz "bum"unun yaradacağı başgicəlləndirmədən özümüzü sığortalaya bilməsək, xüsusilə qeyri-neft sektorunun məhz ixracat potensialı olan sahələrini inkişaf etdirə bilməsək, vəziyyət yaxşı olmaya bilər. Ayrıca, unutmamalıyıq ki, gələcəyin iqtisadiyyatları "əmək tutumlu" və ya "kapital tutumlu" deyil, "elm tutumlu" olacaq. Azərbaycan kimi kiçik ölkələrin də "elm tutumlu" iqtisadiyyata sahib olmaqdan başqa alternativləri yoxdur.

---

[64] Ramiz Mehdiyev, "*2005-ci il parlament seçkiləri: İlkin təhlil*", "Azərbaycan" qəzeti, 29 yanvar 2006.
[65] Ibid.

# Midiya yağı:
# Yüz il əvvəl yüz il sonra

Doğrusu, əcnəbilərin Azərbaycanı tanımadıqları halda sadəcə neftə görə Bakını tanımaqları məni hər zaman təəssüfləndirib. Amma təəssüflənməyim əbəsdir. Axı bu ölkənin demək olar ki, adı belə neftdən əmələ gəlib. Tarixçilər Azərbaycan coğrafi adının yaranmasını Atropatena ilə bağlasalar da, Azərbaycanın bir digər adı Odlar Yurdu, Odlar Diyarıdır.

Neft yataqlarının hələ Atropatena vaxtında mövcud olduğu bilinir. Neftin özünü isə "Midiya yağı" adlandırırmışlar. Bu "Midiya yağı" xüsusilə 19-cu əsrin ikinci yarısından etibarən Azərbaycan xalqının taleyində mühüm rol oynamağa başlamış və demək olar ki, heç bir zaman "Azərbaycan yağı"na çevrilə bilməmişdir. Bakı-Tbilisi-Ceyhan layihəsi də əslində "Midiya yağı"nı "Azərbaycan yağı"na çevirmə cəhdidir.[66]

Bəzən tarixi müqayisələr və təhlillər maraqlı nəticələrə gətirib çıxarır. Xüsusilə XIX əsrin ikinci yarısından etibarən neftin Azərbaycanın iqtisadi münasibətlər sistemində oynadığı rolu bu günümüzlə müqayisəli təhlil edərkən kifayət qədər diqqət çəkici məqamların şahidi olursan.

Əsrlərdir var olan neft, məhz Avropa ölkələrinin və Rusiyanın sürətli sənayeləşməsi və buna bağlı olaraq artan enerji tələbatı səbəbindən strateji məhsul halına gəlməyə başlamışdı. Hətta 1860-cı illərdə belə Azərbaycanda yanacaq olaraq istifadə edilən neftin istehsalı olduqca aşağı səviyyədə ikən, 1872-ci ildən sonra isə hər şey fərqli olmağa başladı:

---

[66] İlkin Sabiroğlu, "Midiya Yağı: Yüz il əvvəl yüz il sonra", *IqtisadNet*, 13 mart 2005, http://www.iqtisad.net/is022.htm, (01.03.2006).

## Müqayisəli təhlil

| XIX əsrin axırları və XX əsrin əvvəlləri | XX əsrin axırları və XXI əsrin əvvəlləri |
|---|---|
| - XIX əsrin birinci yarısında Çar Rusiyasının Azərbaycan torpaqlarında sözün həqiqi mənasında kapitalist münasibətlərin inkişafından danışmaq mümkün deyil. Mahiyyətcə hərbi-feodal səciyyə daşıyan idarəetmə sistemi hökm sürürdü. | - XX əsrin birinci yarısında Sovet Rusiyasının Azərbaycan torpaqlarında yenə kapitalist münasibətlərin inkişafından danışmaq mümkün deyil. Bu dəfə mahiyyətcə hərbi-sosialist səciyyə daşıyan idarəetmə sistemi hökm sürürdü. |
| - XIX əsrin 60-cı illərindən başlayaraq Rusiyadakı sənaye müəssisələrində neftdən sənaye miqyasında istifadə olunmağa başlandı. Nəticədə neft məhsullarına olan tələbat və neft hasilatını artırmağa maraq gücləndi. | - XX əsrin 60-cı illərində müharibənin təsirlərini də azaltmaq sürəti ilə Rusiyadakı sənaye müəssisələrində neftə olan tələbat artımına paralel olaraq Bakıda neft və maşınqayırma zavodları yenidən quruldu, qaz emalı zavodu istifadəyə verildi. |
| - 1872-ci ildə Çar Rusiyası tərəfindən neft çıxan torpaqların işlənməsi hüququ yenidən düzənləndi, iltizam sistemi ləğv edildi və bu torpaqların qruplara bölünərək tender üsulu ilə zənginlərə satılmasına başlandı. Neft çıxan torpaqların qiyməti artmağa başladı. Sürətli bir şəkildə neft şirkətləri qurulmağa başladı. 1873-cü ildə Bakıdakı neft şirkətlərinin sayı 12 ikən, bu rəqəm XIX əsrin sonunda | - XX əsrin 70-ci illərində neft sənayesində sürətli inkişaf özünü göstərməyə başladı. Sualtı neft kəməri çəkildi. 1970-ci ildə neft hasilatı 17,3 milyon ton olmuşdu. Dənizdə 2800-6500 metr dərinlikdə neft quyuları qazılmağa başlandı. Lakin həlledici dəyişiklik müstəqilliklə birlikdə XX əsrin sonlarında yaşanmağa başlandı. 1994-cü ildə "Əsrin Kontraktı" adlanan ilk neft müqaviləsi imzalandı. Neft kon- |

| | |
|---|---|
| artıq 140-a yüksəlmişdi. | traktları parlament tərəfindən milli qanunvericilik səviyyəsində qəbul edilməyə başlandı. |
| - Çar Rusiyasının bu addımından sonra Bakıda xarici neft şirkətlərinin mövqeyi güclənməyə başladı. Bu şirkətlər ən yeni neft texnologiyalarını ölkəyə gətirməyə başladılar. | - "Əsrin Kontraktı"ndan sonra Bakıda xarici neft şirkətlərinin sərmayələri sürətlə artmağa başladı. Bu şirkətlər ən yeni neft texnologiyalarını ölkəyə gətirməyə başladılar. |
| - XIX əsrin sonunda feodal münasibətlər sistemindən kapitalist münasibətlər sisteminə keçid başlamışdı. | - XX əsrin sonunda sosialist münasibətlər sistemindən kapitalist münasibətlər sisteminə keçid başlandı. |
| - Lakin xarici neft şirkətlərinin ən mühüm xüsusiyyətlərindən birisi də ondan ibarət idi ki, bu şirkətlər Bakıdakı fəaliyyətlərindən əldə etdikləri neft dollarlarını Azərbaycan iqtisadiyyatının digər sektorlarına (qeyri-neft sektoruna) yatırmaqda maraqlı deyildilər. | - "Əsrin Kontraktı"ndan sonra Bakıya təşrif buyuran xarici neft şirkətləri də ölkədəki fəaliyyətlərindən əldə etdikləri gəlirləri Azərbaycan iqtisadiyyatının digər sektorlarına (qeyri-neft sektoruna) yatırmaqda maraqlı deyillər. 90-cı illərin əvvəllərində SSRİ-də istehsal olunan neftçıxarma texnikasının üçdə ikisini Azərbaycan verdiyi halda, xarici şirkətlər bu texnikaların Azərbaycanda istehsalına da səy göstərmirlər. Neft sektoruna yönəldilən xarici investisiyaların böyük bir hissəsi məhz bu texnikaların idxalına yönəlir. |
| - Xaricilərin gəlirlərini qeyri-neft sektoruna yatırmaqda maraqlı olmaması Azərbaycanda | - İqtisadi münasibətlər maddi nemətlərin istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prose- |

| | |
|---|---|
| kapitalist münasibətlərin inkişafına mənfi təsir göstərirdi. Kapitalizm genişlənən təkrar istehsal deməkdir. Xarici neft şirkətləri isə neft sektorunda maksimum istehsal gücünə yiyələnməklə sadə təkrar istehsalın sürdürülməsinə səy göstərirdilər. | sində insanlar arasında münasibətləri əks etdirir. Xarici neft şirkətləri neftin yalnız istehsalında və bölgüsündə iştirak edirlər. Mübadilə prosesi isə ölkə xaricində reallaşdığından gəlirləri də xarici bazarlarda formalaşır və əcnəbilərin gəlirləri Azərbaycan iqtisadiyyatına qayıtmır. Bir başqa ifadə ilə iqtisadi münasibətlər ilgəyi Azərbaycanda tamamlanmadığından kapitalist münasibətlərin inkişafına mənfi təsir göstərir. |
| - 1872-ci ildə Çar Rusiyası tərəfindən neft çıxan torpaqların işlənməsi hüququnun yenidən düzənlənməsi ilə birlikdə Azərbaycanlı neft zənginləri də ortaya çıxmağa başladı. Yerli neft zənginləri xaricilərdən fərqli olaraq neftdən əldə etdikləri gəlirləri iqtisadiyyatın digər sahələrinə də yatırmaqda çox istəkli idilər və bu da ölkədə kapitalist münasibətlər sisteminin inkişafına müsbət təsir göstərirdi. Məsələn, H.Z.Tağıyevin toxuculuq fabrikini, Bakı Ticarət Bankını qurmasını, yenə Tağıyev, Nağıyev və Muxtarov kimi neft zənginlərinin 1881-ci ildə balıq sənayesində iltizam sisteminin qaldırılması ilə birlikdə bu sahəyə investisiya qoymalarını | - Hal-hazırda isə neft sektoru özəlləşdirilmədiyindən Tağıyevlərimiz, Nağıyevlərimiz də yoxdur. Neft gəlirləri Azərbaycan dövləti ilə xarici şirkətlər arasında bölüşdürülür. Məsələ burasındadır ki, Azərbaycan tərəfi də bu neft dollarlarını “Holland Sindromu” təhlükəsindən yayınmaq istədiyindən qeyri-neft sektoruna yönəldə bilmir. Beynəlxalq qurumların da məsləhəti ilə neft dollarlarımız ölkə xaricində yerləşdirilir. Çünki “Holland Sindromu”ndan yayınmaq üçün sadəcə ümumi olaraq qeyri-neft sektorunun deyil, məhz ixrac potensialı olan qeyri-neft sektorunun inkişafı xüsusi əhəmiyyət kəsb edir. |

| | |
|---|---|
| qeyd etmək olar. | |
| - Neft sektorunun ən əsas xüsusiyyətlərindən birisi də, iş imkanları yaratmaq potensialının çox-çox aşağı olmasıdır. Hələ 1897-ci ildə Tağıyev neft quyularını, fabriklərini və s. 5 milyon manata ingilis E.Gubardın qrupuna satarkən bir çox ittihamlara məruz qalmışdı. 20 milyon manat dəyərində olan bu sərvətin aşağı qiymətdən satılmasının səbəbi məlum olmasa da, N.Nərimanova görə bu böyük fədakarlıq idi. Çünki Tağıyev bunun əvəzində toxuculuq fabriki quracaqdı. Neft işində 100-200 nəfər çalışdığı halda burada 3500 nəfər işlə təmin olunacaqdı.[67] | - Xarici investisiyaların 70 faizinin neft sənayesinə yatırılması, ixracatda neft və ya neft məhsullarının təqribən 80 faizdən artıq pay təşkil etməsinə baxmayaraq, bütövlükdə neft sektorunda, xarici şirkətlər də daxil olmaqla işləyənlərin sayı təqribən 65 min nəfərdir. Bu rəqəmin iqtisadiyyatda məşğul olanların ümumi sayında xüsusi çəkisi təqribən 2 faizdir. Lakin ölkənin neft sektorunda 65 min nəfər belə olduqca böyük rəqəm hesab olunur. Dünya praktikasındakı standartlara görə hər milyon ton hasilata ortalama 1000 nəfər işçi düşür. Bu gün isə ARDNŞ lazım olduğundan iki dəfə artıq işçi saxlayır. |
| - 1904-cü ilin dekabrın 30-da neft sənayeçiləri ilə fəhlələr arasında müştərək müqavilə imzalandı. Fəhlələr bu müqaviləni "Mazut konstitusiyası" adlandırırdılar. Bunun ardından mədən-zavod komissiyaları meydana çıxdı. | - 2005-ci ilin sonunda Azərbaycandakı ən böyük xarici neft şirkətində fəhlələrin geniş tərkibli tətilindən sonra həmkarlar təşkilatlanın yaradılmasına başlandı. |
| - Rus Çarının 1887-ci ildəki fərmanından sonra 1897-ci ildə V.G. Şıxovun rəhbərliyi ilə inşa- | - Bu il də Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri tam fəaliyyətə başlayacaq. Mütəxəs- |

[67] Okan Yeşilot, *Tagiyev*, Kaknüs Yayınları, İstanbul, 2004, səh.98.

| | |
|---|---|
| atına başlanan Bakı-Batumi Neft Boru Kəməri 1906-cı ildə tamamlanmışdı. 840 km uzunluğundakı bu kəmər 1928-ci ildə yeniləndikdən sonra 1942-ci ildə tamamən söküldü. | sislər dünyadakı neft və qaz rezervlərinin gələcək 30-40 il içərisində tükənəcəyini vurğulayırlar. Belə çıxır ki, bu kəmər də 30-40 il sonra söküləcək. Ona görə də Azərbaycanın uzunmüddətli inkişafını neft kəmərinə bağlamaq doğru deyil. |

Yuxarıdakı müqayisələri kifayət qədər uzatmaq mümkündür. Məsələn, Çar Rusiyası vaxtında da Qərb ölkələrini Azərbaycanda neft şirkətləri təmsil edirdi, indi də neft şirkətləri təmsil edir. Və böyük dövlətlər Azərbaycandakı proseslərə bu neft şirkətlərinin maraqları baxımından yanaşırlar. Artıq dünya çox dəyişib. Amma neft şirkətləri Azərbaycanda hələ də XIX əsrin axırları və XX əsrin əvvəllərində oynadıqları rolu təkrarlamaqdadırlar. “Midiya Yağı” dəyişmədiyi kimi, onlar da dəyişmirlər.

Labirintdən bir tək çıxış yolu var. Azərbaycan hökuməti qeyri-neft sektoruna da xarici investisiyaların sürətli axınını təşkil etməlidir. Çünki böyük dövlətlər sadəcə neft şirkətlərindən ibarət deyil. Ölkədə bilgi çağının təmsilçisi olan şirkətlərlə sənaye çağının təmsilçisi olan şirkətlərin maraqları balanslaşdırılmalıdır. Hətta balansı birincinin lehinə poza bilsək daha uğurlu olar.

# Yanlış olanlar nədir?

Kapitalist toplumlardakı dövlət formaları çox müxtəlifdir: cümhuriyyət, demokratiya, aristokratiya, monarxiya, krallıq və hətta 1930-cu illərin Hitler Almaniyasında olduğu kimi nasional sosializm adları altında təqdim olunsa da başlıca xarakteristik xüsusiyyətləri ondan ibarətdir ki, bu toplumlarda burjuaziya təbəqəsi hər zaman əhəmiyyətli rol oynayıb və oynamaqdadır.[68]

Kapitalist toplumlarda burjuaziyanın mahiyyəti həmin toplumun siyasi mahiyyətini də müəyyənləşdirir. Məsələn, krallıq sistemində burjuaziyanın təmsilçisi kral, monarxiyada bir şəxs və ya ailə, cümhuriyyətdə (respublikada) bürokratiya, milli demokratik dövlətdə isə xalqdır. Məhz buna görə, burjuaziyasız kapitalist toplum təsəvvür etmək mümkün deyil. Milli demokratik dövlətdə burjuaziyanın təmsilçisi xalq olduğundan, buradakı kapitalizmin adı da xalq kapitalizmidir.

Azərbaycan müstəqil respublikadır. Fəqət, biz hələ də milli demokratik dövlətimizi qura bilməmişik. Zəruri tarixi şərait yetişdiyi təqdirdə bir xalq çox qısa zamanda öz müstəqil dövlətini qura bilər, lakin demokratik dövlət qurmaq çox məşəqqətli bir prosesdir. Məhz milli demokratik dövlət deyil, sadəcə müstəqil respublika olduğumuza görə, bizdə dövlətin sahibi bürokratiyadır. Eyni tendensiya bütün MDB ölkələrində müşahidə edilməkdədir. Biz iqtisadiyyatda dövlətin payını azaltdığımız kimi, bürakratoyanın da təsirini minimuma endirməliyik. "Elektron hökumət" proqramına eyni zamanda bu aspektdən də yanaşmaq lazımdır.

---

[68] İlkin Sabiroğlu, "Yanlış olanlar nədir?", *"Yeni Müsavat" qəzeti*, 14 avqust 2003.

Bizdə bürokratik burjuaziya (məmur burjuaziyası) var. Lakin milli burjuaziya (xalq burjuaziyası) demək olar ki, yeni-yeni və çox çətinliklə formalaşır. Bir başqa ifadə ilə, iqtisadiyyatda xalq kapitalizmi yerinə, məmur kapitalizmi hökm sürür. Son iki ildə 30-dan artıq icra hakimiyyəti başçısının[69], bir sıra yüksək vəzifəli dövlət məmurunun dəyişdirilməsi isə məsələnin həllinə nail olmada çözüm yolu deyil. Dövlət milli burjuaziyanın inkişafı üçün sahibkarların hüququnu qorumalı olduğu kimi eyni zamanda sahibkarlarda da digər partnyorlarının hüququnu anlamaq və hörmət etmək məsuliyyəti yaranmalıdır. Son hadisələr də göstərdi ki, Azərbaycanda hansısa məmura yaxınlıq edərək süni imtiyazlar əldə edən və beləcə digər sahibkarların hüquqlarını pozan sahibkarlar da mövcuddur və bu durumun əvvəl-axır o sahibkarın özü üçün də problem yarada biləcəyi aydınlaşmış oldu.

Bizdə bazar iqtisadiyyatı var. Amma sərbəst bazar iqtisadiyyatı yoxdur. Ona görə də sərbəst bazar iqtisadiyyatına xas olan iqtisadi qanunların əksəriyyəti burada bir işə yaramır. Məsələ burasındadır ki, bütün kapitalist toplumlarda bazar iqtisadiyyatı mövcuddur. Lakin, çağdaş anlamda sərbəst bazar iqtisadiyyatı yalnız milli demokratik dövlətlərdə mövcud olmuşdur və bu dövlətlərdə inhisarçı burjuaziyanın ortaya çıxmaması qanunlarla tənzimlənir. Digər kapitalist toplumlarda isə, burjuaziyanın inhisarçılığı hökm sürür. Belə ki, cümhuriyyət sistemində bürokratik burjuaziyanın, monarxiyada şəxs və ya ailə burjuaziyasının, krallıq sistemində isə burjua kralın inhisarçılığı iqtisadiyyata hakim olur.

Ölkədə iqtisadi və siyasi sabitlik var, lakin uzun müddət stabillik mövcud olmayıb və yeni-yeni əsasları qoyulur. Elə bu kimi səbəblərdən də ölkədə vaxtaşırı "inqilab" mövzusunda spekulaysiyalara rəvac verilir. Sabit ifadəsi hərəkətsiz, statik,

[69] Mehdiyev, op. cit.

durğun; sabitlik də öz növbəsində iqtisadi terminlərlə ifadə etsək staqnasiya, durğunluq mənasına gəlir. Stabillik isə müvazinət, tarazlıq deməkdir. Stabillik üçün sabitlikdən fərqli olaraq dinamizm lazımdır. Çünki bütün sahələrdə ideal müvazinəti təmin etmək mümkün olmadığından cəmiyyət öz dinamizmi ilə ideal müvazinəti axtarış içərisində olur. Nəticədə mütləq mənada deyil, nisbi mənada tarazlıq yaranır ki, biz də buna stabillik deyirik.[70]

Sovetlər Birliyinin dağılması ilə birlikdə bütün ittifaq respublikaları kimi Azərbaycan da hər sahədə ciddi böhranlarla üz-üzə qalmışdı. "Təsdiq edilmiş büdcənin olmaması, inflyasiyanın məhvedici təsiri 1994-cü ildə Azərbaycanda ÜDM-in iki dəfə, sənaye istehsalının 1,6 dəfə, kənd təsərrüfatının 44 faiz azalmasına, əhalinin rifah halının 3,7 dəfə aşağı düşməsinə, orta aylıq əmək haqqının 1990-cı ildəki real əməkhaqqının 17 faizini təşkil etməsinə gətirib çıxarmışdı."[71] Dünya ölkələrinin təcrübəsi göstərir ki, bu kimi böhranların, tənəzzüllərin qarşısını almaq üçün müddəti 6 ay ilə 18 ay arasında dəyişən sabitləşdirici proqramlara ehtiyac duyulur. Azərbaycanda da 1995-ci ildən belə bir proqramın həyata keçirilməsi ilə artıq 1996-cı ildə makroiqtisadi sabitlik əldə edildi. Belə ki, 1995-2000-ci illərdə ölkədə makroiqtisadi sabitliyin təmin olunması, struktur islahatlarının həyata keçirilməsi, iqtisadiyyatın bərpası, əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması üçün 3 genişmiqyaslı proqram reallaşdırılmağa başlanmışdı.

1995-ci ildən Azərbaycan iqtisadiyyatında qısa bir müddət içərisində sabitliyə nail olmaq, tənəzzülün qarşısını almaq üçün şok terapiyasından və buna paralel olaraq nominal pul

---

[70] Ilkin Sabiroglu, "The problem of constancy at the Azerbaijani economy", Azerbaijan Bulletin No:28 (282), 12 iyul 2001, ANDF, http://www.eurasianet.org/resource/ azerbaijan/hypermail/200107/0017.html, (01.03.2006).

[71] Mehdiyev, op. cit.

təklifini və kreditləri nəzarət altına almaq üçün ortodoks siyasətdən istifadə olundu. Nəticədə 1993 və 1994-cü illərdə ardıcıl olaraq 1080 faiz və 1773 faiz olan inflyasiya səviyyələri 1995-ci ildə 84,65 faizə, 1996-cı ildə 19,9 faizə, 1997-ci ildə, 3,7 faizə qədər aşağı salındı.[72]

Lakin iqtisadiyyatda stabilliyin əldə olunması üçün şok terapiyası kifayət eləmir. Stabilliyə heterodoks siyasətin davamı olan mərhələli reform tədbirlərinin həyata keçirilməsiylə nail olmaq mümkündür. Heterodoks iqtisadi siyasət qiymətlərin, əmək haqlarının nəzarətinə və dondurulmasına dayanan gəlirlər siyasətinə əsaslanır. 1995-ci ildən etibarən Azərbaycanda müəyyən mənada qısa müddətli məqsədlər üçün ortodoks şok terapiyasını nəzərdə tutan, daha sonra isə heterodoks - mərhələli müalicə siyasətini də əhatə edən qarışıq tədbirlərin tətbiqinə çalışıldığını demək mümkündür. Lakin bu siyasətlərin davamı olan reformların həyata keçirilməsindəki gecikmələr istehsalın, gəlirlərin və əmək haqlarının artması, məşğulluq səviyyəsinin yüksəlməsi ilə bağlı ciddi problemlər yaradırdı. İqtisadi stabilliyi istehsal amillərinin səmərəli istifadəsini təşkil edərək əhatəli struktur reformları ilə əldə etmək mümkün idi. Bu sahədə isə ləngimələr müşahidə edilirdi.

Müstəqillik sonrası Azərbaycan iqtisadiyyatının inkişaf dinamikasını təhlil edərkən şərti olaraq 4 mərhələdən bəhs etməmiz mümkündür: 1991-1994-cü illəri əhatə edən birinci mərhələ, 1995-2000-ci illəri əhatə edən ikinci mərhələ və 2001-2005-ci illəri əhatə edən üçüncü mərhələ.[73] Azərbaycanın "Sovet Azərbaycanı"nı iqtisadi standartlar baxımından geridə qoyacağı 2006-cı il və sonrası isə dördüncü mərhələni təşkil edəcək.

---

[72] İlkin Sabiroğlu, "Azerbaycan'da Uygulanan Ekonomik İstikrar Programının Özellikleri", *Soydaş Politik-Ekonomik-Sosyal Dergi*, Cilt:I, No.1, Ankara, 1997, səh.49.

[73] Osman Nuri Aras, *Azerbaycan Ekonomisi ve Yatırım İmkanları*, TUSİAB, Bakı, 2005, səh.12-28.

Ölkədə müstəqillik sonrası tənəzzül dövrü təqribən 1991-1994-cü illəri əhatə edir. Bundan sonra əldə edilən sabitlik uzun müddət davam etmiş və indi-indi iqtisadi-siyasi stabilliyə çevrilir. "1994-cü illə müqayisədə 2000-ci ildə ÜDM-in artımı 25 faiz, əhalinin real pul gəlirləri 2,7 dəfə, orta aylıq əməkhaqqı 3,5 dəfə artmış, inflyasiya 2-3 faiz səviyyəsinə endirilmişdir."[74] Lakin bütün bunlar əvvəlki itkiləri aradan qaldırmağa yetməmişdir.

"2001-2005-ci illər isə ölkə iqtisadiyyatının yüksək tempdə inkişafı illəridir. Son illər həyata keçirilməyə başlanan proqramların əsas məqsədi yeni iş yerlərinin açılmasına paralel olaraq yoxsulluğun azaldılması, regionların kompleks inkişaf etdirilməsi, sahibkarlığa dövlət yardımının həyata keçirilməsi, özəlləşdirmənin başa çatdırılması, təhsil, səhiyyə, turizm, ekologiya, nəqliyyat, rabitə və telekommunikasiya sahələrinin inkişafına nail olmaqdır. 2001-2005-ci illərdə ÜDM 1,7 dəfə artmış və ötən il Azərbaycan 1990-cı il səviyyəsinə çatmışdır. ÜDM-in adambaşına düşən həcmi 2000-ci ildəki 665 dollardan fərqli olaraq 2005-ci ildə 1500 dollar təşkil etmişdir. Özəl sektorun ÜDM-də çəkisi 70 faizdən 77 faizədək yüksəlmişdir. Son beş ildə büdcə gəlirləri 4 dəfə artmış, 2005-ci ildə bu, 2,3 milyard dollar təşkil etmişdir. 2001-2005-ci illərdə qeyri-neft sektorunun bütün sahələrində 12-13 faizlik sabit artım müşahidə olunmuşdur. Son 5 il ərzində əhalinin pul gəlirləri 1,8 dəfə, işçilərin orta əməkhaqqı isə 2,6 dəfə artmış və 2005-ci ildə 133 dollar səviyyəsinə çatmışdır. 2001-2005-ci illərdə Azərbaycan iqtisadiyyatına 20 milyard dollardan artıq investisiya yatırılmışdır ki, bunun da 15,4 milyardı xarici sərmayədir. Hazırda Azərbaycan dünyanın 130 ölkəsi ilə ticarət əlaqələri qurub, xa-

---

[74] Mehdiyev, op. cit.

rici ticarət dövriyyəsi son 5 ildə 28,8 milyard dollar olmuşdur."[75]

Azərbaycanın qeyri-neft sektoruna xarici investisiyaların cəlbində problemlər yaşamasının əsl səbəbi isə xarici investorların bizdən sabitlik yox stabillik tələb etmələridir. Hərçənd ki, bunu bəzən onlar özləri də düzgün ifadə edə bilmirlər. Onlara hələ də aydın deyil ki, ümumiyyətlə MDB məkanında sabitlik və stabillik ifadələrinin fərqi tam başa düşülmüş deyil. Fikrimi bu məkanda çap edilən iqtisadi ədəbiyyatlar da (terminoloji lüğətlər də daxil olmaqla) təsdiq edir. Qeyd edək ki, sadəcə neft sektoruna yönələn investisiyalar burada istisna təşkil edir. Çünki təcrübələr göstərir ki, bir ölkə yalnız inqilablar olduqda və bu inqilablar nəticəsində (İrandakı İslam İnqilabı, Rusiyadakı Sosializm İnqilabı kimi) dövlətin mövcud rejimi dəyişib qapalı bir sistemə dönüşürsə, o halda neft şirkətləri üçün ciddi təhlükələr yaranır...

Ümumiləşdirərək deyə bilərik ki, bir ölkədə o zaman siyasi, iqtisadi stabillik hökm sürür ki, o ölkənin vətəndaşları gələcəklərinin təminat altında olduğuna inanırlar. Bu baxımdan Azərbaycan üçün də bir sıra zəruri siyasi və iqtisadi amillər var ki, onlar olmadan ölkədə stabilliyin əldə olunması müşkül məsələdir. Bu amillər içərisində demokratik seçki ənənələrinin tam formalaşmamış olmasını, Dağlıq Qarabağ probleminin həll edilməmiş olmasını, yüksək işsizlik səviyyəsi və iş təminatının olmamasını, sığorta və sosial təminat sahəsindəki problemləri və s. qeyd etmək olar...

Yuxarıda stabillik üçün ictimai dinamizmin zəruriliyini qeyd etdik. İnkişaf etmiş ölkələrin təcrübəsi də göstərir ki, cəmiyyətə bu dinamizmi verəcək qüvvə yalnız milli burjuaziya ola bilər. Məmur burjuaziyasında dinamizm olmaz. Onların işi dinamizm olan yerdə sabitlik yaratmaqdır. Çünki dinamizm

---

[75] Ibid.

yenilik deməkdir, məmurlar da yeniliyi xoşlamaz. Yeniliyə uyğunlaşmaq əziyyətinə qatlanmaq istəməz. Eugene McCarthy, "Bizi bürokratiyadan qurtaran tək şey onun effektli çalışmamasıdır"[76] deyərkən bunu nəzərdə tuturdu. Bürokratik burjuaziyanın effektli çalışmadığı yerdə, xalq burjuaziyası effektli çalışır. Bütün sadaladıqlarımız milli demokratik dövlətlə, sadəcə müstəqil olub, lakin milli demokratik olmayan respublika arasındakı fərqlərin bir qismidir.

Hələ qarşıda görüləcək çox işlər var... Bəlkə bu işlərə elə ötən ilin oktyabrında ölkə prezidenti tərəfindən təsdiq edilən "Elektron Hökumət" proqramının icrasından başlayaq?! Yeri gəlmişkən 2005-ci ilin oktyabr ayında hökumətin yüksək vəzifə tutan dövlət məmurlarına qarşı geniş kompaniyaya başlaması və eyni ayda "Elektron Hökumət" proqramının ölkə prezidenti tərəfindən təsdiq edilməsi sizcə də rəmzi məna daşımırmı?

---

[76] Eğilmez və Kumcu, op. cit., səh.271.

# Biz harada ləngidik?

Burjuaziya üst-orta gəlir səviyyəsindəki ictimai təbəqədir. Bu söz (bourgeoisie) Avropada feodalizm çağında əsilzadələr ilə işçi və kəndlilər arasında qalan tacir, sənətkar və s. əhatə edən orta təbəqəni ifadə edirdi. 19-cu əsrin sonlarından etibarən burjuaziya kəlməsi böyük kapitalistlər üçün istifadə olunmağa başladı. Burjua bir təbəqə olaraq isə, orta əsrlərin sonuna yaxın meydana çıxıb və Sənaye İnqilabı ilə birlikdə inkişaf edib. Daha sonradan modern toplumlarda da burjuaziya əhəmiyyətli yer tutmağa davam edib.[77]

Elə Azərbaycan da müstəqilliyini qazandığı zaman həyata keçiriləcək iqtisadi reformların iki başlıca istiqaməti müəyyənləşdirilmişdi. Birincisi, milli burjuaziyamızı formalaşdıraraq müstəqil milli iqtisadiyyat sistemimizi və milli demokratik dövlətimizi qurmaq, ikincisi, sərbəst bazar iqtisadiyyatına keçmək. Aradan on ildən artıq zaman keçdikdən sonra dönüb geriyə baxdığımızda görürük ki, biz müstəqil dövlətimizi qura bildik, amma nə milli burjuaziyamızı və nə də nəticə olaraq milli demokratik dövlətimizi formalaşdıra bilmədik. Çünki tarix boyu milli dövlət eyni zamanda burjuaziya dövləti olub. Burjuaziya dövləti isə burjuaziyanın aparıcı olduğu toplumlarda qurulan dövlətdir. Güclü burjuaziyası olmayan dövlət güclü milli dövlət ola bilməz.[78]

Bir vaxtlar böyük dövlətlər dünyanı "parçala, hökm sür" məntiqi ilə idarə edirdilərsə, bu gün "birləşdir, hökm sür" məntiqini, yəni qloballaşmanı önə çəkirlər. Amerika Birləşmiş

---

[77] İlkin Sabiroğlu, "Bizdə Milli Burjuaziya varmı?", *"Hürriyyət" qəzeti*, 31 iyul 2003.

[78] İlkin Sabiroğlu, "Milli Burjuaziya niyə formalaşa bilmədi?", *IqtisadNet*, 26 may 2004, http://www.iqtisad.net/is015.htm, (01.03.2006).

Ştatlarının İraqda, İranda parçalanmaya getmədən rejim dəyişikliyinə can atmasının arxasında dayanan səbəb də budur. ABŞ-ı qloballaşmaya yönləndirən və bu sahədə onu super gücə çevirən qüvvə isə amerikan burjuaziyasıdır. Çünki amerikan burjuaziyası Amerikadan əvvəl qloballaşmaqdadır.

Azərbaycanın da yeni dünya düzənində özünə layiqli yer tutması inkişaf etdirəcəyi milli burjuaziyası sayəsində olacaq. Qloballaşma prosesində öz səsimizi duyura bilməmiz üçün ilk öncə milli dövlət olmağımız lazımdır. Unutmayaq ki, bunu bacarmayan İraq, İran və Əfqanıstan kimi dövlətləri zorla milliləşdirməyə çalışırlar. Qloballaşma isə milli demokratik dövlət quruculuğundan sonrakı prosesdir.

Burjuaziya, məhz özünün dinamizmi ilə hər zaman ictimai transformasiyada çox əhəmiyyətli rol oynamışdır. Bərqərar etmək istədiyi sistemin çağdaş adı isə xalq kapitalizmidir. Xalq kapitalizminin hakim olduğu dövlət şəkli isə Milli Dövlətdir. Ona görə də milli burjuaziyaya sahib olmayan dövlət milli dövlət ola bilməz...

Tarixçilər Azərbaycanda milli burjuaziyanın formalaşma tarixini XIX əsrin birinci yarısına, Çar Rusiyasının müstəmləkəçilik dövrünə qədər geriyə götürürlər. Dəlil olaraq da XX əsrin əvvəllərində neft sənayesində olan 167 firmadan 49-nun azərbaycanlılara məxsusluğu, Bakıdakı 204 sənaye müəssisəsinin sahibi olan 115 sahibkarın da 18 faizini azərbaycanlıların təşkil etməsi göstərilir.

Biz iqtisadçılar bu məsələdə tarixçilərimizdən fərqli düşünürük. Bir kərə XIX əsrin ikinci yarısından XX əsrin əvvəllərinə qədər ortada nə Azərbaycan adlanan milli dövlət və nə də milli bazar mövcuddur. Bəhs edilən azərbaycanlı zənginlər Çar Rusiyasının vətəndaşlarıdır və təbii olaraq vergilərini də Çar Rusiyasının hərbi, iqtisadi, siyasi inkişafı üçün ödəyirdilər. O cümlədən bu gün dünyanın bir çox ölkələrində Azərbaycan əsilli olub da Azərbaycanla iqtisadi, ictimai və siyasi anlamda

heç bir bağı olmayan zəngin insanlar yaşayır. İqtisadi anlamda biz onları da Azərbaycanın milli burjuaziyası kateqoriyasına daxil etmirik. Çünki Azərbaycanın milli burjuaziyasını milli dövlətlə paralel və əlaqəli şəkildə düşünmək lazımdır.

Bu aspektdən baxdığımız zaman görürük ki, keçən əsrin əvvəllərində qurulan və çox qısa bir tarixi olan Azərbaycan Demokratik Respublikası (ADR) da məhz milli burjuaziyanın olmamasından əziyyət çəkmişdir. Milli burjuaziya milli dövləti quran və öz maraqları üçün onu sonadək qoruyan bir gücdür. Amma ADR milli burjuaziya olmadan o dövrün geopolitik konyukturasına uyğun olaraq, əlverişli mühitdən yararlanılaraq quruldu. Və yenə o dövrün geopolitik konyukturasına uyğun olaraq, əlverişsiz mühitdən təsirlənərək işğal edildi. Doğrudan da Məmməd Əmin Rəsulzadə "heç nədən bir bayraq və dövlət yaratdı" və yenə də heç nədən o dövləti qısa bir zamanda itirdik.

Ardından XX əsrin sonlarında Sovetlər Birliyinin dağılması ilə, yenə konyukturaya uyğun olaraq müstəqil Azərbaycan Respublikası quruldu. Bu respublikanın milli demokratik dövlətə çevrilə bilməsi üçün milli burjuaziyaya ehtiyac var. Maraqlıdır ki, Çar Rusiyası dövründə H.Z.Tağıyev kimi bir neçə azərbaycanlı burjuanın adını sıralamaq mümkün olsa da indi belə bir sıralama aparmaq mümkün deyil. Çünki ölkədə milli burjuaziyanın yerini məmur burjuaziyası tutub.

İnformasiya Çağında artıq çoxdan milli dövlət olma prosesini tamamlamış dövlətlər Avropa Birliyi nümunəsində olduğu kimi daha üst formasiyalara keçməkdədirlər. Buna baxmayaraq obyektiv və subyektiv səbəblərdən XXI əsrdə Azərbaycan kimi hələ də milli dövlət olma prosesini tamamlaya bilməmiş ölkələr də mövcuddur. İctimai transformasiyanı yaşaya bilməmələrinin başlıca səbəblərindən biri də milli burjua təbəqəsinə sahib olmamalarıdır. Milli burjuaziyanın formalaşması çox çətin bir proses olmaqla yanaşı müstəqilliyini qazandıqdan

sonra Azərbaycanda milli burjuaziyanın formalaşmasını əngəlləyən bir sıra amillər mövcud olmuşdur. Burjuaziya ilkin kapital yığımı nəticəsində ortaya çıxmış təbəqədir. İlkin kapital yığımını əngəlləyən amillər dolayısı ilə milli burjuaziyanın formalaşmasını da əngəlləmiş olur. Bu amilləri qısaca dörd mərhələdə sıralamaq mümkündür:

- Azərbaycanda milli burjuaziyanın formalaşmasını əngəlləyən birinci mərhələni Sovetlər Birliyinin süqutu ərəfəsində əhalinin külli miqdarda vəsaitinin "Əmanətbank" vasitəsilə buxarlanması təşkil etmişdir. Həmin vəsait cəmiyyətin ilkin kapital yığımını təşkil edirdi və məlumdur ki, milli burjuaziya məhz ilkin kapital yığımından sonra meydana çıxır. İndeksasiyadan sonra həmin vəsaitin - əmanətlərin təqribən 3,7-4 trilyon manat və ya 750-800 milyon dollar təşkil edəcəyi rəsmi açıqlamalarda dəfələrlə dilə gətirilmişdir.

- Daha sonra, 90-ci illərin birinci yarısında milyonlarla vətəndaşımızın böyük həcmli vəsaitinin ölkədə fəaliyyət göstərən ilk özəl ("Naxçıvan-Türk", "Vahidbank", "Ərgünəş MMS" və s.) və bir sıra dövlət bankları tərəfindən sovrulması cəmiyyətin ilkin kapital yığımını, dolayısı ilə milli burjuaziyanın formalaşmasını əngəlləyən ikinci ən mühüm mərhələni təşkil etmişdir.

- Milli burjuaziyanın formalaşmasını əngəlləyən üçüncü mərhələni respublikada aparılan özəlləşdirmə prosesi təşkil etmişdir. 1995-ci ildən start verilən və hələ də yekunlaşmaq bilməyən bu özəlləşdirmə prosesi, ölkədə 70 il ərzində yaradılan maddi əmlakın, yəni ölkənin fiziki kapital ehtiyatının dağıdılmasından başqa bir şey deyildi. Özəlləşdirmə başlanandan 2001-ci ilin birinci yarısına qədər 1 faizdən belə az, təqribən 60000 nəfərdən bir qədər artıq insan özəlləşdirilən müəssisələrdə səhm sahibi ola bildi. Həmin dövrə qədər paylanılan çeklərin isə yalnız 15.2 faizindən istifadə oluna bilmişdi. Çeklərdən son istifadə müddətinin dəfələrlə uzadılmasına baxma-

yaraq paylanılan çeklərin hələ də böyük bir hissəsindən istifadə edilə bilməmişdir.

- Dördüncü mərhələni isə, ölkədə məmur elitasının burjualaşması təşkil etmişdir ki, bu da xalq kapitalizminin, milli burjuaziyanın formalaşmasını əngəlləmişdir. Təcrübələr göstərir ki, əgər bir ölkədə burjualaşmış məmur elitası varsa bu elita bazarın paylaşılmasında və rəqabət mühitinin təşəkkülündə maraqlı olmur. Son vaxtlar həm respublika prezidentinin, həm də bəzi dövlət rəsmiləri ilə millət vəkillərinin ölkədə məmur özbaşınalığının və inhisarçılığının boyutlarından şikayət etməsi göstərir ki, problem artıq məmur-kiçik sahibkar rəqabəti səviyyəsində deyil. Məmur burjuaziyasındakı təmərküzləşmə kiçik sahibkarları oyundan kənar vəziyyətə salmış, rəqabəti öz müstəvisinə çəkmişdir.

Milli burjuaziyasını formalaşdıra bilməyən, xalq kapitalizminin təşəkkül tapmadığı ölkələrin Milli Dövlətə çevrilmələri çox çətin məsələdir.

# Qaytarılmayan əmanətlər

Son on ildə hökumət nümayəndələri dəfələrlə əhalinin sovet "Əmanətbank"ındakı vəsaitlərinin mərhələ-mərhələ indeksasiya olunaraq qaytarılacağına dair açıqlamalar verdilər. Növbəti açıqlamanı da bir müddət əvvəl maliyyə naziri verdi. Nə var ki, bütün bu müddət ərzində "əhalinin əmanətlərinin qaytarılacağı" fikrini rəsmiləşdirmək üçün müvafiq qanunun qəbul edilməmiş olması hökumətin sözügedən məsələyə ciddi yanaşmasını şübhə altına alırdı.

Həmin vəsaitin əhəmiyyəti onda idi ki, o, cəmiyyətin ilkin kapital yığımıydı və bilirik ki, burjuaziya ilkin kapital yığımından sonra ortaya çıxır. Bu gün isə bizdə ilkin kapital yığımı deyiləndə korrupsiya nəticəsində əldə edilmiş sərvət nəzərdə tutulur. Halbuki inkişaf etmiş normal cəmiyyətlərdə ilk burjuaziyanın formalaşması tamamilə fərqli olub. Bu cəmiyyətlərdə burjuaziya feodalizmin sonlarına yaxın, feodal bəylərin yanında ticarət və sənayeçilərdən təşkil olunan, lombardlar nümunəsində olduğu kimi ortaya çıxıb. Həmin burjuaziya özünün ilkin kapital yığımını korrupsiya və rüsvətlə deyil, iqtisadi fəaliyyəti nəticəsində formalaşdırıb. Məhz bu burjuaziya feodalizmin axırına çıxaraq kapitalizmi bərqərar edib.

Bizim üçünsə belə bir şans yaranmadı və ya belə bir şansı özümüz yarada bilmədik. Rusiyanın tarixi inkişaf yolunu bəzən onun yanında, bəzən də onunla birlikdə keçmək məcburiyyətində qaldıq. Kapitalizmi doğru-dürüst yaşamadan, feodalizmdən sosializmə keçdik. Ona görə də təsadüfən torpağında neft taparaq zənginləşən H.Z. Tağıyev nümunəsində olduğu kimi tək-tük ortaya çıxan zənginlərimiz istisna olunmaqla həqiqi burjuaziya nədir, necə olur, ictimai əhəmiyyəti nədir, bilmədik.

Sovetlərin dağıldığı bir anda "Əmanətbank"da cəmlənən vəsait əslində cəmiyyətin ilkin kapital yığımı idi. Milli burjuaziyamız həmin ilkin kapital üzərində cücərəcəkdi. İndeksasiyadan sonra əmanətlərin 3,7-4 trilyon manat və ya 750-800 milyon dollar təşkil edəcəyinə dair fikirlər səslənib. Ayrıca o dövrdə kapitalın məhsuldarlığı indikindən qat-qat artıq idi.

Yeri gəlmişkən qeyd edək ki, 15 avqust 1992 il tarixində Azərbaycan Respublikası Parlamentinin qərarıyla manat dövriyyəyə buraxılmasaydı maliyyə itkimiz daha artıq olacaqdı. Çünki Rusiyada 1993-cü ilin avqust ayında dövriyyəyə yeni rublların daxil edilməsi növbəti pul böhranına səbəb oldu. Biz isə, artıq hazırlıqlı idik. Belə ki, manat bir müddət rubl ilə birlikdə və sadəcə ölkədaxili ödəmələrdə istifadə edildi. 1993-cü ilin mart ayından etibarən isə Rusiyadan Azərbaycana rubl gəlməməsi üzərinə manat aprelin 1-dən rəsmi olaraq keçərli oldu.[79]

Lakin keçmiş ittifaq respublikalarının əksəriyyəti vaxtında düzgün addımı atmaqda gecikdilər. Məsələn, Qazaxıstan MDB içərisində geniş əməkdaşlıq fikrini, o cümlədən iqtisadi və monetar əməkdaşlıq fikrini müdafiə edirdi. Milli valyutasını çıxarmaqla bağlı çalışmalarını davam etdirməkdə, tədavülə buraxılmasını isə bir müddət sonraya ertələmək istəyirdi. Amma Rusiyada dövriyyəyə daxil edilən yeni rublların Qazaxıstanda da dövriyyəyə buraxılmasına dair müzakirələrdə, rus tərəfinin qazax xarici valyuta və qızıl ehtiyatlarının önəmli bir hissəsinin Rusiya Mərkəzi Bankında yerləşdirilməsi, bu bankın pul ilə əlaqədar qərarlarının Qazaxıstanda da eynilə tətbiq edilməsi, köhnə və yeni rublların dəyişdirilməsində qara bazarda formalaşan kursdan da yüksək bir kursun əsas alınması kimi ağır sərtlər və tələblər önə sürməsi üzərinə Qazaxıstan, milli valyu-

[79] İlkin Sabiroğlu, "Qaytarılmayan əmanətlər və formalaşmayan burjuaziya", *"Yeni Müsavat" qəzeti*, 10 avqust 2003.

tası "tenge"ni 15 noyabr 1993 tarixində dövriyyəyə buraxdı. Yəni, ikinci "rubl böhranı"ndan sonra.

Azərbaycanda isə, 14 iyun 1993 tarixli prezident fərmanı ilə manat 15 iyun 1993 tarixindən etibarən Azərbaycan Respublikasının yeganə pul vahidi oldu. Dolayısı ilə ikinci pul böhranını qabaqladıq. Lakin, daha sonradan baş verən siyasi hadisələr nəticəsində, 1994-cü ilin ilk on ayı ilə 1993-cü ilin eyni dövrünü müqayisə edərkən manat rus rubluna görə 35 dəfə, ABŞ dollarına nisbətən isə 94 dəfə dəyər itirdi.

2006-cı ilin dövlət büdcəsinə həsr olunmuş mətbuat konfransında maliyyə naziri gələn ildən etibarən Azərbaycanda əhalinin banklarda qalmış əmanətlərinin qaytarılması prosesinə başlanacağını bəyan etdi. Bu bəyanın dövlət rəsmilərinin əvvəlki illərdəki bəyanlarından fərqi ondadır ki, əgər əvvəllər vəsait yoxluğundan şikayət edilirdisə, bu dəfə əmanətlərin qaytarılması üçün gələn ilin büdcəsindən 200 milyard manat vəsaitin ayrılmasının da nəzərdə tutulduğu qeyd olunur.[80]

Bunun üçün ilk növbədə parlamentdə layihə şəklində gözləyən əmanətlərin qaytarılması ilə əlaqədar qanunun qəbuluna ehtiyac var. Əgər qanun qəbul olunarsa ayrılması nəzərdə tutulan vəsait bu işə başlamaq üçün ilkin mərhələdə kifayət edə bilər. Çünki, əvvəllər mətbuatda bəhs edilən layihələrdə cəmiyyətin yaşlılar kimi müəyyən təbəqələrinə ödəmə sırasında bəzi öncəliklərin tanınacağı söylənilirdi.

Əmanətlərin qaytarılması cəmiyyətin banklara olan etimadının bərpası baxımından da əhəmiyyət daşıyır. Lakin bununla yanaşı digər əhəmiyyətli bir qanunun - əmanətlərin sığortalanması haqqında qanunun də qəbulu vacibdir. Əks təqdirdə Əmanətlərin Sığortalanması Fondunun (ƏSF) yaradılması prosesini başa çatdırmaq mümkün olmayacaq. "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı"na əsasən

---

[80] "Gələn ildən əmanətlər qaytarılacaq", *"Ekspress" qəzeti*, 3 sentyabr 2005.

isə ƏSF-nin yaradılması hələ 2003-cü ildə başa çatdırılmalı idi. Qeyd edək ki, ilk əvvəl sözügedən Fondun hüquqi bazasını "Banklar və bank fəaliyyəti haqqında" qanunun təşkil edəcəyi bildirilirdi. Lakin sonradan ayrıca qanun layihəsi hazırlanması qərara alındı və bu vəzifə Milli Banka həvalə edildi. Daha sonra Milli Bank bu qanun layihəsini hazırladığını bəyan etsə də, bir sıra səbəblərdən qanunun Milli Məclisdə qəbulu ləngiyir.

Paralel olaraq Azərbaycanda on il öncəsi ilə müqayisədə bank sektorundakı seyrəlmə də davam edir. Ölkədə özəl bankların sayı əgər 1994-cü ildə 241 idisə, bu rəqəm 1999-cu ilin sonuna təqribən üç dəfə azaldı. Və bu tendensiya bir qədər səngiməsinə baxmayaraq bu gün də davam edir. Ötən ilin sonuna ölkədə artıq 43 bank fəaliyyət göstərirdi. Bu belə real sektorun bugünkü inkişaf səviyyəsi ilə müqayisədə böyük rəqəmdir.

Bank sektorundakı seyrəlmənin əsas səbəbi Milli Bank tərəfindən nizamnamə kapitalının sistemli şəkildə artırılması tələbidir. 1 yanvar 1996 tarixinə bankların nizamnamə kapitalı 50 min ABŞ dollarına ekvivalent idisə, daha sonralar bu rəqəm mərhələli şəkildə artırıldı və hal-hazırda yeni qurulan banklar üçün 5 milyon ABŞ dolları şərti axtarıldığı halda, 2005-ci il yanvarın 1-dən bütün fəaliyyətdə olan bankların nizamnamə kapitalının ən aşağı həddi 3,5 milyon ABŞ dollarına çatdırıldı. 2006-cı il yanvarın 1-dən isə bu göstərici 5 milyon dollar təşkil edəcək. Amma Bakıda bir yeni binanın inşasının az qala bir neçə milyon dollara başa gəldiyini nəzərə alsaq 5 milyon dollarlıq nizamnamə kapitalına sahib bankların real sektorun inkişafında necə rol oynayacağı doğrudan da mübahisəlidir. Məncə, Azərbaycanın bank sektoruna xarici investisiya qoyuluşu məsələsinə həm də bu aspektdən baxmaq lazımdır.[81]

---

[81] İlkin Sabiroğlu, "Əmanətlər qaytarılacaq?", *"Gündəlik Azərbaycan" qəzeti*, 15 sentyabr 2005.

Yuxarıda bəhs edilən mətbuat konfransında maliyyə naziri ipoteka qanununun icrası ilə bağlı bu il 30 milyard manat, gələn il isə 100 milyard manat vəsaitin ayrılmasının da nəzərdə tutulduğunu qeyd edib. Yeri gəlmişkən, ipoteka kreditləri almaq üçün şəxsin üç növ sığortası da vacib hala gələcək: Əməyin sığortası, əmlakın sığortası və həyatın sığortası. Demək ki, ipoteka sisteminin inkişafı da sadəcə bank sektorunun deyil, həmçinin sığorta sisteminin inkişafı ilə də bağlı məsələdir.

Əslində bu üç sistem: Bank sistemi, ipoteka sistemi və sığorta sistemi kompleks şəkildə ələ alınmalıdır. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, bunlardan birinin inkişafı digərlərinin də inkişafını stimullaşdırır. Yalnız bu halda yaranacaq müsbət sinerji (1+1+1>3) ölkədə qiymətli kağızlar bazarının inkişafına da öz töhfəsini verə bilər.

# Bankların süqutu

90-ci illərin birinci yarısı Azərbaycanda qurulan ilk özəl və bir sıra dövlət banklarının süqutu və milyonlarla vətəndaşımızın vəsaitlərinin banklarda itib-batma mərhələsi kimi yadda qalıb. Məsələnin iqtisadi mahiyyəti ondan ibarət idi ki, ölkədə "Naxçıvan-Türk", "Vahidbank", "Ərgünəş MMS" kimi banklar vasitəsilə cəmiyyətin ilkin kapital yığımının dağıdılması prosesi gedirdi. Və bu proses, ilkin kapital yığımının dağıdılmasının ikinci mərhələsini təşkil edirdi. Birinci mərhələ isə, Sovetlərin dağıldığı vaxt "Əmanətbank" vasitəsilə həyata keçirilmişdi. Cəmiyyətin ilkin kapital yığımının dağıdılması nəticə olaraq ölkədə milli burjuaziyanın formalaşması prosesini də əngəlləmişdir.[82]

"Əmanətbank" vasitəsilə toplanan əmanətlərin indeksasiyadan sonra 750-800 milyon dollar təşkil edəcəyinə dair fikirlər səslənib. İkinci mərhələdə dağıdılan vəsaitin həcmi ilə bağlı isə indiyədək heç bir rəsmi açıqlama verilməyib. Buna baxmayaraq həmin vəsaitin çox böyük bir məbləğ təşkil etdiyi şübhə doğurmur.

Bənzər hadisələr bizdən sonra Ermənistanda olduğu kimi Albaniyada da yaşandı və Albaniyada hadisələr inkişaf edərək vətəndaş müharibəsinə qədər gedib çıxdı. Belə ki, Albaniyada hər üç şəxsdən birinin bankda pulu batmışdı. Banklar xalqdan 1.5-2 milyard dollar məbləğində vəsait yığmışdı ki, bu da ölkənin üç milyard dollar olan milli gəlirinin 50-70 faizinə bərabər idi. Bank böhranının nə üçün vaxtında önlənmədiyini soruşanlara isə hökumət başqanı Sali Berisha aşağıdakı ironik cavabı vermişdi:

---

[82] İlkin Sabiroğlu, "Bankların Süqutu", *"Yeni Müsavat" qəzeti*, 14 sentyabr 2003.

"Faizlə pul yığılmasını önləyəcək bir qanunumuz yox idi. İstəyən hər kəs istədiyinə yüksək faizlə pul verə bilərdi. Sərbəst iradələri ilə qərar verdilər. Müdaxilə edə bilməzdik. Nə zaman geri ödəməni axsatdılar, müdaxilə etdik."[83]

Bizdə də hökumət bankların fəaliyyətinə vaxtında müdaxilə etmədi. Baxmayaraq ki, o dönəmdə real sektorun inkişaf səviyyəsi ümumiyyətlə bank işinin qurulmasına imkan vermirdi. Bir də ki, o cür yüksək faizlərlə bankların uzun müddət fəaliyyət göstərəcəyi də ağlasığmaz idi. Albaniyadan fərqli olaraq, bizdə mövcud olan qanunlara da riayət edilmədi: Məsələn, Azərbaycan Respublikası Bankların Fəaliyyəti Haqqında Qanunun 12-ci maddəsinin 2-ci bəndində göstərilirdi ki, bank öz fəaliyyətini dayandırmaq üçün media orqanlarında ən az iki dəfə elan verməli, əmanətçilərin pullarını geri qaytarmalı, sahibsiz əmanətləri isə Milli Banka köçürməlidirlər.

Bəs həmin banklar niyə iflas etdi?

Əsas səbəb bankların piramida sistemli fəaliyyət formasını mənimsəmələri olmuşdur. Sistem piramidanın zirvəsinə çatdığı zaman öz-özünə çökür. Daha zirvəyə çatmadan hökumət tərəfindən sistemə müdaxilə edilsəydi böhranın səviyyəsini azaltmaq, zamanında ediləcək müdaxilə ilə isə böhranın qarşısını almaq mümkün idi.

Digər tərəfdən, böhrandan bir qədər əvvəl hökumət tərəfindən əmanətçilərin gəlirlərinin vergiyə cəlb edilməsini nəzərdə tutan qanun qəbul edildi. Beləliklə, o dönəmdə nominal faiz səviyyəsinin inflyasiya səviyyəsindən aşağı olduğunu da nəzərə alsaq, bu "real gəlir" əvəzinə "real zərərin" ortaya çıxmasına və piramida sisteminə vəsait axımının dayanmasına səbəb oldu.

[83] Burcu Ergezer, "Arnavutluk'ta Banker Krizi", *USAG-Uluslararası Stratejik Araştırmalar Grubu Dergisi*, Sayı:5, Ankara, 1997.

Hökumətin Beynəlxalq Valyuta Fonduna (BVF) kredit üçün müraciət etməsinin əvəzində BVF də valyuta kurslarının sabit tutulmasını tələb etdi. Bu da valyuta kurslarındakı artımın nominal faiz səviyyəsindən yüksək olmasından istifadə edərək gəlir götürən bankları çətin vəziyyətə saldı.

Eyni zamanda hökumət, inflyasiyanı cilovlamaq üçün bankların kredit verməsini qadağan etdi. Bir də ki, banklar verdikləri kreditləri geri alma mexanizminə sahib deyildi. Bunun əvəzində banklar kommersiya fəaliyyətinə (pul ticarəti yerinə əmtəə ticarətinə) üstünlük verməyə başladılar. Halbuki 10 fevral 1993 tarixli qərarda bankların valyuta və kredit sığortası istisna olmaqla, sığorta və ticarət sahəsində heç bir fəaliyyətlə məşğul ola bilməyəcəkləri göstərilməkdə idi. Bu qanuna da əməl olunmadı.[84]

Nəticə olaraq, "vaxtından tez" ortaya çıxan bankların fəaliyyətinə hökumət tərəfindən "vaxtından gec" müdaxilə edilməsi bank böhranına səbəb oldu. Cəmiyyətin ilkin kapital yığımının dağıdılmasının ikinci mərhələsi də belə yekunlaşdı...

Bütün bu hadisələr yenicə formalaşmaqda olan bank sisteminə inamı da aradan qaldırdı. İndi fiziki şəxslərin əmanətlərinin sığortası fondunu yaratmaqla bu inamın geri qaytarıla biləcəyi düşünülür. Lakin bunun üçün birinci növbədə o vaxt baş verənlərə düzgün münasibət ortaya qoyulmalıdır.

---

[84] Azer Ağayev, "Azerbaycan'da Bankaçılık", *Soydaş Politik-Ekonomik-Sosyal Dergi*, Cilt:I, No.1, Ankara, 1997, səh.60.

# Özəlləşdirmə sonrası kapitalizm

Tarixdə kupon (vauçer) paylanmaqla həyata keçirilən ən iri özəlləşdirmə proqramı Rusiyada baş verdi. İki il içərisində 150 milyon Rusiya vətəndaşı vauçer sahibi oldu. Rəsmi rəqəmlər isə Rusiyada özəlləşdirmənin hələ ikinci ilinin axırında 40 milyon insanın səhm sahibi olduğunu göstərirdi ki, bu da təqribən əhalinin 27 faizi deməkdir. Eyni zamanda, 1 milyondan artıq insanın da birbaşa sahibkarlıq fəaliyyətinə başladığı qeyd edilirdi. Rusiya vətəndaşları vauçerlərindən istifadə etməklə dövlət müəssisələrinin 70 faizini, təqribən 14 min müəssisədəki səhmlərin əksəriyyətini satın aldılar.[85]

Azərbaycanda da kupon (çek) paylanması ilə həyata keçirilən özəlləşdirmə variantı seçildi. Bu proses Azərbaycanda Rusiyadan sonra baş verdiyi üçün oradakı səhvlərin təkrarlanmayacağı və daha müvəffəqiyyətlə həyata keçiriləcəyi ehtimal edilirdi. Halbuki Azərbaycanda özəlləşdirmə başlanandan 2001-ci ilin birinci yarısına qədər təqribən 60000 nəfərdən bir qədər artıq insan özəlləşdirilən müəssisələrdə səhm sahibi ola bildi. Bu isə heç 1 faiz belə eləmir.[86] Müqayisə üçün qeyd edək ki, Çexiyada 1992-ci ildə başladılan özəlləşdirmə nəticəsində, 10.5 milyonluq çex vətəndaşının 70 faizinin səhm sahibi olacağı proqnozlaşdırılsa da 55 faizi, Polşada isə 50 faizə qədəri səhm sahibi olmuşdur.[87]

---

[85] Ervin Apathy, Istvan Csillag və digərləri, *Doğu Avrupa'da Özelleştirme*, Tərcümə: Tarık Demirkan, Yapı Kredi Yayınları, İstanbul, 1995, səh.9.

[86] Ilkin Sabiroglu, "What form of capitalism will be formed in Azerbaijan as a result of privatization?", Azerbaijan Bulletin No:15 (269), 12 aprel 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200104/0030.html, (01.03.2006).

[87] Apathy, op. cit., s. 10.

Eyni zamanda, özəlləşdirmə kuponlarının Rusiyada 56, Qırğızıstanda 94.5, Çexiyada 56 faizindən istifadə olundu. Azərbaycanda isə göstərilən vaxta qədər paylanılan çeklərin yalnız 15.2 faizi istifadə olundu, yəni dövriyyədən çıxarıldı. Qırğızıstanda hətta birinci mərhələnin axırında kuponların artıq 35 faizindən istifadə olunmuşdu.[88]

Azərbaycanda daha sonra iri müəssisələrin özəlləşdirilməsindən bəhs olunmağa başlandı. Zəruri izahat işi aparılmadığından xalqın (birinci növbədə bu müəssisələrin işçilərinin - əmək kollektivinin) bu mərhələdə də aktivliyi şübhə doğurur. Digər ölkələrin praktikası göstərir ki, xalqın aktivliyi kiçik özəlləşdirmədə böyük özəlləşdirmə ilə müqayisədə daha yüksək olur. Lakin Azərbaycanda kiçik özəlləşdirmənin nəticələri böyük özəlləşdirmənin nəticələri üçün bəri başdan optimist düşünməyə əsas vermir. Burada müqayisə üçün qeyd etmək yerinə düşər ki, İngiltərədə həyata keçirilən böyük özəlləşdirmədə işçilərin 90 faizi səhm sahibi olmuş və müəssisələrin səhmlərinin 10 faizi də işçilərin əlinə keçmişdi.

Azərbaycandakı özəlləşdirməni Qərbi Avropa, Latın Amerikası kimi ölkələrdə həyata keçirilən özəlləşdirmədən fərqləndirən başlıca xarakterik cəhət də var: Azərbaycan vətəndaşlarına 70 il ərzində özəl mülkiyyətə sahib olmaq hüququ verilməmiş və ona görə də bütün səylərini dövlət mülkiyyətinin yaradılmasına sərf etmişlərdir. Yəni, bir Azərbaycan vətəndaşının özəlləşdirilən mülkiyyət üzərindəki haqqı, bir ingilis və ya Braziliya vətəndaşının ölkəsindəki özəlləşdirilən mülkiyyət üzərindəki haqqından nisbətən daha artıq idi. Lakin bu haqq nə dərəcədə təmin olundu?

Nəticədə, 70 il ərzində yaradılan maddi əmlakın 1995-ci ildən özəlləşdirilməsinə başlanması ilə 2001-ci ilin birinci yarısı-

---

[88] Sabiroglu, "What form of capitalism will be formed in Azerbaijan as a result of privatization?", op. cit.

na qədər büdcəyə cəmisi 466 milyard 211 milyon manat, xarici valyuta ilə ifadə etsək, təqribən 100 milyon dollardan bir qədər artıq vəsait (buraya daxildir - özəlləşdirmə obyektlərinin satışından əldə edilən bütün pul gəlirləri, özəlləşdirmə çekləri, opsionları, özəlləşdirmə prosesində qeydiyyat rüsumları, girovlar və digər daxilolmalar) daxil oldu. Həmin dövrə qədər paylanılan çeklərin də 15.2 faizindən istifadə olunduğunu nəzərə alsaq, uzun illər ərzində yaradılan əmlakın bu səviyyədə dəyərsiz olması nə qədər realdır?[89]

Azərbaycandakı özəlləşdirməyə nəzər yetirdiyimiz zaman qeyd etməliyik ki, sovet dövründən miras kimi qalan müəssisələrin dövlət tərəfindən işlədilməsi üçün nə vəsait, nə də elə bir real şərait vardı.

Azərbaycanda, bu sahədə atılacaq birinci addım, mütəmadi olaraq zərər edən və dövlətin dəstəyinə möhtac olan dövlət müəssisələrinin, şərtlər nəzərə alınmaqla, tamamilə və ya qismən bağlanmalarının zəruriliyi idi. Bu həm də dövlət vəsaitlərinin səmərəli istifadəsi və qənaəti baxımından əhəmiyyət daşıyırdı. Qeyd edək ki, Meksikadakı özəlləşdirməni bu sahədə çox yaxşı bir nümunə kimi göstərmək olar. Azərbaycanda bu addımın vaxtında atılmaması səbəbindən dövlət müəssisələrinin bir-birinə olan qarşılıqlı borcları dəfələrlə artdı. Hətta bir sıra müəssisələrin faktiki olaraq heç bir fəaliyyəti olmadığı halda sadəcə borcları artırdı.

İkinci addım isə, rentabelli işləmək qabiliyyətinə sahib müəssisələrin işlədilməsinə çalışmaq istiqamətində olmalı idi. Bununla belə bir çox müəssisələrin dövlətin balansında qalması doğru sayılsa da, dövlətin idarəetməsində qalması real şərtlər baxımından düzgün sayılmazdı. Ona görə də, belə müəssisələrin icarəyə verilməsi doğru qərar olmaqla yanaşı bu sahədə ciddi ləngimələr uzun müddət davam etdi. 2001-ci il fevral

[89] Ibid.

ayının 1-nə olan məlumata görə dövlət əmlakının icarəyə verilməsi ilə əlaqədar bağlanmış müqavilələrə əsasən dövlət büdcəsinə 47 milyard 278 milyon manat (təqribən 11 milyon ABŞ dolları) vəsait daxil olmuşdu ki, bunun da 1 milyard 58 milyon manatı (təqribən 2,24 faizi) 2001-ci ilin yanvar ayının payına düşürdü. Doğrudur bu elə bir ciddi rəqəm olmasa da, hər halda dövlət bu mərhələdə üzərindəki yükün bir hissəsindən azad olmuşdur.

Bununla həmçinin müəyyən dərəcədə müəssisələrin sağlamlaşmasına və müəssisələrdə işləyənlərin iş yerlərini itirməmələrinə nail olmaq mümkün idi.

Atılacaq üçüncü addım isə, qalan digər dövlət müəssisələrinin özəl sektora transfer edilməsi, dövlətsizləşdirilməsi və ya populyar bir ifadə ilə özəlləşdirilməsi idi. Azərbaycanda 2001-ci ilin birinci yarısına qədər konkret olaraq, sənaye müəssisələrinin artıq 70 faizi özəlləşdirilmişdi. Lakin buna baxmayaraq özəlləşdirilən müəssisələr demək olar ki, işləmirdi. Yüngül sənayeyə aid 76 müəssisədən yalnız 6-sı 20 faiz istehsal gücü ilə işləyirdi ki, bu müəssisələr də Müdafiə Nazirliyinin, Almaniya və ABŞ-ın kiçik sifarişlərini yerinə yetirirdi.[90]

Özəlləşdirilən müəssisələrin səhmləri səhmdarların arasında paylandığından, müəssisələrə yeni texnologiyanın və investisiyaların cəlb edilməsi işlərində problemlər yaşanmaqda, səhmdarlar isə divident gözləməkdədirlər. Ənənəvi bazarların itirilməsi, əvvəlki ittifaq (Sovetlər Birliyi) tabeli müəssisələrlə əlaqələrin qırılması və s. kimi səbəblərlə yanaşı, istehsala başlaya bilməyən belə müəssisələrin əsas problemlərindən biri də idarəetmə sisteminin təkmilləşdirilməsi sahəsində müvəffəqiyyət əldə edə bilməmələridir.

---

[90] Əkbər Eldaroğlu, "Hökumət yüngül sənayenin dirçəldilməsi yollarını axtarırmı?", AMDF, *"Azərbaycan" Bülleteni,* №20 (140), 17 May 2001.

Müəssisələrin məhsuldar işləmələri üçün onların özəl sektora transfer edilməsi yetərli bir addım deyil. Eyni zamanda idarəetmə sistemi də yenidən qurulmalıdır. Bu baxımdan Fransadakı özəlləşdirmədən maraqlı bir misal çəkmək olar. Fransada bu problemi həll etmək məqsədilə «özək səhmdar qrupu» təşkil edilmişdi. Həmin qrupun tərkibinə idarəetmədə təcrübəli və iş həyatında təşəbbüskar xarakterə sahib olanlar, eyni zamanda səhm sahibi olan xarici müəssisələr daxil ola bilər. Xüsusilə bu metoddan dövlət müəssisələrinin bazasında yaradılmış səhmdar cəmiyyətlərin (artıq 2001-ci ilin yanvar ayının birinə olan məlumatda bu formada 1164 səhmdar cəmiyyətin yaradıldığı qeyd edilirdi) idarə edilməsində istifadə etmək mümkün idi.

Lakin orta və böyük özəlləşdirmədəki bu qədər yubanmadan sonra, 2004-cü ilin əvvəlinə qədər, Azərbaycanda əhalinin təqribən 100 min nəfəri səhmdara çevrilib ki, bu göstəriciyə görə də Azərbaycan MDB-də sonuncu yerlərdən birini tutur. Həmin tarixədək özəlləşdirmə prosesində paylanılan çeklərin cəmisi 35 faizindən istifadə olunmuşdu. Halbuki artıq əksər kiçik müəssisələr (30 min), eyni zamanda 1500 səhmdar cəmiyyəti özəlləşdirilmiş və 30 investisiya müsabiqəsi keçirilmişdi.

Xatırlatmaq istəyirik, İkinci Dünya müharibəsindən sonra, 1946-cı ildə Yaponiyada da özəl təşəbbüskarlığın inkişaf etdirilməsi, inhisarların (monopolların) aradan qaldırılması, sərvətlərini likvidləşdirmək və başlıcası «Xalq Kapitalizmi»nin yaradılması məqsədilə «Zəngin Ailə Quruluşları»nın (Money Clique) və Holdinqlərin dağıdılmasına və səhmlərinin xalqa satılmasına qərar verilmişdi. Lakin xalqın əlində yetərli vəsait olmadığından, səhmləri banklar almış və «Xalq Kapitalizmi» yerinə «Bankların Kapitalizmi» yaradılmışdı.[91]

---

[91] Tayyar Sadıklar, *Kalkınma Yolunda Japonya Örneği ve Türkiye*, Ayyıldız Matbaası, Ankara, 1971.

Azərbaycanda da xalqın əlində yetərli vəsait olmadığından nəinki «Xalq Kapitalizmi», bank sektoru inkişaf etmədiyindən heç «Bankların Kapitalizmi» də yarana bilməzdi. Bəs onda görəsən kapitalizmin hansı forması yarandı?

Əvvəl də qeyd etdiyimiz kimi, David Lane Rusiya nümunəsində Qərbdən gələn məsləhətçilərin ölkədə sürətli özəlləşdirmə və liberallaşdırmanın həyata keçirilməsi ilə birlikdə Anqlo-Sakson modelin mənimsənilməsinin əhəmiyyətini önə çəkdiklərini vurğulayır.[92]

Bu, əmtəə və əmək bazarı ilə tanışlığı, hökumətin iqtisadiyyata məhdud səviyyədə müdaxiləsini, iqtisadiyyatın xarici rəqabətə açılmasını və rubl üçün sərbəst məzənnəni zəruri edirdi. İqtisadi aktivlərin özəlləşdirilməsi isə özü-özünü motivə edən işgüzar təbəqənin formalaşması məqsədini daşıyırdı.[93]

Bu siyasət müvəffəqiyyətli olduğu təqdirdə iddia edildiyi kimi dövlət sosializminin institusional xüsusiyyətlərini təkrarlayacaq olan idari təbəqənin yenidən əmələ gəlməsinin qarşısını alacaqdı. Anqlo-Amerikan neo-liberalizmin mənimsənilməsi liderlik üçün rasional bir strategiya idi: bu köhnə idari təbəqənin siyasi və iqtisadi əsaslarının yıxılmasını rəsmiləşdirdi; daha sonradan isə qlobal rəqabət iqtisadi effektivliyi yüksəldəcək və sənayenin müqayisəli üstünlüklər əsasında yenidən inşasını yayğınlaşdıracaqdı.[94]

Əslində Azərbaycana da müstəqilliyinin ilk illərindən etibarən tövsiyə edilən model bu idi. Lakin heç də hər şey düşünüldüyü kimi sadə deyildi. Bizdə köhnə idari təbəqənin siyasi-iqtisadi əsaslarının yıxılması çox sürətlə baş versə də, neo-liberalizmin mənimsənilməsinin elə də asan bir məsələ olmadığı anlaşıldı.

---

[92] Lane, op. cit., s.485.

[93] Ibid.

[94] Ibid., səh.486.

# Qərb niyə təkamül istəyir?

Azərbaycanda bir çox sosial-iqtisadi problemlərin olduğu kimsəyə sirr deyil. Amma tarixən və günümüzdə bir çox ölkələrdə sosial-iqtisadi problemlər olduğu halda, heç də hər ölkədə inqilab olmur. "Aşağılar yuxarıdakıların idarə etdiyi kimi yaşamaq istəmir, yuxarılar isə başqa cür idarə edə bilmir." şəklindəki məşhur düşüncə belə sadəcə inqilabi şəraiti açıqlayır, mütləq inqilab olacağını demir.

İnkişaf etmiş Avropa ölkələrinin tarixi ilə tanışlıq göstərir ki, zəngin təbəqənin (yerinə görə feodalların, burjuaziyanın, aristokratların, bəzən din xadimlərinin və s.) dəstəyi olmadan aşağıların inqilab cəhdi bir qayda olaraq uğursuzluğa düçar olur. Maraqlı cəhət ondan ibarətdir ki, aşağılar adətən "sosial-iqtisadi bərabərlik", "ədalət" şüarları ilə ortaya çıxırlar, yalnız zəngin təbəqənin dəstəyindən sonra bu mübarizə haqq və azadlıqlar uğrunda mübarizəyə dönüşür. Məsələn, 1789 Fransa Burjua İnqilabında "sərbəstlik, bərabərlik və qardaşlıq" şüarı ilə yola çıxan burjuaziya, torpaq ağasına qarşı kəndlilərə "sərbəstlik", şəhər aristokratiyasına qarşı "bərabərlik" və Kilsənin Xristian dininə dayanan Tanrının qardaşlığına qarşı da, yurddaşlığa (torpağa) dayanan "qardaşlıq" təklif edirdi. Beləliklə, həm aşağıların dəstəyini qazanmış oldu, həm də "sosial-iqtisadi bərabərlik" şüarını incə üslubla arxa plana keçirdi.[95]

Azərbaycan tarixi də maraqlı faktlarla zəngindir:

III əsrdə Sasanilər vaxtında, əsasını Maninin qoyduğu və 481-529-cu illəri əhatə edən Məzdəkin başçılığı altındakı Məzdəkilər hərəkatı ədalətli cəmiyyət qurmağı, insanlar arasında əmlak bərabərliyi yaratmağı irəli sürürdü: "Allah insanlara

[95] Natiq Sabiroğlu, "Burjuaziya və Demokratiya", *IqtisadNet*, 21 may 2004, http://www.iqtisad.net/ns007.htm, (01.03.2006).

ona görə əmlak vermişdir ki, onlar bunu öz aralarında bərabər bölüşdürsünlər". Təbii ki, təbiətin rəqabətçi ruhuna belə zidd olan bir şüarı zəngin feodalların dəstəkləməsi mümkün deyildi. Lakin Sasani hökmdarı I Qubadın hakimiyyətinə tabe olmaq istəməyən iri feodalları ram etmək üçün özünə sosial dayaq axtarışı və bu səbəbdən məzdəkiləri himayə etməsi hərəkatın geniş vüsət alması ilə nəticələndi. Daha sonralar Şah öz hakimiyyətini artıq möhkəmləndirmiş olduğundan Məzdəkilərə ehtiyacı qalmamışdı. 529-cu ildə Məzdək edam edildi, məzdəkilərdən 80 mindən artıq adam öldürüldü.

VIII əsrin sonlarında isə sosial bərabərlik uğrunda mübarizə aparan Xürrəmilər hərəkatı ortaya çıxdı. Məqsədi maddi nemətləri insanlar arasında bərabər bölüşdürmək, torpağı və istehsal vasitələrini hakim təbəqənin asılılığından xilas etmək olan Xürrəmilər hərəkatına da zəngin feodalların dəstək verməyəcəkləri aydın idi. Amma Babəkin başçılığından sonra hərəkatın ərəb əsarətinə qarşı mübarizəyə fokuslanması, sərbəstlik istəyən iri və orta feodalların da hərəkata qoşulmasına səbəb oldu. Nəticədə Xürrəmilər hərəkatı xalq azadlıq hərəkatına dönüşdü. Daha sonralar isə, Babəkin sabiq tərəfdarları və müttəfiqləri olan yerli iri feodallar müəyyən səbəblərdən tədricən ondan uzaqlaşdılar və hərəkatının süqutu qaçılmaz oldu.

Azərbaycanda sosial-iqtisadi bərabərlik, maddi nemətlərin insanlar arasında bərabər bölüşdürülməsi, torpağın və istehsal vasitələrinin mülkədar və sahibkarların əlindən alınması uğrunda bir mübarizə dalğası da XX əsrin əvvəllərində ortaya çıxdı. Bu dəfə, xüsusilə neft sənayesi şəhəri olan Bakının etnik tərkibi zəngin fəhlə təbəqəsi arasında inqilab abu havası hakim idi. Rusiya bolşevizminin birbaşa dəstəyi və müdaxiləsi sayəsində həmin "proletar inqilabı" "qələbə" ilə nəticələndi.

Göründüyü kimi, bəhs etdiyimiz üç etiraz hərəkatının ümumi şüarlarına baxmayaraq geniş vüsət almasında müxtəlif həlledici amillər rol oynamışdı: Məzdəki hərəkatında hökmda-

rın dəstəyi, Xürrəmilər hərəkatında orta-iri feodalların dəstəyi və "proletar hərəkata" xarici dəstək. İlk ikisi daxili amillər, üçüncüsü xarici amildir. Tarixi təcrübələr sadaladığımız üç amildən ən az birinin olmadığı şəraitdə inqilabın "uğur" qazana bilməyəcəyini göstərir. Ayrıca, bir inqilabın uğur qazanması hələ məqsədinə çatması demək deyil. Məsələn, Sovet Sosialist İnqilabı "uğur" qazansa da uzun illər sonra anladıq ki, inqilab "məqsəd"inə çata bilməyib.

Azərbaycanda yuxarıda göstərdiyimiz iki həlledici daxili amil mövcud deyil. Yəni, nə hakimiyyətin inqilabi dəyişikliklər etmək arzusu var, nə də ki hakimiyyətdən narazı və inqilab etmək arzusunda olan zəngin-burjua təbəqəsi ortada görünmür. Belə çıxır ki, nəzəri olaraq Azərbaycanda xarici dəstək hesabına inqilab ola bilər. Yeri gəlmişkən qeyd edək ki, təcrübəli dövlətlər bir ölkədə inqilab etmək istədikləri zaman heç də bütün xalqın ayağa qalxmasına ehtiyac hiss etmirlər. Onlar "bir bardaq suda fırtına" qoparmaqda pərgardırlar. Həmçinin, rəngli inqilabların təcrübəsi də göstərir ki, hakim elitanın parçalanması halı yalnız ciddi xarici dəstəkdən sonra baş verir.

Bəs xarici dövlətlərin (konkret olaraq dəbdə olan rəngli inqilabların himayəçilərinin) Azərbaycanda inqilab etmək fikirləri varmı? Və ya hansısa iqtisadi göstəricilərə baxaraq əcnəbilərin belə bir tələbinin olub-olmadığını müəyyənləşdirmək mümkündürmü?

Məlumdur ki, intensiv iqtisadi artıma nail olmaq üçün iqtisadiyyata sürətli kapital qoyuluşunu təşkil etmək lazımdır. Harrod-Domar iqtisadi artım modelindən kapital/məhsul əmsalı (capital/product coefficient) bizə 1 dollarlıq məhsul üçün nə qədər kapital qoyuluşuna ehtiyac olduğunu göstərirdi. Bu əmsalın böyüklüyü o ölkədə məhsuldarlığın aşağı olduğu an-

lamına gəlir. Məsələn, ABŞ-da bu əmsal təqribən 1 olduğu halda, inkişaf etməkdə olan ölkələrdə 5-ə yaxındır.[96]

Kapital qoyuluşlarının həcmini isə yığımlar müəyyənləşdirir. Azərbaycan bütün tarixi boyu yetərsiz kapital yığımı sıxıntısı çəkmişdir. Son illərdə ölkə kapital yığımı yetərsizliyini birbaşa xarici investisiyalar (yəni, xarici yığımlar) vasitəsilə qarşılamağa çalışsa da, nə var ki, xarici investisiya əsasən neft sektoruna yönəlməkdədir. Neft sektoruna yönələn xarici investisiyaların isə makroiqtisadi multiplikator effekti və məhsuldarlığı çox aşağıdır.

Məsələn, 2004-cü ilin ilk 8 ayında Ümumi Daxili Məhsul (ÜDM) 7,8 milyard dollar, ölkə iqtisadiyyatına ümumi kapital qoyuluşunun həcmi isə 3,2 milyard dollar səviyyəsində olmuşdur. İnvestisiyaların 82,8 faizini xarici investisiyalar təşkil etmiş və bunun da 90 faizindən artığı neft sektoruna yönəlmişdir. Toplam investisiyaların ÜDM-yə nisbəti 41 faiz, xarici investisiyaların ÜDM-yə nisbəti 34 faiz olduğu halda iqtisadi artım 9 faiz olmuşdur. Dolayısı ilə kapital/məhsul əmsalının təqribən 4,6 olması məhsuldarlığın nə qədər aşağı olduğunu ortaya qoymaqdadır.[97]

Azərbaycanda,

- kapital yığımı yetərsizliyi, iqtisadi artımın əsasən xarici yığımların (xarici investisiyaların) hesabına reallaşması,
- kapital/məhsul əmsalının yüksək olması, dolayısı ilə məhsuldarlığın aşağı olması səbəbindən iqtisadi artım üçün daha çox xarici investisiyaya ehtiyacın olması,
- xarici ticarət əməliyyatlarının həcmində neft sektorunun, bir başqa ifadə ilə xarici neft şirkətlərinin üstünlüyü,
- xaricə açılma nisbətinin ((ixracat + idxalat)/ÜDM) yüksəkliyi,

---

[96] İlkin Sabiroğlu, "Üfüqdə "inqilab" görünmür", *"525-ci qəzet"*, 4 may 2005.
[97] Ibid.

- ölkədə adambaşına düşən xarici investisiyaların yüksəkliyi ölkə iqtisadiyyatında xarici şirkətlərin ciddi rola sahib olduğunu göstərir. İqtisadi iqtidar istər-istəməz siyasi iqtidara da təsirsiz ötüşmür.[98]

Hər zaman qeyd etdiyimiz kimi, qloballaşan dünya qloballaşan beynəlxalq şirkətlərin marağını təmsil edir. Bu marağı düzgün qiymətləndirə bilməyən ölkələrdə isə siyasi kataklizmlər qaçılmaz hala gəlir.

Azad seçki demokratiyanın başlıca şərtlərindəndir. Amma azad seçkilərin keçirilməsi hələ demokratiya demək deyil. Türkiyədə ilk demokratik seçki 1946-cı ildə gerçəkləşdiyi halda, ölkə hələ də çağdaş standartlarda demokratiya yetərsizliyinin sancısını çəkir. Məlum olduğu kimi, Türkiyə, hər on ildə bir "askeri darbeler"in yaşandığı bir ölkə kimi tanınıb. Türkiyənin tanınmış elm adamlarından Mehmet Altan özünün "Darbelerin Ekonomisi" adlı əsərində dünya kapitalist sistemi ilə Türkiyədəki iqtisadi gəlişmələrin toqquşduğu məqamlarda belə "darbe"lərin ortaya çıxdığını maraqlı təhlillərlə ortaya qoyur. Müəllif faktlarla göstərir ki, Türkiyədə "darbe"lər kapital yığımlarının azaldığı, bir başqa ifadə ilə iqtisadi artımın xarici borclarla maliyyələşdirilmə səviyyəsinin yüksəldiyi dövrlərdə baş verir.[99]

Azərbaycan isə kapital yetərsizliyi problemini xarici kreditlər yerinə, neft sektoruna birbaşa xarici investisiyalarla aradan qaldırmağa çalışır. Xüsusi olaraq qeyd etmək lazımdır ki, Azərbaycanın kredit üzrə xarici dövlət borcunun adambaşına düşən məbləği 182 ABŞ dolları təşkil edir. Bu da keçmiş postsovet ölkələri ilə müqayisədə azdır.[100] Belə ki, Gürcüstanda bu rəqəm 429 dollar, yəni bizdən 2,3 dəfə çox, Qırğızıstanda 328

---

[98] Ibid.
[99] Mehmet Altan, *Darbelerin Ekonomisi*, İyi Adam Yayınları, İstanbul, 2001.
[100] "Azərbaycanın xarici dövlət borcu 1,515 mlrd. dollar həcmindədir", *"Üç Nöqtə" qəzeti*, №250 (977),.24 dekabr 2004.

dollar, yəni 1,8 dəfə çox, Rusiyada isə 833 dollar, yəni 4,5 dəfə çoxdur. Nəhayət, Ermənistanda adambaşına düşən borcun məbləği 1,7 dəfə artıq olmaqla 314 dollardır. Bu göstərici baxımından Ermənistan və hətta Rusiyada rəngli inqilab ehtimalı Azərbaycandan daha yüksəkdir.

Xarici borcun yüksək olması bir ölkənin istehsal etdiyindən daha artığını istehlak etməsi anlamına gəlir. Bu bir adamın borc alaraq qazandığından daha artıq xərcləməsi deməkdir. Həm borclu həm də güclü olmaq üçünsə beynəlxalq iqtisadi münasibətlərdə ABŞ kimi "kabadayı" olmaq lazımdır.

Bəs ABŞ-da demokratiya deyəndə nəyi başa düşürlər? 16-cı ABŞ Başqanı Abraham Lincoln 1863-cü ildə, tam vətəndaş müharibəsinin ortasında Amerikan idarəetməsini, "xalqın, xalq tərəfindən, xalq üçün" idarəetməsi şəklində tərif etmişdi. Bundan on üç il sonra, ilk dəfə Amerikadakı monopolist sərmayənin təmsilçisi olaraq Cümhuriyyətçi Partiyadan seçkilərə qatılan və seçkini Bushun "qazandığı" kimi qazanan Rutherford B.Hayesin 1876-cı ildə verdiyi tərif isə belədir: "Amerikan Hökuməti; artıq xalqın, xalq tərəfindən, xalq üçün idarə edilməsi deyildir; Amerikan Hökuməti; şirkətlərin, şirkətlər tərəfindən, şirkətlər üçün idarə edildiyi bir hökumətdir." Bu, bugünkü qloballaşmanın da mahiyyətinə uyğun tərifdir: "Standart Oil üçün yaxşı olan ABŞ üçün də yaxşıdır" və "ABŞ üçün yaxşı olan dünya üçün də yaxşı olmalıdır". Əgər sizin ölkənizi idarə edəcək yerli şirkətləriniz yoxdursa, bu boşluğu beynəlxalq şirkətlər böyük məmnuniyyətlə doldurmağa hazırdırlar.

Qərb ölkələrini Azərbaycanda neft şirkətləri təmsil etdiyindən onların inqilab istəyib-istəmədiyinə baxmaq lazımdır. Məsələ burasındadır ki, AXC-Müsavat hakimiyyətindən fərqli olaraq sonrakı hakimiyyət xarici neft şirkətlərinin maraqlarını "zərgər dəqiqliyi" ilə balanslaşdırmağı bacarıb. Birləşmiş Millətlərin Ticarət və İnkişaf Konferansının hazırladığı "Dünya İnvestisiya Raportu: 2004"ə görə, Azərbaycan 2001-2003-cü il-

lərdə dünya ölkələri arasında birbaşa xarici investisiyaların cəlb edilməsi performansı üzrə indeks sıralamasında 3-cü yerdədir.[101]

Böyük neft və qaz layihələrinin həyata keçirilməsi sayəsində Azərbaycanda ÜDM-nin bir neçə ilə ikiqat artacağı proqnozlaşdırılır. Kapital/məhsul əmsalının təqribən 4,6 olması isə iqtisadiyyata kapital qoyuluşlarının bunun təqribən beş qatı qədər artacağını göstərir. İldən-ilə ölkənin, xüsusilə neft sektoruna investisiyaların artan xətt üzrə inkişafı belə deməyə əsas verir ki, xarici şirkətlər Azərbaycanda "devrim" yerinə "evrim", yəni, inqilab yerinə təkamül formulunu müdafiə edirlər.

Yüz ildən artıqdır ki, neft, Azərbaycan xalqının (Cənubu Azərbaycanı da nəzərdə tuturam) taleyini müəyyənləşdirən mühüm amil kimi çıxış edir. Bu amili düzgün qiymətləndirə bilməyən heç bir siyasi qüvvə uğur qazana bilməyib.

V.İ.Lenin 1918-ci il iyunun 30-da İ.V.Stalinə yazırdı ki, almanlar... "Söz verirlər ki, türkləri Bakıya qoymasınlar, özləri də neft istəyirlər... Bakını əldə saxlamaq üçün indi ən ciddi imkanlar vardır. Neftin bir qismini, əlbəttə, verərik".

İ.V.Stalin M.C.Bağırov vasitəsilə Cənubi Azərbaycandakı vəziyyəti öyrənir və Seyid Cəfər Pişəvərinin liderliyindəki hərəkatı dəstəkləyirdi. 1945-ci ildə Pişəvəri ilə Bağırovun bu məsələlərlə bağlı Sovet Azərbaycanında görüşü də olmuşdu. Lakin 1946-cı ildə İran hökumətinə başçılıq edən Qəbavülmüş-Səltənə Sovet hökumətinin "birtərəfliliyini" əldə etmək üçün Moskvaya gedərək Stalinlə görüşdü. Danışıqlar nəticəsində Sovet hökumətinin Şimali İranda, o cümlədən Cənubi Azərbaycanda çoxdan arzuladığı neft axtarışı və çıxarılması konsessiyası haqqında müqavilə hazırlandı. Müqavilə 1946-cı il aprelin 4-də Tehranda imzalandı. Mayın 8-də isə Stalin Pişəvə-

[101] World Investment Report 2004, *United Nations Conference on Trade and Development*, səh.13., http://www.unctad.org/en/docs/wir2004_en.pdf.

riyə göndərdiyi məktubda Azərbaycanı tələblərindən geri çəkilməyə, "aza qane olmağa" çağırırdı. Sovet Dövləti BMT TŞ-nın tələbi ilə hərbi hissələrinin İrandan çıxarılmasını sürətləndirdi və mayın 8-də onu başa çatdırdı. Fədailərin mübarizəsi mərkəzi hökumət tərəfindən boğuldu. 1947-ci ildə isə Qəbavülmüş-Səltənənin nəzərdə tutduğu kimi parlament bu müqaviləni təsdiq etmədi, çünki mərkəzi hökumət artıq istədiklərini əldə etmişdi.

Belə faktları kifayət qədər artırmaq mümkündür. Görünən odur ki, keçmiş acı təcrübələrimizin əksinə, mövcud hakimiyyət neft amilindən çox ustalıqla istifadə etməyi bacarır. Artıq Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri fəaliyyətə başlayacaq. Həmçinin Qazaxıstanın da gələcəkdə BTC-yə qoşulacağı aydınlaşıb. Bu isə kəmərin rentabelliliyini artıracaq. Digər tərəfdən, hökumət neft amilindən beynəlxalq siyasətdə də, xüsusilə Dağlıq Qarabağ probleminin həllində irəliləyişə nail olmaq üçün intensiv şəkildə yararlanmağa çalışır.

Bu fikirlər ölkə prezidentinin (İlham Əliyev) çıxışından götürülüb: "... neft bizim üçün vasitədir. Mən hesab edirəm ki, biz bu vasitədən çox səmərəli istifadə etdik. Azərbaycan artıq dünyada tanındı. Ölkəmizə milyardlarla dollardan artıq sərmayə gətirilib qoyuldu. Azərbaycan öz iqtisadiyyatının neftlə bağlı olan digər sektorlarının da xeyrini götürdü, orada inkişaf müşahidə olundu. Azərbaycanda infrastruktur, xidmət sektoru sahəsində böyük irəliləyiş var. Minlərlə gənc vətəndaşımız xarici ölkələrdə, yaxud da xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən şirkətlərinin təşkil etdiyi kurslarda öz təhsilini təkmilləşdiribdir."[102]

Rəngli inqilablarla respublikaların demokratik respublikalara çevrilməsi istənir. Respublika latınca "Res publica" sözün-

---

[102] "Azərbaycanın Yeni Neft Strategiyası", *Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*, http://www.socar.gov.az/oilmen.php?define=oil_strategy&id=1, (10.02.2006).

dən gəlir, mənası "xalq üçün, xalqa aid" deməkdir. Demokratiya da eyni şey deyilmi? Demokratiya da latınca "Demos" (xalq) və "Cracy" (idarəetmə) kəlmələrindən yaranıb. Anlamı "xalq hakimiyyəti" deməkdir. Şimali Koreya isə, hətta "Koreya Xalq Demokratik Respublikası" adlanır, amma ölkədə demokratiya yoxdur.

Demək ki, zehniyyətlərdə inqilab olmayınca ölkələr demokratikləşmir. İlk rəngli inqilab Gürcüstanda baş verdi. Lakin son beynəlxalq hesabatlar Gürcüstanda iqtisadi azadlıqların çox aşağı səviyyədə olduğunu, işgəncələrin davam etdiyini ortaya qoyur. Çünki hakimiyyət dəyişsə də, zehniyyət dəyişməyib. Zehniyyət dəyişməsi isə hər bir vətəndaşda hiss olunmalıdır.

Müstəqillik sonrası Azərbaycanın daxili siyasi ab-havası da demokratik seçki mövzusu üzərindəki qısır müzakirələrə fokuslanıb. Demokratiya vətəndaşların istədikləri şəxsləri seçməsi və seçdikləri şəxslərin onların ödəmiş olduqları vergilərlə onlara necə xidmət etmələrinə nəzarət etmələri deməkdir. Elə "rifah dövləti" də "xalqın vergiləri ilə bəslənən dövlət modeli" deməkdir. Hələlik Azərbaycan cəmiyyətində demokratiyaya sifariş yoxdur. Çünki, dövlət büdcəmizdə birbaşa və dolaylı şəkildə neftin payı yüksək olduğundan "neft ilə bəslənən dövlət modeli" yaratmışıq. "Forbes" jurnalındaki bir məqalədə qeyd olunur ki, Səudiyyə Ərəbistanı kimi bir sıra neftlə zəngin ərəb ölkələrində dövlət, ümumiyyətlə, gəlir vergisi almırmış. Büdcə neft gəlirləri hesabına formalaşır. Vətəndaş vergi ödəmədiyi üçün dövlətdən hansısa ciddi xidmətlər gözləmir və vətəndaşla dövlət arasındakı qarşılıqlı öhdəliklər inkişaf edə bilmir.[103] Azərbaycanda da vergi ödəyən cəmiyyət modeli ortaya çıxara bilmədiyimizdən, xarici ekspertlər ölkədə demokrati-

[103] Ömer Taşpınar, "Petrol ve Arap ekonomileri", *"Forbes-Türkiye" jurnalı,* Oktyabr 2005, səh.33.

yadan daha çox neft gəlirlərinin formalaşmasında və xərclənməsində şəffaflıq məsələsini qabardırlar. Belə bir vəziyyətdə müxalif siyasi partiyaların mütəmadi olaraq qabartdığı demokratik seçki məsələsi cəmiyyət üçün maraqsız görünür. Çünki vergi ödəyən cəmiyyət olmadığımız üçün demokratiya da bizi az maraqlandırır. Hamı gözünü dikib neft gəlirlərinə...

Hazırda ölkədə 18 mindən bir qədər artıq vergi ödəyicisi var və vergi ödəyicilərinin təxminən 90 faizi sadələşdirilmiş vergi ödəyicisidir. Qeyd edək ki, ümumi gəliri 24.700 min yeni manat həddini aşmayanlar sadələşdirilmiş vergi ödəyicisi hesab edilir.[104]

Hələ XIX əsrin əvvəllərində yaşamış Frederic Bastiat deyirdi ki, "dövlət, hər kəsin başqasının hesabına yaşamağı düşündüyü xəyali bir qurumdur."[105] Biz də hər kəsin neftin hesabına yaşamağı xəyal etdiyi bir dövlət qurmuşuq...

Bu baxımdan yüksək vəzifəli dövlət rəsmisinin fikirləri xüsusi maraq doğurur: "Qərb yaxşı bilir ki, demokratiya dəyərləri qısa müddətə formalaşmır, hər xalqın və ölkənin özünəməxsus xüsusiyyəti var. Bu proses aşağıların və yuxarıların birgə səyləri və iqtisadiyyatın yüksəlişi nəticəsində baş verir. Demokratiya ayrı-ayrı adamların və təşkilatların arzusu ilə yaranmır. Bütün cəmiyyət bunu qəbul etməli, ona hazır olmalıdır. Azərbaycan üçün belə təkamül yolu ən optimal, əlverişli yoldur..."[106]

---

[104] "Ölkədə 18 mindən çox vergi ödəyicisi var", *"Ayna" qəzeti*, 8 mart 2006.

[105] Eğilmez və Kumcu, op. cit., səh.35.

[106] Ramiz Mehdiyev, *"2005-ci il parlament seçkiləri: İlkin təhlil"*, "Azərbaycan" qəzeti, 2 fevral 2006.

# Bilgi kapitalının nə fərqi var?

Əvvəlki bölümlərdə qeyd etdiyimiz kimi, müasir dünyada həm kapital və investisiyalar, həm də əmək ehtiyatları əsasən yoxsul iqtisadiyyata sahib ölkələrdən zəngin iqtisadiyyata sahib ölkələrə doğru yönəlir. Çünki, bilgi (informasiya) çağını yaşayan zəngin iqtisadiyyata sahib ölkələrdə təhsilin və ən yeni texnologiyaların istehsal prosesinə tətbiqi sayəsində çox yüksək məhsuldarlıq həddi əldə edilməkdədir.

Artıq dünya əhalisinin 17 faizini təşkil edən və gündən-günə zənginləşən qərb ölkələrini bir sual düşündürür: İstehsal etdikləri yüksək texnologiya məhsullarını kimə satacaqlar?

Yüksək texnologiya məhsullarını sata bilmək üçün dünya əhalisinin digər hissəsinin də rifah səviyyəsi yüksəldilməlidir. Bəs, dünyada "demokratiyadan, insan haqlarından və sərbəst bazar iqtisadiyyatından" nəsibini almayan, zəif inkişaf etmiş ölkələrin vətəndaşları bu məhsulları ala bilərmi? Belə olan vəziyyətdə dünya kapitalist sistemi necə davranmalıdır?

O, eynilə "diş pastası" satan bir şirkət kimi davranır. Necə ki, "diş pastası" satan bir şirkət öz maraqlarına görə, insanları gündə ən az üç dəfə dişlərini fırçalamağa dəvət edirsə, dünya kapitalist sistemi də qloballaşan dünyanın yoxsul bölgələrinin inkişafı üçün "demokratiyanı, insan haqlarını və sərbəst bazar iqtisadiyyatını" təklif edir. Əks halda özünün yüksək texnologiya məhsullarını sata bilməz.[107]

Onda nəyə görə ABŞ və qərb neft şirkətləri bir çox ölkələrdə demokratik stabillik yerinə iqtisadi sabitlik istəyirlər? 2002-ci ildə Venesuelada Hugo Chavezi devirmək istəyən ABŞ və

---

[107] İlkin Sabiroğlunun "Qərb neft şirkətləri və Azərbaycanda demokratiya" mövzusuna həsr olunmuş mətbuat konfransındakı məruzəsindən, 19 sentyabr 2003, http://www.iqtisad.net/is007.htm, (01.03.2006).

xarici neft şirkətləri media patronunu, bürokratların və hərbçilərin bir hissəsini satın almışdılar.[108] Lakin müsbət nəticə əldə edə bilmədilər. Bu barədə amerikan mətbuatı da geniş şəkildə yazdı. Səbəb isə ondan ibarət idi ki, hökumət, nefti xarici şirkətlərin inhisarına buraxmaq istəmirdi. Ümumiyyətlə, Qərb neft şirkətləri fəaliyyətlərinə ciddi ictimai nəzarətin olmasından da xoşlanmazlar.

Bəs ABŞ-ın ikili mövqeyini necə başa düşmək olar? ABŞ dəfələrlə bəyan edib ki, onun iqtisadi maraqları təhlükəsizlik maraqlarından sonra gəlsə də, siyasi maraqlarından öndə gəlir. ABŞ-ın iqtisadi maraqları isə, konkret olaraq qloballaşan amerikan burjuaziyasının maraqlarıdır. Bu gün ABŞ dünyada qlobal amerikan burjuaziyasının təmsilçisi kimi çıxış edir.

Lakin amerikan burjuaziyası da yekcins deyildir. J.F.Kennedy cinayətində olduğu kimi ABŞ-da iki sərmayə qrupu qarşı-qarşıya dayanır: neft-silah lobbisi və digərləri. Bu gün də silah və neft burjuaziyasının maraqları ilə İnformasiya və Kommunikasiya Texnologiyaları (ICT) sektorunu təmsil edən burjuaziyanın maraqları toqquşur. Qlobal dünya düzənində də birincisi maraqlarına uyğun olaraq bəzən sabitlik, bəzən də qeyri-sabitlik istədiyi halda, ikincisi demokratiya, insan haqları və sərbəst bazar iqtisadiyyatı tələb edir.

İki burjuaziya qrupu arasındakı ziddiyyətlər siyasi hökumətin də mövqeyinə təsir edir. Məsələn, Bill Clinton daha çox İnformasiya və Kommunikasiya Texnologiyaları (ICT) sektorunun maraqlarını təmin edirdi. Onun dönəmində bütün ibtidai və orta təhsil məktəblərinin 95 faizi internetə qoşuldu. 22 milyon insan işlə təmin edildi. Clintonun "Davos 2000" forumundakı çıxışında belə bir cümlə vardı: "Yeddi il əvvəl prezident seçildiyim vaxt, bütün internetdəki səhifə sayı sadəcə 50

---

[108] Erol Manisalı, *Dünyada ve Türkiye'de Büyük Sermaye*, Derin Yayınları, 3-cü nəşr, İstanbul, 2002, səh.124.

idi. Bu gün tam 50 milyon səhifə var."[109] Bu baxımdan Bill Clintonla Bill Gatesin dostluğu heç də təsadüfi qarşılanmamalıdır.

Lakin Bushun prezident seçilməsi ilə birlikdə informasiya çağı ilə bağlı müzakirələr arxa plana keçdi. 11 sentyabr hadisələri baş verdi. Harada neft varsa Bush administrasiyasının diqqəti oraya yönəldi. O cümlədən Azərbaycana da diqqət artırıldı. Təbii ki, bu diqqət Qarabağ Probleminin həlli istiqamətində deyil, ölkədə sabitliyi qoruyaraq qərb neft şirkətlərinin rahat fəaliyyətinə yönəlmişdi. Azərbaycan hökumətinin bu maraqlardan Qarabağ probleminin həllində istifadə etməsi isə elə də asan olmayacaq. ABŞ, nə qədər ki, İraqın neft ehtiyatlarına nəzarəti ələ keçirə bilməmişdi orada demokratiya, insan haqları və sərbəst bazar iqtisadiyyatı istəyirdi. İndi isə orada da daha çox sabitlik istəyir.

Prezident Bush Amerikanın neft və silah burjuaziyasının təmsilçisidir. O, Texasdakı Harken neft şirkətinin rəhbəri olub. Prezidentin köməkçisi Dick Cheney də öz növbəsində Halliburton Co. ilə Schlumberger Ltd. neft şirkətlərində İcraçı Direktor vəzifəsini icra edib. Eyni zamanda indiki Ağ Ev administrasiyasında silah sənayesinin nümayəndələri də təmsil olunub.

Nobel Barış mükafatı sahibi Oscar Ariasa görə: "ABŞ-ın demokratik olmayan ölkələrə silah ixracı ciddi artım göstərməkdədir. ABŞ-da silah sənayesi federal hökumətdən artan ölçüdə subvensiya almaqdadır." "Bu gün ABŞ-da bir kompüter almaq üçün gününüzün yarısını ayırmalısınız. Silah almaq istəsəniz isə yarım saat vaxt ayırmanız yetərlidir."

Texas Üniversitetindən Professor Robert Jensenə görə, İraq savaşı, "Bushun, Ramsfeld və Chenneyin savaşı" idi. O, prezi-

---

[109] "Remarks by the president at world economic forum", http://canberra.usembassy.gov/hyper/2000/0131/epf101.htm, (01.03.2006).

dentin köməkçisinin və müdafiə nazirinin neft şirkətləri və silah sənayesi şirkətlərindən gəldiklərini xüsusi vurğulayaraq, savaşdan ən qazanclı çıxan qrupların da bu şirkətlər olduğunu qeyd edib. İraq, dünya neft rezervlərinin 10.7 faizinə sahibdir. Əbəs yerə bu iki lobbi Bushun bir neçə yüz səs fərqilə və məhkəmə qərarıyla qazandığı prezident seçkilərinə 120 milyon dollar maliyyə dəstəyi təşkil etməmişdilər.

Labirintdən çıxış yolu nədir?

Qərb kapitalizmi üçün digər ölkələrdə demokratiya, yalnız öz maraqları ilə üst-üstə düşdüyü zaman əhəmiyyətlidir. Ümumiyyətlə, neft sektoruna yönələn xarici kapital mahiyyətcə bilgi çağının xüsusiyyətlərini özündə ehtiva edən xarici kapitaldan fərqlənir. Mütəxəssislər dünyadakı mövcud neft rezervlərini və illik istehsal-istehlak miqdarlarını əsas alaraq neftin 40 il sonra tükənəcəyini qeyd edirlər. Azərbaycan çağdaş dünyadan hələ 40 il də təcrid olunmaq istəməyirsə bilgi çağının kapitalını cəlb eləmək üçün təhsil sistemini İrlandiyada olduğu kimi informasiya çağının tələblərinə uyğunlaşdırmalıdır. Kompüter, informasiya çağının görünən tərəfidir və o bizim bilgini əldə etməmizi asanlaşdırır. İnformasiya çağında təhsil sisteminin vəzifəsi isə, həmin bilgini təhlil edə biləcək, azad düşünə bilən beyinləri hazırlamaqdır.

Sovetlər Birliyinin dağılmasının başlıca səbəbi də, sistemin azad düşüncəyə qarşı olması idi. İranda da kompüter var, amma azad düşüncə yoxdur. Ona görə orada internetdən, peyk antenalardan qorxurlar. Çində isə, bir internet klubda yanğını bəhanə edərək bütün internet klubları bağlamaq istəyirdilər.

Azərbaycan çağdaş dünya ilə öz arasındakı fərqi azaltmaq üçün təhsil sistemində köklü islahatlar aparmalıdır. Əks təqdirdə ölkənin qeyri-neft sektorunu inkişaf etdirmək və buraya bilgi çağının kapitalını cəlb etmək müşkülə çevriləcək. Təkamül isə, "addım-addım" şəklində olsa da müşahidə edilməkdədir. Artıq ixracda neft və neft məhsullarının payı 76 faizə qə-

dər aşağı düşüb.[110] Büdcənin həcmi artdıqca qeyri-neft sektoru üzrə büdcə daxilolmaları da artır. Məktəblər kompüterləşdirilir, yeni məktəblər tikilir. "Microsoft" Zaqafqaziyada ilk ofisini Azərbaycanda açacağını bəyan edib.[111]

[110] "Ötən il ölkənin ixracının 76%-dən çoxu neft və neft məhsullarının payına düşübdür", *AssA-İradə*, 2 fevral 2006.
[111] "Microsoft şirkəti Cənubi Qafqazda ilk ofisini Azərbaycanda açacaq", *APA*, 6 fevral 2006.

# Yeni yanaşma zərurəti

Marksist terminologiyada burjuaziya proletar sinfini istismar edən, böyük həcmli sərvət və mülk sahibi olan şəxsləri ifadə edir. Ona görə də sosializmdə bizə təlqin edilirdi ki, burjuaziya istismarçıdır. Elə bir cəmiyyət formalaşdırılırdı ki, orada kimsə kimsəni istismar etməyəcək. Tarix isə Amerikanın keçmiş prezidenti John Kennedynin məsləhətçisi, iqtisadçı John K.Galbraithı haqlı çıxardı: "Kapitalizmdə insan insanı istismar edir. Kommunizmdə isə bunun tam əksi olur."[112] Yəni, kommunizmdə də insan insanı istismar edir.[113] Sadəcə burada kapitalizmdən fərqli olaraq istismarçı təbəqə kommunist bürokratiyası idi...

Lakin bürokratiyanın burjuaziyanın yerini alması, yəni burjualaşması halı sadəcə sosialist sistemlərdə baş vermir. Demokratiyanın və sərbəst bazar iqtisadiyyatının yerləşmədiyi bütün ölkələrdə həqiqi burjuaziya (buna milli burjuaziya da deyə bilərsiniz) formalaşmır, onun yerini imtiyazları ilə böyük sərvət əldə edən bürokratik burjuaziya (məmur burjuaziyası) doldurur. Bəs "məmur burjuaziyası" ilə milli burjuaziyanın fərqi nədir?

Araşdırmalar göstərir ki, sərvətin qazanılma forması, onun xərclənmə formasını da müəyyənləşdirir. Eynilə istehsal formamızın istehlak formamızı müəyyənləşdirdiyi kimi. Əgər bir sərvət sahibi sərvətini gəlir-zərər riskinə qatlanaraq, istehsal prosesinə qoşularaq əldə edirsə, paralel olaraq, özündə iş adamı xüsusiyyətlərini də formalaşdırır. Yox, əgər məmur burjuaziyası nümunəsində olduğu kimi, heç bir iqtisadi fəaliyyətə

---

[112] Eğilmez və Kumcu, op. cit., səh.133.

[113] Frederic Bastiat, *Hukuk*, Tərcümə: Yıldıray Arsan, LiberteYayınları, Ankara, 2003, səh.21.

qatılmadan, zənginliyini korrupsiya və rüşvətlə əldə edirsə, o zaman belələrində nə iş adamı xüsusiyyətləri, nə də iqtisadi təşəbbüskarlıq ruhu inkişaf edər.

Bir anlığa təsəvvür edin ki, heç bir zaman iş adamı kimi fəaliyyət göstərməyən sadə bir vətəndaşın təsadüfən aldığı lotereya biletində bəxti gətirir və çox zəngin bir şəxsə çevrilir. Bu şəxs istehsaldan, biznesdən anlamadığından, sərvətini böyük ehtimalla kefə, əyləncəyə və lüks malların istehlakına sərf edəcək. Böyük bizneslə məşğul olmağa çalışsa, təcrübəsizliyindən müvəffəqiyyət qazanma şansı çox azdır və adətən, belə bir istək də olmur. Əgər bir az rasional düşünmə tərzi varsa, pulunu ya banka qoyub faizini, ya da daşınmaz əmlaka yatırıb kirayə haqqını alacaq.

Məmur burjuaziyasının hakim olduğu bütün cəmiyyətlərdə, bir-iki istisna xaricində, zəngin bürokratların hamısı belə davranır. Neftlə zəngin ərəb ölkələrindəki burjua rolunda çıxış edən kral və məmurların da sərvətləri başda ABŞ olmaqla, inkişaf etmiş qərb ölkələrinin banklarındadır.

Qısası, məmur kapitalizminin hökm sürdüyü dövlətlərdə sərvət iqtisadi kateqoriyadan daha ziyadə siyasi kateqoriyadır. Yəni rifah səviyyəsi əmək və istehsal ölçüsü ilə deyil, bürokratik iyerarxiyanın daha yüksək pilləsində təmsil olunmaqla və ya bu pillədəkilərlə imtiyazlı ünsiyyət imkanları ilə ölçülür.

Məharət həmin "məmur burjuaziyası"nın kapitalını ölkə iqtisadiyyatına yönəltməyi bacarmaqdadır. Doğrudur, belə kapitala cəmiyyətin münasibəti bir mənalı deyil. Bəziləri ümumiyyətlə həmin kapitalın müəyyənləşdirilərək müsadirə edilməsinin tərəfdarıdır. Digərləri isə bu kapitalın Azərbaycan iqtisadiyyatına yönəldilməsinin zəruri olduğunu deyir və bunun ölkədə istehsalın və məşğulluq səviyyəsinin yüksəldilməsində müsbət rol oynayacağını düşünür.

Belə bir məsəl var ki, "imanla paranın kimdə olduğu bilinməz". Ona görə də, bu kapitalın müəyyənləşdirilməsi və mü-

sadirəsi çox qəliz məsələdir. Bunda uğur əldə etmiş ölkə nümunəsi bizə məlum deyil.

Buna baxmayaraq müxalifət uzun müddət bəhs edilən kapitala qarşı aqressiv münasibət ortaya qoymuş və nəticədə bu yanlış münasibət bumeranq effekti vermişdir: "Radikal müxalifətin mahiyyətini araşdırarkən onun qisasçılıq mahiyyətini unutmamalıyıq. Bu müxalifətin liderləri hesab edirlər ki, əsassız radikallıqla və qisasçı çağırışlarla insanların narazı hissəsini öz tərəflərinə çəkəcəklər. Müxalifətdən olan namizədlər hakimiyyətə gəldikləri təqdirdə, cəmiyyət həyatının bütün sahələrini təftiş edəcəklər, varlı adamlara qarşı mübarizə aparıb, onların varidatını əlindən alıb xalqa paylayacaqlar. Görünür, bolşeviklərin təcrübəsi radikal müxalifət üçün çox xoşdur..."[114]

Halbuki ən doğru addım bu vəsaiti ölkə iqtisadiyyatına cəlb edə bilməkdir. Axı kapitalsız kapitalizm qurmaq mümkün deyil. Dövlətin birbaşa istehsal prosesinə daxil olaraq, dövlət kapitalizmi yaratmaq təşəbbüsü isə dünyanın inkişaf dinamikasına zidd olardı. Həm də bunun üçün kapital ehtiyatlarımız yetərli deyil. Sadəcə Neft Fondunun hesabına qeyri-neft sektorunu inkişaf etdirməyin mümkünlüyünə inanmaq isə sadəlövhlük olar.

Çıxış yolu xarici kapitalı məmur burjuaziyasının kapitalı ilə birləşdirərək, ölkə iqtisadiyyatına cəlb etməkdir. Bu ölkənin iqtisadi inkişaf xəttini düzgün müəyyənləşdirməklə yanaşı, keçmiş bürokratiyanın əlində cəmlənmiş kapitaldan faydalanmağın ən düzgün yoludur. Beynəlxalq informasiyanın toplanmasında və təcrübənin transferində xarici kapital önəmli yer tutmaqdadır. Eyni zamanda xarici kapital neft sektorundan fərqli olaraq yerli ortaq olmadan qeyri-neft sektoruna daxil olmaqda hər zaman tərəddüd edəcək. Bütün ölkələrdə yerli ortaq xarici kapitala bələdçilik edir, əvəzində isə yerli ortaq öz

---

[114] Mehdiyev, op. cit., 2 fevral 2006.

kapitalına zəmanəti yalnız öz ölkəsinin hüquq sistemindən deyil, həmçinin beynəlxalq hüquq sistemindən alır.

Əslində 1980-ci illərdə Türkiyədə Turqut Özalın həyata keçirdiyi və "Özalizm" adlanan cərəyanın da mahiyyətində bu dayanırdı. "Türkiyədə 1980-dən sonra tətbiq edilən liberal iqtisadi siyasət xarici sərmayə daxilolmalarına imkan yaratdı".[115] Lakin məmur və dövlət kapitalizmi buna qarşı ciddi müqavimət göstərdiyindən sonralar Türkiyənin ölkə iqtisadiyyatına cəlb edə bildiyi illik birbaşa xarici investisiyaların həcmi simvolik səviyyədə aşağı olmuşdur. Bu səbəbdən Erdoğan hökuməti "Özalizm" xəttini inkişaf etdirir. Son illərdəki özəlləşdirmələrin də sayəsində birbaşa xarici investisiya həcmində artışlar özünü göstərməkdədir.[116]

Milli burjuaziyanın formalaşmadığı cəmiyyətlərdə isə dinamizm olmur. Milli burjuaziya cəmiyyətin hərəkətverici qüvvəsidir. Nobel mükafatçısı Milton Friedman bu problemi 1962-ci ildə, FAR Centre tərəfindən də dilimizə çevrilən "Kapitalizm və Azadlıq" əsərində çox aydın bir şəkildə izah edib.[117] Fridmana görə, təbliğatın təsirli olmasından ötrü onun tərəfdarları hansı formadasa öz fəaliyyətlərini maliyyələşdirməlidir. "Ortaya sual çıxır: pulu haradan götürməli?...

Zəruri vəsaitin əldə edilməsinin yeganə yolu çoxlu sayda xırda qulluqçulardan çox da böyük olmayan məbləğdə pul toplanmasından ibarət olacaqdır. Lakin bu, məsələnin həlli demək deyildir. Bu məbləğdən istifadə edə bilməkdən ötrü artıq bu vaxt çoxlu sayda adam bizim haqlı olduğumuza inanmalıdır, lakin məsələ bundadır ki, qarşıda dayanan problem

---

[115] T.Güngör Uras, *Ekonomde Özal'lı Yıllar 1980-1990*, AFA Yayınları, İstanbul, 1993, səh.134.

[116] İlkin Sabiroğlu, "Yeni dönəmin yeni sualı", *"Yeni Müsavat" qəzeti*, 28 avqust 2003.

[117] Hikmət A.Hacızadə, *"Demokratiya: Gediləsi Uzun bir Yol"*, Demokratiya və Antidemokratiya Antologiyası, FAR CENTRE, Bakı, 2001. səh.353-354.

məhz adamların inandırılmasına yönəldilməli olan kampaniyanın maliyyələşdirilməsindən ibarətdir...

Kapitalizm cəmiyyətində istənilən ideyanın təbliği üçün vəsait əldə etməkdən ötrü yalnız bir neçə varlı adamı inandırmaq kifayətdir..."[118]

Bizim varlı adamlarımız, burjuaziyamız formalaşmayıb. Xaricdən alınan qrantlarla demokratiya ideyasının təbliği isə effekt verə bilməz. Çünki bu halda cəmiyyətin öz içərisindən demokratiyanın konkret sifarişçisi olmadığından təbliğat aparmaqla cəmiyyəti təşkilatlandırmaq, onun dinamizmini ortaya çıxarmaq mümkün deyil. Dinamizmin olmadığı toplumlarda demokratiya da olmur.

İqtisadi olaraq belə bir sinifləşdirmə mövcuddur ki, əgər bir ölkədə adambaşına düşən ÜDM-nin miqdarı təqribən 3 min dollardan aşağıdırsa həmin cəmiyyətdə sosial problemlərin həddindən artıq çox olmasına baxmayaraq ictimai-siyasi müqavimət gücü və dinamizm zəif olur. Çünki həmin ölkələrdə yoxsulluq baş alıb gedir və insanlar ancaq gündəlik qayğılarıyla məşğul olurlar.

Adambaşına düşən ÜDM miqdarı 3-10 min dollar arasında dəyişən ölkələrin daxil olduğu ikinci qrup isə ən dinamik qrup sayılır. Çünki bu ölkələrdə yoxsulluq probleminin müəyyən qədər əhəmiyyətini itirməsinə baxmayaraq sosial problemlər yenə kifayət qədərdir və insanların maddi durumu onların siyasətlə maraqlanmalarına imkan verir. Başqa bir ifadə ilə sosial problemlərin siyasiləşmə imkanları genişdir. Cəmiyyətin kütləvi aksiyalarda iştirak səviyyəsi və siyasi mövqe ortaya qoymadan sosial problemləri qabardan qəzetlərin satış tirajları yüksəkdir, cəmiyyətdə aktiv təşkilatlanma prosesi gedir. Argentina başda olmaqla bütün Latın Amerikası ölkələri və Türkiyə bu qrupa daxildir. Adambaşına düşən ÜDM-nin miqdarı

[118] Ibid.

5 min dollar səviyyəsində olan ölkələrdə vətəndaşlar artıq siyasi hökumətləri təftiş eləməyə başlayırlar.

Adambaşına düşən ÜDM miqdarı 10 min dollardan artıq olan ölkələrdə isə siyasi stabillik bir növ təminat altına alınmış durumdadır. Bu qrupa daxil olan ölkələrdə "yoxsulluq problemi" əhəmiyyətini itirmiş, "gəlirlərin ədalətli bölgüsü problemi" adambaşına düşən ÜDM miqdarından daha çox əhəmiyyət kəsb etməyə başlamışdır.[119]

Daha bir maraqlı yanaşmanı da sizə təqdim edirik. Bu, problemə sosioloji prizmadan yanaşmadır. Model, toplumun sosial problemlərə yanaşmada nə zaman ətalət, nə zaman da dinamizm göstərəcəyini açıqlayır.

Bəllidir ki, narazılıqlar cəmiyyətin tələbatlarının ödənməməsindən yaranır. Tələbatlar isə çoxnövlüdür və biri ödəndikcə digəri yaranır. Bu mövzuda istinad üçün ən ciddi mənbələrdən biri A. Maslowun inkişaf etdirdiyi "tələbatlar nəzəriyyəsi"dir.

Alim, insan tələbatlarını beş mərhələdə sıralayır: Fizioloji tələbatlar (aclıq), özünümühafizə tələbatları (təhlükəsizlik), sosial tələbatlar (vətənpərvərlik), hörmətə olan tələbat (özünəhörmət, tanınma) və özünü ifadə etmək tələbatları (özünü inkişaf etdirmə və reallaşdırma imkanları).[120]

Azad, demokratik seçkilərin keçirilməsi istəyi, milli-demokratik dövlət quruculuğu bir sosial tələbatdır. Modeldə göstərilir ki, ilkin tələbatları ödənməyən vətəndaşlarda daha sonrakı mərhələdə olan tələbatlar yaranmır və istisna olaraq yarandığı təqdirdə davamlı xarakter almır. Məsələn, fizioloji tələbatlarını ödəyə bilməyən sadə bir vətəndaşın ümummilli

---

[119] İlkin Sabiroğlu, "Dinamizmi boğulan cəmiyyət", *"Yeni Müsavat" qəzeti*, 28 sentyabr 2003.

[120] Abraham Maslow, *Personality Theories*, http://www.ship.edu/~cgboeree/maslow.html, (01.03.2006).

məsələlərlə yaxından maraqlanması nəzəriyyəyə görə davamlı xarakter ala bilməz.

Sosial problemlər tədricən aradan qaldırıldıqca, yüksək iqtisadi inkişaf tempi qorunduqca ölkədə sosial dinamizm də artmış olacaq. Çünki ölkə inkişaf etdikcə ikinci və ən dinamik qrupa daxil olacaq. Yəni ilkin tələbatları ödənən insanların ictimai-siyasi dinamizmi də artacaq. Bu gün saysız-hesabsız problemlərinə "etinasız" kimi görünən insanlar sabah bu problemlərin onda biri ilə belə barışmaz hala gələcəklərdir. Bu isə o deməkdir ki, yaranacaq yeni situasiya həm mahiyyətcə və həm də formaca yeni idarəetmə anlayışını zəruri edəcək.

# Neft gəlirləri gələcək nəsillərə qalsın?

Ölkə prezidentinin (İlham Əliyev) bir çıxışından: "Neftin o vaxt qiyməti olur ki, neft hasil edilir, nəql edilir, satılır və bundan gəlir əldə olunur. Yerin, suyun altında istifadəsiz olan neftin heç bir qiyməti yoxdur. Bəziləri deyirlər ki, o bizim milli sərvətimizdir, ona dəyməyək, onu gələcək nəsillərə saxlayaq. Bu çox yanlış, populist fikirdir."[121] Cəmiyyətdə belə bir fikir də hakimdir ki, bu qədər xarici investisiya gəlir, neft sektoru inkişaf edir, amma bunun bizə bir xeyri yoxdur.

Neft sektoru ölkədə işsizlik probleminin həllində, əmək haqlarının yüksəlməsində bilavasitə effektli rol oynaya bilməz. Buna neft sektorunun potensialı çatmaz. Ona görə də ölkə neftin ümidinə qalmamalıdır. Bu ilin yanvarından minimum əmək haqqının 200 min manata çatdırılacağı bəyan edilib. Bu yetərlidirmi? Minimum əməkhaqqının səviyyəsi təbii ki yetərli deyil. Amma reallıqdan çıxış edib demək istəyirəm ki, əgər bir ölkədə nominal orta aylıq əməkhaqqı təqribən 572 min manat, adambaşına düşən aylıq ÜDM miqdarı 541 min manatdırsa bu ölkədə minimum əməkhaqqının 200 min manat olması özü də yüksək rəqəmdir. Doğrudur, minimum əməkhaqqı yüksəldikcə bu orta aylıq əməkhaqqının da nisbətən yüksəlməsinə səbəb olur. Lakin əgər biz ölkədə sərbəst bazar iqtisadiyyatının inkişafından danışırıqsa orta aylıq əməkhaqqının dövlət sektorunun deyil, daha çox özəl sektorun hesabına yüksəlməsində maraqlı olmalıyıq. Digər tərəfdən, bu ilin dövlət büdcəsinin gəlirləri yeni Azərbaycan manatı ilə 3.4, xərcləri isə 3.6 milyard manat olacaq. Büdcənin artımı əsasən neftdən gələn gəlirlər

---

[121] "Azərbaycanın Yeni Neft Strategiyası", *Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*, http://www.socar.gov.az/oilmen.php?define=oil_strategy&id=1, (10.02.2006).

hesabına formalaşacaq. Yəni, kimsəni qane etməyən minimum əməkhaqqında, təqaüdlərdə neft dollarlarının ciddi payının olduğu nəzərdən qaçırılmamalıdır. Hökumət iqtisadi populizmə gedərək əmək haqlarını sürətli bir şəkildə artırsa, artan gəlirlər inflyasiyanın yeminə çevrilər.[122]

Belə çıxır ki, neft sektoru inkişaf etsə də biz inflyasiya qorxusundan neft gəlirlərindən lazımi qədər istifadə edə bilmərik. Neft gəlirlərindən kütləvi istifadə qısa dövrdə inflyasiya effekti, orta və uzun dövrdə isə "Holland sindromu" effekti yaradar. Əcnəbilərin Azərbaycanla bağlı istifadə etdikləri belə bir fikir var ki, "siz xoşbəxt xalqsınız, çünki neftiniz var". Neft bizim üçün göydəndüşmə, ucuz ehtiyatdır. Amma bizim də bir məsəlimiz var – "ucuz ətin şorbası olmaz". İndi biz qeyri-neft sektorunu yetəri qədər inkişaf etdirə bilmədiyimizdən ucuz "neftin şorbası"nı görə bilmirik. Ucuz ətdən bol-bol qidalanma zəhərlənməyə yol aça biləcəyi kimi, neft dollarlarından gen-bol istifadə də "Holland xəstəliyi"nə yoluxmamıza yol açar.

Yəni ən yaxşı variant kimi neft gəlirlərindən gen-bol istifadə etməyib gələcək nəsillərəmi saxlamalıyıq? Onda da haqlı olaraq, "neft gəlirləri gələcək nəsillərə qalsın, bəs indiki nəsil nə olsun?" sualı yaranır. Ümumiyyətlə, Azərbaycan neftinin 35-40 illik ömrünün qaldığı qeyd edilir. Dünya bazarlarında neftin qiyməti yüksəldiyindən bu vaxta qədər rentabelli sayılmayan quyularımızdan da istifadə etməyə başlamışıq. Demoqrafiya elminə görə hər 22-25 ildən bir yeni bir nəsil ortaya çıxır. Yəni Azərbaycan nefti konkret olaraq indiki nəsillə, bir sonrakı nəslin aktual mövzusudur. Bir sonrakı nəslin nümayəndələri də azyaşlılar olaraq aramızda yaşayır, yəni nəsillərarası dialoqu başlada bilərik. Biz onlara desək ki, neft gəlirlərini sizə saxlayırıq, onlar da rasional məntiqdən çıxış edərək

[122] İlkin Sabiroğlu: "Neft gəlirləri gələcək nəsillərə qalsın, bəs indiki nəsil nə olsun?", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 8 oktyabr 2005.

deyə bilərlər ki, "özünüz 40 faizdən yuxarı yoxsulluq həddində yaşadığınız halda, neft gəlirlərini bizə saxlamaq haranıza yaraşır? Axı Azərbaycan Norveç deyil ki, bu gününü təminat altına aldığından neft gəlirlərini sabaha saxlasın?!" Biz isə bu fədakarlığımızın əsasında "Holland xəstəliyi"ndən yayınma zərurətinin dayandığını deyəndə, onları da neftin ümidinə buraxdığımıza görə bizi qınayacaqlar. Elə etmək lazımdır ki, neft gəlirlərindən həm indiki, həm də sonrakı nəsil faydalana bilsin.[123]

Bu ilin 8 ayında ölkə iqtisadiyyatına 3,7 milyard dollar investisiya qoyulub. İnvestisiyaların təqribən 71 faizini xarici, 29 faizini isə daxili sərmayələr təşkil edib. Ümumi investisiyaların 25 faizi qeyri-neft sektoruna qoyulub. Bu tendensiyanı inkişaf etdirməliyik. Daxili sərmayənin ölkə iqtisadiyyatına qoyuluşunu təşviq etməklə yanaşı, qeyri-neft sektoruna birbaşa xarici investisiya daxilolmalarını cazibəli hala gətirməliyik. Bu isə ölkənin investisiya potensialını yüksəltməkdən keçir.

Ümumiyyətlə, bir sıra ölkələrin inkişaf təcrübəsi göstərir ki, ölkədə bir və ya bir neçə sektor digər sektorların da inkişafında lokomotiv funksiyasını yerinə yetirməkdədir. Yəni, həmin lokomotiv sektorun inkişafı əlavə bir çox sektorların da inkişafına imkan yaratmaqdadır. Bu gün Türkiyədə inşaat sektorunun inkişafının nəticəsi olaraq ölkə, Avropanın ən böyük sement istehsalçısına çevrilmişdir. Eyni zamanda dünyanın ən böyük dəmir emal edən 12-ci ölkəsidir. Həmçinin, turizm sahəsindəki müvəffəqiyyətlərinə görə də dünyanın ən populyar 12-ci ölkəsi statusunu qazanmışdır. Mütəxəssislərin hesablamalarına görə, Türkiyədə turizm sektorunun inkişafı özündən əlavə 36 sektorun inkişafında da müstəsna rola sahibdir. Ona görə də hər ölkə lokomotiv funksiyasını daşıyacaq olan sektorla digər sektorlar arasındakı optimal balansı doğru müəyyən-

---

[123] Ibid.

ləşdirməli və onun yarada biləcəyi imkanlardan maksimum yararlanmağa çalışmalıdır. Əks təqdirdə meydana gələn mənfi tendensiyalar iki istiqamətdə inkişaf edə bilər. Belə ki, balans doğru müəyyənləşdirilmədiyi təqdirdə lokomotiv sektorun iqtisadiyyatdakı çəkisinin optimaldan həm azlığı həm də çoxluğu problem yarada bilməkdədir.[124]

Tendensiyaların birinci inkişaf istiqaməti kimi Yaponiyadan nümunə göstərmək olar. Araşdırmalara görə, Yaponiyadakı iqtisadi böhranın ortaya çıxmasında investisiyaların sektorlar arasındakı bölgüsü də çox ciddi rol oynamışdır. Belə ki, 90-cı illərin başlarında Yaponiyada texnologiya sektoruna qoyulan investisiyalar ümumi çəkidə təqribən 16 faiz təşkil edirdisə, bu nisbət Amerika Birləşmiş Ştatlarında 15 faiz, inkişaf etmiş Avropa ölkələrində isə daha gerilərdə seyr etməkdə idi. Bugünkü vəziyyətə baxdığımız zaman isə bu nisbət Yaponiyada demək olar ki, eyni səviyyədə qaldığı halda, ABŞ-da 30 faizi aşmış, Qərbi Avropa ölkələrində isə 17 faizə çatmışdır. Bu texnologiya investisiyaları içərisindəki əsas payı da internet-kompüter texnologiyasına qoyulan investisiyalar təşkil etməkdədir. Təbii ki, bütün bunlar yüksək səviyyəli təhsil sisteminin təşkilinin nəticəsi kimi ortaya çıxmaqdadır. Yəni, insanın inkişafına qoyulan kapital hər zaman ön plandadır. Lakin bir şeyi də qeyd etmək lazımdır ki, ABŞ-da hərbi-sənaye kompleksinin lokomotiv funksiyasını yerinə yetirməsi və innovasiya fəaliyyətlərinə verilən əhəmiyyət bu nəticənin əldə olunmasına gətirib çıxarmışdır. Hərbi-sənaye kompleksindəki nailiyyətlər daha sonra digər texnoloji sektorlarda da öz bəhrəsini göstərmişdir.[125]

---

[124] Ilkin Sabiroglu, "Locomotive sector", Azerbaijan Bulletin No:24 (278), 14 iyun 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200106/0032.html, (01.03.2006).

[125] Ibid.

Mənfi tendensiyaların ikinci istiqamətdə inkişafına isə Azərbaycanı misal göstərmək olar. Beynəlxalq hesabatlarda bildirilir ki, ölkənin son illər inkişafının əsas hissəsi neftlə əlaqəli birbaşa sərmayələrdən və neft sektoruna göstərilən köməkçi xidmətlərdən alınır. Ümumi sənaye məhsulunun yarıdan çoxunu isə məhz yanacaq sənayesi verir.

Azərbaycanda lokomotiv sektor funksiyasını ən azından müəyyən müddət üçün neft-qaz sənayesinin yerinə yetirməli olduğu şübhəsizdir. Bu gün neft sənayesinə qoyulan birbaşa investisiyaların toplam investisiyalar içərisindəki çəkisinə, neft sənayesi məhsullarının ixracatdakı payına baxaraq bu sektorun yüksək inkişaf etdiyini düşünmək absurddur. Əvvəllər Sovetlər Birliyi səviyyəsində neft və qaz hasilatı üçün lazım olan avadanlığın 70 faizindən çoxunu istehsal edən Azərbaycanın hazırda öz tələbatını ödəmək üçün bu avadanlıqların böyük bir hissəsini idxal etməsi dediklərimizə sübutdur. Digər sektorların inkişaf etməməsinin müqabilində bu sektor nisbi olaraq inkişaf etmiş kimi görünür. Eyni ilə bu gün Azərbaycanda büdcənin xərclər hissəsinin tərkibinin faizlə ifadəsinə diqqət yetirdikdə, ilk baxışdan respublika dünyanın ən sosial yönümlü dövləti kimi nəzərə çarpar. Lakin sosial xərclərin adambaşına düşən miqdarı heç də belə olmadığını göstərir. Sadəcə büdcə özü çox kiçik olduğundan sosial xərcləri daha artıq məhdudlaşdırmaq imkanı qalmamışdır.[126]

Qısacası Yaponiyada texnologiya sektoruna qoyulan investisiyaların ümumi çəkidə optimaldan azlıq təşkil etməsi böhranın ortaya çıxmasında rol oynamışdı. Azərbaycanda isə bunun əksinə, neft sektoruna qoyulan investisiyalar ümumi çəkidə çoxluq təşkil edir və ya başqa bir ifadə ilə digər sektorlara qoyulan investisiyalar ümumi çəkidə optimaldan azlıq təşkil edir. Yəni, neft sənayesi lokomotiv funksiyasını yerinə

[126] Ibid.

yetirə bilmir. Bu problem də öz növbəsində Neft Fondunun vəsaitlərindən məqsədyönlü və səmərəli istifadə mövzusunu aktuallaşdırır.

Aşağıdakı fikirlər də ölkə prezidentinin yuxarıda bəhs edilən çıxışından seçilib:[127] "Son illərdə həyata keçirilən neft strategiyası bu yolun düzgün olduğunu bir daha sübut etdi. Amma bu heç də o demək deyil ki, biz gələcəyimizi də yalnız neftlə bağlamaq istəyirik. Neft faktoru bizim üçün vasitədir. Müstəqilliyimizin möhkəmləndirilməsi, iqtisadiyyatımızın gücləndirilməsi istiqamətində bir vasitədir. Yəni biz bu vasitədən istifadə edirik.

Bundan başqa:

- Sazişlərin həyata keçirildiyi dövrdə neft sənayesinin infrastrukturu xeyli dərəcədə təzələnəcək və neft sənayemizin yeni, güclü infrastrukturu yaranacaqdır;
- Ölkə iqtisadiyyatının digər sahələrinə sərmayələr axını təmin ediləcəkdir;
- Azərbaycan yeni, müasir texnologiyalar əldə edəcəkdir;
- Azərbaycanın böyük miqdarda yeni müəssisələri yaradılacaq və onlar xarici neft şirkətlərinə xidmət göstərəcəklər;
- Bank və sığorta biznesinin inkişafına böyük təkan veriləcəkdir;
- Sivilizasiyalı cəmiyyətin qanunları çərçivəsində işləyəcək sahibkarların sanballı bir təbəqəsi formalaşacaqdır;
- Xarici şirkətlərin ödədiyi vergilərdən büdcəyə mədaxil xeyli artacaqdır;
- Müxtəlif sənaye və xidmət sahələrində minlərlə yeni iş yeri açılacaqdır;
- Azərbaycan neft satışından milyardlarla dollar götürəcəkdir ki, bu da geniş sosial proqramları həyata keçirməyə, əmək haqqını və pensiyaları artırmağa, imkansız ailələrə, müharibə

[127] "Azərbaycanın Yeni Neft Strategiyası", op. cit.

əlillərinə və qaçqınlara daha da çox kömək etməyə imkan verəcəkdir.

Nəticədə güclü iqtisadi potensial yaradılacaq və bu da ölkənin müstəqilliyini bundan sonra da qoruyub möhkəmlətməyə imkan verəcəkdir... Hesab edirəm ki, respublikamız bundan əldə etdiyi gəliri düzgün xərcləyəcək və beləliklə, iqtisadiyyatımızın bütün sektorları inkişaf edəcəkdir".

Xatırlatmaq yerinə düşər ki, hələ əsrin əvvəllərində "Azərbaycan özünün milli müstəqilliyini elan edərkən onun qarşısında duran ən mühüm və vacib vəzifələrdən biri yeni yaranacaq siyasi hakimiyyətin dövlətçilik formasının seçilməsi məsələsinin həllindən ibarət idi. O vaxtlar Azərbaycanı əhatə edən qonşu dövlətlərdə imperatorluq, şahlıq, sultanlıq, krallıq üsul idarə formaları mövcud idi. Azərbaycanın yeni yaranmış ali hakimiyyət orqanı olan Milli Şura, fikirləşmədən, götür qoy etmədən qonşu ölkələrin rejimlərini tamamilə və ya qismən öz ölkəsində tətbiq edə bilərdi. Bu çox asan yol idi. Lakin Milli Şuraya daxil olan rus və Avropa təhsilli, yüksək təfəkkürlü, demokratik ziyalı vətənpərvərlər tamamilə yeni, mütərəqqi və sivil yol seçdilər, Şərqdə ilk demokratik respublika üsul-idarə sisteminin yaradılmasına üstünlük verdilər. M.Ə. Rəsulzadə qeyd edirdi ki, "Bizə Ərəbistanı göstərsələr də" , Milli Şura tərəddüd etmədən azadlığı, insan hüquqlarını, qanunun aliliyini təmin edən demokratik respublika quruluşunun yaradılmasına üstünlük verdi."[128]

Müsbət haldır ki, Azərbaycan elə indi də neft ölkəsi olsa da, neftlə zəngin ərəb ölkələrinin getdiyi yolu izləmir. Bizim gələcək nəsillərə bilgi çağının şərtləri ilə ayaqlaşa bilən, demokratik bir Azərbaycan verə bilməmiz isə onlar üçün neft dollarlarından daha əhəmiyyətli olacaq.

---

[128] Gülnarə Sultanova, *Azərbaycan Demokratik Respublikasının Dövlətçilik Fəaliyyəti*, http://www.uludil.gen.az/adr/3.php, (01.03.2006).

# "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!"

İqtisadi İnkişaf Nazirliyi (İİN) 4 avqust 2005-ci il tarixdə Hyatt Regency mehmanxanasında "Milli istehsalın dəstəklənməsi" mövzusunda Konfrans keçirmişdi. Konfransın əsas devizi isə belə idi: "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!". İstər-istəməz belə bir sual yaranırdı: "Görəsən İqtisadi İnkişaf Naziri bir addım daha irəliyə gedərək öz işçilərinə yerli istehsalın dəstəklənməsi məqsədilə xidməti və minik avtomobillərini Gəncə Avtomobil Zavodunun məhsulları ilə dəyişdirmə göstərişini verəcəkmi?". Əks təqdirdə yuxarıdakı deviz effekt qazana bilməzdi. Eynilə, "Yerli malı, yurdun malı, hər Türk onu kullanmalı!" devizi altında Türkiyədə başladılan kompaniyaların heç bir müsbət effekt vermədiyi kimi.[129]

"Amerikan Malı Satın Al" Fondunun sədri William J.Lynott deyirdi ki, bir ölkənin dünyadakı iqtisadi mövqeyini müəyyənləşdirən əsas amil, həmin ölkənin istehsal gücüdür. XVIII əsrdə İngiltərə, bu sayədə İspaniyanın; XIX əsrdə də Amerika, İngiltərənin yerinə keçmiş, digər ölkələri də kontrol edə bilən, dünyanın ən böyük iqtisadi gücü halına gəlmişdir. Lakin bununla belə amerikalılar istehsalda "Fordist İnqilab"ın banisi Henry Fordun avtomobillərindənsə daha çevik olan yapon avtomobillərinə üstünlük verirlər.[130]

İİN-nin devizi də iqtisadi cəhətdən populist olduğu qədər, real əsasları olmayanl bir devizdir. Devizdəki məntiq çox sadədir: Mən keyfiyyətsiz, zəmanətsiz yerli məhsul almalıyam ki, bu məhsulu istehsal edən yerli şirkət istehsalını genişləndirsin və nəticədə bir başqa vətəndaşımız iş tapa bilsin. İqtisad el-

---

[129] İlkin Sabiroğlu, "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!", *"Gündəlik Azərbaycan" qəzeti,* 16 avqust 2005.
[130] Ibid.

mində belə "emosional fədakarlıq"lara yer yoxdur. Bunun belə olduğunu əslində İİN də başa düşür. Nazirliyin rəsmi saytında yer alan məlumatda deyilir: "Konfransın keçirilməsində məqsəd milli istehsalın dəstəklənməsi üzrə dövlət siyasətinin səmərəliliyinin artırılması, istehsalın keyfiyyətinin yüksəldilməsi, sertifikatlaşdırma sisteminin təkmilləşdirilməsi, ixrac qabiliyyətinin artırılması, yerli istehsalın təbliğinin gücləndirilməsi və milli istehsalın dəstəklənməsi məsələlərin müzakirəsi idi." Yəni keyfiyyətli məhsul istehsal etmədikcə vətəndaşlarımıza da niyə yerli məhsul almırsınız - deyə irad tuta bilmərik.

William J.Lynott əlavə edərək deyirdi ki, öz mallarımızın, öz ölkəmizdəki satışını artırmaq; nəhayət bunları, "keyfiyyətli" dünya məhsulları halına gətirərək, xaricə satmaq; milli iqtisadiyyatımızın sağlam işləyə bilməsi üçün əsas şərtdir. Bu şərti yerinə yetirə bilməsək, ixrac gəlirlərimizdən vaz keçmək məcburiyyətində qalacağıq ki, bu da milyonlarca vətəndaşımızın işsiz qalması, hərbi-sivil bütün investisiyaların kökünü kəsmək, yəni ölkəmizin süqutunu hazırlamaq deməkdir.[131]

Amma məsələ ondadır ki, hələ keyfiyyətli məhsul istehsal etmək də problemdən çıxış yolu deyil. İstehsalla məşğul olanlar gözəl bilirlər ki, ciddi bir marka yaratmaq keyfiyyətli məhsul istehsal etməkdən qat-qat çətin olan bir işdir. Marka yaratmadan isə nə daxili bazarda, nə də xarici bazarda güclü mövqeyə sahib olmaq və bu mövqeni qorumaq mümkün deyil. Azərbaycan kimi ölkələrdə marka yaratmaq isə xüsusilə çətindir. Ona görə də daha optimal variantlar axtarılmalıdır.

Məsələn, bir neçə il əvvəl xəbər gəldi ki, Gəncə Avtomobil Zavodu ilə Fransanın "Reno" şirkəti maraqlanır. Daha sonra isə, zavodun avtomobil istehsal edən xarici şirkətlərdən birinə icarəyə verilməsi ilə bağlı "KamAZ", "İrankhodro" kimi şirkətlərin adları çəkildi. Ardınca Almaniyanın "Volkswagen"

[131] Ibid.

konserninin Gəncə avtomobil zavodunun yenidən qurulması ilə bağlı ilkin razılığını verməsi barədə məlumat yayıldı. Paralel olaraq eyni danışıqların Rusiyanın "QAZel" şirkəti ilə də aparıldığı söylənildi. Nəhayət, 1989-cu ildən tikintisi yarımçıq qalan zavodda, 2004-cü ilin dekabrın 24-də ilk "OKA" markalı avtomobilin buraxılışı oldu. Rusiyanın daha bir avtomobil şirkəti ilə əldə olunmuş razılaşmaya əsasən zavodda "UAZ" markalı avtomobillərin 7 modelinin yığımı da təşkil ediləcək. Gəncə Avtomobil zavodunda paralel olaraq Çinin iki iri avtomobil şirkətləri ilə də danışıqlar aparılır...[132] 2006-cı ilin mayından etibarən isə Rusiya Avropa ölkələrinin qəbul etdiyi "Avro-2" standartlarına uyğun olmayan "Oka" markalı avtomobillərin istehsalını dayandırır. Nəticədə Azərbaycanda da bu markalı avtomobillərin istehsalı dayandırılacaq.[133]

Halbuki qəti şəkildə marka yaratmağın çətinliyi və yaxşı bir markanın gətirəcəyi üstünlüklər nəzərə alınaraq "Volkswagen" kimi məşhur markalardan birinə üstünlük verilməli idi. Məsələn, Türkiyə "Gömrük Birliyi"nə üzv olduqdan sonra yerli avtomobil markalarının istehsalından daha çox tanınmış dünya markalarının Türkiyədə istehsalına üstünlük verməyə başladı. Nəticədə həm daxili bazarda avtomobil satışını, həm də xaricə avtomobil ixracını artırmış oldu.

Ayrıca, əgər bir sektorda innovasiya fəaliyyətlərinə yönələn xərclər iqtisadi artımın altındadırsa həmin sektor "ömrünü tamamlamış sektor" (metal mədənçiliyi, kömür mədənçiliyi, neft və qaz istehsalı, meşəçiliyə dayanan sənayelər, anorqanik kimya sənayeləri, kauçuk sənayesi, kənd təsərrüfatına dayanan sənayelər, silikatlar, trikotaj və s.) sayılır. Əgər innovasiya xərcləri iqtisadi artımla eyni səviyyədədirsə bu sektor "ömrünü tamamlamaya keçiş mərhələsində olan sektor" (neft-kimya, elek-

---

[132] Ibid.

[133] "Azərbaycanda da "OKA" avtomobillərinin istehsalı dayandırılır", *Trend*, 9 fevral 2006.

trotexnika, avtomobil sənayesi, makina sənayesi, təyyarə, gəmi, kompüter, sintetik iplik və s.) kimi qəbul edilir. Əksinə, innovasiya xərcləri iqtisadi artımın üstündədirsə bu sektorlar "yenilikçi sektorlar" və ya "yenilikçi sənayelər" (mikroelektronika, biotexnologiya, fəza texnologiyaları, robotik, foto aktiv ləvazimatlar, füzyon enerjisi, membran texnologiyası, telekommunikasiya, elektronik keramikalar və s.) adlanır.[134]

İnkişaf baxımından Azərbaycanla eyni qrupda olan kiçik daxili bazara sahib ölkələr "ömrünü tamamlamış sektor"lara aludə olmadan heç olmasa tədricən "ömrünü tamamlamaya keçiş mərhələsində olan sektor"ları mənimsəmək üçün istehsalda sadəcə keyfiyyət problemini deyil, "ticarət markası" problemini də həll etməyi bacarmalıdırlar.

[134] Mehmet Altan, *"Köylüler ne zaman manşet olur?"*, Zaman Kitap, İstanbul, 2001. səh.26.

# Neft böhranları və Holland sindromu

Neft böhranı əslində neft idxal edən ölkələr üçün böhrandır. Neft ixrac edən ölkələr isə açıq şəkildə ifadə etməsələr də belə vəziyyətdən çox razı qalırlar. Xüsusilə Azərbaycan, Nigeriya, Anqola, Liviya və Oman kimi ixracatlarında neftin çəkisi çox-çox yüksək olan ölkələrin neft böhranlarından nə qədər razı qaldıqlarını əlavə şərh etməyə ehtiyac yoxdur. Lakin neft böhranları nadir olaraq baş verir.

Hələ 1970-ci illərin əvvəllərində meydana gələn neft böhranında Amerika Birləşmiş Ştatlarının neftin qiymətindəki yüksəlmənin tərəfdarı kimi davranması belə bir sualın ortaya çıxmasına səbəb olmuşdu: ABŞ neft qiymətlərinin yüksəlməsində niyə maraqlı davranırdı?

Çünki həmin dövrdə Bretton Woods sistemi çökmək üzrə idi. ABŞ dolları da bu sistemin "əsas pul" funksiyasını yerinə yetirdiyindən dolların gələcək aqibəti sual altına girmişdi. Əgər Dünya Bankının qurulduğu dövrdə dünya qızıl ehtiyatının 70 faizdən yuxarısı ABŞ-da cəmləşmişdisə, sonradan bu nisbət kəskin şəkildə ABŞ-ın əleyhinə dəyişmişdi. Ona görə də 70-ci illər üçün dalğalı valyuta məzənnəsi sisteminin keçərli olduğu beynəlxalq valyuta sistemində dolların əsas pul funksiyasını qoruya bilməsinin ən əlverişli yolu neft böhranlarından istifadə etməkdi. Çünki ABŞ-nın əlində çox əhəmiyyətli bir vasitə var: neft ödəmələri dollarla həyata keçirilir. Beləliklə neftin qiymətlərindəki yüksəlmə neft idxal edən ölkələrin dollara olan tələbini artırdı ki, bu da ABŞ dollarının beynəlxalq valyuta sistemindəki çəkisini qorumaqda bir vasitəyə çevrildi.[135]

---

[135] Ilkin Sabiroglu, "Oil Crisis and the Holland Syndrome", *The Times of Central Asia*, 11 may 2001, http://www.times.kg.

Bu gün isə ABŞ dolları üçün belə bir problem mövcud deyil. Həmçinin ABŞ dünyanın ən böyük enerji istehlakçısıdır. Bunları nəzərə aldıqda ABŞ-ın neft qiymətlərinin yüksəlməsində əvvəlki kimi maraqlı olmadığını söyləmək olar. Bu amil də bir növ ciddi neft böhranlarının ortaya çıxmasına əngəl törədir. Ayrıca ölkələr yüksək neft qiymətlərini ucuz faiz siyasəti və enerji istehlakını subsidiyalaşdırmaqla balanslaşdırırlar. Dolayısilə neft qiymətləri yüksəlsə də neft böhranı baş vermir.[136] Həmçinin, yüksələn enerji qiymətləri dünyanın alternativ enerji mənbələrinə yönəlməsinə səbəb olur. Bu tendensiya da öz növbəsində "Kyoto Protokolu"nun lehinə işləyir.[137]

Qısacası, neft böhranlarına və yüksək neft qiymətlərinə arxayın olmaq olmaz. Ona görə də Azərbaycan kimi, ixracatlarında neftin mütləq üstünlük təşkil etdiyi ölkələr üçün "Holland sindromu" çox aktual mövzu halına gəlmişdir.

Bir müddət əvvəl yerli mətbuatda bir dövlət rəsmisinin belə bir fikrinə rast gəldik: "Böyük neft gəlirlərinin ölkəyə daxil olduğu dövrdə "Holland sindromu" yarana bilməz".[138] Doğrudan da dünya bazarlarında neft qiymətlərinin yüksəklərdən "uçduğu" və ölkəyə böyük neft gəlirlərinin daxil olduğu mərhələdə "Holland sindromu" yarana bilərmi? Ümumiyyətlə, "Holland sindromu" nədir? Yaranarsa, hansı halda yaranar və ya yaranmaması üçün nə edilməlidir?

Geniş şəkildə istifadə olunan "Holland sindromu" modelində intensiv inkişaf edən təbii ehtiyatlar sektoru ilə ixracat potensialı olmayan mallar sektorunun ixracat potensialı olan qeyri-neft malları sektorunu sıxışdırdığı göstərilir. "Holland

[136] Əfsun Ələkbər, "Dünya İqtisadi Böhranı niyə baş vermir?", *"Gündəlik Azərbaycan" qəzeti*, 14 dekabr 2005.
[137] "WWF: 2006 Kyoto'nun sınav yılı", *NTVMSNBC*, http://www.ntvmsnbc.com/news/361346.asp, 14 fevral 2006.
[138] "Oqtay Haqverdiyev: Azərbaycanda "Holland sindromu" yarana bilməz", *"Ekspress" qəzeti*, 14 dekabr 2005.

sindromu"nun "üç sektor modeli"nə görə, təbii ehtiyatlardan intensiv istifadənin iqtisadiyyatın ixracat potensialı olan digər sahələrinə mənfi təsiri iki istiqamətdə özünü göstərir.[139]

Bunlardan birincisi xərclərin artması effektidir. Əgər neftlə əlaqədar əldə olunan sərvətlər xaricdə saxlanmırsa və maliyyə kanalları vasitəsilə birbaşa və ya dolayı yolla ixracat potensialı olmayan mallara xərclənirsə, bu malların qiymətləri ixracat potensialı olan malların qiymətləri ilə müqayisədə artır və real effektiv valyuta məzənnələri də bahalaşır. Bu da ənənəvi ixracat potensialı olan sahələrə zərər gətirir. Xarakterik olaraq cari əməliyyatlar hesabının tarazlığı pozulur. Belə ki, neft ixracının daha sonrakı mərhələdə bahalaşmasına baxmayaraq, gələcəkdə neft gəlirlərinin artacağının gözlənməsilə daxili istehlak və idxal ən yüksək səviyyəyə çatır, qeyri-neft sektoru üzrə ixrac isə azalır.

İkincisi isə əmək ehtiyatlarının yerdəyişməsi effektidir ki, belə halda da "sıçrayışla" inkişaf müşahidə olunan sahələrdə əmək haqları artdığından bu sahələr iqtisadiyyatın digər sektorlarından işçi qüvvələrini özünə cəlb edir. Beləliklə də digər sahələrin resurslarını zəiflədərək istehsalın aşağı düşməsinə səbəb olur.

Nəzərə alsaq ki, Azərbaycanda neftlə əlaqədar əldə olunan sərvətlər xarici banklarda saxlanılır və maliyyə kanalları vasitəsilə birbaşa və ya dolayı yolla kütləvi şəkildə xarici ticarət obyekti olmayan mallara xərclənmir, deməli, ixracat potensialı olan digər sahələr üçün bu prizmadan yarana biləcək birinci mənfi effekt hələlik mövcud deyil.

Eyni zamanda xarici ticarət obyekti olmayan sahələrdə "sıçrayışla" inkişaf özünü göstərmədiyindən ikinci mənfi effekt də bu prizmadan mövcud deyil. Ayrıca yaxın gələcəkdə ölkəyə

[139] İlkin Sabiroğlu, "Azərbaycanda "Holland sindromu" yarana bilərmi?", *"Gündəlik Azərbaycan" qəzeti*, 16 dekabr 2005.

neft daxilolmalarının artan xətt üzrə inkişaf edəcəyi gözlənilsə də, Milli Bankın real effektiv valyuta məzənnələrinin bahalaşmasında maraqlı olmadığı görünməkdədir. Qısası, hazırda bizi "Holland sindromu" təhlükəsi gözləmir. Bəs sabah necə?

Diqqət edirsinizsə, yuxarıda üç sektordan bəhs edilir: neft sektoru, ixrac potensialı olan qeyri-neft sektoru və ixrac potensialı olmayan mallar sektoru. Ona görə də biz ölkə olaraq "Holland sindromu"ndan yayınmaq üçün neft dollarlarından məhz "ixrac potensialı olan qeyri-neft sektoru"nun inkişafında istifadə etməliyik.

Amma bir başqa problem də ondadır ki, neft dollarlarının məhz bu yöndə, səmərəli və şəffaf şəkildə istifadə olunacağına nə özümüz inanırıq, nə də beynəlxalq təşkilatlar (məsələn, BVF).

Azərbaycanda neft gəlirlərindən istifadə edərkən qeyri-neft sektorunun xüsusiyyətləri nəzərə alınmalıdır. Bu baxımdan dünyada bir çox modellər mövcud olsa da, bu modellərin heç biri Azərbaycan üçün münasib deyil. O cümlədən də Norveç modeli...

Norveçin və Alyaskanın (ABŞ) bizdəkinə bənzər qeyri-neft sektoru problemi yoxdur. Norveçi narahat edən "Holland sindromu" deyil, "qocalma sindromu"dur. Norveç və ABŞ-da insanlar məhz bu günlərini təminat altına aldıqları üçün gələcək nəsillərinin qayğısına qalırlar.

Küveyt və Səudiyyə Ərəbistanı kimi ölkələr isə neft ehtiyatlarının həcminin həddindən artıq çox olmasına görə, ümumiyyətlə, Azərbaycanla müqayisə edilməməlidir. "Forbes" jurnalının oktyabr sayında yer alan bir məqalədə yazar qeyd edir ki, Səudiyyə Ərəbistanı kimi bir sıra neftlə zəngin ərəb ölkələrində dövlət, ümumiyyətlə, gəlir vergisi almırmış. Büdcə neft gəlirləri hesabına formalaşır. Amma buna baxmayaraq qeyri-neft sektoru da inkişaf etmir. Səudiyyə Ərəbistanında gənc əhalinin 40-50 faizi işsizdir. Burada neft gəlirlərinin yüksəkliyi,

dünya bazarlarında neft qiymətlərinin artması ilə birlikdə neft gəlirlərinin daha da yüksəlməsi qeyri-neft sektorunun inkişafına marağı azaldırmış.[140]

Azərbaycan digər neft ölkələrindən qeyri-neft sektorunun problemlərinin xarakterinə görə fərqlənir. Düzdür, son illər bizdə də neft gəlirlərinə arxayın olaraq vergi səviyyələri mütəmadi olaraq aşağı salınır. Əlimizdə konkret araşdırma olmadığı üçün bu tendensiyanın qeyri-neft sektorundan vergi daxilolmalarına necə təsir etdiyini deyə bilməsək də, "Laffer əyrisi"-nin indiki mərhələdə Azərbaycanda özünü doğrultmayacağına qəti əminik. Vergi Məcəlləsi üzərində belə tez-tez dəyişikliklərə gedilməsini də zərərli tendensiya kimi qəbul edirik. Qeyri-neft sektoru üzrə büdcə daxilolmalarının artmasını başqa səbəblərlə əlaqələndiririk. Məsələn, bir müddət əvvəl yanacaq bazarına hakim olan bir şirkətin kassa aparatlarından istifadə etmədiyi bəyan edildi. Belə halda vergi dərəcələrini dəyişdirməyin nə anlamı var?

Azərbaycanda qeyri-neft sektorunun vəziyyəti xüsusi yanaşma tələb edir. Biz qeyri-neft sektorunun ixrac potensialı olan sahələrini necə inkişaf etdirə biləcəyimiz üzərində fikirləşməliyik. Məhz ona görə "Hamı yerli mal alsın, xeyir vətənə qalsın!" devizini tənqid edirdik. Bu deviz daxili istehlakçılara səslənir. Bizim isə xarici ticarət obyekti olmayan mallar sektorunun inkişafını stimullaşdıran, bütün dünyada özünü doğrultmayan bir kampaniyaya deyil, istehsalçılarımızı xarici rəqabətə, xarici bazarlara səsləyən addımlara ehtiyacımız var. "Özümüz bişirib özümüz yeyək!" prinsipi ilə problemin içindən çıxmaq mümkün deyil. Bu baxımdan yeni nazirin bizimlə

---

[140] Ömer Taşpınar, "Petrol ve Arap ekonomileri", "Forbes-Türkiye" jurnalı, Oktyabr 2005, səh.33.

eyni məntiqdən çıxış edərək kampaniyanı dayandırmasını da təqdirəlayiq sayırıq.[141]

Azərbaycanı hal-hazırda "Holland sindromu" təhlükəsinin gözləmədiyi Beynəlxalq Valyuta Fondu əməkdaşlarının Azərbaycanla bağlı hazırladıqları sənəddə də öz əksini tapıb. Onlara görə də, hazırda ən əsas problemimiz "inflyasiya təzyiqləri"nin artmasının qarşısını almaqdan ibarətdir. Neft gəlirlərinin əhəmiyyətli artımı kontekstində "Holland sindromu" xəstəliyinin təsirini məhdudlaşdırmaqsa orta və uzunmüddətli problem kimi qarşımıza çıxa bilər.[142] Azərbaycanın bundan yayınmaq üçün kifayət qədər imkanları mövcuddur.

Tədbirli davranıb bundan yayına bilməsək, Azərbaycan "Holland sindromu"ndan da daha ağır vəziyyətlə üz-üzə qala bilər. Səbəb isə çox sadədir: Yuxarıda bəhs etdiyimiz "Holland sindromu"nun "üç sektor modeli"nə görə, intensiv inkişaf edən təbii ehtiyatlar sektoru ilə ixracat potensialı olmayan mallar sektorunun inkişafı ixracat potensialı olan qeyri-neft malları sektorunu sıxışdırır. Amma Azərbaycanda nəinki ixracat potensialı olan qeyri-neft malları sektoru, o cümlədən ixracat potensialı olmayan mallar sektoru da inkişaf etməyib. Ona görə də mövcud hal davam edərsə, gələcəkdə neft gəlirlərinin azaldığı bir məqamda biz "Holland sindromu" ilə deyil, şərti olaraq "Banqladeş sindromu" adlandırdığımız situasiya ilə qarşılaşacağıq. Lakin, bizim bütün bunlardan yayınmaq potensialımız çox yüksəkdir və hökumətin də, konkret olaraq Milli Bankın situasiyanın ciddiliyini dərk etdiyini müşahidə etməkdəyik.

---

[141] "Heydər Babayev: Bu gün dünyanın aparıcı sərmayəçilərinin Azərbaycanın iqtisadiyyatına marağı son dərəcə dərəcə böyükdür", *Trend*, 8 dekabr 2005.

[142] "Statement by the IMF Mission for the 2005 Article IV Consultation with the Republic of Azerbaijan", *IMF*, 21 dekabr 2005, http://www.imf.org/external/np/sec/pr/2005/pr05287.htm, (01.03.2006).

# Kiçik sahibkarlıq olmazsa olmaz

Kiçik və orta sahibkarlıq "orta təbəqə"nin - kiçik burjuaziyanın mühüm hissəsini təşkil edir. Ümumiyyətlə ingilislər, adətən "burjuaziya" ifadəsi yerinə "orta təbəqə" ifadəsindən istifadə etməyə üstünlük verirlər. Buna görə, feodal iqtisadiyyatın çözülməsi ilə birlikdə ortaya çıxan bu təbəqə, ilk vaxtlarda əsilzadələr ilə kəndlilər arasındakı orta təbəqəni ifadə edərkən, sonradan böyük burjuaziya ilə işçi sinfi arasındakı ictimai təbəqəni ifadə etmək üçün istifadə edilmişdir. Bu çərçivədə ələ alındığı zaman orta təbəqə, sənaye və ticarətdəki orta səviyyəli sahibkarları (təşəbbüskarları), sənətkarlar və fermerlər kimi sadə istehsalçıları, kiçik əsnaf və yüksək rəsmi əməkhaqqı alanları ehtiva etməkdədir.[143]

Burada "əməkhaqqı alan burjuaziya" anlayışını da bir-iki cümlə ilə açıqlamaq yerinə düşər. Yaşadığımız çağda kapitalizmin keyfiyyət dəyişikliyinə məruz qalması ilə birlikdə, çağımızın böyük şirkətlərində, sərmayə və mülkiyyətə sahib olanların idarə etmədiyi, amma idarə edənlərin də mülk sahibi olmadığı bir tendensiya ilə üz-üzə qaldığımızı söyləyə bilərik.[144] Wallerstein, bu mərhələdə qanuni mülk sahiblərinin mərkəzi rolunun getdikcə azaldığını ifadə etməkdə və "əməkhaqqı alan burjuaziya" adlandırdığı yeni orta təbəqənin hakim hala gəlməkdə olduğunu irəli sürməkdədir.[145]

---

[143] Alfred Meusel, *Middle Class*, Encyclopadia of the Social Science, Cild XI-X, Macmillan, New York, 1957, səh.407.

[144] Nihat Bulut, *Feodaliteden Küreselleşmeye Ekonomik İktidar Siyasal İktidar İlişkisi*, Seçkin Yayıncılık, Ankara, 2003, səh.57.

[145] Etienne Balibar, Immanuel Wallerstein, *Irk Ulus Sınıf*, Tərcümə: Nazlı Ökten, Metis Yayınları, İstanbul, 2000, səh.189.

Azərbaycanda kapitalizmin yeni keyfiyyət dəyişikliyi hələlik hiss edilməsə də, kapitalist münasibətlərin formalaşmasının ilkin mərhələsi yaşanmaqdadır. Lakin respublikada kiçik burjuaziyanın - kiçik və orta sahibkarlığın əhəmiyyəti hələ də lazımi səviyyədə anlaşılmış deyil. Halbuki sahibkarlığın bu forması cəmiyyətin sosial-iqtisadi inkişafında müstəsna rola sahibdir. Bunlar demokratik cəmiyyətin və liberal iqtisadiyyatın əsas sığortalarından biridir, siyasi və sosial sistemlərin stabilliyinin başlıca ünsürüdür. Gəlir bölgüsündəki ədalətsizlikləri minimuma endirir, regionlararası balanslı inkişafa zəmin yaradır. Böyük sənaye müəssisələrinin əsas yardımçılarıdır.

Eyni zamanda bu müəssisələr daha az investisiya ilə daha çox istehsal və məhsul müxtəlifliyi əldə edə bilirlər. İqtisadi dalğalanmalardan daha az təsir görürlər. Daha az investisiya xərcləri ilə iş imkanları yaratmaqdadırlar. Tələbatdakı dəyişikliklərə və müxtəlifliklərə daha rahat uyğunlaşa bilirlər, texnoloji yeniliklərə həvəslidirlər. Fərdi yığımları stimullaşdırır, istiqamətləndirir və hərəkətləndirirlər.[146] Digər tərəfdən KOS-ların inkişafı həmin ölkələrin iqtisadi inkişafı ilə paralellik təşkil edir. Fikrimizi müqayisələrlə izah edək.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (OECD) üzv olan otuz ölkədəki maaşlı çalışanların üçdə ikisi kiçik və orta böyüklükdəki müəssisələrdə işlə təmin olunub. Ən çox kiçik və orta böyüklükdəki müəssisələrə texnoloji inkişafda ən irəlidə olan ölkələr sahibdir. Ön sırada ABŞ, Kanada, Avstraliya, İsveç və Finlandiyadır.

OECD ölkələrində şirkətlərin 96-99 faizi kiçik və orta böyüklükdəki müəssisələrdir. Bütün OECD ölkələrindəki iqtisadi fəaliyyətin 40 faizi kiçik və orta böyüklükdəki müəssisələr tərəfindən həyata keçirilir. Emal sənayesində məşğulluğun 60-70

---

[146] İlkin Sabiroğlu, "Kiçik və Orta Sahibkarlığın Əhəmiyyəti", *IqtisadNet*, http://www.iqtisad.net/is016.htm, 2 iyul 2004, (01.03.2006).

faizi bu müəssisələrin payına düşür. Məsələn, Fransada sənayedəki məşğulluğun 60 faizini, yaradılan əlavə dəyərin 53 faizini, investisiyaların 41 faizini, ixracatın 30 faizini kiçik və orta böyüklükdəki müəssisələr həyata keçirir. Bu müəssisələrin üçdə biri doqquz ya da doqquzdan az insan çalışdırır. 30 faizinin 50 ilə 250 arasında işçisi var, digərləri də 10 ilə 50 arasında insanı işlə təmin edib.

2002-ci il statistikasına görə isə Avropa Birliyi ölkələrində fəaliyyət göstərən kiçik və orta böyüklükdəki müəssisələrin sayı 22 milyonu aşmışdır. Ümumiyyətlə isə AB ölkələrindəki müəssisələrin 95 faizini bu müəssisələr təşkil edir. Bu rəqəm ABŞ-da 97.2, Yaponiyada 99.4, Cənubi Koreyada 97.8 faiz təşkil edir. AB ölkələrində Ümumi Daxili Məhsulun (ÜDM) və ya yaradılan əlavə dəyərin 81 faizi kiçik və orta böyüklükdəki müəssisələrin payına düşür. Qoyulan ümumi investisiyalar içərisində bu müəssisələr ABŞ-da 38, Yaponiyada 40, Cənubi Koreyada 35.7, Almaniyada 44 faiz paya sahibdir. Həmçinin istehsalın ABŞ-da 36.2, Yaponiyada 52, Cənubi Koreyada 34.5, Almaniyada 49 faizi bu müəssisələrin payına düşür. İxracat içərisindəki payları isə ABŞ-da 32, Yaponiyada 38, Cənubi Koreyada 20.2, Almaniyada 31.1 faiz təşkil edir. AB ölkələrində iqtisadiyyatda məşğul olanların 62 faizi bu müəssisələrdə işləyir. Özəl sektorda çalışanların isə 95 faizi kiçik və orta böyüklükdəki müəssisələrdə işləyir. Bu rəqəm ABŞ-da 50.4, Yaponiyada 81.4, Cənubi Koreyada 61.9 faiz təşkil edir.[147]

Türkiyədə isə fəaliyyət göstərən müəssisələrin 98.8 faizini kiçik və orta böyüklükdəki müəssisələr təşkil etsə də yaradılan əlavə dəyərin və ya ÜDM-nin sadəcə 35 faizi bu müəssisələrin payına düşür. Qoyulan ümumi investisiyalar içərisində də bu müəssisələr yalnız 6.5 faiz paya sahibdir. O cümlədən istehsalın 37.7 faizi bu müəssisələrin payına düşsə də ixracat içərisin-

---

[147] Ibid.

dəki payları cəmisi 8 faiz təşkil edir. Özəl sektorda çalışanların isə 45.6 faizi kiçik və orta böyüklükdəki müəssisələrdə işləyir. Diqqət yetirsək görərik ki, Türkiyənin iqtisadi inkişaf səviyyəsi ilə yuxarıda adını sadaladığımız ölkələrin iqtisadi inkişaf səviyyələri arasındakı fərq bu ölkələrdəki kiçik və orta böyüklükdəki müəssisələrin inkişaf səviyyələri arasındakı fərqlə uyğunluq təşkil edir.

Müqayisə üçün qeyd edək ki, verilən toplam kreditlər içərisində kiçik və orta böyüklükdəki müəssisələrin payı Yaponiyada 50, Fransada 48, Amerika Birləşmiş Ştatlarında 42.7, Almaniyada 35, Türkiyədə 3-4 faiz təşkil edir.[148]

Bir müddət əvvəl Türkiyədə kiçik və orta böyüklükdəki müəssisələrə ixracatda dəstək üçün sıfır faizli kredit verilməsi ilə əlaqədar protokol imzalandı. Faiz ödəmələri KOSGEB (Sənaye və Ticarət Nazirliyinə bağlı Kiçik və Orta Miqyaslı Sənaye Gəlişdirmə və Dəstəkləmə İdarəsi Başqanlığı) tərəfindən qarşılanacaq olan illik 4.5 faizli kredit üçün üç banka (Halkbank, Ziraat Bankı və Vakıfbank) vəsait ayrıldı. Faizlərin bu vəsait hesabına ödənəcəyini nəzərdə tutan sistemə görə, ixracat həyata keçirən ya da kredit müddəti boyunca həyata keçirmə öhdəliyi götürən emalatçı kiçik və orta böyüklükdəki müəssisələr, maksimum 100 min dollar həcmində istifadə edə biləcəkləri krediti 6-cı ayın axırında ödəyəcəklər. Kredit borcunu vaxtında ödəyən və ixracatını nəzərdə tutulan müddətdə tamamlayan müəssisələr tələbləri münasib görüldüyü təqdirdə ikinci dəfə yenidən kredit ala biləcəklər.

Ümumiyyətlə OECD, 1980-ci illərin sonlarından etibarən iqtisadi inkişafda kiçik və orta böyüklükdəki müəssisələrin əhəmiyyətini artırmağa səy göstərir. Bu səylərin nəticəsində, kiçik və orta böyüklükdəki müəssisələrlə əlaqəli nazirlər ilk dəfə olaraq 2000-ci ildə İtaliyada - Boloniyada bir araya gəldi.

---

[148] Ibid.

Həmin toplantıda ABŞ-ın kiçik müəssisələr üçün həyata keçirdiyi politikalardan təsirlənərək hazırlan bir prinsiplər məcmusu formalaşdırıldı və yayımlandı. Amerika, kiçik müəssisələri, qurduğu bir mərkəzdən istiqamətləndirir. Eyni addımı İngiltərə də 2000-ci ildə atdı. İndi isə Fransa bunun hazırlığını həyata keçirir...[149]

Qısacası, beynəlxalq təcrübə sübut edir ki, təşəbbüskarlığın dəstəklənməsi və kiçik biznesin inkişafı yeni iş yerlərinin açılmasında, işsizliyin azaldılmasında və gəlirlərin formalaşmasında effektiv bir yanaşma üsuludur. Kiçik biznes hər bir sərbəst bazar iqtisadiyyatında əhəmiyyətli və inteqral sektordur. Dünya təcrübəsi sənaye ölkələrində iqtisadi restrukturlaşmanın kiçik və orta biznes sektorunun inkişafının müşayiəti altında həyata keçdiyini ortaya qoyur. Kiçik biznesin iqtisadi rifahda və inkişafda oynadığı əhəmiyyətli rol yaxşı bilinməkdə və hər kəs tərəfindən qəbul edilməkdədir.[150]

Keçid ölkələrində (Countries in Transition - CITs) Kiçik və Orta Sahibkarlığın formalaşmasının bütün mərhələlərində təşəbbüskarlığın geniş şəkildə dəstəklənməsi sərbəst bazar iqtisadiyyatına transformasiyada və cəmiyyətin demokratikləşməsində həyati dərəcədə vacibdir. Kiçik və Orta Sahibkarlıq iqtisadi artımın lokomotivi və davamlı inkişafın mənbəyi kimi qəbul edilməkdədir. Xüsusilə yüksək səviyyəli işsizlik və yoxsulluq şəraitində kiçik təşəbbüslər xüsusi əhəmiyyətə sahibdir, çünki onlar sahibkarlığın beşiyi sayılır.[151]

---

[149] Mehmet Altan, "Fransa'da manşet, Türkiye'de haber değil...", *"Sabah" qəzeti,* http://www.sabah.com.tr/2004/06/05/yaz71-40-118.html, 5 iyun 2004, (01.03.2006).
[150] UNECE - United Nations Economic Commission for Europe, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region,* www.unece.org/indust/sme/smeyent.pdf, 2003.
[151] Ibid.

2000-ci ildən əvvəl hazırlanan beynəlxalq hesabatlarda bir qayda olaraq Cənubi Qafqaz regionundakı üç respublika Kiçik və Orta Sahibkarlığın (Small and Medium Enterprise - SME) inkişaf etdirilməsində ləngiyən ölkələr qrupuna daxil edilirdi.[152] Daha sonrakı beynəlxalq hesabatlarda isə üç Cənubi Qafqaz respublikası arasında məhz Azərbaycanda sahibkarlığın, o cümlədən KOS-ların inkişafının daha ümid verici olduğu qeyd edilir. Təbii ki, belə qiymətləndirmədə Azərbaycanda sahibkarlıq fəaliyyətini tənzimləyən qanunvericiliyin mütəmadi olaraq təkmilləşdirilməsi, KOS-ların inkişaf etdirilməsini nəzərdə tutan dövlət proqramlarının qəbul edilməsi və s. əhəmiyyətli rol oynayır.[153]

Şəxsi mülkiyyət hüququ, sahibkarlıq və məsuliyyət azadlığı sərbəst bazar iqtisadiyyatının sütunlarını təşkil edir. Azərbaycan Respublikasının Konstitusiyasının 59-cu maddəsində "Azad sahibkarlıq hüququ" başlığı altında qeyd olunur:

"Hər kəs qanunla nəzərdə tutulmuş qaydada öz imkanlarından, qabiliyyətindən və əmlakından sərbəst istifadə edərək təkbaşına və ya başqaları ilə birlikdə azad sahibkarlıq fəaliyyəti və ya qanunla qadağan edilməmiş digər iqtisadi fəaliyyət növü ilə məşğul ola bilər."[154]

Azərbaycanda sahibkarlığın inkişafına təsir göstərən əsas qanunvericiliyin formalaşma tarixçəsini isə qısaca aşağıdakı şəkildə göstərmək mümkündür:

Ölkədə 1992-ci ildə "Sahibkarlıq Fəaliyyəti Haqqında" qanun qəbul edildi, daha sonra eyni ilin oktyabr ayında "Sahib-

---

[152] UNECE - United Nations Economic Commission for Europe, *SMEs in Countries in Transition in 1997-1998*, OPA/AC.12/1, 30. April 1999, Geneva.

[153] UNECE, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region*, op. cit.

[154] Azərbaycan Respublikasının Konstitusiyası, Maddə 59., *Azərbaycan Respublikasının Milli Məclisi*, http://www.meclis.gov.az.

karlığa Milli Kömək Fondu Haqqında" prezident fərmanı imzalandı.

1993-cü ilin yanvar ayında "Azərbaycan Respublikasında Dövlət Mülkiyyətinin Özəlləşdirilməsi Haqqında" qanun qəbul edildi. Lakin bir sıra səbəblərdən bu qanunu icra etmək mümkün olmadı.

1995-ci ilin mart ayında "Dövlət əmlakının özəlləşdirilməsi haqqında Azərbaycan Respublikası qanununun icrası ilə bağlı əlavə tədbirlər haqqında" prezident fərmanı imzalandı. Bunu 1995 və 2000-ci illərdə qəbul edilmiş I və II Dövlət özəlləşdirmə proqramları, 1997-2000-ci illərdə kiçik və orta sahibkarlığa dövlət yardımı proqramı, Sahibkarlığa Kömək Milli Fondunun, Kiçik və Orta Sahibkarlığın İnkişafı Agentliyinin, sahibkarlığa maliyyə, informasiya və məsləhət xidmətləri göstərən müxtəlif qurumların yaradılması, prezidentin sahibkarlığın inkişafını nəzərdə tutan 1996 və 1999-cu il tarixli fərmanları izlədi.

2002-ci il avqustun 27-də "Azərbaycan Respublikasının Sahibkarlığa Kömək Milli Fondu haqqında Əsasnamənin təsdiq edilməsi haqqında" və "Azərbaycan Respublikası Prezidentinin yanında Sahibkarlar Şurasının yaradılması haqqında" prezident fərmanları imzalandı. Ardından sentyabrın 2-də lisenziya verilən fəaliyyət növlərinin sayının azaldılması ilə əlaqədar prezident fərmanı imzalanaraq, belə fəaliyyət növlərinin sayı 240-dan 30-a endirildi. Sentyabrın 10-da "Azərbaycan Respublikasında sahibkarlığın inkişafına dövlət himayəsi sahəsində əlavə tədbirlər haqqında" fərman imzalandı. Bu məqsədlə 2003-2005-ci illərdə dövlət büdcəsindən 250 milyard manat, o cümlədən 2003-cü ildə 50 milyard manat vəsait ayrılması nəzərdə tutulurdu. 2002-ci il sentyabrın 28-də "Sahibkarlığın inkişafına mane olan müdaxilələrin qarşısının alınması haqqında" fərman imzalandı.

Ayrıca bu sırada "Haqsız Rəqabət Haqqında", "Lizinq Xidməti Haqqında", "Səhmdar Cəmiyyəti Haqqında" qanunlar, "Azərbaycan Respublikasında Kiçik və Orta Sahibkarlığın İnkişafının Dövlət Proqramı (2002-2005)", "Korrupsiyaya Qarşı Mübarizə Üzrə Dövlət Proqramı (2004-2006)" və s. sadalana bilər.

Hökumətlərin sosial-iqtisadi siyasətlərinin məqsədi struktur islahatlarını sürətləndirmək və sosial müdafiənin təşkilinin təkmilləşdirilməsi və paralel olaraq iqtisadiyyatın davamlı iqtisadi artım tempini qorumaqdır. Bu baxımdan yeni məşğulluq imkanlarının yaradılması və yoxsulluğun aradan qaldırılması istiqamətində inkişaf strategiyaları mənimsənməlidir.[155] Son illər həyata keçirilməkdə olan "Azərbaycan Respublikası Regionlarının Sosial-İqtisadi İnkişafı Dövlət Proqramı (2004-2008)" və "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf Üzrə Dövlət Proqramı (2003-2005)" da bu qəbildəndir.

Azərbaycan Respublikasının Vergi Məcəlləsində qeyd olunur: "Vergi sistemi sahibkarlıq və investisiya fəaliyyətini təşviq etməlidir."[156] Məcəllənin 13-cü maddəsinə görə isə, "sahibkarlıq fəaliyyəti - şəxsin müstəqil surətdə, öz riski ilə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlər görülməsindən və ya xidmətlər göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətidir."[157]

Ardından, Vergi Məcəlləsinin 13-cü maddəsinin 2-ci bəndində müəssisə deyiləndə nəyin nəzərdə tutulduğu göstərilir. Buna görə, Müəssisə - bu Məcəllənin məqsədləri üçün müəssisələr - sahibkarlıq fəaliyyətini həyata keçirən və bu cür fəaliyyət üçün yaradılan aşağıdakı qurumlar deməkdir:

---

[155] UNECE, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region*, op. cit.

[156] Azərbaycan Respublikası Vergilər Nazirliyi, *Azərbaycan Respublikasının Vergi Məcəlləsi*, I Fəsil, Maddə 3.10., http://www.taxes.gov.az.

[157] Ibid, I Fəsil, Maddə 13.2.37., http://www.taxes.gov.az.

- Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış hüquqi şəxslər;

- xarici dövlətin qanunvericiliyinə uyğun olaraq yaradılmış hüquqi şəxslər (korporasiyalar, şirkətlər, firmalar və digər analoji qurumlar), habelə onların filialları və ya daimi nümayəndəlikləri;

- Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmış hüquqi şəxslərin sərbəst balansa, cari və ya digər hesablara malik olan filialları, struktur bölmələri və ya digər ayrıca bölmələri.[158]

"Sahibkarlıq Fəaliyyəti Haqqında" Azərbaycan Respublikasının Qanununa görə isə, "sahibkarlıq fəaliyyəti (sahibkarlıq) fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir."[159]

Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyasının (UNECE - United Nations Economic Commission for Europe) rəsmi saytında verilən bir cədvəldə Azərbaycanda kiçik və orta müəssisələrin açıqlaması aşağıdakı şəkildə verilib:[160]

Kiçik müəssisələr kateqoriyasına, sənayedə 50-dən az, nəqliyyatda 15-dən az, tikintidə 25-dən az, xırda ticarətdə və xid-

---

[158] Azərbaycan Respublikası Vergilər Nazirliyi, *Azərbaycan Respublikasının Vergi Məcəlləsi*, I Fəsil, Maddə 13.2.39., http://www.taxes.gov.az.

[159] Entrepreneurship Support, *"Sahibkarlıq Fəaliyyəti Haqqında" Azərbaycan Respublikasının Qanunu*, Maddə 1., http://www.sahibkar.biz.

[160] UNECE - United Nations Economic Commission for Europe, *Network of SME National Focal Points: Azerbaijan*, http://www.unece.org/indust/sme/azerb.htm.

mətdə 10-dan az işçi çalışdıran müəssisələr daxildir. Orta müəssisələr kateqoriyasına isə, sənayedə 51-250 arası, nəqliyyatda 16-75 arası, tikintidə 26-150 arası, xırda ticarətdə və xidmətdə 11-50 arası işçi çalışdıran müəssisələr daxil edilir.

Açıqcası, bu cədvəli hansı məlumatlar əsasında hazırladıqları bizə məlum deyil. Ona görə də Azərbaycan qanunvericiliyinə əsasən Kiçik və Orta Sahibkarlığın tərifini verməkdə böyük fayda görürük. Çünki bu Azərbaycanda və dünyada KOS-la bağlı fərqli anlayışları spesifik bir şəkildə göstərə bilər.[161]

4 iyun 1999-cu il tarixli və 673-IQ nömrəli Kiçik Sahibkarlığa Dövlət Köməyi Haqqında Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə görə kiçik sahibkarlıq subyektləri dedikdə, aşağıdakılar nəzərdə tutulurdu:

- hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər;
- işçilərin orta siyahı sayı (mövsümi işçilər nəzərə alınmadan) sənaye, nəqliyyat və tikintidə — 50 nəfərədək, kənd təsərrüfatında və elmi texniki sahədə — 30 nəfərədək, ticarət, xidmət, informasiya və digər sahələrdə — 25 nəfərədək olan hüquqi şəxslər.

Bir neçə fəaliyyət növü ilə məşğul olan kiçik sahibkarlıq subyektləri rüblük dövriyyədə daha yüksək xüsusi çəkiyə malik olan fəaliyyət növü üzrə kiçik sahibkarlıq subyektinə aid edilirdi.

Göründüyü kimi yaxın zamanlara qədər bizdə təsnifat əsasən çalışan işçi sayına görə aparılırdı ki, bu da KOS-ların kapital və texnoloji infrastrukturlarının yanında bəzi davranış xüsusiyyətlərini (yenilik yaratma potensialı, sürətli adaptasiya və s. kimi) nəzərdən qaçırmaqda idi. Dolayısilə vahid və tək fak-

---

[161] Natiq Sabiroğlu, "Kiçik və Orta Sahibkarlıq Nədir?", *IqtisadNet*, http://www.iqtisad.net/ns010.htm, 30 avqust 2004.

tora dayanan ümumi bir tərif yerinə KOS-ların fəaliyyət göstərdiyi sektor xüsusiyyətlərini də nəzərə alan çoxfaktorlu təriflər və bunlar arasında ciddi bir koordinasiyanın təşkili qarışıqlığı önləmədə daha səmərəli ola bilərdi. Məsələn, əvvəlki qanunvericiliyə əsasən, 60 işçi ilə mədənçilik sənayesində fəaliyyət göstərən bir hüquqi şəxs KOS statusuna daxil edilmədiyi halda, 20 işçi ilə informasiya və kommunikasiya texnologiyaları (İKT) sektorunda fəaliyyət göstərən və illik satış həcmi mədənçilik sektorundakından 10 qat artıq olan bir firma kiçik sahibkarlıq subyekti olaraq ələ alınırdı. Ayrıca, Azərbaycan qanunvericiliyində "kiçik və orta sahibkarlıq" yerinə "kiçik sahibkarlıq subyektləri" ifadəsinin istifadəsi də diqqət çəkicidir.

Daha sonradan yuxarıda bəhs edilən 3-cü maddə 4 noyabr 2003 tarixli və 508-IIQD nömrəli "Kiçik Sahibkarlığa Dövlət Köməyi Haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu əsasında aşağıdakı şəkildə dəyişdirildi:[162]

1. Kiçik sahibkarlıq subyektləri işçilərinin orta siyahı sayı (mövsümi cəlb edilən işçilər nəzərə alınmadan) və illik dövriyyələrinin həcmi əsas götürülməklə müəyyənləşdirilir.

2. İqtisadi fəaliyyət növləri üzrə bu meyarların hədlərinin müəyyən edilməsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən həyata keçirilir.

Anlaşılan odur ki, çatışmazlıqların bir qismi qanunu hazırlayan mütəxəssislər tərəfindən nəzərə alınıb. Lakin bu dəyişiklikdən sonra Azərbaycanda kiçik sahibkarlıq deyiləndə nəyin nəzərdə tutulduğunu müəyyənləşdirmək artıq elə də asan deyil.

---

[162] "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, *Milli Məclis*, http://www.meclis.gov.az/qanunlar/qanun_l1.php?id=441&idk=1, (01.03.2006).

Fikrimizcə meyarların təyin edilməsinin sektor birlikləri yerinə müvafiq icra hakimiyyəti orqanlarına həvalə edilməsi yeni qanunvericilikdə ciddi bir nöqsandır. Çünki bu səlahiyyətin icra strukturlarına buraxılması sistemi su-istifadəyə olduqca açıq bir hala gətirməkdədir. Dolayısı ilə əvvəlki qanunda yetərsiz təsnifat mövcud idisə, indikində ciddi qeyri-müəyyənlik mövcuddur. Yəni fəaliyyət növləri üzrə meyarların hədlərinin müəyyən edilməsinin müvafiq icra hakimiyyəti orqanlarına buraxılması və nəticədə hər icra hakimiyyətinin bu meyarlar üçün fərqli hədlər müəyyənləşdirə biləcəyini nəzərə alsaq, belə çıxır ki, bir rayonda kiçik sahibkarlıq subyekti sayılan istənilən bir müəssisə ilə eyni parametrlərə sahib olan, lakin başqa bir rayonda yerləşən müəssisə kiçik sahibkarlıq subyekti kimi qəbul edilməyə bilər.[163]

Bu hal respublika üzrə KOS-lara yönəlik vahid statistikanın aparılmasını və daha əhəmiyyətlisi bunlara yönəlik vahid bir təşviq sisteminin həyata keçirilməsini müşkülə çevirir. Ayrıca bəzi bölgələrdə KOS-lar təşviq edilmək istənilirsə, bunu da yerli icra strukturları deyil, dünyada olduğu kimi, qanun müəyyənləşdirməlidir.

Ona görə də biz, Azərbaycanda KOS-lardan bəhs edərkən qanundakı **dəyişikliyə qədər olan dövrü** ələ almışıq. Məhz həmin dövrdən sonra Dövlət Statistika Komitəsinin də hesabatlarında kiçik və orta böyüklükdəki müəssisələrə yer ayırmaması yuxarıdakı fikirlərimizi təsdiq edir. Çünki qanundakı qeyri-müəyyənlik vahid statistikanın aparılmasını da çətinləşdirir.

Kiçik və orta sahibkarlığın dünya ölkələrindəki rolundan yuxarıda bəhs etdik. Bəs Azərbaycanda KOS-ların inkişafı nə səviyyədədir? Əlimizdəki rəqəmlərin məhdud olmasına və bu sahədə ciddi elmi araşdırmaların aparılmamış olmasına bax-

---

[163] Natiq Sabiroğlu, "Dünyada KOS-lara Yönəlik Təşviqlər", *IqtisadNet*, http://www.iqtisad.net/ns011.htm, 2 oktyabr 2004.

mayaraq mövcud rəqəmlər müəyyən qənaətə gəlmək üçün kifayət edir.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin məlumatlarında respublikada fəaliyyət göstərən müəssisələrin 90 faizindən artığını kiçik müəssisələrin təşkil etdiyi göstərilir. Bu müəssisələrin sahələr üzrə bölgüsü aşağıdakı şəkildədir:

**İqtisadiyyatın sahələri üzrə fəaliyyət göstərən kiçik müəssisələrin sayı, vahid**

| | 2002 | 2003 |
|---|---|---|
| **Cəmi** | 24721 | 21178 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 1753 | 1488 |
| Sənaye | 1809 | 1960 |
| Tikinti | 971 | 1129 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 13215 | 10351 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 881 | 577 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 396 | 386 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 1859 | 1751 |
| Təhsil | 78 | 90 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 143 | 171 |
| Digər sahələr | 3616 | 3275 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Qeyd edək ki, buradakı sinifləşdirmə əvvəlki qanunvericiliyə uyğun olaraq aparılıb. Yəni, 1-49 nəfər işçisi olan müəssisələr kiçik, 50-150 orta və 150 nəfərdən artıq işçisi olan müəssisələr iri müəssisələr kateqoriyasında ələ alınıb.

Kiçik müəssisələrin sayının çoxluğuna baxmayaraq onların effektli iqtisadi fəaliyyət göstərib göstərmədiyini müəyyənləşdirmək üçün bu müəssisələrin yaratmış olduqları əlavə dəyə-

rin ümumi daxili məhsuldakı payı, məşğulluq səviyyəsindəki payı, respublikanın təsərrüfat subyektlərinin fəaliyyətləri nəticəsində yaradılan mənfəət içərisindəki payı, ixracatdakı payı, qoyulan məcmu investisiyalar içərisindəki payı və s. kimi kriteriyalara baxmaq lazımdır.

Statistik məlumatlarda kiçik müəssisələrin yaratmış olduqları əlavə dəyərin ÜDM-nin neçə faizini təşkil etdiyinə dair konkret rəqəmlər göstərilməsə də dolayı yolla müəyyən qənaətə gəlmək mümkündür.

**İqtisadiyyatın sahələri üzrə fəaliyyət göstərən kiçik müəssisələrdə məhsulun (işlərin, xidmətlərin) həcmi, milyon manat**

| | **2002** | **2003** |
|---|---|---|
| **Cəmi** | 3620141 | 5419274 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 49102 | 65917 |
| Sənaye | 694449 | 759344 |
| Tikinti | 1128758 | 1826275 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 705729 | 1120254 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 35504 | 24167 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 218504 | 420887 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 672072 | 966807 |
| Təhsil | 9291 | 17192 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 19569 | 24324 |
| Digər sahələr | 87156 | 194107 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

2002-ci ildə ÜDM-nin 30312.3 milyard manat, 2003-cü ildə isə 35053.4 milyard manat olduğunu nəzərə alsaq, kiçik müəs-

sisələrin bu illərdə müvafiq olaraq 11.94 faiz və 15.46 faiz kimi çox kiçik paya sahib olduğu anlaşılır.

OECD ölkələrində şirkətlərin 96-99 faizini təşkil edən kiçik və orta böyüklükdəki müəssisələr ÜDM-nin, yəni yaradılan əlavə dəyərin 53 faizini təşkil etməkdədirlər. Azərbaycanda isə fəaliyyət göstərən müəssisələrin 90 faizindən artığını kiçik müəssisələr təşkil etdiyi halda, bu müəssisələr yaradılan əlavə dəyərdə sadəcə 15.46 faiz paya sahibdir. Lakin bu payın 2001-ci ildəki 8.15 faizdən 2002-ci ildə 11.94 faizə və 2003-də 15.46 faizə yüksəldiyini nəzərə alsaq iqtisadiyyatda kiçik və orta sahibkarlığın inkişafı baxımından müsbət bir tendensiyanın yaşanmaqda olduğunu söyləmək mümkündür.

Statistika Komitəsinin məlumatları əsasında hazırlamış olduğumuz aşağıdakı cədvəldən də görünür ki, kiçik müəssisələrin 51.6 faizi (10928) ticarət, ictimai iaşə, mehmanxanalar sahəsində fəaliyyət göstərir.

**İqtisadiyyatın sahələri üzrə fəaliyyət göstərən kiçik müəssisələrin sayı və bu sahələrin ÜDM-dəki payı (2003-cü il)**

| **İqtisadi Fəaliyyət Növləri** | ÜDM-də payı (faizlə) | Kiçik müəssisələrin sayı |
|---|---|---|
| Kənd təsərrüfatı, ovçuluq və meşəçilik | 12,9 | 1488 |
| Sənaye | 37,8 | 1960 |
| Tikinti | 12,1 | 1129 |
| Ticarət, ictimai iaşə, mehmanxanalar | 7,9 | 10928 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 9,5 | 386 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Halbuki, 2003-cü il ərzində bu sahədə ÜDM-nin yalnız 7.9 faizi qədər əlavə dəyər yaradılıb. Baxmayaraq ki, hüquqi şəxs

yaratmadan fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olanların da böyük əksəriyyəti məhz bu sektorda fəaliyyət göstərir.

Əksinə nəqliyyat və rabitədə ÜDM-nin 9.5 faizi qədər əlavə dəyər yaradıldığı halda, bu sahədə fəaliyyət göstərən kiçik müəssisə və təşkilatların sayı 1.82 faiz (386) təşkil edib.

Eyni zamanda ÜDM-nin 37.8 faizi qədər əlavə dəyər yaradılan sənaye sahəsində həmin müəssisələrin sadəcə 9.25 faizi fəaliyyət göstərib. Bir başqa ifadə ilə 2003-cü ildə sənayedə kiçik sənaye müəssisələrin sayı 1960 olmuşdur. Bu isə sənaye sektorunda fəaliyyət göstərən müəssisələrin (2421) 81 faizini təşkil edib.

**Sənayedə iqtisadi fəaliyyət növləri və işçilərin sayına görə fəaliyyəti olan müəssisələrin sayı və qruplaşdırılması**

| 2002 | | | | 2003 | | | |
|---|---|---|---|---|---|---|---|
| Cəmi | o cümlədən: | | | Cəmi | o cümlədən: | | |
| | kiçik | orta | iri | | kiçik | orta | iri |
| 2357 | 1809 | 283 | 265 | 2421 | 1960 | 238 | 223 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Göründüyü kimi kiçik müəssisələrin daha çox fəaliyyət göstərdiyi sahələrdə daha az əlavə dəyər yaradılıb. Daha çox əlavə dəyər yaradılan sahələrdə isə bu müəssisələrin fəaliyyəti zəif olub.

Statistika Komitəsinin məlumatlarında respublika üzrə iqtisadi fəal əhalinin sayı 2002 və 2003-cü illərdə müvafiq olaraq 3777.5 min və 3801.4 min nəfər olaraq göstərilib. İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanların sayı isə, 2002-də 3726.5 min nəfər və 2003-cü ildə 3747.0 min nəfər təşkil edib.

Qeyd edək ki, "Məşğulluq Haqqında" Azərbaycan Respublikasının Qanununa görə, işsiz vətəndaş - işi və qazancı olmayan, işə başlamağa hazır olub, müvafiq icra hakimiyyəti orqanında (Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Baş Məşğulluq İdarəsi və onun yerli or-

qanları) iş axtaran kimi qeydiyyata alınan, əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli şəxsdir.[164] Dolayısilə qeydə alınmayanlar rəsmi statistikada işsiz sayılmır.

Peşə ixtisası olmadığı üçün üç ildən artıq işsizlik müavinəti ala bilməyən və işsizlik statusunu itirən vətəndaşlar da işsiz kateqoriyasına daxil edilmir.

Eyni zamanda mülkiyyətində kiçik də olsa torpaq payı olanlar 2001-ci ildə "Məşğulluq Haqqında" qanunun qəbulundan sonra işsiz statusunda nəzərə alınmır. Yəni, kiçik torpaq payı olan kəndlilər də işsizlik statusu ala bilməz.[165]

Ona görə də statistik məlumatlarda əhalinin 42 faizinin kənd təsərrüfatı ilə məşğul olduğu qeyd edilir. Respublikada 1996-cı ildən bəri aparılan aqrar islahatlar sayəsində 870 min ailə torpaq mülkiyyətçisinə çevrilmiş, 3,5 milyon hektar torpaq sahəsi əvəzsiz olaraq, onu əkib-becərənlərin ixtiyarına verilmişdir. Ailə başına ortalama olaraq 4 hektar kimi küçük torpaq sahəsi düşür ki, bu da kənd təsərrüfatında məhsuldarlığın artırılmasının önündəki ən böyük əngəllərdəndir.

Respublika üzrə kiçik sənaye müəssisələrində 2002-ci ilin statistikasına görə cəmisi 16375 nəfər işlə təmin olunub. Bu isə ortalama olaraq müəssisə başına 3.5 nəfər deməkdir. Həmin ildə cəmi iqtisadiyyatda məşğul olan əhalinin sayının 3726.5 min nəfər təşkil etdiyini nəzərə alsaq, kiçik sənaye müəssisələrinin ümumi məşğulluğun sadəcə 0.44 faizini təşkil etdiyi anlaşılır.

2002-ci ildə bütün sənaye üzrə məşğul olanların sayı 176.9 min nəfər təşkil etdiyindən kiçik sənaye müəssisələrindəki məşğulluğun ümumi sənayedəki məşğulluğun təqribən 9.3 faizini təşkil etdiyi anlaşılır. 2003-cü il və sonrası üçünsə kiçik sənaye müəssisələrində məşğulluqla bağlı statistik göstərici əldə

---

[164] "Məşğulluq Haqqında" Azərbaycan Respublikasının Qanunu, Maddə 4.1., http://www.iqtisad.net/qanunlar/0027.pdf, (01.03.2006).

[165] Ibid., Maddə 3.0.2.

etmək mümkün olmadığından müvafiq dövr üçün belə bir statistik müqayisə aparmaq da mümkün deyil.

**Məşğul olan əhalinin mülkiyyət formaları üzrə bölgüsü (min nəfər)**

| | 2002 | 2003 |
|---|---|---|
| Cəmi, iqtisadiyyatda məşğuldur | 3726.5 | 3747.0 |
| o cümlədən mülkiyyət formaları üzrə: | | |
| dövlət | 1192.0 | 1180.0 |
| qeyri - dövlət | 2534.5 | 2567.0 |
| onlardan: | | |
| fərdi | 1464.5 | 1454.7 |
| xüsusi | 259.1 | 295.0 |
| bələdiyyə | 19.1 | 19.0 |
| xarici investisiyalı və birgə müəssisələr | 32.7 | 41.2 |
| sərbəst məşğul əhali | 726.1 | 724.6 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Ümumiyyətlə respublika üzrə fəaliyyət göstərən kiçik müəssisələrdə çalışanların sayı 2002-ci ildə 125804 nəfər təşkil edib ki, bu da ümumi məşğulluğun 3.38 faizinə bərabərdir. 2003-cü ildə isə kiçik müəssisələrdə çalışanların sayının 187521 nəfər və cəmi iqtisadiyyatda məşğul olan əhalinin sayının 3747 min nəfər təşkil etdiyini nəzərə alsaq müvafiq göstəricinin 5 faiz təşkil etdiyini görürük.

Qeyri-dövlət sektorunda çalışanların sayı 2002-ci ildə 2534.5 min nəfər, 2003-cü ildə isə 2567 min nəfər təşkil edib. Demək ki, kiçik müəssisələrdə çalışanların sayı qeyri-dövlət sektorundakı ümumi məşğulluğun 2002-ci ildə 4.96 faizini, 2003-cü ildə isə 7.31 faizini təşkil edib.

**Fəaliyyət göstərən kiçik müəssisələrdə çalışan işçilərin sayı, nəfər**

| | 2002 | 2003 |
|---|---|---|
| **Cəmi** | 125804 | 187521 |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 13094 | 21316 |
| Sənaye | 22110 | 22767 |
| Tikinti | 17111 | 25529 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 29894 | 52589 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 2440 | 2844 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 4941 | 5260 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 9071 | 13459 |
| Təhsil | 926 | 2301 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 2327 | 3984 |
| Digər sahələr | 23890 | 37472 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Lakin Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası tərəfindən hazırlanan məlumat bazasındakı göstəricilər Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin hesabatlarından köklü şəkildə fərqlənir. Bu məlumat bazasındakı göstəricilərə görə, Azərbaycanda kiçik və orta sahibkarlığın ümumi məşğulluq içərisindəki payı daha az (2.7 faiz), amma Ümumi Daxili Məhsuldakı payı çox yüksəkdir (41.3 faiz).

Digər iki Cənubi Qafqaz respublikası (Gürcüstan və Ermənistan) ilə müqayisədə Azərbaycanda KOS-ların ÜDM-dəki payı nisbətən yüksək olsa da, KOS-ların məşğulluq içərisindəki payı və KOS-lar tərəfindən işə götürülmə nisbəti çox aşağıdır. Aydındır ki, burada gizli məşğulluq səviyyəsinin çox yüksək olması da nəzərdən qaçırılmamalıdır. Eyni zamanda Azər-

baycan üçün kiçik və orta sahibkarlığın inkişaf indeksi də Cənubi Qafqaz respublikaları arasında yüksək qiymətləndirilir.[166]

**KOS İnkişaf İndeksi**

| **Ölkə** | Azərbaycan | Gürcüstan | Ermənistan |
|---|---|---|---|
| İqtisadiyyatda özəl sektorun payı (%) | 71 | 60 | 80 |
| ÜDM-də KOS-ların payı (%) | 41.3 | 24.4 | 30 |
| KOS-ların ümumi məşğulluqdakı payı (%) | 2.7 | 12 | 25.8 |
| KOS İnkişaf İndeksi | 31 | 12 | 31 |

Mənbə: UNECE SME Databank, 2003.

Müəssisə və təşkilatların maliyyə fəaliyyətlərinin nəticələrinə əsasən isə, müvafiq dövrdə iqtisadiyyatın əsas sahələrində müəssisə və təşkilatların fəaliyyətləri nəticəsində yaradılan toplam mənfəətin (3202.2 milyard manat) sadəcə 3.3 faizə qədəri (105.9 milyard manat) ticarət və xidmət sektorunda məşğul olan müəssisə və təşkilatların payına düşüb. Mənfəətlə işləyən müəssisə və təşkilatların isə vur-tut 13.1 faizi ticarət və xidmət sektorunda fəaliyyət göstərib. Halbuki kiçik müəssisələrin 32.3 faizi ticarət sahəsində cəmləşib. Digər tərəfdən, müəssisə və təşkilatların fəaliyyətləri nəticəsində yaradılan toplam mənfəətin 38.8 faizi (1241.8 milyard manat) kiçik müəssisə və təşkilatların yalnızca 2.66 faizinin cəmləşdiyi nəqliyyat və rabitə sektorunun payına düşüb. Eyni formada sənaye sahəsində KOS-ların sadəcə 7.86 faizi fəaliyyət göstərdiyi halda

[166] UNECE, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region*, op. cit.

toplam mənfəətin 54.44 faizi (1743.3 milyard manat) məhz bu sektorda formalaşıb.

Azərbaycanda KOS-ların qoyulan ümumi investisiyalar, ixracat içərisindəki paylarına gəlincə isə bircə onu xatırlatmaq kifayətdir ki, burada yalnız bu müəssisələrin deyil, ümmiyyətlə qeyri-neft sektorunun payı çox aşağıdır. "Qeyri-neft sektoru inkişaf etdirilməlidir" deyildiyi zaman Azərbaycanın əksər iqtisadi problemləri ümumiləşdirilmiş olur. Buraya daxildir, qeyri-neft sektoruna yönəlik investisiyaların artırılması, ixracatda və istehsalda qeyri-neft sektorunun payının artırılması və nəticədə yoxsulluğun və kütləvi işsizliyin aradan qaldırılması və s. Buna isə KOS-ları inkişaf etdirmədən nail olmaq mümkün deyil. Ona görə də investisiyaların təşviqi haqqında qanundan tutmuş vergi məcəlləsinə qədər əksər qanunlar kiçik və orta böyüklükdəki müəssisələrin mənafeləri baxımından yenidən ələ alınmalıdır.

Digər tərəfdən, ölkədə kiçik və orta sahibkarlığın inkişafına lizinqin inkişafı da öz töhfəsini verə bilər. Beynəlxalq Maliyyə Korporasiyası (BMK) İqtisadi əlaqələr üzrə İsveçrə Dövlət Katibliyinin (SECO) maliyyə dəstəyi ilə 2003-cü ilin may ayından Azərbaycanda Lizinqin İnkişafı Layihəsini həyata keçirir. Layihənin məqsədi lizinq xidmətləri bazarının inkişafı və kiçik və orta sahibkarlığın maliyyələşdirmə vasitəsi kimi lizinqdən daha geniş istifadə edilməsinin həvəsləndirilməsi, həmçinin Azərbaycanın lizinq sektoruna xarici və daxili investisiyaların cəlb edilməsi üçün əlverişli mühitin yaradılmasıdır. Lizinqin İnkişafı Layihəsinin əsas vəzifəsi işgüzar mühitin təkmilləşdirilməsi və ölkədə rifahın yaxşılaşdırılmasıdır. Beynəlxalq Maliyyə Korporasiyasının bölməsi olan Özəl Sektorun İnkişafı üzrə Partnyorluq (PEP) Azərbaycan Hökuməti, maliyyə qurumları və özəl şirkətlərlə sıx əməkdaşlıq şəraitində işləyərək Azərbaycanda lizinqin inkişafı üçün əlverişli şərait yaratmağa çalışır. PEP keçmiş SSRİ məkanında yaradılmış dövlətlərdə

BMK tərəfindən həyata keçirilən texniki yardım proqramıdır, BMK-nın Mərkəzi və Şərqi Avropa Departamenti tərəfindən idarə olunur. Partnyorluq donor hökumətlər və BMK tərəfindən birgə maliyyələşdirilir. Partnyorluq tərəf-müqabilləri olan donorlarla birgə şirkətlərə və hökumətlərə aşağıdakı istiqamətlərdə yardım göstərir:[167]

- Biznes mühitini yaxşılaşdırmaq;
- Kiçik və Orta Sahibkarlığın inkişafını stimullaşdırmaq;
- Özəl sərmayəni birbaşa cəlb etmək.

Bu məqsədlərə nail olmaq üçün PEP beş müxtəlif sahədə proqram həyata keçirir:

- Şirkətlər və investorlar arasında əlaqələrin qurulması məqsədilə müxtəlif sahələrdə istehsal infrastrukturunun inkişaf etdirilməsi;
- Maliyyə bazarları;
- Korporativ idarəetmə;
- Kiçik və Orta Sahibkarlığın inkişaf etdirilməsi siyasəti;
- Kənd təsərrüfatı və meşəçilik.

PEP MDB-nin bir sıra ölkələrində layihələr həyata keçirir. Hal-hazırda Azərbaycanda, Gürcüstanda, Qazaxıstanda, Qırğızıstanda, Rusiyada, Tacikistanda, Ukraynada, Özbəkistan və Monqolustanda lizinqin inkişafı layihələri həyata keçirilir.

Birləşmiş Millətlər Təşkilatının Avropa üzrə İqtisadi Komissiyası keçid ölkələrində KOS sektorunun inkişafı üçün KOS İnkişaf Piramidası strukturu adlanan Bütünləşdirilmiş Model hazırlamışdır. Bu model bir sıra keçid iqtisadiyyatlarında müvəffəqiyyətlə həyata keçirilmişdir. Sahibkarlığın inkişafının ən effektiv üsulu həyata keçirilən fəaliyyətlərin və yardımların

---

[167] IFC - International Finance Corporation, *Lizinq Azərbaycanda*, http://www.ifc.org/ifcext/aldp.nsf/AttachmentsByTitle/LeasingAzeriBrochure/$FILE/leasing-azerbaijan.pdf, May 2004.

bütövlük təşkil etməsi və üç müxtəlif səviyyədə məqsəd olaraq seçilməsidir:[168]

- Strateji səviyyədə;
- İnstitusional səviyyədə;
- Təşəbbüs (Müəssisə) səviyyəsində.

Bu gün, həqiqətən də çox önəmli bir iqtisadi güc olan Avropa Birliyi (AB) belə təşəbbüskarlıq mövzusunda özünü Amerika Birləşmiş Ştatlarına (ABŞ) görə zəif hesab edir, birliyi əmələ gətirən ölkələrdə təşəbbüskarlığın sistematik bir çərçivədə həyata keçiriləcək plan və tədbirlərlə inkişaf etdirilməsini və dəstəklənməsini istəyir. Məhz bu məqsədlə də 2000-ci ildə təşkil edilən və AB-ni informasiyaya əsaslanan (elm tutumlu), dünyanın rəqabət qabiliyyətli və dinamik iqtisadiyyatına çevrilməsini nəzərdə tutan Lissabon Strategiyası çərçivəsində, 2003-cü ildə, Avropada təşəbbüskarlığın inkişaf etdirilməsi və dəstəklənməsi plan və tədbirlərini ehtiva edən "təşəbbüskarlıq" mövzusunda bir "Yaşıl Kitab"[169] hazırlanmışdır.

[168] UNECE, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region*, op. cit.

[169] "Green Paper: Entrepreneurship in Europe", *Commission of The European Communities*, Brussel, 21.01.2003. http://europa.eu.int/comm/enterprise/entrepreneurship/green_paper/green_paper_final_en.pdf, (01.03.2006).

# Makroiqtisadi vasitələrdən səmərəli istifadə problemi

Makroiqtisadi məqsədlərə çatmaq üçün istifadə edilən iqtisadi siyasətlər ümumi şəkildə fiskal və pul siyasəti şəklində ikiyə ayrılır.[170] Pul siyasətini həyata keçirmə səlahiyyəti mərkəzi banklara verilir. Azərbaycanda mərkəzi bank funksiyasını "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikasının qanununun 1-ci maddəsinə əsasən Milli Bank yerinə yetirir. Azərbaycan Milli Bankının məqsədləri bu qanunun 4-cü maddəsində göstərilib. Buna görə, Milli Bankın fəaliyyətinin əsas məqsədi öz səlahiyyətləri daxilində qiymətlərin stabilliyini, həmçinin, bank və ödəniş sistemlərinin stabilliyini və inkişafını təmin etməkdir.[171] Buradan da göründüyü kimi inflyasiyanı nəzarət altında saxlamaq Milli Bankın ən əsas vəzifəsi sayılır.

Azərbaycanda illər üzrə orta inflyasiya göstəricilərinə nəzər yetirdikdə şərti olaraq üç mərhələdən bəhs etməmiz mümkündür:

- Birinci mərhələni 1996-cı ilə qədərki iki və ya çoxrəqəmli inflyasiya dövrü təşkil edir. Xatırladaq ki, 1993-cü ildə inflyasiya 1080%, 1994-də 1773%, 1995-də 84,65% və 1996-da 19,9% səviyyəsində gerçəkləşmişdi.

- İkinci mərhələni isə makroiqtisadi stabillik siyasətinin tətbiq edilməsinin ardından 1997-2003-cü illəri əhatə edən aşağı səviyyəli (hətta deflyasiyanın da müşahidə edildiyi) təkrəqəmli inflyasiya dövrü təşkil edir: 1997-ci ildə 3.7%, 1998-də 0.8%,

---

[170] Derek Lobley, *Ekonomi*, M.E.B, Özgün Matbaacılık, Ankara, 1995, səh.204.

[171] "Azərbaycan Respublikasının Milli Bankı haqqında Azərbaycan Respublikasının qanunu", *Azərbaycan Milli Bankı*, http://nba.az/?mod=inside&id=70&lang=az&sub1=128, (01.03.2006).

1999-da (-8.5%), 2000-də 1.8%, 2001-də 1.5%, 2002-də 2.8% və 2003-də 2.2%.

- Üçüncü mərhələni təşkil edən 2004-cü ildən sonrası isə, ölkədə fiskal və monetar ekspansiya fonunda inflyasiya təzyiqlərinin yüksəldiyi və nəyin bahasına olursa-olsun təkrəqəmli inflyasiya səviyyəsini qorumağa istiqamətlənmiş pul siyasətinin həyata keçirildiyi dövr kimi xarakterizə edilə bilər. 2004-cü ildə inflyasiya tempinin 2.5% səviyyəsində saxlanılması[172] nəzərdə tutulsa da, inflyasiya 6,7% səviyyəsində gerçəkləşmiş və 2005-də isə 9,6 faizlə çətinliklə də olsa təkrəqəmli inflyasiya səviyyəsi qoruna bilmişdir.

**Azərbaycanda inflyasiya**
**(əvvəlki ilə nisbətən faizlə)**




Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

[172] "Azərbaycan Respublikası Milli Bankının 2004-cü il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri və 2005-2006-cı illər üçün prioritet vəzifələri barədə bəyanatı", *Azərbaycan Milli Bankı*, http://nba.az/download/Pul_siyaseti/veziyyet/2004_beyanat.pdf, (01.03.2006).

Əvvəlki bölümlərdə birinci mərhələdən və Azərbaycanda həyata keçirilən makroiqtisadi stabillik siyasətindən geniş şəkildə bəhs etmişdik. İkinci mərhələdə müşahidə edilən aşağı səviyyəli inflyasiya isə, öz bərabərində yeni diskussiyaları da gətirmişdi. Bunlar arasında Milli Bankın bir miqdar daha yüksək inflyasiyaya, o cümlədən emissiyaya getməsi təklifləri də yer almaqda idi.

Makroiqtisadi siyasətlərdən səmərəli və geniş istifadə imkanları iqtisadiyyatın ümumi inkişaf səviyyəsi ilə düz mütənasibdir. Başqa ifadə ilə desək, makroiqtisadi siyasi vasitələrlə istənilən nəticəni əldə edə bilmək üçün iqtisadiyyatın buna reaksiya verə biləcək səviyyədə olması zəruridir. Bunlar olmadığı üçün Azərbaycanda makroiqtisadi siyasətin tətbiq imkanları çox məhduddur.

Belə bir vəziyyətdə hökumətin aşağı səviyyəli inflyasiyaya imkan verməsi və ya Milli Bankın bir miqdar emissiyaya getməsi istehsalı artıra bilərdimi? Məsələn, 1999-cu ilin iyulunda həyata keçirilən 6,8 faizlik devalvasiyadan sonra bir çoxları bu sahədəki nəzəri biliklərə istinad edərək, ölkədə istehsalın, ixracın, məşğulluq səviyyəsinin artacağını bəyan etdilər. Hansı ki, bu devalvasiya həmin ildə gerçəkləşən 8,5 faizlik deflyasiyanın belə qabağını ala bilmədi. Normal inkişaf etmiş ölkələrdə devalvasiya siyasətindən istifadə olunursa, bu daxili istehsalın artmasına, idxalın azalıb ixracın stimullaşmasına, məşğulluq səviyyəsinin yüksəlməsinə səbəb ola bilir. Bizdə isə istənilən effekti vermir.[173]

Diqqətdən qaçan nöqtə ondan ibarətdir ki, bu deyilənlər özünü inkişaf etmiş və ya inkişaf etməkdə olan ölkələrdə doğrulda bilər. Bunun üçün yüksək istehsal səviyyəsi olmalı, eyni

[173] Ilkin Sabiroglu, "Azerbaijan has very limited possibilities of using macroeconomic political means", Azerbaijan Bulletin No:10 (264), 8 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200103/0023.html, (01.03.2006).

zamanda bazar şərtləri əlverişli olmadığı üçün tam gücü ilə işləməyən müəssisələr mövcud olmalıdır. Bir anlığına şərti olaraq təsəvvür edək ki, hər hansı N zavodu ayda 100 ədəd məhsul istehsal etmək gücünə sahib olduğu halda, hazırda isə 70 ədəd istehsal edir. Devalvasiya qərarından sonra şərtlər münasib olduğundan istehsal səviyyəsini artırır. Lakin sadəcə bir devalvasiya qərarına görə həvəslənib ikinci zavodlarını açmayacaqları kimi, əgər daha ciddi səbəblərdən zavodlar, müəssisələr fəaliyyətə başlaya bilməyirlərsə, devalvasiya və ya bir miqdar inflyasiyaya görə də istehsala başlamayacaqlar.

Bəs Azərbaycanda Milli Bankın bir miqdar emissiyaya getməsi ilə iqtisadiyyatın canlanmasına nail olmaq mümkündürmü? İqtisadi ədəbiyyatda aşağıdakı şəkildə ümumiləşdirmə mövcuddur:[174]

- Əgər bir ölkədə yüksək işsizlik səviyyəsi var, digər tərəfdən tədiyyə balansı müsbət saldoya sahibdirsə, genişləndirici pul və fiskal siyasət həyata keçirilməlidir.
- Əgər bir ölkədə yüksək inflyasiya var, digər tərəfdən tədiyyə balansı müsbət saldoya sahibdirsə, genişləndirici pul və məhdudlaşdırıcı fiskal siyasət həyata keçirilməlidir.
- Əgər bir ölkədə inflyasiya var, digər tərəfdən tədiyyə balansı kəsir verirsə, məhdudlaşdırıcı pul və fiskal siyasət həyata keçirilməlidir.
- Nəhayət, əgər bir ölkədə yüksək işsizlik səviyyəsi var, digər tərəfdən tədiyyə balansı kəsir verirsə, məhdudlaşdırıcı pul və genişləndirici fiskal siyasət həyata keçirilməlidir.

Prinsipcə Azərbaycanda yüksək səviyyəli işsizlik mövcud olduğundan və tədiyyə balansı xroniki olaraq kəsirə məruz qaldığından pul siyasəti məhdudlaşdırıcı, maliyyə siyasəti genişləndirici olmalıdır. Lakin bu dövrdə Azərbaycanda pul si-

---

[174] Halil Seyidoğlu, *Uluslararası İktisat,* M.E.B, Kurtiş Matbaası, 13-cü nəşr, İstanbul, 1999, səh.515.

yasətindəki məhdudlaşdırmanın həcmi (bəlkə də Milli Bank tərəfindən valyuta rezervlərinə qənaət etmək məqsədilə) həddindən artıq yüksək olmuşdur. Belə ki, 1 fevral 1999-cu il tarixi üçün 1998-ci ilin eyni dövrü ilə müqayisədə geniş mənada pul kütləsi 18 faizə yaxın, dövriyyədəki nağd pul kütləsi də 25 faizdən artıq azalmışdır. Daha sonradan 1 iyul 2000-ci il üçün 1 yanvar 1999-cu ilə görə dövriyyədəki manatın həcmi 10,2 faiz, dövriyyədəki nağd manatın həcmi də 18,7 faiz artsa da, 1998-ci ilin eyni dövrünün göstəricilərinə belə çatmamışdır.

**Pul aqreqatları (manatla və SDV depozitləri ilə) (milyard manat)**[175]

| Tarix | $M^0$ | $M^1$ | $M^2$ | $M^3$ |
|---|---|---|---|---|
| 01. 01. 1995 | 276.1 | 401.3 | 431.0 | 1048.1 |
| 01. 01. 1996 | 602.4 | 925.0 | 957.6 | 1299.6 |
| 01. 01. 1997 | 865.4 | 1173.7 | 1204.2 | 1545.1 |
| 01. 01. 1998 | 1170.5 | 1537.8 | 1556.3 | 2063.7 |
| 01. 02. 1998 | 1090.8 | 1406.8 | 1424.8 | 1940.2 |
| 01. 01. 1999 | 926.0 | 1145.7 | 1218.5 | 1712.9 |
| 01. 02. 1999 | 815.6 | 1056.8 | 1072.9 | 1596.8 |
| 01. 01. 2000 | 1135.8 | 1390.0 | 1404.3 | 2063.7 |
| 01. 01. 2001 | 1349.8 | 1577.5 | 1629.1 | 1545.1 |
| 01. 01. 2002 | 1469.0 | 1687.5 | 1755.6 | 1048.1 |

Mənbə: Azərbaycan Milli Bankı, İllik Hesabat 2001, səh.162.

Yuxarıdakı rəqəmlərin təhlili 01.02.1999 tarixi üçün geniş mənada pul kütləsinin 1596.8 milyard manata qədər azaldığını göstərməkdədir. Tədavüldəki 1072.9 milyard manatın (manatla olan geniş mənada pul kütləsi) 815.6 milyardlıq hissəsi nağd

---

[175] $M^0$ - Dövriyyədə olan nağd pul,
$M^1$ - $M^0$ + tələb olunanadək depozitlər,
$M^2$ - $M^1$ + müddətli depozitlər,
$M^3$ - $M^2$ + SDV depozitlər.

haldadır. Geniş mənada pul kütləsindən tədavüldəki manatı çıxsaq (1596.8-1072.9), SDV (Sərbəst Dönərli Valyuta) hesabının 523.9 milyard manata bərabər olduğunu taparıq. Eyni zamanda tədavüldəki manatdan nağd şəkildəki manatı çıxsaq (1072.9-815.6), manatla olan depozitlərin həcminin 257.3 milyard manata bərabər olduğunu müəyyənləşdirmiş oluruq.

Anlaşıldığı kimi, banklara olan etibarsızlıq, hesablaşmaların bank hesablarının xaricində həyata keçirilməsi və bankların sərbəst bazar iqtisadiyyatının tələblərinə uyğun xidmətlər təklif edə bilməməsi, onların pul yaratma imkanlarını minimum səviyyədə saxlamışdır.

Lakin qeyd etməliyik ki, bu dövrdə emissiya ilə də daha əvvəl saydığımız səbəblərə görə ciddi bir nəticə əldə etmək mümkün deyildi. Həmin reallıqda hətta milli valyutamızın dövriyyə sürətinin dəyişməyəcəyini qəbul etsəydik belə, bu addım inflyasiya meyli yarada bilərdi. Bəlkə də bu deflyasiyaya qarşı çarə olaraq düşünülə bilərdi. Amma nəzərə alsaq ki, daxili tələbatın böyük bir hissəsi idxal mallarıyla ödənilidi, demək bu paralel şəkildə ticarət dövriyyəsini artıracağı üçün valyuta kurslarını yüksəldəcəkdi. Hansı ki, mövcud deflyasiya şəraitində belə valyuta kursları yüksəlməkdəydi. Bu isə Milli Bankın daha artıq xarici valyuta rezervini tükətməsi anlamına gəlirdi.

Deflyasiyanın ümumi qiymətlər səviyyəsi düşərkən milli gəlir, istehsal və məşğulluq səviyyəsinin də düşməsi mənasına gəldiyini hamımız bilirik. Maraqlıdır ki, Azərbaycanda 1998-ci ildə 0,8 faizlik bir inflyasiya olduğu halda ÜDM 10 faiz artdığı kimi, 1999-cu ilin iyulunda yaşanan 6,8 faizlik devalvasiyaya baxmayaraq il sonunda ortalama olaraq 8,5 faizlik deflyasiya özünü göstərmiş, amma ÜDM 7,4 faiz artmışdır. Digər tərəfdən rəsmi məlumatlar həm istehsal və həm də məşğulluq səviyyəsində yüksəlmənin olduğunu ortaya qoyurdu. Bu kimi paradoksal nəticələr Milli Bankın valyuta kursu siyasəti xari-

cindəki vasitələrlə iqtisadiyyatda elə də təsirli ola bilmədiyini ortaya qoymaqdadır.

Qısası, iqtisadi inkişafa nail olmadıqca Azərbaycanda emissiya, devalvasiya və s. Azərbaycandan irəli olan ölkələrdəki kimi meyllər yaratmayacaq. Bunu qəbul etməsək, tez-tez paradoksal vəziyyətlərlə qarşı-qarşıya qalacağıq.[176]

Uzun müddət siyasətin yoxsa iqtisadiyyatın öncü, aparıcı və ya müəyyən edici rola sahib olduğu müzakirə obyekti olmuşdur. Təcrübələr göstərir ki, ölkələr inkişaf etdikcə, cəmiyyətdə demokratikləşmə və liberallaşma fəaliyyətləri sürətləndikcə, iqtisadiyyat da tədricən siyasətin hegemoniyasından azad olmağa, sərbəstləşməyə doğru yönəlir. Lakin iqtisadiyyatın tamamilə siyasətin hegemonluğu altında olduğu Azərbaycan kimi iqtisadi cəhətdən az inkişaf etmiş ölkələrdə iqtisadi inkişafa nail olmağın və iqtisadi problemlərin həlli yolu iqtisadi çarələrdən daha çox reform tərəfdarı olan siyasi iradənin ortaya qoyulmasından keçir.

Azərbaycanda Milli Bankın əlindəki ən effektli təsir vasitəsinin valyuta kursu siyasəti olduğunu yuxarıda qeyd etdik. İkinci mərhələ makroiqtisadi stabillik siyasətini izlədiyindən, həmçinin bu mərhələdə Milli Bankın valyuta bazarında stabilliyin təmini üçün daha çox xarici valyutanın satışı yönündə valyuta bazarına müdaxilə etdiyini nəzərə alsaq, o zaman ölkənin valyuta rezervlərinin möhkəmləndirilməsinin və ölkəyə valyuta daxilolmalarının təşviq edilməsinin zərurəti də anlaşılar.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 aprel 1998-ci il tarixli "Fiziki Şəxslərin Xaricə Valyuta Aparması Haqqında" 95 saylı qərarı mövcuddur. Həmin qərara görə, ölkədən min ABŞ dollarına qədər vəsaiti rüsumsuz, on min

---

[176] Ilkin Sabiroglu, "Azerbaijan has very limited possibilities of using macroeconomic political means", op. cit.

ABŞ dollarına qədəri (daha əvvəllər beş min ABŞ dolları idi) rüsum ödəməklə aparmaq olar. Rüsumsuz aparılan məbləği çıxandan sonra qalan doqquz min ABŞ dolları daha əvvəllər olduğu kimi iki deyil, bir faiz rüsuma cəlb edilir.[177]

"Ekspert" jurnalının 13-cü sayında yer alan statistik məlumata görə, ümumiyyətlə 2000-ci il ərzində fiziki şəxslər tərəfindən ölkədən kənara 132.9 milyon ABŞ dolları məbləğində valyuta vəsaiti çıxarılmışdı. Onlardan tutulan gömrük haqqının məbləği də 1.131 milyon dollara bərabər olub.

Eyni zamanda, Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 12 saylı məruzəsində göstərilir ki, 2000-ci ilin ilk on bir ayında idxalın həcmi 1051.4 milyon dollar təşkil etmişdir. Bunun da 87.7 faizi (922 milyon dolları) qeyri-dövlət mülkiyyətli müəssisələrin və fiziki şəxslərin payına düşmüşdür. Həmçinin, toplam xarici ticarət əməliyyatlarının cəmi 0.8 faizinin barter əlaqələri vasitəsilə həyata keçirildiyi qeyd edilmişdir. Sadələşdirmə baxımından idxalın gömrükdən yayınan hissəsini nəzərə almasaq və fiziki şəxslər tərəfindən ölkədən kənara aparılan valyuta vəsaitinin hamısının idxala yönəldiyini fərz etsək belə, yuxarıda göstərdiyimiz rəsmi rəqəmlərin təhlili 2000-ci il ərzində 100 milyonlarla dollar vəsaitin gömrük rüsumu ödəmədən, yəni qeydə alınmadan xaricə çıxarıldığını sübut edir. Kölgə iqtisadiyyatının həcmini nəzərə aldıqda isə, bu vəsaitin daha yüksək olduğunu asanlıqla proqnozlaşdırmaq mümkündür.[178]

Digər tərəfdən, əvvəllər ölkəyə valyuta gətirilən zaman onun rəsmiləşdirilməsində 0.15 faiz dərəcəsi ilə ödəmələr həyata keçirildi. Nazirlər Kabinetinin qərarına görə isə, 16 aprel 2001-ci il tarixindən etibarən ölkəyə gətirilən valyuta üçün 0.5

---

[177] Ilkin Sabiroglu, "Currency control and capital flow", Azerbaijan Bulletin No:21 (275), 24 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/ azerbaijan/ hypermail/ 200105/0055.html, (01.03.2006).
[178] Ibid.

faiz həcmində gömrük rüsumu tətbiq olunmağa başlayıb. Digər ödəmələri də nəzərə aldıqda, bunun təqribən bir faiz təşkil etdiyi qeyd olunur.

Bu qərarın da nəticəsinin əvvəlkindən çox fərqlənməyəcəyi aydın idi. Elə isə belə qərarlara nə ehtiyac var? Axı bu kimi qərarlarla ölkəyə valyuta vəsaitlərinin daxil və xaric olmalarına müvəffəqiyyətlə nəzarət etmək imkanı heç bir ölkəyə nəsib olmayıb. Ancaq açıq şəkildə məlumdur ki, həmin qərarlar iki böyük mənfi effekt yaradır:

- Birincisi, bu addımlar valyuta vəsaitlərinin hərəkət xəttinin ödəmələrdən yayınmaq məqsədilə bank sektoru xaricinə çıxmasını təşviq edir. Bu da çətin vəziyyətdə olan bank sektoruna zərbədir.

- İkincisi, bu cür məhdudiyyətlər ölkəyə kapital axınının qarşısında sadəcə iqtisadi deyil, ondan da əhəmiyyətlisi valyuta vəsaitlərinin sərbəst hərəkət edə bilmələri ilə bağlı psixoloji baryer yaradır.

Aydındır ki, valyuta münasibətlərinin tənzimlənməsini müvəffəqiyyətlə həyata keçirə bilmək üçün hər bir ölkə özünün valyuta rezervlərini və ölkəyə valyuta daxilolmalarını artırmağa çalışır. Valyuta daxilolmaları isə əsasən xarici borclanma, mal və xidmət ixracı və kapital daxilolmaları yolu ilə baş verir. Kapital daxilolmaları içərisində də ən əhəmiyyətli yeri birbaşa investisiyalar tutur. Onsuz da Azərbaycanda inkişaf etmiş bir finans sistemi olmadığından xarici investorların portfel investisiyaları da yoxdur. Belə sərt valyuta nəzarəti isə, xüsusilə qeyri-neft sektoruna xarici investisiya daxilolmalarına maneədir. Yeri gəlmişkən müqayisə üçün qeyd edək ki, Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlətlərarası Statistika Komitəsinin yaydığı məlumata görə, MDB ölkələri üzrə 2001-ci ilin birinci rübündə investisiyaların həcmi 2000-ci ilin müvafiq dövrü ilə müqayisədə 8 faiz artıb. Belə ki, bu artım Gürcüstanda 61 faiz, Qazaxıstanda 26 faiz, Ukraynada 24 faiz, Rusiyada 7 faiz,

Ermənistanda 4 faiz təşkil etdiyi halda, Azərbaycanda isə 0.8 faiz olmuşdur.

Belə bir vəziyyətdə, valyuta nəzarəti ilə bağlı yuxarıda sadaladığımız qərarlar hansı iqtisadi məntiqə əsaslanır? Axı kapital hərəkətlərinə heç bir dövlətin tam nəzarət etmək imkanı mövcud deyil. Hökumətlər sadəcə kapitalın ölkəyə daxil olması üçün zəruri və əlverişli şəraiti yarada bilərlər. Lakin burada qeyd edilməlidir ki, "əlverişli mühit" ifadəsi də nisbi bir ifadədir. Belə ki, biz xarici kapital üçün əlverişli şərait yarada bilərik, lakin əgər imkanlarına görə bu sahədə bizə rəqib olan ölkələr daha yaxşı şərait yaradıblarsa bizim təqdim etdiyimiz mühit əlverişli olmaqdan çıxar.

2003-cü ilə gəldiyimizdə isə iqtisadiyyatda müşahidə edilən yeni tendensiyalar həm də inflyasiya baxımından yeni dövrün başlanacağına işarə etməkdə idi. İlk siqnalı çörəyin qiymətinin bahalaşması ilə almış olduq. Bir çoxları Azərbaycanda çörəyin qiymətinin bahalaşmasına inhisarçılıq meyllərinin səbəb olduğu fikrini irəli sürsə də, bizə görə bu məsələdə əsas iş nə Dövlət Gömrük Komitəsinin, nə də Vergilər nazirliyinin deyil, məhz Milli Bankın üzərinə düşürdü. Məhz bu səbəbdən Nazirlər Kabinetinin ölkəyə gətirilən taxılın 18 faizlik əlavə dəyər vergisindən bir illiyə azad edilməsi ilə bağlı 17 sentyabr 2003-cü il tarixli 118 saylı qərarı problemin həllində yetərsiz qaldı.[179]

Bəs, Milli Bankın unun, çörəyin qiymətinə nə dəxli vardı? Əvvəlcə, qısa bir arayış verək:

Belə ki, son bir neçə il ərzində dünya bazarlarında əksər əmtəələrin qiyməti mütəmadi olaraq yüksəlib. Gümüşün, qızılın, dəmirin, pambığın və s.-nin qiymətləri yüksəldiyi kimi, paralel olaraq buğdanın da qiyməti yüksəlib. Daha dəqiq ifadə

---

[179] İlkin Sabiroğlu, "Çörəyin qiymətini necə ucuzlaşdırmaq olar?", *IqtisadNet*, 9 mart 2004, http://www.iqtisad.net/is009.htm, (01.03.2006).

etsək, bu əmtəələrin qiymətləri xüsusilə, amerikan dolları ilə ifadədə yüksəlib.

Məsələni digər prizmadan ələ alsaq görərik ki, yüksəlmənin səbəbi əslində beynəlxalq valyuta bazarlarında amerikan dollarının dəyərindəki düşmə və beynəlxalq bazarlardakı risk gözləmələrinin yüksəlməsidir.

Dolların dəyərindəki düşməni şərtləndirən amil isə, Amerika Birləşmiş Ştatlarında rekord səviyyəyə çatan büdcə və tədiyyə balansındakı kəsirdir.

ABŞ ilə Avropa Birliyi arasında qısa müddətli faiz səviyyələrindəki fərq amerikan dollarının dəyərindəki düşmənin bir başqa səbəbini təşkil edirdi.

Dünyanın buğda ticarətində xüsusi yer tutan ABŞ, mühüm dünya birjalarının, həmçinin buğda qiymətlərinin referans olaraq alındığı Chicago Birjasının bu ölkədə yerləşməsi səbəbindən, dünya buğda ticarətinin inkişaf istiqamətinin müəyyənləşməsində və qiymətlərin formalaşmasında önəmli rol oynamaqdadır.

Beynəlxalq Taxıl Şurasının (IGC) 29 yanvar 2004 tarixli hesabatını və ABŞ-ın Kənd Təsərrüfatı Nazirliyinin məlumatlarını da təhlil edərkən görürük ki, dünyada buğda qiymətlərindəki kəskin yüksəlmənin əsl səbəbi buğda istehsalındakı və ya tələbatındakı dəyişmələr deyil. Çünki buğda istehsalında və ya tələbatında hər hansı bir kəskin dəyişmə özünü göstərməməkdədir.[180]

2003-cü ildə Azərbaycana 807573,7 ton buğda, 6743,4 ton un idxal olunub. Azərbaycan əsasən Rusiya və 40 dövlətə taxıl göndərən Qazaxıstandan buğda idxal edirdi. Eyni zamanda ölkənin Kanada və Ukrayna ilə də hökumətlərarası müqaviləsi var. Həmin müqavilələrə görə, lazım olan vaxt bu ölkələrdən məhsul idxal etmək olar.

---

[180] Ibid.

Lakin problem dünya bazarlarında taxıl qıtlığı ilə əlaqəli deyildi. Eynilə dünya bazarlarında neftin qiyməti yüksəldiyi zaman Azərbaycan öz neftini baha qiymətə satdığı kimi, bu ölkələr də dünya bazarlarında buğda qiymətlərinin artması ilə birlikdə təbii olaraq ixrac etdikləri məhsulun qiymətini yüksəldirlər. Daxili bazardakılar isə çıxış yolunu xalqın dili ilə desək qiymətə əl vurmayıb, kündədən kəsməkdə görürlər. Yəni gizli qiymət artımına gedirlər...

Bir xəstəliyi müalicə etmək üçün ilk öncə diaqnozu düzgün qoymaq lazımdır. Yuxarıda da qeyd etdiyimiz kimi, buğda qiymətlərindəki yüksəlmənin başlıca səbəbi amerikan dollarının dəyərindəki düşmədir. Lakin Azərbaycanda Milli Bank bir çox ölkələrdən fərqli olaraq, daxili bazarda dolların manat ilə məzənnəsini sabit saxlamaqda israr etdiyindən idxal olunan buğda və unun manatla da maya dəyəri yüksəlirdi və Azərbaycan buğda nümunəsində olduğu kimi inflyasiyanı idxal eləməyə başladı. Manatın dollarla məzənnəsi stabil qalsa da, manat dollarla birlikdə digər xarici valyutalar qarşısında dəyər itirirdi.

Halbuki ən optimal variant, beynəlxalq valyuta bazarlarındakı dəyərinə müvafiq olaraq dolların manat ilə də məzənnəsinin düşməsinə şərait yaratmaq idi. Gələcəkdə amerikan dolları gücləndiyi təqdirdə bu dəfə də buğda qiymətləri dollar cinsindən düşəcəyindən, proses avtomatik olaraq öz-özünü tənzimləyəcəkdi.

Bunun bir başqa faydası da olacaqdı. 2003-cü ildə ölkədə 35 trilyon 53 milyard manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal olunmuş (7,08 milyard dollar) və bunun adambaşına düşən həcmi isə 4,320 milyon manat (879,7 dollar) təşkil etmişdir. 2004-cü ilin ilk iki ayında ölkədə ÜDM-nin həcmi 2003-cü ilin yanvar-fevral ayları ilə müqayisədə 10,2 faiz ar-

taraq 5 trilyon 296 milyard manat (1,07 milyard dollar) təşkil etmişdir.[181]

ÜDM-nin 2004-ün ilk iki ayındakı artımına, son illərdəki artım tempinə, gözlənilən investisiya həcminə dayanaraq 2004-də də təqribən 10 faizlik bir artım proqnozlaşdırılırdı. Bu isə ÜDM-nin milli valyuta ilə ifadədə 35 trilyon 53 milyard manatdan 38 trilyon 558 milyard manata yüksəlməsi deməkdi. ABŞ dolları ilə ifadədə isə (1 $=4950 AZM) 7,79 milyard dollara ekvivalentdir.[182]

İndi isə məsələyə başqa aspektdən baxaq. Bütün dünyada ABŞ dollarının dəyər itirməsinə baxmayaraq Azərbaycanda Milli Bank dolların məzənnəsini sabit saxlamaqda israr edir, yəni dolların düşməsinin qarşısını alırdı. Nəticədə, manat da dollara paralel olaraq dünya valyutaları qarşısında dəyər itirirdi.

Eyni zamanda dünya əmtəələrinin qiymətləri dollarla ifadədə yüksəldiyindən Azərbaycan manatının alıcılıq qabiliyyəti də düşürdü. Halbuki Milli Bank beynəlxalq valyuta bazarlarındakı tendensiyaya uyğun olaraq dolların məzənnəsinin aşağı düşməsinə imkan yaratmalı idi. Belə olduğu halda, Azərbaycanda sadəcə əmtəələrin qiyməti düşməklə qalmayacaq, həmçinin əhalinin alıcılıq qabiliyyəti də artmış olacaqdı.

Və ən maraqlısı isə odur ki, həm ÜDM miqdarı, həm də adambaşına düşən ÜDM miqdarı dollarla ifadədə bir xeyli artmış olacaqdı. Lakin Milli Bank bu addımı çox gec, 2005-ci ilin əvvəllərində inflyasiya təzyiqlərini cilovlamaq üçün atdı və həmin il ÜDM artımı 26,4 faiz təşkil etdi.

Nazirlər Kabinetinin (NK) ölkəyə gətirilən taxılın 18 faizlik əlavə dəyər vergisindən bir illiyə azad edilməsi ilə bağlı 17 sentyabr 2003-cü il tarixli 118 saylı qərarının ardından yenə

---

[181] İlkin Sabiroğlu, "Valyuta məzənnəsi və ÜDM artımı", *IqtisadNet*, 19 aprel 2004, http://www.iqtisad.net/is012.htm, (01.03.2006).

[182] Ibid.

NK-nin Azərbaycanla azad ticarət haqqında sazişi olmayan ölkələrdən taxıl gətirilməsindən 5 faizlik gömrük rüsumunun aradan qaldırılması ilə əlaqədar 1 aprel tarixli qərarı çıxdı. Məqsəd bütün ölkələrdən taxıl idxalı zamanı bərabər şəraitin yaradılması idi. Əsas məqsəd isə, taxılın qiymətini aşağı salmaq mümkün olmadığı təqdirdə heç olmasa yüksəlməsini bir qədər əngəlləməkdi.

Bir rəsm tablosunda təsvir edilənlərin tamamını görmək və rəsmi anlaya bilməmiz üçün bir neçə addım uzaqlaşaraq görüş dairəmizi genişləndirməliyik. Əks təqdirdə, nəzərimizi rəsmin bir nöqtəsinə cəmləşdirməklə təsvirin tamamını anlamaq çox çətindir. Bu eynilə, Qazaxıstanda taxılın qiyməti qalxdığı üçün Azərbaycanda da qalxdı və ya Türkiyədə soğanın qiyməti artdığı üçün Azərbaycanda da artdı deməyə bənzəyir. Belə olan təqdirdə "Bəs Qazaxıstanda taxılın və ya Türkiyədə soğanın qiyməti niyə artdı?" deyə soruşmaq lazımdır.

Bu əmtəələrin qiymətləri xüsusilə, amerikan dolları ilə ifadədə yüksəldiyindən, Milli Bank bir çox ölkələrdə olduğu kimi beynəlxalq valyuta bazarlarındakı dəyərinə müvafiq olaraq dolların manat ilə də məzənnəsinin düşməsinə şərait yaradacağı təqdirdə, Azərbaycanda da əmtəələrin, o cümlədən taxılın, soğanın və sairənin qiymətini aşağı salmaq mümkün olacaqdı. Dolayısı ilə Nazirlər Kabinetinin xüsusi qərarlarına ehtiyac qalmayacaqdı.

İqtisadi ədəbiyyatda, valyuta məzənnələrindəki dəyişiklikləri açıqlamaq və bu məzənnələrin necə müəyyənləşəcəyi ilə əlaqədar başlıca dörd elmi yanaşma mövcuddur:[183]

- tədiyyə balansı baxımından yanaşma,
- alıcılıq qabiliyyəti pariteti baxımından yanaşma,
- monetarist yanaşma,
- portfel balansı baxımından yanaşma.

[183] Halil Seyidoğlu, op. cit., səh.366-374.

Konkret olaraq Azərbaycanda valyuta məzənnələrindəki dəyişmələrin açıqlanmasında istər ilk iki ənənəvi nəzəriyyələrin, istərsə də monetarist nəzəriyyənin öz çəkisi var. Tədiyyə balansı baxımından yanaşma Azərbaycanda uzun müddətli valyuta məzənnəsi dəyişmələrinin açıqlanmasında yararlı olmaqdadır. Alıcılıq qabiliyyəti pariteti baxımından yanaşma, Azərbaycan Milli Bankının əvvəlki illər ərzində nəyə görə mərhələli şəkildə valyuta məzənnələrinin yüksəlməsində maraqlı olduğunu açıqlamaqdadır. Monetarist yanaşma isə öz növbəsində, Azərbaycanda qısa dövrlərdəki valyuta məzənnəsi dəyişmələrini və Milli Bankın valyuta intervensiyalarının səbəbini anlamağa imkan verir. Lakin qeyd etməliyik ki, portfel balansı baxımından yanaşma bizim üçün hal-hazırda keçərli olmasa da, inkişaf etmiş ölkələrdə valyuta məzənnəsi dəyişmələrinin açıqlanmasında ən aktual yanaşmadır. Burada isə əsas yeri, bu gün portfel investisiyaları içərisində böyük çəkiyə malik olan və yeni iqtisadi ədəbiyyatda adlandırıldığı şəkildə ifadə etsək "isti kapital" təşkil edir. Portfel balansı baxımından yanaşma, sadəcə valyuta məzənnəsi dəyişmələrinin deyil, beynəlxalq maliyyə bazarlarında ara-sıra özünü göstərən böhranların da açıqlanmasında ən əhəmiyyətli yeri tutmaqdadır. Məsələn, bu gün beynəlxalq valyuta bazarlarında dollar/avro nisbətini daha çox portfel balansı baxımından yanaşma ilə açıqlamaq mümkündür.[184]

Bu mərhələdə alıcılıq qabiliyyəti pariteti baxımından yanaşma da Azərbaycanda dolların məzənnəsinin aşağı salınmasını tələb edirdi. Çünki bu yanaşmada istifadə edilən səbətin tərkibindəki əmtəələrin (buğda, benzin, neft, pambıq, platin və s.) qiyməti xüsusilə dollarla ifadədə daha çox yüksəlmişdi.[185]

---

[184] İlkin Sabiroğlu, "Valyuta məzənnəsi və ÜDM artımı", op. cit.
[185] Ibid.

Dolların məzənnəsindəki düşmənin ölkənin xarici ticarət balansı üzərində hər hansı ciddi bir neqativ təsir yaratması da absurddur. Çünki, Azərbaycanın xarici ticarətinin böyük qismini neft və neft məhsulları ilə neft avadanlıqları təşkil edir ki, bu da daxili bazardakı valyuta məzənnəsindən təsirlənmir.

Lakin əvvəl də qeyd etdiyimiz kimi Milli Bank bu addımı çox gec – 2005-ci ilin birinci rübündə atdı və bu dəfə inflyasiya təzyiqləri gücləndiyi üçün manatı birdən-birə daha sürətlə bahalaşdırmağa başladı. İnflyasiyanın 2004-cü il üzrə orta səviyyəsi 6,7 faiz təşkil etsə də son aylarda bu trend daha da sürətlənməkdə idi. Və Azərbaycan inflyasiyanın səviyyəsinə görə keyfiyyətcə üçüncü mərhələyə çoxdan daxil olmuşdu.

Sadə vətəndaşa deyəndə ki, inflyasiya azalır, adətən cavabı belə olur ki, "axı bahalaşma davam edir". Çünki sadə vətəndaş inflyasiyanın azalmasını qiymətlərin düşməsi anlamında qəbul edir. Halbuki qiymətlərin düşməsinə iqtisadi ədəbiyyatda deflyasiya deyirlər. İnflyasiya səviyyəsinin azalması isə qiymətlərdəki bahalaşma tempinin azalması mənasına gəlir. Təbii ki, sadəcə, bir neçə malın qiymətinə baxaraq ümumi qiymətlər səviyyəsi haqqında fikir yürütmək doğru olmaz.

Ona görə də Dövlət Statistika Komitəsi 500 adda məhsul bazasında hesablamalar apararaq 2005-ci ilin başlanğıcından iyul ayına qədərki dönəm üçün ölkədə inflyasiya səviyyəsinin 2,2 faizə endiyini ortaya çıxardı. Amma ilin əvvəlindəki yüksək inflyasiya səviyyəsi ilə müqayisədə bu rəqəmin 2,2 faizə qədər aşağı düşməsi son bir neçə ayda doğrudan da qiymətlərdə məhz düşmənin, yəni deflyasiyanın baş verdiyini göstərirdi. Qısası, ortalama inflyasiya səviyyəsinin düşməsi müsbət hal sayılsa da, aylar üzrə qiymətlər səviyyəsindəki bu cür kəskin dəyişmələr "qiymət stabilliyi" anlayışına uyğun gəlmir. Qiymət stabilliyinin təşkili və qorunması isə bütün

dünyada olduğu kimi bizdə də Milli Bankın ən əsas vəzifəsi olmalıdır.[186]

Milli Bankın təhlillərinə görə, 2005-ci ilin yanvar-iyul aylarında 2,2 faiz təşkil edən inflyasiyanın 44,2 faizi monetar amillərin, 55,8 faizi isə qeyri-monetar amillərin payına düşüb. Monetar amillər arasında pul kütləsinin (M2) və nominal effektiv məzənnənin dəyişməsi göstərilib. Qeyri-monetar amillər sırasında isə suyun qiymətinin inzibati yolla yüksəldilməsi, qazın bahalaşması, mövsümi amillər, əvvəlki aylarda qiymət artımlarının inersiyası, habelə yanacaq və kommunal xidmətlərin qiymətlərinin artması ilə əlaqədar inflyasiya gözləmələrinin yüksəlməsi və bazara mal və xidmət təklifinin artması sadalanıb. Bu amillərin bir qismi inflyasiyanın artmasına, digər bir qismi azalmasına xidmət edib. Konkret olaraq inflyasiya səviyyəsinin azalması səbəbləri arasında mövsümi amillər, nominal effektiv məzənnənin bahalaşması və bazara mal və xidmət təklifinin artması qeyd olunub. Bu üç amildən sadəcə biri – nominal effektiv məzənnənin bahalaşması bir monetar amil kimi Milli Bankın təsir dairəsindədir.

Milli Bankın 2005-ci ilin əvvəlindən etibarən apardığı məqsədyönlü məzənnə siyasəti manatın nominal effektiv məzənnəsini möhkəmlətməklə idxal qiymətlərinin inflyasiyaya mənfi təsirini azaltmağa imkan verib. Bəhs edilən dönəmdə manatın ABŞ dollarına qarşı məzənnəsi 5,1 faiz möhkəmlənib. Bəzi ticarət tərəfdaşlarının milli valyutalarının ABŞ dollarına qarşı ucuzlaşması nominal effektiv məzənnənin 7,9 faiz möhkəmlənməsi ilə nəticələnib. Nominal effektiv məzənnənin möhkəmlənməsi öz növbəsində istehlak qiymətlərinin 13,6 faiz azalmasına səbəb olub. Bu, antiinflyasiya tədbiri kimi məzənnə siyasətinin müsbət nəticələr verdiyini göstərir.[187] Digər tə-

---

[186] "İlkin Sabiroğlu, "Manat daha nə qədər möhkəmlənəcək?", *"Gündəlik Azərbaycan" qəzeti*, 6 sentyabr 2005.
[187] Ibid.

rəfdən isə idxalın həm ölkə daxili istehsal, həm də istehlak içərisində mühüm çəkiyə sahib olduğunu göstərir.

Maraqlıdır ki, manatın möhkəmlənməsi haraya qədər davam edəcək? 6 sentyabr 2005-ci il tarixində yerli bir qəzetdə dərc edilən məqaləmin son abzası aşağıdakı şəkildə idi:

"Bu tendensiya başqa fəsadlar da törədə bilər. Doğrudur, "Holland Sindromu"ndan yayınma, ölkənin ixrac potensialını artırma kimi məsələlər, sadəcə, real və nominal effektiv valyuta məzənnələrini dəyişməklə həll edilə bilməz. Bu, ümumilikdə hökumətin iqtisadi siyasətinin prioritetlərinə çevrilməlidir. Amma antiinflyasiya tədbiri kimi manatın möhkəmlənməsi də mütəmadi davam edə bilməz. Mövsümi amillər də bir azdan inflyasiya lehinə fəaliyyət göstərəcək. Seçki kampaniyası inflyasiya üzərindəki həm monetar, həm də qeyri-monetar təzyiqləri artıracaq. Denominasiya da inflyasiyaya öz neqativ töhfəsini verəcək. Milli Bankı isə çətin sınaqlar gözləyir. Çünki inflyasiyanın səbəbləri müxtəlif olsa da, məsuliyyət yenə də Milli Bankın üzərindədir."[188]

Bu məqaləmin üzərindən təqribən on gün keçmişdi ki ilk fəsadı yaşadıq. Şənbə günü (17 sentyabr 2005) dolların məzənnəsinin anidən çox kəskin şəkildə aşağı düşdüyü xəbəri yayıldı. Bəs nə baş vermişdi? Ölkədə dolların belə sürətlə ucuzlaşmasını necə izah etmək mümkün idi?

Yuxarıda da göstərdiyimiz kimi Milli Bank 2005-in birinci rübünə qədər ölkənin "Holland Sindromu"ndan yayınması məqsədilə dolların Azərbaycan manatı ilə məzənnəsini stabil saxlamaq siyasəti yürüdürdü. Birinci rübdən etibarən isə, inflyasiya ilə mübarizənin bir forması kimi manatın bahalaşması siyasətini yürütməyə başladı. Lakin ölkə vətəndaşları yetəri qədər məlumat sahib deyildi. Biz buna asimmetrik bilgi deyirik. Bu məlumatsızlıq isə öz növbəsində müəyyən spekülyasi-

---

[188] Ibid.

yalar nəticəsində sinerji təsiri yaradaraq ölkədə dollardan qaçışı sürətləndirirdi.

Əslində Azərbaycan neft ölkəsi olduğundan artıq daxili bazarda dolların təklifi tələbindən çoxdur. Ona görə də 2005-in birinci rübünə qədər MB daxili bazarda manat sataraq dollar təklifini balanslaşdırır, dolayısı ilə manatın möhkəmlənməsini əngəlləyirdi. Halbuki dünya bazarlarında həmin vaxt ABŞ dolları dəyər itirirdi. Bu ilin birinci rübündən etibarən isə dollar xarici bazarlarda dəyər qazanmağa başladığı halda, bizdə MB antiinflyasiya tədbiri kimi manatın bahalaşmasına imkan verdi.

Həmin şənbə günü yaşananları isə xüsusi təhlil etmək lazımdır. Bununla əlaqədar beynəlxalq təcrübədən çıxış edərək həmin dövrdə mətbuatda da yer alan iki versiyamız üzərində dayanmaq mümkündür. Hər iki versiya ciddi şəkildə araşdırılmalıdır.[189]

Birinci versiyamız bu idi ki, kimlərsə siyasi hakimiyyətə pul böhranı yarada biləcəkləri ilə bağlı mesaj vermək istədi. Belə ki, ölkədə təqribən 900 milyon dollardan bir qədər aşağı həcmdə geniş mənada manatla pul kütləsi var. Bank sektorundan kənardakı manatla nağd pul kütləsi isə 600 milyon dollardan bir qədər çoxdur. Nəzəri olaraq, həftəsonu bu vəsaitin (600 milyon dollarlıq manatın) 3-5 faizini və şayiə sistemini hərəkətə keçirərək bənzər şəkildə çaxnaşma salmaq mümkündür. Doğrudur, kommersiya qurumları bazardakı rəqabətə uyğun olaraq, MB-nin rəsmi məzənnəsindən yalnız 3 faiz artıq və ya əksik qiymət müəyyənləşdirə bilərlər və ayrı-ayrı valyutadəyişmə məntəqələri də buna riayət etməlidirlər. Amma bəhs etdiyimiz halda valyutadəyişmə məntəqələri buna riayət etsələr belə qara bazar mexanizmi avtomatik işə düşür. Nəzarəti

---

[189] İlkin Sabiroğlu: "Dollar niyə ucuzlaşdı? Spekulyasiya, yoxsa ..?", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 20 sentyabbr 2005.

itirməmək üçün hətta bir çox ölkələrdə həftə sonları valyuta-dəyişmə məntəqələrinin fəaliyyət göstərməsinə qadağa qoyulur.

Əgər bu versiya doğrudursa bunu edənlər daha təhlükəlisini - denominasiya mərhələsində bunun əksini də edə bilərlər. Bircə şayiə yayılsa ki, köhnə əsginaslar batacaq bu daha təhlükəli vəziyyət yarada bilər və xalqdakı məlumatsızlıq manatdan qaçışı stimullaşdırar. Nəzərə alsaq ki, keçmiş illərdə manatla bağlı yaşanan hadisələrin izləri hələ də insanların şüurundan silinməyib, onda bu addım daha ciddi fəsadlar törədə bilər.

Bütün Mərkəzi Banklar belə vəziyyət üçün hazırlıqlı olmalıdır. Bilindiyi kimi, dünyada Mərkəzi Bank anlayışının beşiyi İngiltərə sayılır. İngiltərənin Mərkəzi Bankı belə 1992-ci ilin sentyabrında George Sorosun spekulyativ addımları qarşısında duruş gətirə bilməmişdi. Azərbaycanda pul bazarının həcmi kiçik olduğundan burada çaxnaşma yaratmaq istəyənlərin George Soros qədər milyardlar sahibi olmasına da ehtiyac yoxdur. Daha kiçik həcmlə də buna nail ola biləcəkləri nəzərə alınmalıdır və denominasiya ilə bağlı zəruri tədbirlər görülməlidir.[190]

Amma ikinci bir versiyamız daha var. Türkiyədə 1994-cü ilin yanvar ayında baş nazir Tansu Çillerin rəhbərliyindəki hökumət devalvasiya qərarı aldı. Lakin sonradan bəlli oldu ki, sirr kimi saxlanmalı olan bu devalvasiya qərarı haqqında Tansu Çillerin ən yaxın adamları məlumatlı imiş və bunlar çox ciddi spekulyativ əməliyyatlara girişiblər. Nəticədə, bu devalvasiyanın Türkiyəyə maliyyəti çox yüksək oldu.

Azərbaycanda da manatın revalvasiya prosesi gedirdi. Həmin ərəfədəki bir mətbuat konfransında maliyyə naziri gələn il dolların 4550-4600 manat səviyyəsində olacağını bəyan etmişdi. Reallıq isə budur ki, Milli Bankın manatın möhkəmlənmə-

[190] Ibid.

sinə hansı həddə qədər icazə verəcəyi bəlli deyil. Amma ola bilər ki, kimlərəsə bu bəllidir və öncədən dollar satıb manat alırlar ki, qazanclı çıxsınlar. Qısacası, hər iki versiya araşdırılmalıdır.

Yeri gəlmişkən, həmin günlərdə ABŞ dolları ilə bağlı beynəlxalq valyuta birjalarında da pozitiv qənaət hakim idi. Məlum olduğu kimi, ABŞ yüksək tədiyyə balansı kəsiri, xarici ticarət kəsiri və büdcə defisiti ilə üz-üzə qalıb. ABŞ ilə bağlı son bir neçə ay ərzində açıqlanan makroiqtisadi göstəricilərsə elə də pis deyildi. Hadisədən bir həftə əvvəl Xəzinə Nazirliyi ölkəyə xalis xarici sərmayə daxilolmalarının iyul ayında 87,4 milyard dollara yüksəldiyini açıqlamışdı. Mütəxəssislər 60 milyard dollar olacağını gözləyirdi. Digər tərəfdən büdcə defisiti də azalmağa doğru üz tutmuşdu, lakin son "Katrina" qasırğasının hələ bir müddət büdcə defisitinin yüksək olmasına səbəb olacağı proqnozlaşdırılırdı. Sentyabrın 20-də ABŞ Mərkəzi Bankının faizləri 0,25 bənd daha yüksəldəcəyi ilə bağlı proqnozlar, həmçinin Avropa Birliyi ilə bağlı qeyri-müəyyənliklər də ABŞ dollarının lehinə işləyirdi. Yəni, dünya bazarlarında ümumi dalğalanmalar olsa da, ABŞ dolları üçün hələ ki, elə bir təhlükə hiss edilmirdi.

Bu hadisədən sonra Milli Bank valyutadəyişmə məntəqələri ilə bağlı qaydalara dəyişiklik etdi. Hal-hazırda kommersiya qurumları Milli Bankın rəsmi məzənnəsindən yalnız 2 faiz artıq və ya əksik qiymət müəyyənləşdirə bilərlər. Əvvəl isə bu 3 faiz səviyyəsində müəyyənləşmişdi.

Qısacası, "2004-cü ilin sonundan artmağa başlamış inflyasiya 2005-ci ilin aprel ayında illik hesabla 15%-i ötmüşdü. İnflyasiyanın ikirəqəmli məcraya keçməsi ümumilikdə iqtisadi inkişafa, xüsusilə qeyri-neft sektorunun inkişafına mənfi təsir göstərərək yeni iş yerlərinin yaranmasını təhlükə altına qoydu, sosial proqramların keyfiyyətini azaldaraq əhalinin bütün təbəqələrinin gündəlik həyatında hiss olunmağa başladı. Məhz

bunları nəzərə alaraq "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" Ölkə Prezidenti tərəfindən 31 may 2005-ci il tarixli Fərman imzalandı. Bu fərmana uyğun olaraq Milli Bank hökumətlə birlikdə anti-inflyasiya tədbirlərini həyata keçirməyə başladı və inflyasiyanın qarşısı alındı. 2005-ci ilin noyabr ayında inflyasiya ötən ilin dekabrına qarşı cəmi 3,1% təşkil etmişdir. Müqayisə üçün həmin dövr ərzində neft ölkələri olan Qazaxıstanda inflyasiya 6,9%, Rusiyada isə 10% təşkil etmişdir. Digər mərkəzi banklar üçün olduğu kimi, Milli Bank üçün də pul siyasətinin əsas hədəfi baza inflyasiyadır ki (inzibati qaydada tənzimlənən qiymətlərin dəyişməsindən və mövsümi amillərin təsirindən təmizlənmiş istehlak qiymətləri indeksi), bu da makroiqtisadi siyasətin inflyasiyaya real təsirini ölçməyə imkan verən indikatordur. Noyabrda orta illik inflyasiya 9,8% olduğu halda, baza inflyasiya 7,5% təşkil etmişdir."[191]

Lakin Tarif Şurasının 2006-cı il 5 yanvar tarixli "Bəzi neft məhsullarının qiymətlərinin respublika daxilində tənzimlənməsi barədə" qərarına əsasən, yanvarın 6-dan etibarən bəzi yanacaq növlərinin satış qiymətlərinin artırılması tamamilə yeni situasiya yaratdı.

Beynəlxalq Valyuta Fondunun Azərbaycana uzun müddətdir enerji qiymətlərinin yüksəldilməsini tövsiyə etməsi, dünya bazarlarında neftin qiymətlərinin yüksək olması fonunda Rusiyanın da qazın qiymətlərini artırmasından sonra hökumətin bu məsələdə istehlakçılara etdiyi güzəştin sonuna yaxınlaşdığını proqnozlaşdırmaq elə də çətin deyildi. Artıq "Azərenerji" də hökumətə elektrik enerjisinin qiymətinin artırılmasını təklif edəcəyini açıqlayıb.

---

[191] "Azərbaycan Respublikası Milli Bankının 2006-ci il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı", *Azərbaycan Milli Bankı*, www.nba.az/download/Pul_siyaseti/istiqamet/2006.pdf, (01.03.2006).

Ölkədə enerji problemi kompleks şəkildə o vaxt həll olunacaq ki, enerjinin həm istehsalı, həm istehlakı, həm də qiymətləndirilməsində bazar prinsipləri əsas götürüləcək. Lakin bazar prinsipləri əsas götürülməzdən əvvəl bazar subyektlərinin də buna hazır olması və ya hazırlanması çox zəruridir. Hökumətin son addımında sanki bunların nəzərə alınmadığı təəssüratı yaranır. Denominasiyaya yenicə start verildiyi bir mərhələdə buna gedilməsi və həm də qiymətlərin tədricən deyil, birdən-birə iki dəfə artırılmasını başa düşmək olmur. İnflyasiya təzyiqlərini azaltmaq bir saylı iqtisadi problem kimi qarşımızda durduğu bir vaxtda denominasiyanın da inflyasiya effekti ilə birlikdə yanacaq qiymətlərinin yüksəldilməsinin inflyasiya effekti ciddi çətinliklər yaradacaq. Artıq qətiyyətlə söyləyə bilərik ki, Milli Bank inflyasiya təzyiqlərini azaltmaq üçün manatın məzənnəsinin bahalaşması siyasətini davam etdirəcək.

Bu addım xüsusilə kənd təsərrüfatı məhsullarının qiymətinin yüksəlməsinə səbəb olacaq. Ümumi hazırlıq görülmədən neft ölkəsində yanacaq qiymətlərinin dünya qiymətləri səviyyəsinə yüksəldilməsi istəyi nə dərəcədə doğru yanaşmadır? Dünya neft istehlakının 25 faizi ABŞ-ın üzərinə düşsə də, orada neftin qiyməti Avropadan iki dəfə ucuzdur. O cümlədən Çin böyük həcmli yanacaq idxalına baxmayaraq, neft istehlakının subsidiyalaşdırılması siyasətini həyata keçirir. Avropa Birliyi iqtisadi artım sıxıntıları çəkərkən ABŞ-da illik iqtisadi artımın 3 faizdən aşağı düşməməsinin və Çinin sürətli iqtisadi artımının səbəblərindən biri də budur. Beynəlxalq Valyuta Fondu 2006-cı ildə iqtisadi artımın Çində 8,2 faiz, ABŞ-da 3,3 faiz, avro zonasında isə 1,8 faiz olacağını proqnozlaşdırır.[192]

Hökumət yanacaq növlərinin satış qiymətlərinin yüksəldilməsini bəzi yanacaqdoldurma məntəqələrində qiymət fərqlə-

---

[192] İlkin Sabiroğlu: "Yanacağın bahalaşması daha ciddi çətinliklər yaradacaq", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 10 yanvar 2006.

rindən maxinasiya vasitəsi kimi istifadə edilməsi, qaçaq yanacaq ixracı, büdcə həcminin artırılması kimi aspektlərdən əsaslandırır. Sadalananların ilk ikisi qeyri-iqtisadi amillər olduğu üçün hökumət də bunu qeyri-iqtisadi rıçaqlarla tənzimləməli idi. Hökumət yanacaq qiymətlərini artıraraq, büdcə daxilolmalarını yüksəldə biləcəyi kimi, ucuz enerji siyasəti ilə iqtisadiyyatın canlılığını qoruması nəticəsində vergilərlə də büdcə gəlirlərini artıra bilər. Makroiqtisadi effektləri baxımından indiki məqamda ikinci yol daha məqbul olsa da görünən odur ki, hökumət büdcə daxilolmalarını artırmağın daha sadə variantına üstünlük verir. Qeyd edək ki, Azərbaycan hökuməti yaxın vaxtlarda ölkə iqtisadiyyatında ünvanlı dövlət subsidiyaları mexanizminin tətbiqini planlaşdırır. Bu zaman enerji istehlakının da nəzərə alınması mütləq surətdə vacibdir.

Doğrudur, Beynəlxalq Valyuta Fondu Azərbaycan hökumətini orta müddətli strategiya hazırlamağa və enerji daşıyıcılarının qiymətlərini bu strategiya çərçivəsində dünya bazarındakı qiymətlər səviyyəsinə qaldırmağa çağırır. Lakin fond hökumətə tövsiyə edir ki, enerji daşıyıcılarının qiymətləri qaldırılmazdan əvvəl ölkənin enerji sektorunda fəaliyyət göstərən dövlət müəssisələrində idarəçiliyin təkmilləşdirilməsi tədbirlərini həyata keçirməlidir. BVF həmçinin qiymətlərin qaldırılmasını effektiv ünvanlı sosial yardım sisteminin tətbiqi ilə əlaqələndirməyi zəruri hesab edir.[193]

Artıq Azərbaycanda inflyasiyanın bütün növləri müşahidə edilir. Yüksək iqtisadi artım və büdcə xərclərinin artması tələb inflyasiyasına yol açarkən, yanacaq qiymətlərindəki yüksəlmə xərc inflyasiyasına, ticarət tərəf müqabili ölkələrdəki inflyasiya isə idxal inflyasiyasına yol açır. Denominasiyanın texniki inflyasiyası əsasən önümüzdəki aylarda hiss olunacaq. Ümu-

[193] "BVF nəyi tövsiyə edir?", *IqtisadNet*, 22 yanvar 2006, http://www.iqtisad.net/xeberler/00165.htm, (01.03.2006).

miləşdirsək, hazırkı inflyasiyada yanacaq qiymətlərinin, inflyasiya gözləmələrinin və bazara mal və xidmət təklifinin artması, mövsümi amillər kimi qeyri-monetar amillərlə yanaşı, pul kütləsinin – M2-nin artması kimi monetar amillərin payı var.[194]

Bu il iqtisadi artımın 30 faizdən yüksək olacağı proqnozlaşdırılır. Bunu məcazi formada belə ifadə eləmək olar. Yetkinləşmiş bir insanın yaşı bir yaş artsa da o yenə bir il əvvəlki geyimlərini geyinə bilər. Amma 3 yaşındakı bir uşağın 1 yaş böyüməsi, onun 30 faizdən artıq böyüməsi demək olduğundan bütün tələbatları dəyişir, artıq bir öncəki ilin ayaqqabısını, paltarlarını geyinə bilmir. Yəni uşaq əvvəlki qəlibinə sığmaz. Qısacası bu il çox ciddi inflyasiya təzyiqləri ilə üzləşəcəyik. Həmçinin, fiskal ekspansiya fonunda hökumətin nəzərdə tutduğu təkrəqəmli inflyasiya proqnozuna Milli Bankın keçən ilki kimi riskə gedərək manatı bahalaşdırma siyasəti ilə nail olmaq çox çətindir.

[194] "Bəhruz Məmmədli: "Bu il çox ciddi inflyasiya təzyiqləri ilə üzləşəcəyik"", *"Həftə içi" qəzeti*, 24 fevral 2006.

# Əhalinin artımı tənzimlənməli, amma necə?

Çində hər ailənin yalnız bir uşağa sahib ola biləcəyini nəzərdə tutan qanunu pozaraq 3 uşaq dünyaya gətirən bir ailəyə 780 min yuan (təqribən 95 min ABŞ dolları) pul cəriməsi verildi. Ailənin Şenzen şəhərindəki evinin qapısı da möhürləndi. Bu ailə 780 min yuanlıq cəzanı ödəməyincə evinə buraxılmayacaq.[195] Ümumiyyətlə Çin, son otuz ildə daha sonradan keşiş olan iqtisadçı Robert Thomas Malthusun ruhunu şad eləməklə məşğuldur.

Robert Thomas Malthus 1798-ci ildə nəşr edilən "Əhali Haqqında Esse" (Essay on Population) əsəri ilə iqtisadiyyat və siyasətin ümumi mənzərəsini dəyişdirərək çox qısa bir zamanda Adam Smith, Marquis de Condorcet və digər rasionalizm tərəfdarlarının nikbin baxışlarının önündə səddə çevrildi. Önə sürdüyü tez, dünyadakı ehtiyatların mütəmadi olaraq artan dünya əhalisinin tələbatlarını ödəyə bilməyəcəyi ilə bağlı idi. Fikirləri qısa zamanda o qədər geniş rezonans doğurdu ki, bundan təsirlənən İngiltərə 1801-ci ildə ilk dəfə olaraq əhalinin siyahıya alınmasına qərar verdi. Ona görə də Malthus eyni zamanda demoqrafiyanın banisi sayılır.[196]

Bu əsər, Charles Dawinin məşhur "təkamül nəzəriyyəsi"-nin də ilham mənbəyi oldu. Darwin əsər haqqında deyirdi: "Bəlkə də oxuduğum ən əhəmiyyətli kitab Malthusun "Əhali Haqqında Esse"siydi... Fəlsəfi biologiyanın problemlərini ələ alan o günə qədər oxuduğum ilk kitab idi və onun əsas prinsipləri daima ağlımda qaldı. İyirmi il sonra bu prinsiplər mənə

---

195 "3 çocuğa büyük ceza", *"Milliyet" qəzeti*, 21 sentyabr 2004, http://www.milliyet.com.tr/2004/09/21/yasam/yas11.html, (01.03.2006).

196 İlkin Sabiroğlu, "Əhalinin artımı tənzimlənməli, amma necə?", *IqtisadNet*, 22 sentyabr 2004, http://www.iqtisad.net/is019.htm, (01.03.2006).

üzvi növlərin təkamülündə təsirli ünsürün nə olduğu mövzusunda uzun müddətdir axtardığım ip uclarını verəcəkdi".[197]

Malthusun tezinə görə, əhalinin sayı həndəsi olaraq (1, 2, 4, 8), qida istehsalı (ehtiyatlar) isə riyazi olaraq (1, 2, 3, 4) artır. Ona görə də əhalinin artımı ciddi nəzarətə götürülməli və bu artım səfalətə, yoxsulluğa yol açdığı anda əngəllənməliydi.

Dünya əhalisi doğrudan da yaxın dövrümüzə qədər həndəsi olaraq artıb. Malthusun zamanında dünya əhalisinin sayı 1 milyard olduğu halda, bu gün 6 milyardı ötüb. Lakin əhalinin artımı Malthusun proqnozlaşdırdığının əksinə, iki səbəbdən, birincisi, təbabət elmindəki inkişaf nəticəsində bir çox xəstəliyə çarə tapıldığından uşaq ölümlərinin ciddi şəkildə azalması və ikincisi, həyat standartlarındakı yüksəlmə, tibb sahəsindəki inkişaf, qidalanma şərtlərinin yaxşılaşmasıyla orta insan ömrünün uzanması nəticəsində meydana gəlib. Yəni hər iki səbəb də Malthusun səfalət və ölüm qorxuları ilə ziddiyyət təşkil edir.

Malthus və davamçılarının mənimsəmiş olduğu fəlakət nəzəriyyəsinin özünü doğrultmayan bir başqa tərəfi də XX əsrin ikinci yarısında həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan ölkələrdə əhalinin artım sürətinin azalmasıdır. Bu ölkələrdə əhalinin artım sürətindəki azalmanın səbəblərini də tibb sahəsindəki inkişaf və gəlirlərdəki yüksəlmə təşkil edir. Amma Malthus deyirdi ki, adambaşına düşən gəlir artdıqca, əhali daha sürətlə artacaq və nəticədə adambaşına düşən gəlir yenidən minimum səviyyəyə düşəcək. Tarixi təcrübə isə tam əksini sübut etməkdədir. Amerikalı iqtisadçı, Mark Skousenin də qeyd etdiyi kimi bəzi cəmiyyətlərdə valideynlərin çox uşağa sahib olma istəyi yaşlandıqları zaman maddi cəhətdən möhtac vəziyyətə düşmək qorxusundan irəli gəlməkdədir. Dolayısı ilə

[197] Mark Skousen, "Modern İktisadın İnşası", Tərcümə: Mustafa Acar və digərləri, Liberte Yayınları, Ankara, 2003, səh.77.

bu ailələrdə uşaqlara gələcəkdə gəlir gətirəcək ciddi maliyyə vasitəsi kimi baxılmaqdadır. Gəlir səviyyəsi artdıqca çox uşağa olan ehtiyac da azalmaqda, daha doğrusu uşaq böyütmək daha məsrəfli hala gəlməkdədir. Çünki yüksələn gəlir, adətən daha yüksək təhsil səviyyəsi və ailə planlaması ilə bağlı yetəri qədər məlumat sahibi olmaq mənasına gəlir. Eyni zamanda qadınların daha çox iş həyatına qoşulması və daha yüksək təhsilə yiyələnmələri evlənmə yaşını yüksəltməkdə, bu da öz növbəsində uşaq sayı məsələsində daha rasional qərar verməIəri ilə nəticələnməkdədir.

Buradan belə qənaətə gəlmək mümkündür ki, əhalinin artım sürətini azaltmanın daha məntiqli yolu Malthusun düşüncələrinin əksinə, iqtisadi artımı və Adam Smithin ifadəsi ilə "ümumbəşəri zənginliyi" təşviq etməkdir.

1970-ci illərin başında Çinin 750 milyonluq əhalisi ildə 3 faizlik artım göstərirdi. Çinin kommunist rəhbərliyi iqtisadi ehtiyatlar ilə, artan Çin əhalisi arasında balans qurmaq məqsədilə iki dəyişikliyi həyata keçirdi: İqtisadiyyatı sərbəst hala gətirib, tək-uşaq siyasətini tətbiq eləməyə başladı.

İqtisadi sərbəstlik, iqtisadi artımı təşviq yönündən xariqələr yaradarkən, tək-uşaq siyasəti də əhalinin artımını kəskin şəkildə aşağı saldı. Bu gün Çin əhalisinin artım sürəti illik təqribən bir faiz təşkil edir. Lakin tək-uşaq siyasəti ilə özəl həyata belə dərin müdaxilə bir çox sosial problemləri də bərabərində gətirdi. Mark Skousen bu problemləri aşağıdakı kimi sıralayır:[198]

1. Abortların sayı Çində ciddi nisbətdə artmışdır, xüsusilə də doğulmamış qız uşaqlarının məruz qaldığı abortlar. Çinlilərin oğlan uşağı istəyi çox güclüdür.

2. Çinin artan bir yaşlanma problemi var, çox geniş və artan bir yaşlı nəslə qarşılıq, onları bəsləyəcək gənc nəsil nisbi olaraq azlıq təşkil edir.

---

[198] Ibid., səh.85-86.

3. Çinin kişi və qadın əhalisi arasındakı disbalans getdikcə artmaqdadır. Çinlilərin 55 faizi kişi, 45 faizi qadındır. Nəticədə çinli kişilər digər ölkələrdən evlənmək üçün qadın idxal edir. İdxal edir deyirik, çünki bu qadınların əksəriyyəti təqribən kölə statusundadır.

4. Ən maraqlısı ənənəvi geniş çinli ailəsi baxın tək-uşaq siyasəti ilə hansı şəkli almışdır: Uşaqların bacı və qardaşları yoxdur. Əmiləri, dayıları, bibiləri, xalaları yoxdur. Əmi, dayı, bibi və xala uşaqları yoxdur. Və nəhayət bu uşaq iki nənə, iki baba və ata-ananın üzərində əsdiyi yeganə uşaqdır.

Məsələnin tragik tərəfi ondan ibarətdir ki, tək-uşaq siyasəti heç də zəruri bir siyasət deyildi. Julian Simon kimi bir çox iqtisadçının da qeyd etdiyi kimi, adambaşına yüksək gəlir, aşağı doğum nisbətinə səbəb olmaqdadır. Yəni Çin əslində sadəcə iqtisadi liberallaşdırma yolu ilə sürətli iqtisadi artımı təşviq etməklə tək-uşaq siyasətinə ehtiyac qalmadan əhalinin ifrat artımını tənzimləyə bilərdi.

Doğrudan da son əlli ildə, doğum nisbətləri inkişaf etmiş ölkələrdə 2,8-dən 1,9-a və inkişaf etməkdə olan ölkələrdə isə 6,2-dən 3,9-a düşmüşdür. Hətta bəzi inkişaf etmiş ölkələrdə bu nisbət əhalinin özünü yeniləmə nisbətinin qat-qat altındadır.

# Azərbaycan uzunömürlülər diyarıdırmı?

Dünyanın ən yaşlı insanı olduğu iddia edilən ABŞ-ın New Sharon şəhərinin sakini Fred Hale 113 yaşında vəfat etdi. Syracuse Post-Standard qəzeti, Halenin dünyadakı ən yaşlı insan və avtomobil sürücüsü olaraq 2 dəfə Guinness Rekordlar Kitabına düşdüyünü yazdı.[199]

Qəzetlər, bir il əvvəl də planetimizin ən yaşlı sakini - 116 yaşlı yapon qadın Kamato Hongonun da vəfat etdiyini yazmışdı.[200] Yaponlar artıq uzun müddətdir ki, uzunömürlülər kimi dünyada liderlik edirlər. Lakin bu liderlik Kamato Hongo kimi nadir insanların hesabına deyil, orta ömür uzunluğuna (Doğulanda gözlənilən ömür uzunluğu – Life expectancy at birth) görə hesablanır. Belə ki, Yapon qadınları üçün orta ömür uzunluğu 85 il, kişilər üçün isə 78 il hesab olunur.[201]

Bir vaxtlar dəb idi. Ara-sıra Lerikdən yaşlı bir dədəni və ya Qusardan yaşlı bir nənəni televiziyaya çıxararaq Azərbaycanın uzunömürlülər diyarı olduğu düşüncəsi cəmiyyətə təlqin edilirdi. Sovet dövrünün nostalgiyasına sahib olanların şüur altında hələ də Azərbaycanın və o cümlədən Qafqazın uzun ömürlülər diyarı olduğu qənaəti hakimdir. Bəziləri belə xəbərləri eşitdikdə "şəhərdəki təhsilimi, işimi və s. buraxıb dağlaramı çəkilsək?" deyə köks ötürürdü. Lakin belə bir sualı nədənsə kimsə vermirdi: "Azərbaycan doğrudan da nə vaxtsa uzun-

---

[199] "Oldest man in world dies", *The Post-Standard*, 20 noyabr 2004, www.syracuse.com/news/poststandard/ city/index.ssf?/base/news-18/1100949620216382.xml, (01/03/2006).
[200] "World's oldest person dies", *NCTimes*, 31 oktyabr 2003, http://www.nctimes.com/articles/2003/11/01/backpage/10_31_0320_12_48.txt, (01/03/2006).
[201] "Life expectancy at birth", *The World Health Organization*, http://www.who.int/countries/jpn/en/, (01.03.2006).

ömürlülər diyarı olubmu?" Axı bir ölkənin uzunömürlülüyü bir neçə nəfərin yüz ildən artıq yaşaması ilə deyil, orta ömür uzunluğu əsas alınaraq müəyyənləşdirilir. Dünya Səhiyyə Təşkilatının göstəricilərinə görə isə, Azərbaycan kişilərdə 62, qadınlarda isə 68 il olan orta ömür müddəti ilə elə də fəxr ediləsi mövqeyə sahib deyil.[202]

Belə bir fikir də var ki, uzunömürlü olmaq, çox yaşamaqla deyil, mənalı yaşamaqla, həyatlarından daha çox səmərə almağı bacara bilməklə ölçülür. Bu ölçüyə görə, yüz yaşında belə qısa ömürlü olmaq mümkündür. Amma kimin nə qədər mənalı yaşadığını müəyyənləşdirmək çətin olduğundan, müqayisələrdə orta ömür uzunluğu kimi ölçülə bilən kriteriyalara üstünlük vermək daha doğrudur.[203]

Yaponiyada yaşı 75-i keçənlərin sayı ölkənin tarixində ilk dəfə olaraq 14 milyon nəfərə çatmışdır ki, bu da Norveç kimi məmləkətin əhalisindən üç dəfə çoxdur. 127 milyon yaponiyalının 23,6 milyon nəfərini və ya 18,5 faizini yaşı 65-i keçənlər təşkil edir ki, bu da Yunanıstan əhalisinin sayından iki dəfədən də artıqdır.

Əmək qabiliyyətli əhalinin azalması Yaponiya iqtisadiyyatı üçün təhlükə yaradır, pensiyaçıların sayının artması isə pensiya sistemində böhranla nəticələnə bilər. Azərbaycanda isə baş alıb gedən işsizlik səbəbindən əmək qabiliyyətli əhalinin çoxluğu problem kimi qəbul edilir.

Dünya Səhiyyə Təşkilatının məlumatlarına görə, Azərbaycan intihar nisbətinin ən aşağı olduğu ölkələrdəndir.[204] Lakin

---

[202] "Life expectancy at birth", *The World Health Organization*, http://www.who.int/countries/aze/en/, (01.03.2006).
[203] İlkin Sabiroğlu, "Azərbaycan uzunömürlülər diyarıdırmı?", *IqtisadNet*, 14 yanvar 2005, http://www.iqtisad.net/is020.htm, (01.03.2006).
[204] "Suicide rates per 100 000 by country", *The World Health Organization*, http://www.who.int/mental_health/prevention/suicide_rates/en/index.html, (01.03.2006).

bunun sevindirici, yoxsa kədərləndirici hal olduğunu söyləmək heç də asan deyil. Təcrübələr göstərir ki, adətən əgər bir ölkədə intihar nisbəti aşağıdırsa, o ölkədə uşaq ölümü nisbəti və yoxsulluq səviyyəsi çox yüksəkdir. Məsələn, Litvada uşaq ölüm nisbəti ən aşağı həddə olduğu halda, intihar səviyyəsinə görə keçmiş ittifaq respublikaları arasında liderlik edir. Azərbaycanda isə, uşaq ölümü nisbəti və yoxsulluq səviyyəsi çox yüksəkdir.

Elm adamları intihar səviyyəsi ilə fərdiləşmə prosesi arasında deterministik bir əlaqə olduğunu irəli sürürlər. Bir başqa ifadə ilə liberal iqtisadi inkişafa paralel olaraq yoxsulluq və uşaq ölümlərinin səviyyəsi aşağı düşsə də, intihar səviyyəsində artım müşahidə edilirmiş.

Azərbaycanda əhalinin artım nisbəti ilə bağlı göstəricilər inkişaf etmiş ölkələrə yaxın səviyyədədir. Halbuki, uşaq ölüm nisbətinin və yoxsulluq səviyyəsinin yüksək olduğu toplumlarda əhalinin artım nisbəti də yüksək olur.

Yuxarıda da qeyd etdiyimiz kimi, son əlli ildə, doğum nisbətləri inkişaf etmiş ölkələrdə 2,8-dən 1,9-a və inkişaf etməkdə olan ölkələrdə isə 6,2-dən 3,9-a düşmüşdür. Bəzi inkişaf etmiş ölkələrdə isə bu nisbət əhalinin özünü yeniləmə nisbətinin də altındadır. Ölkəmizdə hər qadına düşən doğulmuş uşaq sayı 2 nəfər təşkil edir.[205] Qeyd edək ki, artım üçün məqbul olan minimal rəqəm 2,17-dir.

Azərbaycanda sovet sistemindən miras qalan və bütün qüsurlarına baxmayaraq hazırkı 11 illik məcburi təhsil sistemi, yoxsulluq səviyyəsinin yüksəkliyinə baxmayaraq doğum nisbətinin artımını tormozlayan əsas amillərdəndir. Bir ölkədə məcburi təhsil sisteminin olması və bu müddətin uzunluğu ölkədəki ilk evlilik yaşının yüksəlməsinə, ailə başına düşən uşaq

---

[205] "Azərbaycanda qadınlar", *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*, 3 mart 2006, http://www.azstat.org/indexaz.php?id=308.

sayının azalmasına səbəb olur. Dolayısı ilə Azərbaycanın əsl problemi əhalinin artım nisbətinin aşağı olması deyil, uşaq ölüm nisbətinin və yoxsulluq səviyyəsinin yüksək olmasıdır.

Sənaye toplumlarında strateji güc ünsürlərindən birisi də ölkə əhalisinin sayı hesab edilirdi. Lakin əhalinin sayı artıq nəinki siyasi və iqtisadi baxımdan, hətta hərbi baxımdan da güc amili sayılmamaqdadır. Məsələn, əhalinin sayı həlledici hərbi güc amili olsaydı Hindistanla Pakistan arasındakı "Kəşmir Problemi" çoxdan birincinin lehinə həll edilmiş olmalı idi.

Artıq ölkələrin gücü əhalisinin sayı ilə deyil, "İnsan İnkişafı İndeksi" (Human Development Index) ilə ölçülür. Bu isə, BMT-nin "İnsanın İnkişaf Proqramı"nda öz əksini tapır. BMT 1990-cı ildən bu istiqamətdə illik hesabatlar hazırlayır. Konsepsiyalar imzalanır. "İnsanın İnkişaf Konsepsiyası"nın dörd əsas bazası var: iqtisadi inkişaf və həyat səviyyəsinin artması, gələcəyə inamla baxmaq, insanlar arasında iqtisadi və siyasi uyğunsuzluğun aradan qaldırılması, imkanların genişləndirilməsi üçün şərait. Yəni potensial imkan üçün şəraitin yaradılması.

UNDP (Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı), milli gəlirlə yanaşı, səhiyyə və təhsil imkanlarından faydalana bilmə səviyyəsi kimi bir çox ictimai-mədəni kriteriyaları nəzərə alaraq hazırladığı üç əsas indeksə (adam başına düşən ümumi daxili məhsulun həcmi, gözlənilən ömür indeksi və təhsil indeksi) dayanaraq hesablanan "İnsan İnkişafı İndeksi" isə, insanların həyat səviyyəsini "keyfiyyətli həyat tərzi" baxımından dəyərləndirməyi hədəfləyir.[206]

Göründüyü kimi, mənalı həyat tərzini müəyyənləşdirmək çətin olsa da, "keyfiyyətli həyat tərzi" haqqında müəyyən qənaətə gəlmək artıq mümkündür. Sonda qeyd edək ki, Azər-

---

[206] İlkin Sabiroğlu, "Azərbaycan uzunömürlülər diyarıdırmı?", op. cit.

baycanın insan inkişafı indeksi dünya üzrə orta göstərici sayılır,[207] amma 180-ə yaxın ölkə arasında.

[207] Human development indicators, *United Nations Development Programme*, http://hdr.undp.org/reports/global/2005/pdf/HDR05_HDI.pdf, (01/03/2006).

# "İqtisadi sərbəstliklər" mücərrəd anlayış deyil

1980-ci illərin axırında dünya ölkələri ciddi borc böhranı ilə üzləşmişdi. Borc böhranını yaradan səbəb, inkişaf etməkdə olan ölkələrin kredit təşkil edən quruluşlardan və kapital ixrac edən ölkələrdən almış olduqları kreditlərin qısa bir müddət sonra hətta faizlərini də ödəyə bilməyəcək hala gəlmələri idi. Nəticə olaraq böhranın ardından, xüsusilə 1990-cı illərdə xarici investisiyalar mövzusu aktuallıq qazanmağa başladı. Çünki borclanma ilə müqayisədə birbaşa xarici investisiyalar daha etibarlı mənbə idi.[208]

Son on beş ildə birbaşa xarici investisiyaların yararlarından bəhs edən zəngin bir ədəbiyyat yaranmışdır. Birləşmiş Millətlər İnkişaf və Əməkdaşlıq Təşkilatının 1998-ci il tarixli beynəlxalq investisiyalarla əlaqədar hesabatı isə bu mövzuda istinad etmək üçün çox yaxşı vəsaitdir. Burada birbaşa xarici investisiyaların daxil olduğu ölkəyə yararları beş əsas qrupda ələ alınmışdır: maliyyə mənbələrinin və investisiyaların artırılması, texnologiya imkanlarının inkişaf etdirilməsi, ixrac imkanlarının artırılması, məşğulluq səviyyəsinin yüksəldilməsi və iş qüvvəsinin bacarığının artırılması və nəhayət ətraf mühitin qorunmasındakı müsbət rolu.[209]

Belə yararlarına görədir ki, hər bir ölkə özünün potensial imkanlarını və xarici investisiyaların cəlbi üçün nə edə biləcəyini nəzərə alır. Azərbaycanda bu baxımdan Qarabağ probleminin həll edilməmiş olması, özəlləşdirmədəki gecikmələr, kölgə iqtisadiyyatının böyüklüyü, real sektorun inkişaf etmə-

---

[208] Ilkin Sabiroglu, "Investments should be encouraged", Azerbaijan Bulletin No:23 (277), 7 iyun 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200106/0019.html, (01.03.2006).

[209] Ibid.

miş olması, əhalinin alıcılıq qabiliyyətinin aşağı olması kimi çatışmamazlıqlar mövcuddur. Lakin bununla bərabər ölkənin əlverişli coğrafi mövqeyi, ucuz işçi qüvvəsinin mövcudluğu, yüksək inflyasiyanın olmaması, zəngin təbii ehtiyatlar və s. kimi də üstünlüklər vardır.

Sentyabrın 29-da Birləşmiş Millətlər Təşkilatı Ticarət və İnkişaf Konfransının "Dünya İnvestisiya Hesabatı - 2005" açıqlandı. Hesabata görə 2004-cü ildə dünya üzrə birbaşa xarici investisiyanın həcmi 648 milyard dollara yüksəlib. Birbaşa xarici investisiyaların 59 faizi inkişaf etmiş ölkələrə yönəldiyi halda, inkişaf etməkdə olan ölkələrin toplamdan aldığı pay 39 faiz təşkil edib. Ayrıca inkişaf etməkdə olan ölkələrin payı bir önceki illə müqayisədə 40 faiz artıb. Bölgə olaraq ən əsas payı Asiya və Latın Amerikası ölkələri alıb. Ən çox birbaşa xarici investisiya cəlb edən ölkə Amerika Birləşmiş Ştatları olub. Onu İngiltərə, Çin və Lüksemburq izləyib.[210]

Bu yaxınlarda Dünya Bankının açıqladığı "Doing Business" illik hesabatı ilə müqayisədə bu hesabatı Azərbaycan üçün uğurlu hesabatlardan biri hesab etmək mümkündür. Belə ki, Azərbaycan "Birbaşa Xarici İnvestisiya Performans İndeksi Reytinqi"nə görə, 2004-cü ildə dünya üzrə birinci yerə çıxmışdır. Bu indeks bir ilin nəticəsinə görə deyil, son üç ilin hərəkətli ortalamasına görə hesablanıb. Qeyd edək ki, Azərbaycan əvvəlki hesabatda bu indeksə görə üçüncü yerdə idi. Reytinq cədvəlində 140 ölkə yer alıb. Müqayisə üçün deyim ki, MDB respublikalarından Qazaxıstan 11-ci, Gürcüstan 13-cü, Ermənistan 22-ci, Moldova 26-cı, Ukrayna 71-ci, Rusiya Federasiyası isə 88-ci yerdə yerləşib.[211]

2004-cü ildə Azərbaycanın cəlb edə bildiyi birbaşa xarici investisiya miqdarı təqribən 4 milyard 759 milyon ABŞ dolları

---

[210] World Investment Report 2005, *UNCTAD*, http://www.unctad.org/en/docs/wir2005_en.pdf, (01.03.2006).
[211] Ibid.

təşkil edib. Bu bir öncəki illə müqayisədə təqribən 45 faiz yüksəkdir. 2004-cü ilin dünya üzrə toplam birbaşa xarici investisiya həcminin isə 0,73 faizinə bərabərdir. Lakin burada diqqət çəkən başqa bir göstərici daha var: 2004-cü ildə ölkədən birbaşa xarici investisiya çıxışı 1 milyard 383 milyon dollar təşkil edib ki, bu da bir öncəki illə müqayisədə təqribən 48 faiz yüksəkdir. Və daha maraqlısı odur ki, bu rəqəm bəhs edilən ildə Azərbaycanın qeyri-neft sektoruna yönələn birbaşa xarici investisiya miqdarından da təqribən 3 qat artıqdır.[212]

Hesabatda maraqlı bir matris də qurulub. "Birbaşa Xarici İnvestisiya Performansı və Potensialı Matrisi" adlanır. Əvvəlki üç ilin hərəkətli ortalaması əsasında 2003-cü il üçün hazırlanıb. Buna görə, Azərbaycan birbaşa xarici investisiya potensialı aşağı, amma buna baxmayaraq performansı yüksək olan ölkələr qrupuna daxildir. Bunu bir xəbərdarlıq kimi də qəbul eləmək olar. Yəni, ölkə bu gün neft sektorunun sayəsində mövcud potensialının üzərində birbaşa xarici investisiya cəlb edir. Amma qeyri-neft sektoruna birbaşa xarici investisiya cəlb edə bilmək üçün ölkənin xarici sərmayə çəkə bilmə potensialını da yüksəltmək lazımdır.[213]

Elə isə ölkənin potensialı müəyyənləşdirilərkən hansı göstəricilərdən istifadə edildiyinə diqqət yetirək: Ümumi Daxili Məhsulun artım sürəti, adambaşına düşən ÜDM, adambaşına düşən kommersiya məqsədli istifadə edilən enerji miqdarı, ixracatın ÜDM-dəki payı, telekommunikasiya infrastrukturu (ortalama olaraq hər min nəfərə düşən telefon xətti və hər min nəfərə düşən mobil telefon), milli gəlirdəki innovasiya xərcləri, tələbələrin əhali içərisindəki nisbəti, ölkə riski, təbii ehtiyatlar ixracının dünya üzrə faizlə çəkisi, idxaldakı elektronika və avtomobil məhsulları və hissələrinin dünya üzrə faizlə nisbəti,

---

[212] İlkin Sabiroğlu, "İqtisadi sərbəstliklər mücərrəd anlayış deyil", *"Gündəlik Azərbaycan" qəzeti*, 1 oktyabr 2005.
[213] Ibid.

xidmət ixracının dünya üzrə faizlə nisbəti və nəhayət, birbaşa xarici investisiya ehtiyatlarının dünya üzrə faizlə nisbəti.

Təbii ki, xarici investisiya çəkə bilmək üçün ölkədə əlverişli investisiya iqlimi də formalaşmış olmalıdır. Bu isə ilk əvvəl ölkədə iqtisadi sərbəstliklərin təmin edilməsindən keçir. Yeri gəlmişkən, "iqtisadi sərbəstliklər" mücərrəd anlayış deyil. Artıq iqtisadi sərbəstlik deyiləndə Avropa Birliyi ölkələrinin inteqrasiyasının əsasını təşkil edən "dörd sərbəstlik" prinsipinə istinad edilir. "Dörd sərbəstlik" prinsipinə görə, iqtisadi sərbəstlik malların, xidmətlərin, fərdlərin, kapitalın sərbəst hərəkəti kimi qəbul edilməlidir. Buraya bir də Dünya Bankının "Doing Business" hesabatını hazırlayarkən istifadə etdiyi – biznesə başlamaq, lisenziya almaq, işə götürmə və işdən çıxarma, mülkiyyətin qeydə alınması, kredit almaq, investorların qorunması, vergilərin ödənməsi, sərhədlərarası ticarət, kontraktların həyata keçirilməsi, biznes fəaliyyətini dayandırma və iqtisadiyyatın xüsusiyyətləri - kimi göstəriciləri əlavə etdiyiniz zaman geriyə mücərrəd olan heç nə qalmır.[214]

Bir xeyli müddət əvvəl, Milli Məclisin İqtisadi Siyasət daimi komissiyasının 17 may 2001-ci il tarixli iclasında "İnvestisiyaların Təşviqi Haqqında" Azərbaycan Respublikasının qanun layihəsi müzakirəyə çıxarılmışdı. Xüsusilə nəzərə alsaq ki, Azərbaycanda növündən asılı olmayaraq istənilən formadakı investisiyalara ciddi tələbat var, onda belə bir qanunun əhəmiyyəti anlaşılar. Layihədə mənfəət vergisi, yol vergisi, sosial ödəmələr eləcə də elektrik enerjisi və nəqliyyat haqları ilə bağlı 12 ilə qədər tətbiq oluna biləcək güzəştlər müəyyən edilməsi nəzərdə tutulurdu. Sənəddə nəzərdə tutulan güzəştlərin neft-qaz sektoruna, maliyyə, bank və sığorta sektorunda çalışan şirkətlərə şamil edilməyəcəyi də qeyd olunmuşdu. Qanun layi-

---

[214] Doing Business in 2005, The World Bank, http://rru.worldbank.org/Documents/DoingBusiness/2004/DB2004-full-report.pdf, (01.03.2006).

həsində bir sıra hallarda investorların gömrük rüsumlarından, eləcə də Əlillərin Sosial Müdafiəsi Fonduna və Məşğulluq Fonduna ödəmələrdən azad edilməsi də nəzərdə tutulmuşdu.[215]

Güzəştlər qoyulacaq investisiyanın həcmindən asılı olacağına görə layihəyə bir növ norma xarakteri daşıyan "minimal investisiya həcmi" anlayışı daxil edilmişdi. Bu rəqəm müvafiq icra hakimiyyəti orqanı tərəfindən hökumət proqramlarına uyğun şəkildə müəyyən olunacaqdı. Layihəyə görə, mənfəət vergisi investisiyanın həcmindən asılı olaraq diferensiallaşdırılacaqdı. Beləliklə qoyulan investisiyanın həcmi "minimal investisiya həcmi"ndən 10 dəfə artıq olduqda vergi bazası 5 il müddətində 35 faiz, investisiyanın həcmi 10-30 dəfə artıq olduqda 6 illiyə 40 faiz, 500 dəfədən artıq olduqda 12 il ərzində 70 faiz azalacaqdı və s. Müqayisə üçün qeyd edək ki, Türkiyədə bir müddət tətbiq edilən "minimal investisiya həcmi" xarici investisiyalarda hər ortaq üçün minimum 50 min ABŞ dolları həcmində müəyyənləşdirilmişdi.[216]

"İnvestisiyanın Təşviqi Haqqında" qanun layihəsi hazırlanarkən, bir çox ölkələrin təcrübələrindən yararlanmaq da pis olmazdı. Çünki bizim güzəşt kimi təklif etdiklərimiz digər ölkələrin təkliflərinin yanında xarici investorlar üçün əlavə bir alternativ yaradır. Ona görə də təkliflərimiz daha cəlbedici olmalıdır. Məsələn, Malayziyada investor ilk on ildə ümumiyyətlə mənfəət vergisi ödəmir. Təbii ki, ilk baxışdan bu ifrat güzəşt kimi qəbul oluna bilər. Lakin praktika göstərir ki, orta səviyyəli bir sənaye quruluşu üçün ilk 2-3 il investisiya qoyuluşuna sərf olunur. Sonrakı 3-5 ili də müəssisə zərərlə işləyir, yəni, ilkin mənfəətdən əvvəlki zərərlərini çıxmaqla məşğul olur və faktiki olaraq ilk 8-10 ildə vergi ödəmir.[217]

---

[215] Ilkin Sabiroglu, "Investments should be encouraged", op. cit.

[216] Ibid.

[217] Ibid.

1980-cı illərdə İrlandiyada isə dövlət investorlara torpaq sahəsi ayırmış və hətta inkişaf etdirmək istədiyi sənaye sahələrinə binalarını da özü tikib vermişdi. Belə addımların nəticəsidir ki, İrlandiya əhalisinin sayı 3 milyon olduğu halda, ölkəyə daxil olan birbaşa xarici investisiyaların həcmi 1995-ci ildə 40 milyard dollar ikən, 2000-də 137 milyard dollar, 2002-də 168 milyard dollar və 2003-də isə 193 milyard dollara yüksəlmişdir.[218]

Əfsuslar olsun ki, bəhs edilən layihənin inkişaf etdirilməsi bir yana dursun, o layihədən bir daha xəbər çıxmadı. Doğrudur, Azərbaycanda 15 yanvar 1992-ci il tarixli "Xarici İnvestisiyanın Qorunması Haqqında" və 13 yanvar 1995-ci il tarixli "İnvestisiya fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanunları mövcud olsa da, faktiki olaraq bu qanunlar işləmir. Azərbaycanda İnvestisiyaların Təşviqi və Məsləhət Fondu Dünya Bankının ekspertləri ilə birgə "İnvestsiya fəaliyyəti haqqında" və "Xüsusi iqtisadi zonalar haqqında" qanun layihələri hazırlayıb. Həmin qanun hazırda qüvvədə olan "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" iki qanunu əvəz etməlidir.[219] Bu iki mövcud qanunlardan fərqli olaraq yeni layihə beynəlxalq təcrübənin daha mükəmməl elementlərini özündə əks etdirir. Digər ölkələrin bu sahədə olan təcrübəsini əsas götürərək qanun layihəsinə investisiyaların qorunması, investisiya fəaliyyəti zamanı yaranan mübahisələrin həlli və digər həlledici prinsipial məsələlər ilə bağlı yeniliklər daxil edilib. Lakin bu qanunun da qəbul edilməsi ləngiyir.

---

[218] "World Investment Report 2004", *UNCTAD*, The Shift Towards Services, səh.376.

[219] "İnvestisiya Mühiti", *Azərbaycanda İnvestisiyalarin Təşviqi və Məsləhət Fondu*, http://www.azerinvest.com/az/invopp.php?pg=investmentclimate, (01.03.2006).

ABŞ Dövlət Departamentinin Azərbaycanın 2006-cı il üçün investisiya mühiti ilə bağlı yaydığı bəyanatında qeyd olunur ki, Azərbaycan hökuməti birbaşa xarici investisiyaların ölkənin iqtisadi inkişafında mühüm rol oynadığını hesab edir və bu cür investisiyaların cəlbini alqışlayır. Xarici investisiyaların qorunması haqqında qanuna görə, xarici investor icarə verilmiş sahələr üzrə investisiya yatıra bilər. İcazə verilməyənlərə isə milli təhlükəsizlik və müdafiə sahələri aiddir. Həmçinin qeyd edilir ki, yerli qanunvericiliklə xarici investorlar Azərbaycan bazarında birgə müəssisələri və yerli şirkətlər vasitəsilə, xarici investorlara məxsus olan törəmə şirkətlərin yaradılması və xarici hüquqi şəxslərin nümayəndəlikləri və filialları vasitəsilə iştirak edə bilər. Hesabatın əmək bacarığı və biliklərinin artırılması, habelə stimullaşdırıcı vasitələrlə bağlı bölməsində deyilir ki, Azərbaycan Hasilatın Pay Bölgüsü sahəsi istisna olmaqla, hələ ki digər sahələrə xarici investisiyaların cəlbi məqsədilə stimullaşdırıcı vasitələrdən istifadə etmir.[220]

Hökumət, 2006-cı ildə bütün maliyyələşdirmə mənbələrindən Azərbaycan iqtisadiyyatına investisiya yatırımlarının 2005-ci il üçün proqnozlarla (5827,4 milyon dollar) müqayisədə 7 faiz artacağını və 6513 milyon dollar təşkil edəcəyini proqnozlaşdırır. Göstərilən həcmin 2495,6 milyon dolları daxili, 4018 milyon dolları isə xarici investisiyaların payına düşəcək. 2006-cı ildə daxili investisiyalar göstəricisində proqnozla müqayisədə 35,7 faiz artım gözlənildiyi halda, xarici investisiyaların 1,2 faiz aşağı düşəcəyi proqnozlaşdırılır. Daxili investisiyaların ümumi həcmində 722,2 milyon dolları büdcə vəsaitlərinin, 209,8 milyon dolları əhali tərəfindən yatırılan investisiyaların, 1563,6 milyon dolları müəssisə və təşkilatların vəsaitlərinin payına düşəcək. Daxili investisiyaların 1013,3 milyon

---

220 "Azerbaijan - 2006 Investment Climate Statement", U.S. Department of State, 1 mart 2006, http://www.state.gov/e/eb/ifd/2006/62315.htm, (01.03.2006).

dolları həcmində böyük hissəsi sənaye sahəsinə, o cümlədən 264,3 milyon dolları neft sektoruna yönəldiləcək. Ticarət və xidmət sahələrinə 43,7 milyon dollar, nəqliyyat sahəsinə 323,8 milyon dollar, rabitə sahəsinə 117,6 milyon dollar, tikinti sahəsinə 699,1 milyon dollar, kommunal tikintisi sahəsinə 79 milyon dollar, sosial və digər sahələrə 219,1 milyon dollar investisiya yatırılacaq.[221]

Bu proqnozlara əsasən, növbəti üç ildə Azərbaycan iqtisadiyyatına investisiya yatırımlarının ümumi həcmi azalacaq. Beləliklə, 2008-ci ildə bu göstərici 2007-ci ildəki 5912,1 milyon dollardan 5592,1 milyon dollara, 2009-cu ildə isə 5781,7 milyon dollara qədər aşağı düşəcək. Bununla bərabər hökumət qeyd olunan dövrdə daxili investisiyaların həcminin artacağını proqnozlaşdırır: 2007-ci ildə 2841,1 milyon dollar, 2008-ci ildə 3405,1 milyon dollar, 2009-cu ildə 3696,7 milyon dollar. 2008-ci ildə xarici investisiyaların həcmi isə 2007-ci ildəki 3071 milyon dollardan 2187 milyon dollara, 2009-cu ildə isə 2085 milyon dollara qədər aşağı düşəcək.[222]

Azərbaycanın potensial imkanları müqabilində qeyri-neft sektoruna cəlb edə bildiyi birbaşa xarici investisiya miqdarı çox-çox aşağıdır. Daxil olan xarici investisiyalar birbaşa xarici investisiyalar şəklində olsa da əsasən neft sektoruna yönəlmişdir. Respublika hələ də qeyri-neft sektorunun inkişafı üçün zəruri olan investisiya axınını təşkil edə bilməyib.

Ayrıca, neft sektoru sürətlə inkişaf etsə də kompleks şəkildə sənayenin inkişafından danışmaq mümkün deyil. Məhz bu səbəbdən ölkə prezidenti (İlham Əliyev) regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramının ikinci ilinə həsr olunmuş konfransda, neft amilindən çox məharətlə istifadə edərək Azərbaycanın uzunmüddətli sənaye inkişafı konsepsiyasının,

---

[221] "Növbəti illərdə gözlənilən investisiya yatırımlarının həcmi", *IqtisadNet*, 3 dekabr 2005, http://www.iqtisad.net/xeberler/00053.htm, (01.03.2006).
[222] Ibid.

proqramının hazırlanmalı və güclü sənaye kompleksinin yaradılmalı olduğunu vurğulamışdır. Prezidentə görə, bunu etmək üçün bütün zəruri şərtlər mövcuddur.[223]

Xarici investisiyaların iqtisadi inkişafdakı rolu danılmaz olduğundan hər bir ölkə bu investisiyaların cəlbi üçün bir-biri ilə rəqabət içərisindədir. Xüsusilə dünya üzrə birbaşa xarici investisiyaların həcmi ildən ilə azaldığından bu rəqabət daha da kəskinləşməkdədir.

Xarici investorlar kapital qoyuluşları ilə bağlı qərarlarına birbaşa təsir göstərən bir çox amillərlə maraqlanırlar: ölkədə iqtisadi stabilliyin, cəlbedici bir bazarın olub-olmaması, xammal ehtiyatlarının uyğunluğu, infrastruktur, nəqliyyat və s. Bütün bunlar investisiya iqlimi (investisiya üçün əlverişli mühit) adlanır. Lakin investisiya iqlimi sadəcə iqtisadi bir mühit deyil, eyni zamanda hüquqi bir mühitdir. İnvestor hüquqi olaraq özünü təminat altında hiss edə biləcəyi bir mühiti axtarır. Yəni kapital qoyacağı ölkədə necə bir hüquqi münasibət görəcəyini bilmək istəyir. İqtisadi cəhətdən investisiya iqlimi nə qədər əlverişli olursa-olsun, əgər hüquqi mühit əlverişli deyilsə xarici investorun o ölkəyə gəlməsi müşkülə çevrilir. Qeyd edək ki, müxtəlif səbəblərdən "xarici investorlar gəlirsə gəlsin, gəlmirsə gəlməsin" kimi açıq və ya qapalı şəkildə siyasi iradə ortaya qoyan hökumətlərə də rast gəlmək mümkündür. Belə bir mövqeyimizin olmadığını göstərmək üçün "İnvestsiya fəaliyyəti haqqında" qanunun qəbul edilməsinə ehtiyac var.[224]

İsveçrəli üç iqtisadçı, hələ bir müddət əvvəl, beynəlxalq orta və uzunmüddətli (5 ildən artıq) investisiyalara öncüllük

---

[223] "Azərbaycanda güclü sənaye kompleksi yaradılacaqdır", *AzərTAc*, 21 fevral 2006.

[224] Ilkin Sabiroglu, "Does the condition of investment exist in Azerbaijan?", Azerbaijan Bulletin No:33 (287), 16 avqust 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200106/0019.html, (01.03.2006).

edən quruluşlarla üzbəüz həyata keçirdikləri görüşlər nəticəsində, xarici kapitalın cəlb edilməsi üçün iki əsas prinsipin əhəmiyyətli rol oynadığını müəyyən etmişlərdi:[225]

- Xarici kapital gözləyən ölkələrdə, iqtisadi qanunlar və qərarlar anidən və tez-tez dəyişdirilməməlidir.

- Qanunlar və qərarlar dəyişdirilməsə belə, hökumətlər bu qanun və qərarların ətrafında dolaşmamalıdırlar.

Bu iki əsas prinsip nəzərə alındığı zaman, Azərbaycanda enerji sektoru xaricindəki digər sahələrə xarici kapital cəlbinin niyə problemə çevrildiyinin səbəbi aydınlaşır. Əlavə olaraq qeyd edə bilərik ki, bu iki prinsipin pozulması həmçinin daxildəki kapital sahiblərinin də investisiya qərarlarına birbaşa təsir göstərir. Yəni iqtisadi və siyasi stabillik ölkəyə qalıcı bir şəkildə xarici kapitalın cəlbi üçün lazım olan minimum şərtdir. Lakin tək başına bu amil ölkəyə xarici kapitalın cəlbi üçün kifayət eləmir.

Məsələn, tez-tez vergi məcəlləsi üzərində dəyişikliklər aparmaq düzgün yanaşma deyil. Önəmli olan vergi dərəcələrini aşağı salmaq deyil, optimal səviyyəyə gətirməkdir. Bunun üçün ciddi və əhatəli bir vergi reformuna ehtiyac var. İlk növbədə ölkədə çalışan hər kəs gəlir vergisi mükəlləfiyyəti kateqoriyasına alınmalıdır. Dolaylı və mənfəət vergilərinin azaldılması qeyri-formal iqtisadiyyatın kiçilməsi baxımından əhəmiyyətli olsa da, Əlavə Dəyər Vergisi, maaş gəlir vergisi kimi dolaylı vergilər yerinə, daha çox birbaşa vergilərə yönəlmək daha məqsədəuyğundur.[226]

Yeri gəlmişkən, son təhlillər "reaganeconomics" kimi tanınan təklifyönlü iqtisadiyyatın da özünü yetərincə doğrultmadığını ortaya qoyur. Vergilərin aşağı salınmasında ümumi yanaşma yerinə, "seçici yanaşma"nın ortaya qoyulması daha

---

[225] Ibid.

[226] "İlkin Sabiroğlu: "Önəmli olan vergi dərəcələrini aşağı salmaq deyil, optimal səviyyəyə gətirməkdir"", *"Həftə içi" qəzeti*, 27 dekabr 2005.

məqsədəuyğundur. Neft gəlirlərinə arxayın olub vergi dərəcələrinin aşağı salınması doğru yanaşma deyil. Müsbət tendensiya isə odur ki, Azərbaycan neftlə zəngin ərəb ölkələrinin getdiyi yolu izləmir. Büdcə daxilolmalarında qeyri-neft sektorunun payı az olsa da, büdcənin həcmi artdıqca qeyri-neft sektorunun da payı artır.[227]

Aydındır ki, sadəcə investisiya həcminin artımına baxaraq həmin ölkə iqtisadiyyatının inkişafı haqqında fikir yürütmək çox çətindir. İnvestisiya çox geniş bir anlayışdır. Baxır söhbət hansı investisiyadan gedir: portfel investisiyasından, spekulyativ investisiyadan, birbaşa investisiyadan, daxili, yoxsa xarici investisiyadan? Ayrıca bu investisiyaların təyinatına baxmaq lazımdır. Ölkə olaraq elə yanlış sahələrə investisiya cəlb edə bilərsiniz ki, bu ölkəni inkişafa yox, tənəzzülə götürə bilər. Məsələn, bir ölkədə spekulyativ portfel investisiyalarının həcmi o qədər şişə bilər ki, bu hal ölkəni ciddi bir böhrana sürükləyər. Digər tərəfdən investisiyanın ölkəyə daxil olma forması da çox əhəmiyyətlidir. Bu yeni investisiyadırmı, yoxsa xarici şirkətin əsasən özəlləşdirmə yolu ilə yerli şirkəti satınalmasımı? İnkişaf etməkdə olan ölkələrə yönələn birbaşa xarici investisiyaların 10 faizindən artığı məhz özəlləşdirmə yolu ilə daxil olur. Həmçinin, xarici şirkətin yerli şirkətlə birləşməsi, "joint venture" dediyimiz ortaq təşəbbüs, daha çox yüksək texnologiyalı şirkətlər arasındakı strateji birləşmə formasında da ölkəyə xarici investisiya daxil ola bilər. Bunların hamısı iqtisadi inkişaf üzərində müxtəlif təsirlər yaratma gücünə sahibdir. Eyni zamanda uzun müddətli xarici kreditlər də xarici investisiya sayılır.

Konkret olaraq Azərbaycana gəlincə, burada investisiyaların böyük bir hissəsini xarici investisiyalar təşkil edir. Xarici investisiyalar içərisində həlledici pay neft sektorunundur. İdxa-

---

[227] Ibid.

latın tərkibinə baxdıqda isə məlum olur ki, neft sektoruna xarici investisiyalar daha çox texnologiya transferi şəklində baş verir. Bu amil neft sektorunda istehsalın səmərəliliyini artırsa da, investisiyaların makroiqtisadi multiplikator effekti zəif qalır.

# İpoteka sistemi evsizliyə çarə olacaqmı?

Artıq kimsəyə sirr deyil ki, ölkədə bir "inşaat bumu" yaşanmaqdadır. Lakin "inşaat bumu"nun start alması ilə birlikdə mənzillərin də qiymətlərində çox kəskin yüksəlişlər özünü göstərməyə başladı. Seçki öncəsi dövrdə bu yüksəliş bir az səngisə də seçkilərdən sonra yenidən yüksəlmə davam etdi. Digər tərəfdən sürətli inşaata baxmayaraq əhalinin mənzil problemi öz həllini gözləməkdədir. İpoteka kreditləri bu problemin həllində çarə ola biləcəkmi? Ümumiyyətlə dünya praktikasında bu problemin həlli necədir?

Heç bir şeyin qiyməti mütəmadi olaraq düzxətli yüksələ və ya düşə bilməz. Qiymətlər istər yüksəliş, istərsə də düşmə trendində ziqzaq şəklində trayektoriyalarla müşahidə olunur. Mənzillərin qiymətindəki son səngiməni də bununla izah etmək mümkündür. Buna düzəltmə hərəkəti - correction deyilir. Ayrıca keçmiş illərin təcrübəsi göstərir ki, seçkiöncəsi dövrdə mənzillərin qiyməti nisbətən geriləsə də, seçkilərdən sonra yüksəliş özünü büruzə verir. Bunu da seçkiöncəsi qeyri-müəyyənliklə izah etmək mümkündür.

Ümumi götürəndə isə ipoteka krediti öz-özlüyündə qiymətlərin yüksəlməsini şərtləndirən amillərdəndir. Çünki ipoteka krediti mövcud təklif səbəti üçün yeni tələb potensialı yaratmaqdadır. Digər tərəfdən rəsmi bəyanlardan belə məlum olur ki, bank yalnız hazır evlər üçün kredit verəcək və əvəzində evi girov götürəcək. Bakıda təzə inşa edilən evlərin fundamenti qoyulanda praktiki olaraq proyektdə nəzərdə tutulan mənzillər satılmağa başlayır və ev bu vəsait hesabına başa gəlir. Belə çıxır ki, ipotekanı yeni inşa edilən mənzillərin yalnız ikinci əl bazarına yönəltmək mümkün olacaq. Halbuki bütün dünyada Mortgage sistemi kimi tanınan ipotekalı mənzil ma-

liyyələşdirmə sisteminə əsasən ipoteka krediti vasitəsi ilə yeni inşa edilməkdə olan mənzilləri almaq olar.

Milli Bank kredit həcminə məhdudiyyət qoyulmasını bu kreditlərin daha çox insanı əhatə edə bilməsi istəyi ilə izah edir. Görünən isə odur ki, ipoteka ilə ev almaq istəyənin rəsmi gəliri də yüksək olmalıdır. Bu təzadı necə aradan qaldırmaq olar?

Dünyada hər il 5 trilyon dollarlıq vəsait sərmayə bazarları xətti ilə mənzil sahibi olmaq istəyən şəxslərin ixtiyarına verilir. İpoteka krediti o vaxt mənzil probleminə çarə ola bilər ki, kredit müddəti uzun, başqa sözlə aylıq ödəniləcək məbləğ az olsun. Yalnız bu halda ipoteka krediti orta və aşağı gəlir qrupuna daxil olan ailələrin ödəmə qabiliyyətinə münasib olduğu üçün daha çox insanı əhatə edə bilər. Bir başqa həlledici amil də ölkədə real faiz səviyyələrinin aşağı olub-olmamasıdır. Məhz buna görə Latın Amerikası ölkələrində bankların mənzil üçün ayırdığı kredit həcminin Ümumi Daxili Məhsula nisbəti təqribən 4-12 faiz, Yaxın Şərq ölkələrində 2-59 faiz arasında, Avropa birliyi ölkələrində təqribən 39 faiz, ABŞ-da isə 53 faiz təşkil edir. Bizdə isə bu rəqəm sıfıra yaxın olacaq. Çünki Azərbaycanda kredit üçün nəzərdə tutulan müddət qısa, faizlərsə yüksəkdir. Eyni zamanda ilkin ödəniş məbləği çox yüksək müəyyənləşdirilib. [228]

Dünyadakı Mortgage sisteminin üstünlüyü ondadır ki, insanlara sanki kirə ödəyirmiş kimi, aylıq büdcələrinə münasib rəqəmlərlə ev sahibi olma fürsəti verir. Zamanla Azərbaycanda da bu problemi həll etmək üçün dövriyyəyə daha çox vəsait axını cəlb etmək lazımdır ki, müddət uzana bilsin. Bəs dövriyyəyə vəsait axınını necə artırmaq olar?

---

[228] "İlkin Sabiroğlu: "Bizdəki ipoteka sistemi heç 2000 adamı da evlə təmin edə bilməyəcək"", *"Gündəlik Azərbaycan" qəzeti*, 23 avqust 2005.

Azərbaycanda ipoteka krediti verilərkən ipoteka kağızı tərtib ediləcək və bu sənəd İpoteka İnvestisiya Fonduna (İİF) təqdim olunacaq. İİF isə qiymətli kağızlar buraxacaq ki, bazardan əlavə vəsait cəlb edə bilsin və fond özü-özünü bir müddətdən sonra tənzimləsin. Amma bunun üçün bu kağızların etibarlılığını təmin etmək lazımdır. Məsələn, ABŞ və bir sıra Avropa ölkələrində müşahidə edilən yüksək büdcə kəsirləri müqabilində çox xaotik və dalğalı maliyyə şərtlərinə baxmayaraq, investorlar ipoteka kağızlarının daha etibarlı investisiya vasitəsi olduğunun şahidi oldular. Çünki bu bazarlar daha sərt qanunvericilk bazası ilə tənzimlənir. Dünyada 75 Mərkəzi Bank Mortgage sistemi kimi tanınan ipotekalı mənzil maliyyələşdirmə sisteminin qiymətli kağızlarından istifadə edir. Son vaxtlar bəzi təqaüdçü fondları və sığorta şirkətləri ilə yanaşı, bu kağızları alan fərdlərin də sayı artmaqdadır.

Hətta bu kağızların xarici müştərilərə də satışını təşkil etməyi bacaran bazarlar var. İrlandiyada fəaliyyət göstərən "Bank of Ireland" çox qısa müddət içərisində Mortgage fondlarını ixrac etməyə başlamış, bazara 2 milyard avroluq tələblə çıxmalarına baxmayaraq tələb 4 milyard avroya çatmış və Yaxın Şərqdən Çinə qədər bir çox ölkələrdən müştəri qazanmışdır. Avropanın ən sağlam əmlak bazarı İspaniyadadır. İspaniyada Mortgage dəstəkli ipoteka kağızları bazara çıxarıldığında 5 milyard avroluq bir bazar formalaşmış, 2001-2005-ci illər arasında tədavüldəki qiymətli kağızların həcmi 130 milyard avroya çatmışdır. Sistem inkişaf etdikdən sonra əmlak alarkən nəzərdə tutulan 3 illik ödəmə müddətləri 30-35 ilə qədər uzadıldı. Bankaların rentabelliliyi artdı və ispanlar qat-qat yaxşı şərtlərlə mənzil sahibi olmaq imkanı əldə etmiş oldular.[229]

[229] Ibid.

Qeyd etdik ki, dövriyyəyə vəsait axınını artırmaq üçün ipoteka sisteminin etibarlılığını təmin etmək lazımdır. Bunu necə etmək olar?

İlk əvvəl bu sistemdə satın alınmaq istənilən evin dəyəri ekspertlər tərəfindən qiymətləndirilməlidir. Ev krediti verən qurumlar ABŞ-da Lender adlanır və bunlar ekspert xidmətindən istifadə edirlər. Digər tərəfdən, bir çox ölkələrdə ev krediti tələb edən, kredit borclarını ödəyə bilməmə ehtimalına qarşı sığorta olunur. Eyni zamanda həyat sığortası da olunur. Bununla da kifayətlənməyərək satın alınan mənzil Təbii Fəlakətlərə Qarşı Sığorta edilir. Ona görə də sistemə daxil edilən mənzillərin zəlzələyə qarşı dayanıqlı olmasına, inşaatının qanunvericiliyə uyğun aparılıb-aparılmadığına və s. çox böyük diqqətlə baxılır. Nəticədə sistemə etibar artır. Bizdəki "İpoteka Haqqında" qanunun 27-ci maddəsində "İpoteka qoyulan əşyanın saxlanılması və sığorta" məsələsindən bəhs edilir. Lakin burada nəzərdə tutulur ki, yalnız ipoteka müqaviləsində nəzərdə tutulduğu hallarda sığorta edilməlidir. Məncə bizdə də sığortalanma məcburi hala gətirilməlidir ki, sistemin etibarlılığı təmin edilsin.[230]

Son məlumata görə isə, Azərbaycan İpoteka Fondunun kreditləşmə dərəcəsi 6 faiz,[231] müvəkkil banklar üçün isə maksimum 12 faiz səviyyəsində müəyyənləşdirilib. Mövcud inflyasiya səviyyəsini nəzərə alsaq, aydın olur ki, Milli Bank ipotekalı mənzil maliyyələşdirmə sistemi üçün "neqativ faiz" səviyyəsinin tətbiqinə qərar verib. Təbii ki, bu iqtisadi rasionallıqdan uzaqdır. Faizləri aşağı çəkmək üçün ilk əvvəl inflyasiya səviy-

---

[230] "İpoteka Haqqında" Azərbaycan Respublikasının Qanunu, *Azərbaycan Respublikası Milli Bankı*, 15 aprel 2005, http://nba.az/?mod=inside&id=490&sub1=492&sub2=513, (01.03.2006).

[231] "İpoteka Fondunun kotirovka dərəcəsi müəyyən olundu", *Azərbaycan Respublikası Milli Bankı*, 13 fevral 2005, http://nba.az/?mod=show_press&id=609&lang=az, (01.03.2006).

yəsini düşürmək lazımdır. "Neqativ faiz" səviyyəsinin hakim olduğu sistemə dövlətdən başqa heç kim öz vəsaitlərini yönəltməz? Bəs onda İpoteka Fondu necə inkişaf edəcək? Heç bir qurum mütəmadi zərəri maliyyələşdirərək yaşaya bilməz. İpotekalı mənzil maliyyələşdirmə sistemində məgər dövlətin vəzifəsi zərəri maliyyələşdirməkdən ibarətdir? Dövlətin vəzifəsi elə bir şərait yaratmaqdır ki, aylıq rəsmi gəlirləri az olan vətəndaşlar da bu sistemdən istifadə edə bilsinlər. Ona görə də, ipoteka kreditinin faizindən daha çox müddəti əhəmiyyət daşıyır. Dövlət "neqativ faiz" tətbiq etməkdənsə, kredit müddətlərinin uzadılmasına nail olsa, aylıq ödəniş məbləğləri düşəcəyindən cəmiyyətin daha geniş təbəqəsi bundan istifadə edə bilər.

Digər tərəfdən, mövcud şərtlər ipotekadan daha çox kommersiya üçün sərfəlidir. Məsələn, Türkiyədə aparılan bir araşdırmanın nəticələri göstərir ki, ipoteka kreditinin faiz dərəcələri aşağı olduğundan bu kreditdən faydalanmaq istəyən bir çox şəxs öz aralarında "şərti" olaraq mənzil alqı-satqı sövdələşməsi imzalasalar da, əslində alınan kredit tamam başqa təyinatlar üzrə istifadə edilir. Bu Azərbaycanda da istisna edilmir. Amma bunun ölkədəki "mənzilsizlik problemi"nə faydası nə olacaq? Ayrıca, "İpoteka Haqqında" Azərbaycan Respublikası Qanununun 58-ci maddəsində tikilməkdə olan yaşayış evlərinin və mənzillərin ipotekası nəzərdə tutulsa da, mövcud şərtlərdə bu nəzərə alınmayıb.[232]

Sonda qeyd edək ki, kreditləri 20-30 il müddətinə verməkdən də çəkinməyə dəyməz. ABŞ-da 1968-ci ildən bu yana 63 milyon nəfəri Mortgage sistemi vasitəsi ilə ev sahibi edən "Fannie Mae" şirkətinin məlumatlarına görə, ev almaq istəyənlər əvvəlcə 20 illiyə kredit götürsə də, daha sonradan borclarını erkən ödəməyə çalışırlar. Nəticədə ortalama müddət 7-8

[232] "İpoteka Haqqında" Azərbaycan Respublikasının Qanunu, op. cit.

ilə düşür. Bir sözlə bizdə ipoteka sisteminin fayda verməsi üçün hələ çox işlər görülməlidir.

İpoteka sisteminin inkişafı isə ölkədə evsizlik probleminin köklü sürətdə həlli ilə yanaşı qiymətli kağızlar bazarının da inkişafına şərait yarada bilər. Ölkədə qiymətli kağızlar bazarı çox zəif inkişaf etdiyindən bu sahəyə də investisiya cəlbində problemlər yaşanır. Göstəricilərə baxsaq, 2005-ci ildə ümumi həcmi 225,7 milyon AZN olan 108 səhm buraxılışı, həmçinin 128 milyon AZN həcmində 24 dövlət qısamüddətli istiqraz buraxılışı həyata keçirilib. AMB-nin notları ilə REPO əməliyyatlarının sayı nisbətən artıb və 227 milyon AZN həcmində 208 REPO əqdi bağlanıb. Bundan başqa, hesabat ilində veksel bazarı da nisbətən inkişaf edib - ümumi həcmi 40 milyon AZN olan 73 veksel buraxılıb. Qiymətli kağızlarla bağlı alqı-satqı əqdlərinin sayı 2005-də 7257, ümumi həcmi isə 50 milyon AZN olub. Bakı Fond Birjasında (BFB) əqdlərin bağlanmasında da canlanma hiss olunur, birjanın səhmlərlə ticarət dövriyyəsi təqribən 6 dəfə artaraq 5 milyon dollara çatıb. BFB-da 1081 əqd bağlandığı halda, birjadankənar bazarda da artım müşahidə olunub və əqdlərin sayı 6348 təşkil edib. Müqayisə üçün bildirək ki, 2000-ci ildə cəmi 612 əqd bağlandığı halda, ötən 5 il ərzində bu göstərici 8 dəfəlik artım təşkil edir.[233]

Bütün bu müsbət tendensiyaya baxmayaraq qiymətli kağızlar bazarının həcmi çox kiçikdir. Xüsusilə "korporativ istiqrazlar bazarında keçən 2005-ci ildə artım olmayıb, əksinə, azalma müşahidə olunub - cəmi 3 istiqraz buraxılışı qeydiyyatdan keçib. Halbuki 2004-cü ildə korporativ istiqraz buraxılışlarının sayı 14-ə bərabər olub".[234]

---

[233] "QKDK sədri Gündüz Məmmədov: "Gələcəkdə çoxu əlverişli tədavül vasitəsinə çevriləcək ipoteka kağızlarından faydalanacaq"", *APA*, 1 mart 2006, http://www.apa.az/news.php?id=18642, (01.03.2006).

[234] Ibid.

Əslində, 10-12 milyard dollarlıq Ümumi Daxili Məhsula sahib olan bir ölkədə yetkinləşmiş qiymətli kağızlar bazarının ortaya çıxması mümkün deyil. Digər tərəfdən, biz cəmiyyət olaraq, korporativ idarəetmə anlayışı ilə yeni-yeni tanış oluruq. Bu da daxili bazardan gələn tələb şəklində yox, qrant layihələrinin icrası sayəsində baş verir. Avropa Yenidənqurma və İnkişaf Bankının ölkəmizlə bağlı sərmayəyə kapital qoyuluşu strategiyası da belə tanışlıq baxımdan əhəmiyyət daşıyır. Orta və uzunmüddətli perspektivdə ölkədə ipoteka sistemini yerləşdirə bilsək, bu, qiymətli kağızlar bazarının inkişafına da öz töhfəsini verə bilər. Qiymətli kağızlar bazarının düzgün işləməsi və arzulanan miqyasa çatması şirkətlərimizin də mentalitet dəyişikliyini bərabərində gətirməlidir. Yəni sistemin yüksək həcmlərə çatması üçün şirkətlərin xalqa açıqlıq nisbətlərinin yüksək olması lazımdır. Bu isə şirkət idarəsində professionallaşma deməkdir. Lakin ailə-dost təəssüratları psixologiyasından qurtula bilməyən firmalarımız hələlik buna hazır deyillər.[235]

---

[235] "İlkin Sabiroğlu: "Önəmli olan vergi dərəcələrini aşağı salmaq deyil, optimal səviyyəyə gətirməkdir"", *"Həftə içi" qəzeti*, op. cit.

# İnhisar anlayışına yeni yanaşma

İnvestisiya mühitinə təsir göstərən əsas amillərdən biri də inhisar fəaliyyətini tənzimləyən qanunvericiliyin mövcudluğu və bu qanunların nə dərəcə tətbiq olunmasıdır. Ölkə iqtisadiyyatındakı inhisarçılığın qarşısını almaq məqsədilə mövcud qanunvericilik aktlarının bazasında vahid Antiinhisar Məcəlləsi hazırlanıb. Həmin sənəd hələlik parlament tərəfindən qəbul edilməyib. Qeyd edək ki, Azərbaycan Respublikasında antiinhisar qanunvericiliyi Azərbaycan Respublikası Konstitusiyasından, "Antiinhisar fəaliyyəti haqqında", "Təbii inhisarlar haqqında", "Haqsız rəqabət haqqında" Azərbaycan Respublikasının qanunlarından və digər normativ-hüquqi aktlardan ibarətdir.[236]

Azərbaycanda inhisar fəaliyyəti ilə bağlı qanunvericilik nəzərdən keçirildikdə hansısa ciddi qüsurların olduğunu söyləmək çətindir. Hətta ölkədə təbii inhisarlar haqqında qanun da mövcuddur. Amma ümumi müşahidələrimiz göstərir ki, ölkədə hələ də de-fakto olaraq inhisar anlayışına dünyada klassik sayıla biləcək yanaşma hakimdir. Maraqlı cəhət odur ki, istər inhisarçılıq fəaliyyətinə görə ittiham edilən şirkətlərin rəhbərləri, istərsə də ittiham edənlər məsləyə sadəcə bazar payı prizmasından yanaşırlar.

Artıq yeni iqtisadiyyatla birlikdə inhisar anlayışı da dəyişməkdədir. "Microsoft"un məşhur məhkəməsi yeni iqtisadiyyatda inhisarların yerinin nə olduğu mövzusunda maraqlı müzakirələrin də ortaya çıxmasına səbəb olmuşdu. Hər iki tərəfdən dünyanın nüfuzlu iqtisadçılarının məhkəmə prosesində iştirakı isə bu müzakirələri daha zövqlü bir hala gətirmişdi. İn-

---

[236] "Antiinhisar Fəaliyyəti Haqqında" Azərbaycan Respublikası Qanunu, *IqtisadNet*, http://www.iqtisad.net/qanunlar/0022.htm, (01.03.20060.

hisarlaşmanın yeni iqtisadiyyatda qaçılmaz bir proses olduğu və yeni iqtisadın özünə xas istehsal şərtlərinin inhisarlaşmanı qaçılmaz hala gətirdiyi bilinməkdədir. Bir yanaşmada, inhisarlaşmanın köhnə və yeni iqtisadla bağlı müzakirələrdən ayrı tutulmasının zəruriliyi, məşru (legitim) olmayan inhisarçı meyllərə dövlətin müdaxilə etməsinin lazım gəldiyi irəli sürülür. Digər bir yanaşmada isə, qanuni və iqtisadi platformalarda legitimlik məfhumunun özü də mübahisələrə açıq hala gətirilir.[237]

Klassik yanaşma ilə problemin içindən çıxmaq mümkün deyil. Məsələn, "Microsoft"un bir inhisar kimi marjinal maliyyət və marjinal hasilatın kəsişdiyi nöqtəyə uyğun gələn inhisar qiymətini tətbiq etmək əvəzinə, bunun altında bir "limit" qiymət tətbiq etdiyi qeyd olunurdu. Amma bu "limit" qiymət, marjinal maliyyət qiymətləndirməsinin də çox üzərində idi. Elə isə "Microsoft" inhisar sayılmalı idi, yoxsa yox? Hadisəyə artıq yeni yanaşma tələb olunurdu. "Sherman Anti-Trust Act"-in vətəni ABŞ-da artıq hər kəs anlamağa başlamışdı ki, inhisar hadisəsinə qiymət və bazar payı prizmasından yanaşma problemin həllində yetərli deyil.[238]

Azərbaycanda inhisarçılıqda ittiham edilən şirkətlərdən biri "Azpetrol"dur. Bir neçə ay əvvəl "Azpetrol"un prezidentinin "APA"ya müsahibəsi diqqətimizi cəlb etmişdi. Şirkət prezidentinin inhisar məsələsinə yanaşması maraqlı idi:[239]

"Ümumiyyətlə, inhisarçılıq bir termin olaraq mövcud bazarda hökmran mövqeyi tutan, istehlakçıya və ya bazara qiymət diktə edən subyektlərə aiddir. Ölkəmizdə yanacaq sürtgü materiallarının topdan və ya pərakəndə satış qiymətləri dövlət

---

[237] İlkin Sabiroğlu, "İnhisar anlayışına yeni yanaşma zərurəti", *"Gündəlik Azərbaycan" qəzeti*, 13 oktyabr 2005.

[238] Ibid.

[239] "Azpetrol" Şirkətlər Qrupu Prezidentinin "APA" İnformasiya Agentliyinə müsahibəsi, 9 iyul 2005, http://www.azpetrol.com/news.php, (01/03/2006).

tərəfindən müəyyənləşdirilir. Belə olan təqdirdə bizim qiymətləri tənzimləmək imkanlarımız məhduddur. Bundan əlavə, yanacaqdoldurma məntəqələrinin (YDM) sayına gəldikdə isə "Azpetrol" rəsmi statistikaya görə, ölkəmizdə fəaliyyət göstərən YDM-lərin cəmi 9 faizini təşkil edir. Amma paradoks ondan ibarətdir ki, bazarın cəmi 9 faizini əhatə edən şirkət ümumi yanacaq satışının 50 faizdən çoxunu həyata keçirir. Bu da öz növbəsində "Azpetrol"un şəffaflığı və müştərilərin bizə olan etibarının əlamətidir. Odur ki, hər hansı inhisarla əlaqədar iddiaları mən ciddi qəbul etmirəm."

İnhisarçılıqda ittiham edilən şirkətlərdən biri də "Azercell"-dir. Bir şirkət rəsmisi onların təbii inhisar olduğunu bəyan etmişdi. Daha sonra isə, rabitə və informasiya texnologiyaları naziri keçirdiyi bir mətbuat konfransında ""Azercell" inhisarçıdır, amma heç bir günahı yoxdur. "Telekommunikasiya haqqında" qanun qüvvəyə mindikdən sonra mobil danışıq sahəsində ədalətli rəqabət mühiti yaranacaqdır."[240] şəklindəki açıqlamaları mətbuatda yer aldı. Qeyd edək ki, iyun ayında həmin qanun da qəbul edildi. Lakin problemimiz qanundan çox, hadisəyə yanaşma tərzimizdədir.

"Azpetrol" nümunəsində qiymətlər dövlət tərəfindən müəyyənləşdirildiyi üçün şirkətin inhisar olub-olmadığına qərar vermək məqsədilə qiymət təhlillərinin aparılmasının (Lerner indeksinin tapılması, marjinal maliyyət və marjinal hasilat analizləri kimi) heç bir anlamı qalmır. "Azercell" isə təbii inhisar olduğundan bu təhlillər böyük ehtimalla "Microsoft" hadisəsində olduğu kimi nəticəsiz qalacaq.

Azərbaycanda inhisarla bağlı yanaşmalardakı ən böyük qüsur bu problemin əsasən bazar payı prizmasından ələ alınmasında axtarılmalıdır. Sadəcə bazar payı ilə bağlı təhlillərin apa-

---

[240] "Əli Abbasov: Azercell inhisarçıdır, amma heç bir günahı yoxdur", *XeberNet*, 9 iyul 2005, http://xeber.net/view.php?d=48671, (01.03.2006).

rılması (N firma təmərküzləşmə indeksinin və ya Herfindahl-Hirschman indeksinin hesablanması kimi) artıq kifayət eləmir. Əgər doğrudan da bir şirkət biznes fəaliyyətini daha mükəmməl quraraq bazarda üstünlüyü ələ keçirirsə, onu nədəsə günahlandırmaq iqtisadi məntiqə sığmaz. "Microsoft"un məhkəməsi bizə bir şeyi aydınlaşdırdı ki, bir şirkət bazar payının yüksək olmasına görə deyil, bu üstünlüyünü bazardakı sağlam rəqabəti əngəlləyib əngəlləmədiyinə görə inhisarçılıqda ittiham edilə bilər. Məsələn, xatırlayırsınızsa bir vaxtlar "Bakcell" danışıq qiymətlərini "Azercell"ə müqayisədə çox aşağı salmışdı. "Azercell" qiymət rəqabətinə girməmək üçün (qeyd edək ki, şirkətlər üçün ən ağır rəqabət şəkli qiymət rəqabəti sayılır) "Bakcell"ə təzyiqləri artırdı, həmin şəbəkədən öz şəbəkəsinə daxil olan zəngləri əngəllədi. Bu təzyiqlər "Azercell" üçün müsbət nəticə verdi və rəqabəti qiymət müstəvisindən xidmət müstəvisinə keçirməyi bacardı. Yeni antiinhisar anlayışı da məhz bu cür davranışlara qarşıdır.[241]

Bir müddət əvvəl isə, mətbuat vasitəsilə "Azərcell"in təsis etdiyi "Azeronline" provayderi ilə başqa internet provayderləri arasındakı mübahisələrə şahidlik etdik. 14 provayder "Azeronline"a qarşı texniki blokada tətbiq etmə qərarı almışdı. Blokadaya səbəb kimi isə, "Azeronline" provayderinin "Azercell"in imkanlarından istifadə etməsi göstərilirdi.[242]

Əslində "Azeronline" provayderinin "Azercell"in imkanlarından istifadə etməklə haqsız rəqabət üstünlüyü əldə etməsi istər antiinhisar qanunvericiliyinə, istərsə də inhisar anlayışı ilə bağlı dünyadakı yeni yanaşmalara zidd idi. Bununla bağlı kifayət qədər nümunə saymaq mümkündür. Məsələn, elə bu yaxınlarda Cənubi Koreyanın rəqabət qurumu, "Microsoft"u rəqabət şərtlərini pozduğuna görə 32 milyon dollar cərimə elə-

---

[241] İlkin Sabiroğlu, "İnhisar anlayışına yeni yanaşma zərurəti", op. cit.

[242] "Ölkənin İnternet məkanı absurda səhnə olub", *"Ekspress" qəzeti*, 9 dekabr 2005, http://www.express.com.az/second.asp?id=58724, (01.03.2006).

di. Səbəb olaraq da, bazardakı hakim mövqeyindən haqsız rəqabət üstünlüyü əldə etmək üçün yaralanması göstərildi. Rəqabət qurumunun tələbinə görə, "Microsoft" bundan belə "Windows XP" əməliyyat sistemindən "MSN Messenger" söhbət proqramını çıxarmalıdır. Bunun üçün "Microsoft"a 180 gün vaxt verilib. Şirkət, 6 aydan sonra "Messenger" və "Media Player" proqramlarını ehtiva edən və etməyən iki ayrı "Windows" əməliyyat sistemlərini müştərilərinə ayrı-ayrılıqda təqdim etməlidir.[243]

"Azeronline" kartı alanlara "Sim-Sim" kartının verilməsi düzgün yanaşma deyildi. "Azeronline" internet xidmətlərini istədiyi qədər ucuzlaşdıra bilər, müstəqil qiymət siyasəti yürütmə haqqına sahibdir. Lakin bu provayder "Azercell"in mobil rabitə bazarındakı imkanlarından istifadə edərək internet xidmətləri bazarında haqsız rəqabətə rəvac verməməlidir. Digər 14 provayderin səhvi isə, bir yanlışlığa başqa bir yanlışlıqla cavab vermələridir. Onlar çözümü blokadada deyil, hüquq müstəvisində axtarmalı idilər.

Qısası, Antiinhisar Siyasəti Departamentinə çox iş düşür. İki gündən bir şirkətlərin bazardakı paylarını göstərən siyahılar hazırlayıb cəmiyyətə təqdim etməklə məsələ yekunlaşmır. Departament inhisar kimi təqdim olunan şirkətlərin bazardakı üstün mövqelərini sağlam rəqabət şərtlərində qazanıb-qazanmadıqlarını, bu üstün mövqelərindən istifadə edərək sağlam rəqabəti əngəlləyib-əngəlləmədiklərini araşdırıb ortaya qoymalı və əgər belə hallar varsa zəruri tədbirləri görmək üçün fəaliyyətə keçməlidir.

---

[243] "G.Kore'den Microsoft'a rekabet cezası", *NTVMSNBC*, 20 dekabr 2005, http://www.ntvmsnbc.com/news/352867.asp, (01.03.2006).

# Korrupsiyanın mənbəyi və həlli yolları

ABŞ Dövlət Departamentinin yuxarıda bəhs edilən bəyanatında bildirilir ki, Azərbaycanın iqtisadi inkişafına maneçilik törədən əsas amillərdən biri də korrupsiyadır. Bu amil həmçinin investisiyaların cəlbinə mane olan amillərdən biridir və özünü xüsusən qeyri-enerji sektorunda büruzə verir. Lakin antikorrupsiya tədbirləri ilə bağlı qanunlar və sərəncamlar səmərəli şəkildə həyata keçirilmir və 2005-ci ilin yanvarda yeni qanun qüvvəyə minsə də, Azərbaycan bu qanunun icrasında hələ əhəmiyyətli nailiyyətlər əldə etməyib.[244]

"Transparency International" ictimai təşkilatının dünya ölkələrində korrupsiyanın səviyyəsinə dair yeni reytinq cədvəlində Azərbaycanın 137-ci olması xəbəri də bir müddət əvvəl əksər mətbu orqanlarda yer aldı.[245] Əslində isə Azərbaycanın neçənci yerdə olmasına baxaraq məsələnin mahiyyətinə varmaq çətindir. Azərbaycan 1999-cu ildə 99 ölkə arasında 96-cı, 2000-də 90 ölkə arasında 87-ci, 2001-də 91 ölkə arasında 84-cü, 2002-də 102 ölkə arasında 95-ci, 2003-də 133 ölkə arasında 125-ci, 2004-də 145 ölkə arasında 140-cı və 2005-də 158 ölkə arasında 137-ci yerdə olub. Amma cədvəldə ölkələrin sayı mütəmadi dəyişdiyi üçün yuxarıdakı rəqəmlərə baxıb ölkədə korrupsiyanın səviyyəsinin artdığını, yoxsa azaldığını müəyyən etmək mümkün deyil.[246]

---

[244] "İnvestisiya Mühiti", *Azərbaycanda İnvestisiyalarin Təşviqi və Məsləhət Fondu*, http://www.azerinvest.com/az/invopp.php?pg=investmentclimate, (01.03.2006).
[245] Corruption Perceptions Index 2005, *Transparency International*, http://www.transparency.org/policy_and_research/surveys_indices/cpi/2005, (01.03.2006).
[246] Global Corruption Reports, *Transparency International*, http://www.transparency.org/publications/gcr, (01.03.2006).

Bunun üçün korrupsiya indeksi adlandırılan Korrupsiya Qavrama İndeksinə (Corruption Perceptions Index – CPI) baxmaq lazımdır. Korrupsiya indeksinə görə dəyərləndirmədə ən yaxşı vəziyyətdə olan ölkə 10 xal, ən pis vəziyyətdə olan ölkə isə 0 xal alır. Burada hər bir xal xüsusi əhəmiyyət kəsb edir. Məsələn, "Transparency International"ın hesablamasına görə, korrupsiya səviyyəsinin 1 xal artması (yəni korrupsiya indeksinin 1 xal azalması) ölkəyə xarici investisiya daxilolmalarını 11 faiz azaldır. Korrupsiya səviyyəsinin artması dövlətə və əxlaqi dəyərlərə olan etimadı azaltdığı kimi, korrupsiya indeksinin 1 xal azalması iqtisadiyyat üzərində vergi dərəcələrinin 3,6 faiz artmasına bərabər neqativ effekt yaradır.

Azərbaycanın illər üzrə korrupsiya indeksi dəyərləri belədir: 1999-cu ildə 1,7; 2000-də 1,5; 2001-də 2,0; 2002-də 2,0; 2003-də 1,8; 2004-də 1,9 və 2005-də 2,2. Göründüyü kimi, təşkilatın hesabatlarına görə, Azərbaycanda korrupsiyanın ən yüksək səviyyəsi 2000-ci ildə (1,5), ən aşağı səviyyəsi isə bu il (2,2) gerçəkləşib. Korrupsiyanın səviyyəsi bu il nisbətən azalsa da, son 7 ilin ən aşağı dəyəri ilə ən yüksək dəyəri arasında yalnız 0,7 xal, yəni 1 xaldan belə az fərqin olması korrupsiya məsələsində yerimizdə saydığımızı göstərir.[247]

Cənubi Qafqaz respublikaları arasında korrupsiyanın səviyyəsi nisbətən Ermənistanda aşağı olsa da, illər üzrə indeks dəyərləri Ermənistanın da yerində saydığını göstərir. Ən maraqlısı isə odur ki, son beynəlxalq hesabatlarda hakimiyyət dəyişikliyindən sonra Gürcüstanda insan haqları və demokratiya məsələlərində geriləmələrin müşahidə olunduğu göstərildiyi halda, yeni hökumətin ciddi şəkildə korrupsiya ilə mübarizəyə girişdiyi qeyd olunur. Lakin "Transparency International"ın hesabatı Gürcüstanın korrupsiya reytinq cədvəlində də Azər-

---

[247] Ibid.

baycanla "yaxın qonşuluq münasibətləri"ni saxladığını ortaya qoyur.[248]

"Transparency International"ın hesabatlarında 1999-cu ildən bu yana Ukraynanın da indeks dəyərlərinə nəzər saldıq. Ukrayna üçün ən aşağı indeks dəyəri (2001-də 2,1) ilə ən yüksək indeks dəyəri (1999 və 2005-dəki 2,6 dəyəri) arasında cəmi 0,5 xal fərqinin olması bu ölkənin də yerində saydığını göstərir.[249]

Ən diqqətçəkici məqamlardan biri də Türkiyə ilə bağlıdır. 1998-ci ildən bu yana bu ölkədə bir sıra hakimiyyət dəyişiklikləri, iqtisadi böhran və sürətli iqtisadi islahatlara baxmayaraq, Türkiyə də korrupsiya məsələsində yerində sayır: son 8 ilin ən aşağı və yüksək indeks dəyərləri arasında cəmi 0,7 xal fərqi var.

Bu müqayisələr səbəbsiz deyil. Demək istəyirik ki, ümumi qənaətin əksinə korrupsiyanın mənbəyi siyasi hakimiyyət deyil, bürokratiyadır. Yəni iqtisadi münasibətlərin inkişaf səviyyəsi və toplumun mentaliteti dəyişmədikcə, bürokratiyanın da keyfiyyətcə dəyişməsi mümkün olmadığından neçə hakimiyyət dəyişirsə dəyişsin, korrupsiyanın kökünü kəsmək mümkün deyil. Bir kərə xəstəliyin diaqnozunu düzgün müəyyənləşdirmək lazımdır ki, həlli yollarında yanılmayaq.

Korrupsiyanın mənbəyini düzgün müəyyənləşdirə biləcəyimiz təqdirdə elektron dövlət (e-dövlət, e-hökumət) proqramının korrupsiya probleminin həllində oynaya biləcəyi rolu anlayacağıq. Məhz dövlətin elektronlaşma nisbəti artdıqca korrupsiya səviyyəsi də aşağı düşür. Təsadüfi deyil ki, "The Economist" qrupunun biznes informasiya qolu olan "The Economist Intelligence Unit" tərəfindən yenicə hazırlanan "The 2005

---

[248] İlkin Sabiroğlu, "Korrupsiyanın mənbəyi və həlli yolları", *"Gündəlik Azərbaycan" qəzeti*, 6 yanvar 2006.

[249] Ibid.

e-readiness rankings" cədvəlində[250] liderlik edən Finlandiya, Danimarka kimi ölkələr "Transparency International"ın hesabatında da korrupsiyanın azlığına görə liderlik edir. Daha çox elektronlaşma daha çox şəffaflıq və daha az korrupsiya deməkdir. Korrupsiyanın azalmasını istəyiriksə, keçən ilin oktyabr ayında ölkə prezidenti tərəfindən təsdiq edilən "Elektron Azərbaycan" proqramına cəmiyyətin və medianın laqeyd münasibəti aradan qalxmalıdır.

"Transparency International" korrupsiya üzrə reytinq cədvəlini analitiklər və sahibkarlar arasında keçirilən sorğunun nəticələrinə əsasən hazırlayır. Korrupsiya əslində medalın bir üzünün təsviridir. Medalın digər üzündə isə iqtisadi azadlıqlar dayanır. Aydındır ki, iqtisadi azadlıqların yüksək səviyyədə təmin edildiyi ölkələrdə sahibkarların rəyi əsasında hazırlanan korrupsiya səviyyəsi də aşağı olacaq. Ona görə də hər il Dünya Bankı tərəfindən açıqlanan "Doing Business" illik hesabatına baxaraq daha sonradan açıqlanacaq olan "Transparency International"ın hesabatında hər ölkənin mövqeyini təqribən müəyyənləşdirə bilərsiniz. Həmin hesabatda da Azərbaycanla Gürcüstan "yaxın qonşu" ikən Ermənistan nisbətən daha yaxşı vəziyyətdə idi. Elə isə korrupsiya ilə mübarizənin ikinci istiqaməti iqtisadi azadlıqların təmin edilməsinə fokuslanmalıdır.

Korrupsiyaya qarşı mübarizədə ən əsas iş hər bir vətəndaşın bu məsələdə öz məsuliyyətini dərk etməsidir. İslama görə, Allah insanı torpaqdan yaradarkən "ol" dedi və insan yarandı. Biz sanki hər məsələdə öz məsuliyyətimizi unudub kimdənsə "ol" əmri gözləyirik. Azərbaycanın bütün problemlərinin səbəbkarı kimi də siyasi hakimiyyəti görürük. Siyasi hakimiyyət bircə "ol" əmrini versə, guya bütün problemlərimiz həll olunacaqmış. Belə fikirləşmək bizi rahatladır, çünki mövcud prob-

---

[250] "The 2005 e-readiness rankings", *The Economist Intelligence Unit*, http://graphics.eiu.com/files/ad_pdfs/2005Ereadiness_Ranking_WP.pdf, (01/03/2006).

lemlərə görə vətəndaş və cəmiyyət olaraq sanki özümüz məsuliyyət daşımırıq.

Konkret olaraq korrupsiya məsələsində də bənzər situasiya ilə üz-üzəyik. Halbuki hakimiyyət korrupsiyaya qarşı mübarizə haqqında qanunu, korrupsiyaya qarşı mübarizə üzrə dövlət proqramını, elektron Azərbaycan proqramını və s. qəbul etməklə artıq "ol" əmrini verib, indi vətəndaş və cəmiyyət olaraq bizim də "olsun" deməyimiz lazımdır ki, problemlərimiz çözülsün. Əks təqdirdə korrupsiya məsələsini "milli mentalitet"lə bağlı problem kimi ələ almaqla labirintdən çıxmamız mümkün deyil.

Qloballaşma əleyhdarlarının məşhur suallarından biri vaxtilə "Ümumi Avropa Bazarı" başqanı olduğu dövrdə Delors tərəfindən səsləndirilmişdi: "Bizim öz ənənələrimizi qorumağa haqqımız varmı?" Əslində bir sıra ölkələrdə də korrupsiya artıq "ənənə" halını alıb və onlar belə bir tarixi "ənənə"ni aradan qaldırmaqda tərəddüd edirlər.[251]

Qloballaşmanın zəruri və alternativsiz olduğunu əsaslandırmağa çalışan Alvin Toffler, Peter Drucker kimi tanınmış futuroloqlar xeyli müddətdir ki, dünyanın çox ciddi inqilabi xarakterli dəyişikliklərin içərisindən keçdiyini bəyan edirlər. Alvin Toffler özünün populyar olan "Üç Dalğa Nəzəriyyəsi"ndə dünyanın inkişafını üç mərhələ şəklində ələ alır və hər mərhələni "dalğa" olaraq adlandırır. Birinci dalğanın əkinçilik inqilabı ilə yadda qaldığını göstərən müəllif, ikinci dalğanın da sənaye inqilabı ilə məşhurlaşdığını qeyd edir. Hər dalğa özünün ümumi bir mədəniyyətini də formalaşdırmışdır. Bu gün adi hal kimi qarşıladığımız standartlaşma, ixtisaslaşma, bürokratiya da ikinci dalğanın məhsuludur. Keçən əsrin ikinci yarı-

---

[251] Ilkin Sabiroglu, "The problem of globalization and corruption", Azerbaijan Bulletin No:31 (285), 2 avqust 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200108/0010.html, (01.03.2006).

sından etibarən isə dünyada Amerikanın liderliyində üçüncü dalğanın - informasiya çağının təməli qoyulmuşdur. Üçüncü dalğa da siyasətdə, iqtisadiyyatda, ailə münasibətlərində və hətta günlük həyat tərzində özünə xas olan köklü dəyişikliklərə səbəb olmaqdadır. Bu gün ABŞ-da işləyənlərin böyük əksəriyyətini "informasiya işçiləri" təşkil edir. İnternet, kompüter texnologiyası sayəsində bu gün milyonlarca amerikalı artıq işə getmədən evdə çalışır. Qeyd edək ki, azərbaycanlıların da xeyli hissəsinin işə getmədən evdə oturmasına baxmayaraq amerikalılardan fərqli olaraq onlar çalışmağa iş yeri tapa bilmirlər.[252]

Ümumiyyətlə Azərbaycan bu dalğaların harasında yer alır? Bu gün kənd təsərrüfatının, aqrar sektorun inkişafı ilə bağlı mövcud problemlər Azərbaycanın birinci dalğanın nemətlərindən tam yararlana bilməsinə imkan verməsə də, ölkə ikinci dalğanın ortaya çıxardığı bürokratiyanın korrupsiya kimi "nemət"lərindən ifrat dərəcədə yararlanır. Üçüncü dalğa isə Azərbaycan üçün hələ çox-çox uzaqdadır. Məsələn, Azərbaycanın öndə gedən universitetləri binalarını təmir elətdirir, pəncərə-qapılarını dəyişdirirlərsə, üçüncü dalğanı yaşayan ölkələrdə artıq ənənəvi universitet binalarına olan tələbat azalmaqdadır. Çünki bu ölkələrdə adi və orta təhsilin internet üzəridən tədrisi sürətlə yayılmaqdadır.[253]

Yuxarıda adını çəkdiyim futuroloqlar gələcəkdə bürokratiyanın öz yerini "adhokratiya"ya verəcəyini söyləyirlər. Bunlara görə "adhokratiya"da bürokratik əngəllər, yubadılmalar, sənəd-kağız işləri minimuma endiriləcək və bir işin görülməsi üçün lazım olan müddət dəfələrlə azaldılacaq. "Adhokratiya"-ya gedən yol isə "Elektron-dövlət"dən keçir.

---

[252] Ibid.

[253] Ibid.

# ƏDƏBİYYAT


- "3 çocuğa büyük ceza", *"Milliyet" qəzeti*, 21 sentyabr 2004, http://www.milliyet.com.tr/2004/09/21/yasam/yas11.html, (01.03.2006).
- "AB, Fransa'daki referanduma kilitlendi", http://www.ntvmsnbc.com/news/325639.asp, 28 may 2005, (01.03.2006).
- Abraham Maslow, *Personality Theories*, http://www.ship.edu/~cgboeree/maslow.html, (01.03.2006).
- Alfred Meusel, *Middle Class*, Encyclopadia of the Social Science, Cild XI-X, Macmillan, New York, 1957.
- Alvin Toffler, *Üçüncü Dalga*, Türkcəyə tərcümə: A. Seden, Altın Yayınları, İstanbul, 1996.
- "Antiinhisar Fəaliyyəti Haqqında" Azərbaycan Respublikası Qanunu, *IqtisadNet*, http://www.iqtisad.net/qanunlar/0022.htm, (01.03.20060.
- "Avropa Birliyi Konstitusiyası", http://www.iqtisad.net/forum/ viewtopic.php?t=4, 29 may 2005, (22.01.2006).
- Avropa Ekspertiza Xidməti (TACIC), *Azərbaycanın İqtisadi İcmalı 2000*, Bakı.
- Azer Ağayev, "Azerbaycan'da Bankaçılık", *Soydaş Politik-Ekonomik-Sosyal Dergi*, Cilt:I, No.1, Ankara, 1997.
- "Azerbaijan - 2006 Investment Climate Statement", U.S. Department of State, 1 mart 2006, http://www.state.gov/e/eb/ifd/2006/62315.htm, (01.03.2006).
- "Azərbaycan Boloniya prosesinə qoşulub", *APA*, 24 may 2005.
- Azərbaycan Milli Bankı (AMB), *İllik Hesabat 2001*, Bakı, 2002.
- "Azərbaycan Respublikası Milli Bankının 2006-ci il üçün pul siyasətinin əsas istiqamətləri barədə bəyanatı", *Azərbaycan Milli Bankı*, www.nba.az/ download/Pul_siyaseti/istiqamet/2006.pdf, (01.03.2006).
- "Azərbaycan Respublikası Milli Bankının 2004-cü il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri və 2005-2006-cı illər üçün prioritet vəzifələri barədə bəyanatı", *Azərbaycan Milli Bankı*, http://nba.az/ download/ Pul_siyaseti/veziyyet/2004_beyanat.pdf, (01.03.2006).

– Azərbaycan Respublikası Vergilər Nazirliyi, *Azərbaycan Respublikasının Vergi Məcəlləsi*, http://www.taxes.gov.az.

– "Azərbaycan Respublikasının Milli Bankı haqqında Azərbaycan Respublikasının qanunu", *Azərbaycan Milli Bankı*, http://nba.az/?mod=inside&id=70&lang=az&sub1=128, (01.03.2006).

– Azərbaycan Respublikasının Konstitusiyası, Maddə 59., *Azərbaycan Respublikasının Milli Məclisi*, http://www.meclis.gov.az.

– "Azərbaycanda da "OKA" avtomobillərinin istehsalı dayandırılır", *Trend*, 9 fevral 2006.

– "Azərbaycanda güclü sənaye kompleksi yaradılacaqdır", *AzərTAc*, 21 fevral 2006.

– "Azərbaycanda İnformasiya Texnologiyaları Universitetinin yaradılması ilə bağlı müzakirələr aparılıb", *APA*, 1 dekabr 2005.

– "Azərbaycanda qadınlar", *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi*, 3 mart 2006, http://www.azstat.org/indexaz.php?id=308.

– "Azərbaycanın Yeni Neft Strategiyası", *Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*, http://www.socar.gov.az/oilmen.php?define=oil_strategy&id=1, (10.02.2006).

– "Azərbaycanın xarici dövlət borcu 1,515 mlrd. dollar həcmindədir", *"Üç Nöqtə" qəzeti*, №250 (977),.24 dekabr 2004.

– "Azərbaycanın Yeni Neft Strategiyası", *Azərbaycan Respublikası Dövlət Neft Şirkəti*, http://www.socar.gov.az/oilmen.php?define=oil_strategy&id=1, (10.02.2006).

– Ayn Rand, *Kapitalizm: Bilinmeyen İdeal*, Türkcəyə tərcümə: Nejdet Kandemir, Plato Film Yayınları, İstanbul, 2004.

– "Azpetrol" Şirkətlər Qrupu Prezidentinin "APA" İnformasiya Agentliyinə müsahibəsi, 9 iyul 2005, http://www.azpetrol.com/news.php, (01/03/2006).

– "Bəhruz Məmmədli: "Bu il çox ciddi inflyasiya təzyiqləri ilə üzləşəcəyik"", *"Həftə içi" qəzeti*, 24 fevral 2006.

– Bologna Process, http://www.bologna-bergen2005.no (01.03.2006)

– Burcu Ergezer, "Arnavutluk'ta Banker Krizi", *USAG-Uluslararası Stratejik Araştırmalar Grubu Dergisi*, Sayı:5, Ankara, 1997.

– “BVF nəyi tövsiyə edir?”, *IqtisadNet*, 22 yanvar 2006, http://www.iqtisad.net/xeberler/00165.htm, (01.03.2006).

– Carl Shapiro and Hal R. Varian, *Information Rules*, Harvard Business School Press, Cambridge, 1999.

– Corruption Perceptions Index 2005, *Transparency International*, http://www.transparency.org/policy_and_research/surveys_indices/cpi/2005, (01.03.2006).

– David Filkin, *Stephen Hawking'in Evreni*, BBC Books, Aksoy Yayıncılık, Dekabr 1998.

– David Lane, “What kind of capitalism for Russia? A comparative analysis”, *Communist and Post-Communist Studies*, №33, 2000.

– Derek Lobley, *Ekonomi,* M.E.B, Özgün Matbaacılık, Ankara, 1995.

– Doing Business in 2005, The World Bank, http://rru.worldbank.org/Documents/DoingBusiness/2004/DB2004-full-report.pdf, (01.03.2006).

– Don Tapscott, *The Digital Economy*, Mc Graw Hill, New York, 1996.

– Doug Aldrich və Patrick Mc Hugh, “Content Crisis” Information Strategy, Sentyabr 1997.

– Entrepreneurship Support, *“Sahibkarlıq Fəaliyyəti Haqqında” Azərbaycan Respublikasının Qanunu*, http://www.sahibkar.biz.

– Ercan Eren, “İktisatta Liberalizm Üzerine Notlar”, *Yeni Türkiye*, Yanvar-Fevral 1999, http://www.ikt.yildiz.edu.tr/eren/liberal.pdf. (01.03.2006).

– Ercan Eren, “Leon Walras ve “Bilimsel” Sosyalizm Anlayışı”, *Maliye Yazıları*, Mart-İyun 1989, http://www.ikt.yildiz.edu.tr/eren/walras.pdf. (01.03.2006)

– Erol Manisalı, *Dünyada ve Türkiye'de Büyük Sermaye*, Derin Yayınları, 3-cü nəşr, İstanbul, 2002.

– Ervin Apathy, Istvan Csillag və digərləri, *Doğu Avrupa'da Özelleştirme*, Tərcümə: Tarık Demirkan, Yapı Kredi Yayınları, İstanbul, 1995.

– Etienne Balibar, Immanuel Wallerstein, *Irk Ulus Sınıf*, Tərcümə: Nazlı Ökten, Metis Yayınları, İstanbul, 2000.

– Əfsun Ələkbər, “Dünya İqtisadi Böhranı niyə baş vermir?”, *“Gündəlik Azərbaycan” qəzeti*, 14 dekabr 2005.

– Əkbər Eldaroğlu, "Hökumət yüngül sənayenin dirçəldilməsi yollarını axtarırmı?", AMDF, *"Azərbaycan" Bülleteni,* №20 (140), 17 May 2001.

– "Əli Abbasov: Azercell inhisarçıdır, amma heç bir günahı yoxdur", *XeberNet*, 9 iyul 2005, http://xeber.net/view.php?d=48671, (01.03.2006).

– Frederic Bastiat, *Hukuk*, Tərcümə: Yıldıray Arsan, LiberteYayınları, Ankara, 2003.

– "Gələn ildən əmanətlər qaytarılacaq", *"Ekspress" qəzeti*, 3 sentyabr 2005.

– "G.Kore'den Microsoft'a rekabet cezası", *NTVMSNBC*, 20 dekabr 2005, http://www.ntvmsnbc.com/news/352867.asp, (01.03.2006).

– Global Corruption Reports, *Transparency International*, http://www.transparency.org/publications/gcr, (01.03.2006).

– Gülnarə Sultanova, *Azərbaycan Demokratik Respublikasının Dövlətçilik Fəaliyyəti*, http://www.uludil.gen.az/adr/3.php, (01.03.2006).

– "Green Paper: Entrepreneurship in Europe", *Commission of The European Communities*, Brussel, 21.01.2003. http://europa.eu.int/comm/enterprise/entrepreneurship/green_paper/green_paper_final_en.pdf, (01.03.2006).

– H. F. Cəfərov, "Azərbaycanda ibtidai icma quruluşu", *Azərbaycan Tarixi*, Redaktə: Z. M. Bünyadov və Y. B. Yusifov, Azərnəşr, Bakı, 1994.

– Halil Seyidoğlu, *Uluslararası İktisat*, M.E.B, Kurtiş Matbaası, 13-cü nəşr, İstanbul, 1999.

– "Heydər Babayev: Bu gün dünyanın aparıcı sərmayəçilərinin Azərbaycanın iqtisadiyyatına marağı son dərəcə dərəcə böyükdür", *Trend*, 8 dekabr 2005.

– Hikmət A.Hacızadə, "Demokratiya: Gediləsi Uzun bir Yol", Demokratiya və Antidemokratiya Antologiyası, FAR CENTRE, Bakı, 2001.

– Human development indicators, *United Nations Development Programme*, http://hdr.undp.org/reports/global/2005/pdf/HDR05_HDI.pdf.

– IFC - International Finance Corporation, *Lizinq Azərbaycanda*, http://www.ifc.org/ifcext/aldp.nsf/AttachmentsByTitle/LeasingAzeriBrochure/$FILE/leasing-azerbaijan.pdf, May 2004.

– Ilkin Sabiroglu, "Azerbaijan has very limited possibilities of using macroeconomic political means", Azerbaijan Bulletin No:10 (264), 8 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200103/0023.html, (01.03.2006).

- Ilkin Sabiroglu, "Currency control and capital flow", Azerbaijan Bulletin No:21 (275), 24 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200105/0055.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "Does the condition of investment exist in Azerbaijan?", Azerbaijan Bulletin No:33 (287), 16 avqust 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200106/0019.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "How long will the critical stage of transition period continue in Azerbaijan?", Azerbaijan Bulletin No:09 (263), 1 mart 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200103/0000.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "Investments should be encouraged", Azerbaijan Bulletin No:23 (277), 7 iyun 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200106/0019.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "Locomotive sector", Azerbaijan Bulletin No:24 (278), 14 iyun 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/ 200106/0032.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "Oil Crisis and the Holland Syndrome", *The Times of Central Asia*, 11 may 2001, http://www.times.kg.
- Ilkin Sabiroglu, "The problem of constancy at the Azerbaijani economy", Azerbaijan Bulletin No:28 (282), 12 iyul 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200107/0017.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "The problem of globalization and corruption", Azerbaijan Bulletin No:31 (285), 2 avqust 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200108/0010.html, (01.03.2006).
- Ilkin Sabiroglu, "What form of capitalism will be formed in Azerbaijan as a result of privatization?", Azerbaijan Bulletin No:15 (269), 12 aprel 2001, ANDF, http://www.eurasianet.org/resource/azerbaijan/hypermail/200104/0030.html, (01.03.2006).
- İlkin Sabiroğlu, "Azərbaycan uzunömürlülər diyarıdırmı?", *IqtisadNet*, 14 yanvar 2005, http://www.iqtisad.net/is020.htm, (01.03.2006).
- İlkin Sabiroğlu, "Azərbaycanda "Holland sindromu" yarana bilərmi?", *"Gündəlik Azərbaycan" qəzeti*, 16 dekabr 2005.

– İlkin Sabiroğlu, "Azerbaycan'da Uygulanan Ekonomik İstikrar Programının Özellikleri", *Soydaş Politik-Ekonomik-Sosyal Dergi*, Cilt:I, No.1, Ankara, 1997.

– İlkin Sabiroğlu, "Bankların Süqutu", *"Yeni Müsavat" qəzeti*, 14 sentyabr 2003.

– İlkin Sabiroğlu, "Bizdə Milli Burjuaziya varmı?", *"Hürriyyət" qəzeti*, 31 iyul 2003.

– "İlkin Sabiroğlu: "Bizdəki ipoteka sistemi heç 2000 adamı da evlə təmin edə bilməyəcək"", *"Gündəlik Azərbaycan" qəzeti*, 23 avqust 2005.

– İlkin Sabiroğlu, "Bölgüyə fokuslanmış toplumlar", *IqtisadNet*, 9 fevral 2005, http://www.iqtisad.net/is021.htm, (01.03.2006).

– İlkin Sabiroğlu, "Çörəyin qiymətini necə ucuzlaşdırmaq olar?", *IqtisadNet*, 9 mart 2004, http://www.iqtisad.net/is009.htm, (01.03.2006).

– İlkin Sabiroğlu, "Dinamizmi boğulan cəmiyyət", *"Yeni Müsavat" qəzeti*, 28 sentyabr 2003.

– İlkin Sabiroğlu: "Dollar niyə ucuzlaşdı? Spekulyasiya, yoxsa ..?", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 20 sentyabbr 2005.

– İlkin Sabiroğlu, "Dünyanın ən yaxşı 500 universiteti", *"Gündəlik Azərbaycan" qəzeti*, 28 oktyabr 2005.

– İlkin Sabiroğlu, "Əhalinin artımı tənzimlənməli, amma necə?", *IqtisadNet*, 22 sentyabr 2004, http://www.iqtisad.net/is019.htm, (01.03.2006).

– İlkin Sabiroğlu, "Əmanətlər qaytarılacaq?", *"Gündəlik Azərbaycan" qəzeti*, 15 sentyabr 2005.

– İlkin Sabiroğlu, "Hamı yerli mal alsın! Xeyir Vətənə qalsın!", *"Gündəlik Azərbaycan" qəzeti*, 16 avqust 2005.

– İlkin Sabiroğlu, "İKT üzrə universiteti zəruri edən nədir?", *"Gündəlik Azərbaycan" qəzeti*, 13 dekabr 2005.

– İlkin Sabiroğlu, "İqtisadi paradiqmalar dəyişir?!", *IqtisadNet*, 25 mart 2004, http://www.iqtisad.net/is010.htm, (01.03.2006).

– İlkin Sabiroğlu, "İqtisadi sərbəstliklər mücərrəd anlayış deyil", *"Gündəlik Azərbaycan" qəzeti*, 1 oktyabr 2005.

– İlkin Sabiroğlu, "İnhisar anlayışına yeni yanaşma zərurəti", *"Gündəlik Azərbaycan" qəzeti*, 13 oktyabr 2005.

- İlkin Sabiroğlu, "İnqilablar dünyanı kiçildir", *"Gündəlik Azərbaycan" qəzeti*, 3 dekabr 2005.
- İlkin Sabiroğlu, "İnsanın kəşfi", *"Gündəlik Azərbaycan" qəzeti*, 7 dekabr 2005.
- İlkin Sabiroğlu, "Kapitalizm kapitalizmə bənzəməz", *"Sənət" qəzeti*, 17 iyun 2005.
- İlkin Sabiroğlu, "Keçid Dövrü bitdimi?", *"Gündəlik Azərbaycan" qəzeti*, 2 avqust 2005.
- İlkin Sabiroğlu, "Kiçik və Orta Sahibkarlığın Əhəmiyyəti", *IqtisadNet*, http://www.iqtisad.net/is016.htm, 2 iyul 2004, (01.03.2006).
- İlkin Sabiroğlu, "Korrupsiyanın mənbəyi və həlli yolları", *"Gündəlik Azərbaycan" qəzeti*, 6 yanvar 2006.
- İlkin Sabiroğlu, "Qaytarılmayan əmanətlər və formalaşmayan burjuaziya", *"Yeni Müsavat" qəzeti*, 10 avqust 2003.
- "İlkin Sabiroğlu, "Manat daha nə qədər möhkəmlənəcək?", *"Gündəlik Azərbaycan" qəzeti*, 6 sentyabr 2005.
- İlkin Sabiroğlu, "Midiya Yağı: Yüz il əvvəl yüz il sonra", *IqtisadNet*, 13 mart 2005, http://www.iqtisad.net/is022.htm, (01.03.2006).
- İlkin Sabiroğlu, "Milli Burjuaziya niyə formalaşa bilmədi?", *IqtisadNet*, 26 may 2004, http://www.iqtisad.net/is015.htm, (01.03.2006).
- İlkin Sabiroğlu: "Neft gəlirləri gələcək nəsillərə qalsın, bəs indiki nəsil nə olsun?", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 8 oktyabr 2005.
- "İlkin Sabiroğlu: "Önəmli olan vergi dərəcələrini aşağı salmaq deyil, optimal səviyyəyə gətirməkdir"", *"Həftə içi" qəzeti*, 27 dekabr 2005.
- İlkin Sabiroğlu, "Üfüqdə "inqilab" görünmür", *"525-ci qəzet"*, 4 may 2005.
- İlkin Sabiroğlu: "Yanacağın bahalaşması daha ciddi çətinliklər yaradacaq", Müsahibə, *"Gündəlik Azərbaycan" qəzeti*, 10 yanvar 2006.
- İlkin Sabiroğlu, "Yanlış olanlar nədir?", *"Yeni Müsavat" qəzeti*, 14 avqust 2003.
- İlkin Sabiroğlu, "Yeni dönəmin yeni sualı", *"Yeni Müsavat" qəzeti*, 28 avqust 2003.
- İlkin Sabiroğlu, "Yeni iqtisadiyyat ilə "köhnə iqtisadiyyat"ın fərqi", *IqtisadNet*, 4 aprel 2004, http://www.iqtisad.net/is011.htm, (01.03.2006).

– İlkin Sabiroğlu, "Valyuta məzənnəsi və ÜDM artımı", *IqtisadNet*, 19 aprel 2004, http://www.iqtisad.net/is012.htm, (01.03.2006).

– İlkin Sabiroğlunun "Qərb neft şirkətləri və Azərbaycanda demokratiya" mövzusuna həsr olunmuş mətbuat konfransındakı məruzəsindən, 19 sentyabr 2003, http://www.iqtisad.net/is007.htm, (01.03.2006).

– "İnvestisiya Mühiti", *Azərbaycanda İnvestisiyalarin Təşviqi və Məsləhət Fondu*, http://www.azerinvest.com/az/invopp.php?pg=investmentclimate, (01.03.2006).

– "İpoteka Haqqında" Azərbaycan Respublikasının Qanunu, *Azərbaycan Respublikası Milli Bankı*, 15 aprel 2005, http://www.nba.az/?mod= inside&id= 490&sub1=492&sub2=513, (01.03.2006).

– "İpoteka Fondunun kotirovka dərəcəsi müəyyən olundu", *Azərbaycan Respublikası Milli Bankı*, 13 fevral 2005, http://www.nba.az/?mod= show_press&id=609&lang=az, (01.03.2006).

– Kenan Dağcı, *Avrupa Birliği ve Kapitalizm*, TASAM Yayınları, İstanbul, 2005.

– "Kiçik sahibkarlığa dövlət köməyi haqqında" Azərbaycan Respublikasının Qanununa dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu, *Milli Məclis*, http://www.meclis.gov.az/ qanunlar/qanun_l1.php?id=441&idk=1, (01.03.2006).

– "QKDK sədri Gündüz Məmmədov: "Gələcəkdə çoxu əlverişli tədavül vasitəsinə çevriləcək ipoteka kağızlarından faydalanacaq"", *APA*, 1 mart 2006, http://www.apa.az/news.php?id=18642, (01.03.2006).

– "Life expectancy at birth", Azerbaijan, *The World Health Organization*, http://www.who.int/countries/aze/en/, (01.03.2006).

– "Life expectancy at birth", Japan, *The World Health Organization*, http://www.who.int/countries/jpn/en/, (01.03.2006).

– Lucian Cernat, "Institutions and Economic Growth: Which Model of Capitalism for Central and Eastern Europe?", http://www.sigov.si/ zmar/apublic/jiidt/jiidt02/4cernat.pdf. (01.03.2006).

– Ludwig Niethammer, "*Germany: workers respond angrily to deal at DaimlerChrysler*", WSWS, 12 avqust 2004, http://www.wsws.org/ articles/2004/aug2004/germ-a12.shtml.

– Mahfi Eğilmez və Ercan Kumcu, *Ekonomi Politikası*, Om Yayınevi, İstanbul, 2002.

- Mark Skousen, "Modern İktisadın İnşası", Tərcümə: Mustafa Acar və digərləri, Liberte Yayınları, Ankara, 2003.
- Mehmet Ali Ağaoğulları və Lenet Köker, *İmparatorluktan Tanrı Devletine*, İmge Kitabevi, Ankara, 2001.
- Mehmet Altan, *Darbelerin Ekonomisi*, İyi Adam Yayınları, İstanbul, 2001.
- Mehmet Altan, "Fransa kendini azletti...", *"Sabah"* qəzeti, 4 iyun 2005.
- Mehmet Altan, "Fransa'da manşet, Türkiye'de haber değil...", *"Sabah" qəzeti*, 5 iyun 2004.
- Mehmet Altan, *"Köylüler ne zaman manşet olur?"*, Zaman Kitap, İstanbul, 2001.
- Mehmet Altan, "Newton'dan, Quantum'a İktisatta Yeni Açılımlar", www.istanbulrotary.org. (01.03.2006).
- "Məşğulluq Haqqında" Azərbaycan Respublikasının Qanunu, Maddə 4.1., http://www.iqtisad.net/qanunlar/0027.pdf, (01.03.2006).
- Michel Albert, *Kapitalizme Karşı Kapitalizm*, Türkcəyə tərcümə: Cemil Oktay-Hüsnü Dilli, Afa Yayınevi, İstanbul, 1992.
- "Microsoft şirkəti Cənubi Qafqazda ilk ofisini Azərbaycanda açacaq", *APA*, 6 fevral 2006.
- Natiq Sabiroğlu, "Burjuaziya və Demokratiya", *IqtisadNet*, 21 may 2004, http://www.iqtisad.net/ns007.htm, (01.03.2006).
- Natiq Sabiroğlu, "Dünyada KOS-lara Yönəlik Təşviqlər", *IqtisadNet*, http://www.iqtisad.net/ns011.htm, 2 oktyabr 2004.
- Natiq Sabiroğlu, Kiçik və Orta Sahibkarlıq Nədir?, *IqtisadNet*, http://www.iqtisad.net/ns010.htm, 30 avqust 2004.
- Nihat Bulut, *Feodaliteden Küreselleşmeye Ekonomik İktidar Siyasal İktidar İlişkisi*, Seçkin Yayıncılık, Ankara, 2003.
- "Növbəti illərdə gözlənilən investisiya yatırımlarının həcmi", *IqtisadNet*, 3 dekabr 2005, http://www.iqtisad.net/xeberler/00053.htm, (01.03.2006).
- Okan Yeşilot, *Tagiyev*, Kaknüs Yayınları, İstanbul, 2004.
- "Oldest man in world dies", *The Post-Standard*, 20 noyabr 2004, www.syracuse.com/news/poststandard/ city/index.ssf?/base/news-18/1100949620216382.xml, (01/03/2006).

- “Oqtay Haqverdiyev: Azərbaycanda “Holland sindromu” yarana bilməz”, *“Ekspress” qəzeti*, 14 dekabr 2005.
- “Orta məktəblərdə təhsil müddəti 12 ilə qədər artırılacaq”, *“Şərq” qəzeti*, http://www.sherg.az/view.php?d=910, (01.03.2006).
- Osman Nuri Aras, *Azerbaycan Ekonomisi ve Yatırım İmkanları*, TUSİAB, Bakı, 2005.
- “Ölkədə 18 mindən çox vergi ödəyicisi var”, *“Ayna” qəzeti*, 8 mart 2006.
- “Ölkənin İnternet məkanı absurda səhnə olub”, *“Ekspress” qəzeti*, 9 dekabr 2005, http://www.express.com.az/second.asp?id=58724, (01.03.2006).
- Ömer Taşpınar, “Petrol ve Arap ekonomileri”, *“Forbes-Türkiye” jurnalı*, Oktyabr 2005.
- “Ötən il ölkənin ixracının 76%-dən çoxu neft və neft məhsullarının payına düşübdür”, *AssA-İradə*, 2 fevral 2006.
- “Pensiyalar 70 manata çatdırılacaq”, *“Xeber.Net”*, 28 yanvar 2006, http://www.xeber.net/view.php?d=52741, (01.03.2006).
- Ranking Methodology, Academic Ranking of World Universities 2005, http://ed.sjtu.edu.cn/rank/2005/ARWU2005Methodology.htm (01.03.2006).
- Ramiz Mehdiyev, “*2005-ci il parlament seçkiləri: İlkin təhlil*”, “Azərbaycan” qəzeti, 2 fevral 2006.
- Ramiz Mehdiyev, “*2005-ci il parlament seçkiləri: İlkin təhlil*”, “Azərbaycan” qəzeti, 29 yanvar 2006.
- “Remarks by the president at world economic forum”, http://canberra.usembassy.gov/hyper/2000/0131/epf101.htm, (01.03.2006).
- “Statement by the IMF Mission for the 2005 Article IV Consultation with the Republic of Azerbaijan”, *IMF*, 21 dekabr 2005, http://www.imf.org/external/np/sec/pr/2005/pr05287.htm, (01.03.2006).
- Stephen George və Ian Bache, *Politics in the European Union*, Oxford University Press, New York, 2001.
- “Suicide rates per 100 000 by country”, *The World Health Organization*, http://www.who.int/mental_health/prevention/suicide_rates/en/index.html, (01.03.2006).

- T.Güngör Uras, *Ekonomde Özal'lı Yıllar 1980-1990*, AFA Yayınları, İstanbul, 1993.
- Tayyar Sadıklar, *Kalkınma Yolunda Japonya Örneği ve Türkiye*, Ayyıldız Matbaası, Ankara, 1971.
- Tevfik Güran, *İktisat Tarihi*, Acar Matbaacılık, İstanbul, 1993.
- "Təhsil haqqında" qanun yenidən işlənir, *AzərTAc*, 26 yanvar 2006.
- "Təhsildə "Avropa standartları" deyilən anlayış yoxdur", *"Ayna" qəzeti*, 11 noyabr 2005.
- "The 2005 e-readiness rankings", *The Economist Intelligence Unit*, http://graphics.eiu.com/files/ad_pdfs/2005Ereadiness_Ranking_WP.pdf, (01/03/2006).
- The Bologna Process, "Towards the European Higher Education Area", http://www.bologna-bergen2005.no/EN/BASIC/Pros-descr.HTM, (01.03.2006).
- "The Universe: The new Axis of Evil", *The Independent*, 1 fevral 2006.
- Thomas A. Stewart, *Entellektüel Sermaye*, Türkcəyə tərcümə: Nurettin Elhüseyni, Kontent Kitap, İstanbul, 1997.
- Thomas S. Kuhn, *Asal Gerilim*, Türkcəyə tərcümə: Yakup Şahan, Kabalcı Yayınevi, İstanbul, 1994.
- Top 500 World Universities, Academic Ranking of World Universities 2005, http://ed.sjtu.edu.cn/rank/2005/ARWU2005FullList2.pdf, (01.03.2006).
- UNECE - United Nations Economic Commission for Europe, *Network of SME National Focal Points: Azerbaijan*, http://www.unece.org/indust/sme/azerb.htm.
- UNECE - United Nations Economic Commission for Europe, *Promotion of Entrepreneurship and SME Sector in The South-Caucasian Region*, www.unece.org/indust/sme/smeyent.pdf, 2003.
- UNECE - United Nations Economic Commission for Europe, *SMEs in Countries in Transition in 1997-1998*, OPA/AC.12/1, 30. April 1999, Geneva.
- "ÜDM-nin həcmi 2005-ci ildə 26,4% artıb", *APA*, http://apa.az/news.php?id=1527, (01.03.2006).

– Vural Fuat Savaş, *İktisadın Tarihi*, Liberal Düşünce Topluluğu, İstanbul, 1997.

– Y. Sezai Tezel, *İktisadi Büyüme*, Ankara Yayıncılık, Ankara, 1997.

– "Yaponiya yardımların həcmini artıracaq", *"Ayna" qəzeti*, 23 dekabr 2005.

– William D. Nordhaus, "Policy Rules in the New Economy", http://www.econ.yale.edu/~nordhaus/homepage/sbc%20cbo%20060500.PDF, (01.03.2006)

– World Investment Report 2004, *UNCTAD*, http://www.unctad.org/en/docs/ wir2004_en.pdf, (01.03.2006).

– World Investment Report 2005, *UNCTAD*, http://www.unctad.org/en/docs/wir2005_en.pdf, (01.03.2006).

– "World's oldest person dies", *NCTimes*, 31 oktyabr 2003, http://www.nctimes.com/articles/2003/11/01/backpage/10_31_0320_12_48.txt, (01/03/2006).

– "WWF: 2006 Kyoto'nun sınav yılı", *NTVMSNBC*, http://www.ntvmsnbc.com/news/361346.asp, 14 fevral 2006.

---

Çapa imzalanıb: 06.06.2006.
Formatı: 60x84 1/16. Həcmi: 14,5.

**"CBS", POLYGRAPHIC PRODUCTION**
Tel/Fax: 447 75 04, Tel.: 447 75 05
mətbəəsində çap olunub



**İlkin Sabiroğlu (Məcidov)**

1975-ci ilin iyununda Masallı rayonunun Mollaoba kəndində anadan olmuşdur. İbtidai və orta təhsilinə kənd məktəbində başlamış, Bakıda tamamlamışdır. 1999-cu ildə Ankarada Qazi Universiteti İqtisadi və İdarəetmə Fakültəsinin Menecment Bölməsindən məzun olmuşdur. Ankarada təhsil aldığı dövrdə "Soydaş" Elm Ocağının təsisçilərindən biri və İqtisadi Araşdırmalar Bölməsinin rəhbəri kimi, qurumun eyniadlı yayın orqanı olan "Soydaş: Politik, Ekonomik, Sosyal Dergi"nin redaksiya heyətinin üzvü olmuşdur. 2001-ci ildə Azərbaycan Dövlət İqtisad Universitetindən "Ümumi İqtisadiyyat" istiqamətinin "İqtisadi Nəzəriyyə" ixtisası üzrə magistr dərəcəsi (fərqlənmə diplomu ilə) almışdır. Dissertasiya işinin mövzusu "Azərbaycanda Valyuta Münasibətlərinin Dövlət Tənzimləməsi" olmuşdur. Hal-hazırda İstanbul Universitetinin "İqtisad" ixtisası üzrə doktorantıdır.

# KAPİTALİZM KAPİTALİZMƏ BƏNZƏMƏZ

Qasim

www.qasim-az.com